# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
## ƏLİYEV

# OTUZ İKİNCİ KİTAB

## AVQUST 2008 - SENTYABR 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 384 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın, Rumıniya prezidenti Trayan Beseskunun, Türkiyə prezidenti Abdullah Gülün və Özbəkistan prezidenti İslam Kərimovun ölkəmizə səfərləri, həmçinin Azərbaycan prezidenti İlham Əliyevin Moskvaya işgüzar səfəri zamanı həmin ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarından, ikitərəfli əlaqələrin inkişafı üçün bağlanan müqavilələrdən bəhs edilir.

Ölkə başçısının Xızı, Salyan, Cəlilabad, Zaqatala, Şəki, Qax, Balakən, Oğuz, Qəbələ bölgələrinə səfəri zamanı bu bölgələrin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxışları, nitqləri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə aid materiallar toplanmışdır.

Bu cilddə, həmçinin Azərbaycan prezidentinin ölkəmizə gəlmiş mədəniyyət xadimləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri də dərc olunmuşdur.

**İSBN 978-9952-8100-7-3**

$$Я \frac{\mathbf{0801000000}}{\mathbf{M - 651(07) - 2016}}$$

**ББК - 32**

© Azərnəşr, 2016

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*20 avqust 2008-ci il*

*Avqustun 20-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana işgüzar səfərə gəlmişdir.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə hökuməti başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Hörmətli qonağı Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və digər rəsmi şəxslər qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*20 avqust 2008-ci il*

*Avqustun 20-də Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Azərbaycan prezidenti Türkiyə hökumətinin başçısını səmimiyyətlə qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın, ikitərəfli münasibətlərin bütün sahələrdə daim inkişaf etdiyi bildirildi və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*20 avqust 2008-ci il*

*Avqustun 20-də Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz! Bizim görüşlərimiz mütəmadi xarakter daşıyır və hər dəfə görüşəndə həm ikitərəfli münasibətlər, həm də bölgədə gedən proseslər geniş müzakirə olunur. Bu onu göstərir ki, bizim əlaqələrimiz ən yüksək zirvədədir, bütün sahələrdə çox fəal əməkdaşlıq, işbirliyi aparılır.

Türkiyə və Azərbaycan tərəfindən irəli sürülən və icra edilən bütün təşəbbüslər uğurla nəticələnir. Biz bundan çox məmnunuq və əminəm ki, gələcək illərdə də Türkiyə–Azərbaycan birliyi, qardaşlığı daha da inkişaf edəcək, möhkəmlənəcək, həm ölkələrimiz, xalqlarımız üçün müsbət nəticələr gətirəcək, həm də bölgədə gedən proseslərə müsbət təsir göstərəcəkdir. Bölgədə sabitliyin, təhlükəsizliyin təmin olunması və bərpası gündəlikdə duran vacib məsələlərdəndir. Bu barədə biz bu gün danışdıq.

Əminəm ki, nümayəndə heyətlərinin üzvləri də bir-biri ilə təmasda olublar və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunubdur. Belə məsələlər kifayət qədər çoxdur – həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, təhlükəsizlik məsələləri. Yəni

gündəlik çox genişdir və biz bütün məsələləri səmimi şəkildə müzakirə edirik.

Bir daha xoş gəlmisiniz!

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Hörmətli Prezident!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Təbii ki, biz iki qardaş ölkə olaraq ötən altı illik müddətdə çox faydalı addımlar atdıq və atmağa da davam edəcəyik. Bu qərarlılığımız davam edir. Bütün sahələrdə – siyasi, hərbi, iqtisadi, ticari, mədəni, turizm – gözəl inkişaf vardır. Mühüm addımlar atılır. İstəyimiz bundan sonrakı müddətdə bunu daha anlamlı şəkildə, xüsusilə bölgəyə sanbal gətirəcək şəkildə qurmaq və inkişaf etdirməkdir. Bu sahədə Türkiyə ilə Azərbaycanın üzərinə mühüm vəzifələr düşür.

Sizinlə bərabər müzakirə etdiyimiz kimi, həqiqətən Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasına ciddi önəm veririk. Bu sahədəki yekdilliyimiz bizdə xüsusi məmnunluq doğurur. İnanıram ki, inşallah, həll edilməmiş bir çox problemləri də birlikdə çözmək imkanımız olacaqdır. Bu həmrəyliyimiz nəticəsini verəcəkdir. Biz bölgəmizin xaricindən ümid gözləyirik, amma hələlik bunun faydası yoxdur. Demək ki, bu bölgənin problemlərini özümüz həll edəcəyik. Ona görə də atacağımız addımların çox faydalı olacağına inanıram.

## DÖVLƏT RƏHBƏRLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*20 avqust 2008-ci il*

*Avqustun 20-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mətbuat üçün birgə bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!
İlk növbədə, hörmətli Baş nazir, əziz qardaşım, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz!

Bu gün biz Türkiyə–Azərbaycan münasibətlərinin bütün aspektlərini geniş müzakirə etdik. Bildiyiniz kimi, bizim aramızda əlaqələr çox sürətlə inkişaf edir və deyə bilərəm ki, bu gün bu əlaqələr ən yüksək zirvədədir. Bütün sahələrdə – həm siyasi, iqtisadi, həm mədəni sahələrdə Türkiyə–Azərbaycan əməkdaşlığı, işbirliyi güclənir və həm ölkələrimiz, xalqlarımız üçün, həm də yaşadığımız bölgə üçün çox müsbət nəticələr gətirir.

Biz çalışacağıq ki, gələcəkdə də bütün başlanan layihələr icra olunsun və bizim tərəfimizdən irəli sürülən birgə təşəbbüslər tezliklə həyata keçirilsin. Bildiyiniz kimi, bizim aramızda çoxlu sayda iqtisadi, nəqliyyat, enerji layihələri var və bütün bu

layihələr həm ölkələrimizi gücləndirir, həm də bölgəyə əməkdaşlıq, sabitlik gətirir. Türkiyə–Azərbaycan əməkdaşlığı amili bölgədə sabitliyin, əmin-amanlığın, sülhün bərqərar olunması üçün çox mühüm rol oynayır.

Bütövlükdə, müstəqillik dövrü ərzində Azərbaycan Türkiyə ilə münasibətlərdə ən səmimi addımlarla öz niyyətini ifadə etmişdir və Türkiyə tərəfindən də biz daim dəstək, qardaşlıq, dostluq görmüşük. Bu gün bu münasibətlər bizə imkan verir ki, əməkdaşlığımızın bütün formatlarını daha da genişləndirək. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars kimi nəhəng layihələr onu göstərir, bizim iradəmiz ona gətirib çıxarır ki, hətta bəzilərinin inanmadıqları layihələr bizim təşəbbüsümüzlə, təkidimizlə uğurla icra edilir.

Enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi məsələləri bu gün diqqət mərkəzindədir və danışıqlarımızın mövzusu idi. Başqa məsələlərlə də bağlı fikir mübadiləsi aparılmışdır.

Əlbəttə, bölgədə gedən proseslər bizi çox narahat edir. Gürcüstanda yaşanan olaylar müzakirə edildi.

Biz çox istəyirik ki, tezliklə Gürcüstanda həyat normal məcraya düşsün, sabitlik bərqərar olunsun və qarşıdurmaya son qoyulsun.

Bildiyiniz kimi, Rusiya və Gürcüstan Azərbaycanın qonşularıdır. Hər iki ölkə ilə bizim sərhədimiz var. Hər iki ölkə ilə bizim dostluq münasibətlərimiz var və biz çox istəyirik ki, dostlarımız da öz aralarında dost olsunlar. Bu baxımdan, əminəm ki, Türkiyə–Azərbaycan münasibətlərinin və təşəbbüslərinin mövcudluğu gələcəkdə bölgədə əməkdaşlığın, sülhün möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Biz istəyirik ki, bütün başlanan layihələr bölgəyə əlavə əməkdaşlıq əhval-ruhiyyəsi gətirsin və bizim tərəfimizdən atılmış bütün addımlar, irəli sürülmüş bütün planlar məhz o məqsədi daşıyır: həm bizim ölkələrimizin, xalqlarımızın mənafeyi və rifah halının yaxşılaşması, həm də sabitliyin, təhlükəsizliyin təmin olunması. Son günlərdə yaşanan hadisələr onu göstərir ki, bölgə nə dərəcədə sabitliyə həssasdır. Biz birgə

səylərlə, geniş formatda öz addımlarımızla bölgədə vəziyyətin sabitləşməsinə çalışmalıyıq və bunu edirik. Mövcud olan bütün layihələrin uğurla icra olunması bölgənin sabitliyi üçün başlıca şərtdir.

Gürcüstanda yaşanan hadisələr nəticəsində, əlbəttə, hər bir ölkənin iqtisadi maraqları da zərbə altına düşür. Son məlumata görə, Azərbaycanın ixrac potensialına müəyyən dərəcədə zərbə dəymişdir. Bizim nəqliyyat imkanlarımız məhdudlaşdırılıbdır. Bildiyiniz kimi, Gürcüstanda körpünün partlaması nəticəsində Azərbaycanın ixracının həcmi böyük dərəcədə azalıbdır. Əlbəttə, istəyirik ki, bizim qonşuluğumuzda vəziyyət sabitləşsin və məsələ sülh yolu ilə öz həllini tapsın.

Şübhəsiz ki, bütün beynəlxalq hüquq normaları da öz yerini tapmalıdır. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü tanıyır və biz hesab edirik ki, danışıqlar yolu ilə, sülh yolu ilə və beynəlxalq hüquq əsasında bütün münaqişələr öz həllini tapa bilər.

Əlbəttə ki, bu gün biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün atılmış addımları da müzakirə etmişik. Həmişə olduğu kimi, Türkiyənin mövqeyi bu gün də səsləndi. Türkiyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Azərbaycanın haqlı olduğunu bildirir. Bütün başqa münaqişələrlə birlikdə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir.

Biz bu gün başqa məsələləri də geniş şəkildə müzakirə etdik. Gündəliyimiz çox böyükdür, gündəliyimizdə çoxlu məsələlər dayanır. Bizim artan siyasi və iqtisadi potensialımız, gücümüz, əlbəttə ki, bölgədə mövqelərimizi möhkəmləndirir. Türkiyə və Azərbaycanın mövqeləri nə qədər möhkəm olsa, bölgədə sabitlik də bir o qədər möhkəm olacaqdır.

Mən bir daha əziz dostumu, qardaşımı, hörmətli Baş naziri Azərbaycanda salamlayıram, bütün qonaqları salamlayıram, bütün türk xalqına xoşbəxtlik, cansağlığı arzulayıram.

Sağ olun.

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli Prezident!

Dəyərli mətbuat nümayəndələri!

Hörmətli qardaşım İlham Əliyevlə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşlərdə Gürcüstanda yaşanan və Cənubi Qafqazın sülh və sabitliyinə ciddi bir təhdid kimi dəyərləndirilən hadisələri hərtərəfli müzakirə etdik. Bundan başqa, ikitərəfli əlaqələrimizin gündəliyində yer alan siyasi və iqtisadi məsələləri təfsilatı ilə danışmaq fürsətimiz oldu.

Bildiyiniz kimi, son dövrdə Türkiyə, Azərbaycan və Gürcüstan birlikdə tarixi əhəmiyyət daşıyan layihələri həyata keçirdilər. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələri 100 ilin, XXI əsrin ən böyük layihələrindəndir. Bu layihələr bölgənin sabitliyi, bölgə xalqlarının rifahı üçün çox böyük önəm daşıyır. Yaşadığımız bölgə üçün sülh və sabitliyin rahatlığımız, rifahımız üçün həyati əhəmiyyəti vardır. Son hadisələr sülhə, sabitliyə və rifaha təsir edəcək, hətta bunu təhdid edəcək vəziyyət yaratmışdır və bu, narahatlıq doğurur. Cənubi Qafqazda sülh, sabitlik, rifah və əməkdaşlığın yaranması barədə hörmətli İlham Əliyevlə eyni fikirdə olduğumuzu gördüm.

Görüşlərimizdə Dağlıq Qarabağ münaqişəsini də müzakirə etmək imkanı oldu. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq həll edilməsinin vacibliyini bir daha vurğuladıq. Biz Türkiyə olaraq, bu münaqişənin sülh yolu ilə həllini arzu edirik. Bu istiqamətdə bütün səyləri, fəaliyyəti dəstəkləyirik.

Ancaq 16 ildir ki, Minsk qrupunun hələ də bir nəticə əldə edə bilməməsi, həqiqətən bizi düşündürür.

Təsdiqləyərsiniz ki, bölgədəki son hadisələr Cənubi Qafqazın təhlükəsizliyə nə qədər həssas olduğunu bir daha ortaya qoymuşdur. Bu qarşıdurmadan nəticə çıxararaq əsas diqqətimizi və enerjimizi bölgə xalqları arasındakı düşmənçiliyin aradan qaldırılmasına yönəltməliyik. Keçən həftə Moskvaya və Tbilisiyə səfərim zamanı Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının yaradılması təklifini irəli sürdüm. Qafqazda sülhün, təhlükəsizliyin və sabitliyin tam bərqərar olması baxımından bu platformanın gerçəkləşdirilməsinin vacibliyini düşünürük. Azərbaycanın da qoşulmasını xüsusilə istədiyimiz bu təklifin əsas prinsipləri bunlardır:

İlk növbədə, bu platforma coğrafi əsasda olmalıdır. Platforma bölgənin sülh və təhlükəsizliyini hədəfləməli, iqtisadi işbirliyini və enerji təhlükəsizliyini təmin etməlidir. Bu platforma ATƏT-in prinsiplərinə əsaslanmalı və istənilən problemin birgə həllini və idarəetmə mexanizmini əhatə etməlidir. Platforma bölgədə sabitlik və əməkdaşlığı daha da gücləndirəcəkdir. Hər hansı bir problem, sıxıntı yaşandıqda isə bu platformanı qəbul edən ölkələr bunları əsas prinsiplər və mexanizmlərlə həll etməlidir.

Türkiyə, Azərbaycan və Gürcüstan arasında önəmli əməkdaşlıq mövcuddur. İnanıram ki, bunun həmin platforma çərçivəsində daha da inkişaf etdirilməsi gerçəkləşəcəkdir. Rusiya və Gürcüstan tərəflərinin bu təklifə müsbət yanaşdığını məmnuniyyətlə müşahidə etdik. Bu gün həmin mövzunu əziz qardaşım, hörmətli İlham Əliyev ilə ətraflı şəkildə müzakirə etdik. Azərbaycanın da bu təklifə müsbət yanaşması bizi sevindirmişdir.

Xarici İşlər Nazirliyimiz bu məsələ ilə bağlı fəaliyyətə başlamışdır və maraqlı ölkələrin Xarici işlər nazirləri ilə birgə müzakirə aparıb bunu reallaşdırmaq mümkündür. Qafqaz bölgəsini sülh, sabitlik və rifah mərkəzinə çevirmək istiqa-

mətində Azərbaycan və Gürcüstan ilə birlikdə atdığımız addımların davam edəcəyinə inanıram.

İnanıram ki, siyasi əlaqələrimizlə bərabər, əhəmiyyətli dərəcədə inkişaf müşahidə olunan iqtisadi və ticari əlaqələrimiz daha da genişlənəcəkdir. Son ildə ticarət dövriyyəmizin həcmi 1,5 milyard dollara çatmışdır və bunun daha da artacağı aydındır. Bu sahədə hər iki tərəfin mövqeyi müsbətdir.

Bugünkü görüşlərimizdə ikitərəfli əlaqələrimizin hər sahədə daha da inkişaf etdirilməsi barədə əziz qardaşım, hörmətli İlham Əliyevlə yekdil fikrə gəldik. Bu səfərimizin bölgədə uzunmüddətli sülh və sabitlik şəraitinin yaranmasına kömək edəcəyinə inanır, sizə təşəkkür edirəm.

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiyanın milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm. Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün özbək xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Özbəkistan arasında mehriban dostluq və əməkdaşlıq ənənələrinin möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərimizin hərtərəfli inkişafı bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcək, regionda sabitliyə və tərəqqiyə kömək edəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Özbəkistan xalqına sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

## LİVİYA İNQİLABININ RƏHBƏRİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

Zati-aliləri!

Ölkənizin milli bayramı – Böyük inqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Liviya dostluğunun daha da möhkəmlənməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İspaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA**

Hörmətli cənab Sədr!

Madrid hava limanında təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Qətər münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimiz arasındakı əlaqələrin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində, əməkdaşlığımızın daha da inkişafı və dərinləşməsi naminə bundan sonra da qarşılıqlı səylərimizi ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qətər xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

## SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ XANIM ROZA ZAFFERANİYƏ VƏ CƏNAB FEDERİKO PEDİNİ AMATİYƏ

Zati-aliləri!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə San-Marino arasındakı münasibətlər dostluq və əməkdaşlıq ruhunda inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2008-ci il*

## RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*Prezident sarayı*

*21 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun təkbətək işçi səhər yeməyi olmuşdur.*

*Söhbət zamanı bildirildi ki, Azərbaycanla Rumıniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir və əlaqələrin möhkəmlənməsi regional əməkdaşlığın genişlənməsinə xidmət edir. Qarşılıqlı münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

*Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.*

## AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*21 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Sizin səfəriniz bizə imkan verdi ki, ikitərəfli münasibətləri və bölgədə gedən prosesləri geniş şəkildə müzakirə edək. Rumıniya ilə Azərbaycan arasında mövcud olan yaxın və dostluq əlaqələrini nəzərə alaraq, təbii ki, biz çox səmimi fikir mübadiləsi aparmışıq. İkitərəfli münasibətlərimiz çox sürətlə inkişaf edir və yüksək səviyyəli qarşılıqlı səfərlər bunun əyani sübutudur. Gündəliyimiz çox genişdir, buna həm siyasi, iqtisadi, mədəni, həm də enerji sahəsindəki əməkdaşlıq daxildir və biz yaxın tərəfdaşlar kimi, bütün istiqamətlərdə fəaliyyət göstəririk.

Əlbəttə ki, bütün birgə layihələrimizi xüsusilə enerji sahəsində uğurla davam etdirmək və başa çatdırmaq üçün bölgədə sabitlik olmalıdır. Bölgədə yaşanan gərginlik bizi çox narahat edir. Bu baxımdan Sizin səfəriniz həm ikitərəfli münasibətlərin gələcək inkişafı üçün, həm də bu bölgədə gə-

ləcəkdə əməkdaşlığın, təhlükəsizliyin möhkəmlənməsi üçün çox önəmlidir.

Bir daha xoş gəlmisiniz!

**T r a y a n  B e s e s k u:** Cənab Prezident, çox sağ olun. Olduqca çox mühüm bir vaxt çərçivəsində məni qəbul etdiyinizə görə, ölkənizə işgüzar səfərə gəldiyimə görə Sizə minnətdaram.

Cənab Prezident, mənim Bakıya gəlməyim, Sizinlə görüşmək istəyim məhz onunla bağlıdır ki, Azərbaycan bu regionda mühüm əhəmiyyətə malikdir. Azərbaycanın bu əhəmiyyəti regional proseslərdə tutduğu çox düzgün mövqeyindən irəli gəlir. Bu həmçinin onunla bağlıdır ki, Azərbaycan bu gün bütün Avropa İttifaqının, o cümlədən Rumıniyanın enerji siyasətində vacib rol oynayır. Əminəm ki, bu meyarları, eyni zamanda, ikitərəfli münasibətlərimizin olduqca yüksək səviyyədə olmasını nəzərə alaraq, biz belə vacib məsələlərlə bağlı bu görüşümüzü mütləq keçirməli idik.

Cənab Prezident, bu gün səhər Sizinlə apardığımız danışıqlar bir daha onu göstərdi ki, biz bir çox mühüm məsələlər üzrə – təhlükəsizlik və enerji sahəsində eyni, oxşar mövqeyə malikik. Bu da, yəni bizim fikirlərimizin üst-üstə düşməsi hər iki ölkənin bu sahədəki rolunu gücləndirir.

# AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*21 avqust 2008-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku mətbuat üçün birgə bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Cənab Prezident, mən ilk növbədə Sizi və nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən bilirəm ki, Siz bu günlərdə çox gərgin fəaliyyətdəsiniz, bu bölgəyə səfər edirsiniz. Əlbəttə ki, Rumıniya kimi ölkənin dövlət başçısının bölgədə yaşanan böhranlı vəziyyətlə bağlı atdığı addımlar çox müsbət qiymətləndirilir.

Biz bu gün ikitərəfli münasibətləri geniş şəkildə müzakirə etdik və bir daha məmnunluq ifadə etdik ki, Rumıniya–Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir, bu əlaqələr - dostluq zəminində qurulubdur. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur və o vaxtdan bu günə qədər bütün sahələrdə əməkdaşlıq inkişaf etmişdir.

Bizim qarşılıqlı səfərlərimiz, müxtəlif dövlət və hökumət üzvlərinin səfərləri, artan iqtisadi imkanlar, enerji sahəsində apardığımız danışıqlar və nəzərdə tutulmuş praktik addımlar,

əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirir. Siyasi münasibətlər çox yüksək səviyyədədir. Biz bunu həmişə qeyd etmişik. Mən bu gün də qeyd etmək istəyirəm ki, Rumıniyanın bütün prinsipial mövqeyi, xüsusilə bölgədə mövcud olan münaqişələrlə bağlı prinsipial mövqeyi bizdə, Azərbaycanda çox yüksək qiymətləndirilir.

Beləliklə, çox möhkəm zəmində, siyasi əlaqələrin möhkəm olduğu halda, əlbəttə ki, birgə layihələrin icra olunması da asanlaşır. Biz indi enerji sahəsində əməkdaşlığın yeni mərhələsindəyik. Bildiyiniz kimi, Rumıniya ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq davam edir və biz yeni layihələr haqqında fikirləşirik. Xəzər dənizi–Qara dəniz əməkdaşlığının möhkəmləndirilməsi işində birgə səylərimizi davam etdiririk. Rumıniya–Azərbaycan əməkdaşlığı Xəzər dənizi–Qara dəniz əməkdaşlıq məsələlərinə çox böyük töhfədir. Deyə bilərəm ki, bir çox hallarda həlledici məsələdir.

Enerji təhlükəsizliyi məsələləri son illər ərzində gündəlikdə idi. İndi bu məsələlər daha da ciddiləşir. Həm enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələsi daha da ciddiləşir, həm də enerji infrastrukturunun təhlükəsizliyinin təmin olunması məsələləri ön plana çıxır. Azərbaycan öz tərəfindən üzərinə düşən öhdəliklərini yerinə yetirir. Bizim enerji siyasətimiz bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın və dostluğun möhkəmlənməsinə yönəldilibdir. Bu uğurlu enerji siyasəti həm ölkə iqtisadiyyatı üçün çox böyük dəstəkdir, həm də bizim xarici əlaqələrimizin inkişafında mühüm rol oynayır. Biz bütün enerji təşəbbüslərimizin uğurla davam etdirilməsi üçün gələcəkdə də əlimizdən gələni edəcəyik və Azərbaycanın iqtisadi maraqlarını təmin etməklə, Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün səylərimizi davam etdirəcəyik.

Bütün bu başlanmış layihələri uğurla davam etdirmək və yeni layihələri başlamaq üçün bölgədə sabitlik olmalıdır. Bölgədə sabitliyin mövcudluğu başlıca şərtdir. Əlbəttə ki, son günlər ərzində Gürcüstanda yaşanan olaylar bizi çox narahat

edir. Biz istəyirik ki, tezliklə vəziyyət sabitləşsin, normal vəziyyət, sabitlik bərpa olunsun və münaqişəyə qədərki vəziyyət bərpa edilsin.

Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir. Biz hesab edirik ki, münaqişələr – Cənubi Qafqazda və Moldovada mövcud olan münaqişələr yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Mən bu barədə bir dəfə demişəm və bir daha demək istəyirəm ki, bu münaqişə bizi narahat edir. Çünki biz bu bölgədə yerləşirik. Həm Rusiya, həm də Gürcüstan bizim qonşularımızdır. Hər iki qonşu ilə Azərbaycanın tarixi münasibətləri vardır. İndiki zamanda bizim münasibətlərimiz çox müsbətdir, çox yaxındır. Hər iki ölkə ilə Azərbaycan dostluq və strateji tərəfdaşlıq haqqında sazişlər imzalayıbdır. Hər iki ölkə ilə enerji sahəsində əməkdaşlığımız var. Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Novorossiysk kəmərləri enerji daşıyıcılarının Gürcüstan, Rusiya və Türkiyə ərazisi ilə dünya bazarlarına çıxarılması üçün tikilib və bu gün uğurla fəaliyyət göstərir. Hər iki ölkə ilə ticarət əlaqələrimiz möhkəmlənir, ticarət dövriyyəsi ildən-ilə artır. Həm Gürcüstanda, həm də Rusiyada çoxlu azərbaycanlı yaşayır və əlbəttə ki, onların normal, təhlükəsiz yaşaması, həyatı bizi biganə qoya bilməz.

Bütün bunlar bir daha onu göstərir ki, bu münaqişənin tezliklə başa çatmasında biz çox maraqlıyıq. İstəyirik ki, bizim üçün dost olan ölkələr bir-biri ilə də normal münasibətlərini saxlasınlar, pozulmuş münasibətlər bərpa olunsun. Əminəm ki, bölgədə yaşayan bütün xalqlar öz tarixi məsuliyyətini dərk edərək, Cənubi Qafqazda və bütövlükdə Qafqaz bölgəsində təhlükəsizliyin möhkəmlənməsi üçün öz səylərini göstərməlidir.

Bu istiqamətdə Rumıniyanın bu vaxta qədər verdiyi bəyanatlar və atdığı addımlar çox müsbətdir. Sizin bölgəyə səfəriniz də onu göstərir ki, Siz də bu məsələyə çox ciddi yanaşırsınız və biz bunu çox yüksək qiymətləndiririk.

Mən yalnız ona təəssüf edirəm ki, Sizin səfəriniz çox qısamüddətli olmuşdur. Amma bu da təbiidir, çünki Siz bir-iki gün ərzində bir neçə ölkəyə səfər edirsiniz. Əminəm ki, növbəti səfərlər də uğurlu olacaqdır.

Sizə və bütün Rumıniya xalqına yeni-yeni uğurlar arzulayıram.

Sağ olun.

**Rumıniya prezidenti Trayan Beseskunun bəyanatı**

Cənab Prezident, çox sağ olun!

İlk növbədə, mənim xahişimə cavab verdiyinizə, çox qısa müddət ərzində bu görüşü təşkil etdiyinizə görə minnətdaram. Mənim bu görüşüm regiondakı vəziyyətlə bağlı idi. Bizim danışıqlarımız zamanı iki element əsas götürüldü. Cənab prezident Əliyev, həm Siz, həm də mən həmin o məsələləri olduqca vacib hesab edirik.

Birincisi, enerji məsələsi ilə bağlı olan danışıqlar idi. Regiondakı enerji təhlükəsizliyi nəzərdən keçirildi və gəldiyimiz nəticə odur ki, Gürcüstanda baş verənlərdə kimin məsuliyyətli olduğunu nəzərə alıb, bundan sonra düzgün, müdrik addımlar ataq. Biz çox ehtiyatlı olmalıyıq. Regiondakı dövlət başçılarının müdrikliyindən istifadə edərək regionda sabitliyi təmin etməliyik. Biz sabitliyi və təhlükəsizliyi gücləndirməliyik, saxlamalıyıq. Hesab edirik ki, bu sahədə məsuliyyət regiondakı bütün ölkə başçılarının üzərinə düşür. Böyük və ya kiçik, yaxud təsir göstərən ölkə olmasına baxmayaraq, hesab edirik ki, regiondakı bütün ölkələr, o cümlədən Qara dəniz regionundakı və digər regionlarda olan ölkələr müdrik qərarlar vasitəsilə bu regionun təhlükəsizliyinə yardım göstərməlidirlər.

Biz bu gün Gürcüstanda nələrin baş verdiyini görürük. Biz istəyirik ki, çox qısa müddət ərzində bu hadisələr sona çatsın, Gürcüstanın və Rusiyanın silahlı qüvvələri münaqişədən əvvəl tutduğu mövqelərə qayıtsın. Hesab edirik ki, onlar atəşkəs

sazişinin müddəalarına tam riayət etməlidirlər. Bildiyiniz kimi, bu saziş prezidentlər – Medvedev, Saakaşvili və Sarkozi tərəfindən hazırlanmış və imzalanmış sazişdir. Biz bu istiqamətdə addımları atmalıyıq. Ümid edirik ki, bu regionda istənilən nəticə əldə olunacaq, Rusiya prezidenti cənab Medvedev, Gürcüstan prezidenti cənab Saakaşvili və Fransa prezidenti cənab Sarkozi tərəfindən imzalanmış saziş tam yerinə yetiriləcəkdir.

Əlbəttə, orada baş verən hadisələr böyük suallar doğurmuşdur. Suallar onunla bağlıdır ki, regionda bundan sonra elə bir siyasət aparılmalıdır ki, bura Avropa İttifaqı üçün alternativ enerji mənbəyi olsun. Bu baxımdan, Azərbaycanla bizim mövqelərimiz üst-üstə düşür. Bu gün səhər apardığımız danışıqlar belə nəticəyə gəlməyə əsas verdi ki, enerji layihələri ilə bağlı ilkin zəruri şərtlər mövcuddur. Region ölkələrinin, Avropa İttifaqının mövqeyi nəzərə alınmaqla, bütün enerji layihələri davam etdirilməlidir. Neft və qaz nəqli infrastrukturunun inkişaf etdirilməsi vacib elementlərdən biridir. Bu elementlər gələn illər ərzində həm region dövlətlərinin, həm də Avropa ölkələrinin inkişafı deməkdir.

Rumıniya Nabukko kimi yeni layihələrin həyata keçirilməsinə tərəfdardır. Biz hesab edirik ki, Gürcüstan bundan sonra da bizim ən yaxşı tərəfdaşlarımızdan biri kimi qalacaqdır. Biz bu hisslərlə Avropa İttifaqındakı dostlarımızla birgə öz dəstəyimizi davam etdirəcəyik ki, bu elementlər enerji siyasətimizdə prioritet olsun.

Mən bizim qarşılıqlı münasibətlərimizə, maraqlarımıza, regiondakı vəziyyətə toxunmaq istərdim. Bizim yanaşmamızda fərqlər yoxdur. Cənab prezident Əliyevin və mənim fikrimcə, mövqelərimiz tamamilə oxşardır. Biz mübahisənin, anlaşılmazlığın tərəfdarı deyilik. Ona görə həm Azərbaycan, həm də Rumıniya hesab edir və inanır ki, bu regionda təhlükəsizlik elə bir bünövrə, elə vacib bir əsasdır ki, onun üzərində növbəti addımlar atılmalıdır. Həm Rumıniya, həm də Azərbaycan hesab edir ki, «dondurulmuş» münaqişələr olan ölkələrdə, ərazilərdə sabitliyə olan təhdidlər böyükdür. Bu

məsələlərin düzgün həll olunmasının və «dondurulmuş» münaqişələrdən irəli gələn təhlükənin aradan qaldırılmasının yeganə yolu həmin dövlətlərin tam mənada ərazi bütövlüyünə riayət edilməsi, buna hörmətlə yanaşılmasıdır.

Rumıniya azlıqların kollektiv hüquqlarını tanıyır. Hesab edirik ki, ölkələrin suverenliyi və ərazi bütövlüyü pozulmamalıdır. Bu baxımdan Dağlıq Qarabağdakı vəziyyətə gəldikdə, Rumıniya hesab edir ki, düzgün həll yolu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, ona hörmətlə yanaşılmasıdır. Ərazi bütövlüyü tam təmin olunmalıdır və Azərbaycanın hakimiyyət orqanları ölkənin bütün ərazilərinə nəzarət etməlidir.

Kosovo məsələsinə gəldikdə, demək istəyirəm ki, Rumıniya Kosovonun müstəqilliyini heç vaxt tanımamışdır. Biz eyni sözləri Dnestryanı bölgə barədə də deyə bilərik. Moldova tərəfi bundan xəbərdardır.

Gürcüstana gəldikdə isə biz hesab edirik ki, mərkəzi hakimiyyət orqanları bütün Abxaziyada, eyni zamanda, Cənubi Osetiyada öz nəzarətini tam təmin etmək hüququna malikdir. Dediyim bütün sözlər bizim nəzərdən keçirdiyimiz əsas meyarlardır və biz bunu açıqlaya bilərik.

Çox sağ olun!

# BAKI–QUBA–RUSİYA DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI

*22 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun 16–134-cü kilometrinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun yenidən qurulmasına bu ilin mayında başlanılmışdır. «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə görülən inşaat işlərini «Akkord» şirkətlər qrupu həyata keçirir. Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyə dəstəyi ilə reallaşan bu layihə çərçivəsində yolun 16–134-cü kilometrinə beton örtük döşənmişdir. Bu işlərə 7 min işçi qüvvəsi və 3 minə yaxın texnika cəlb olunmuşdur. İşlərin sürətlə aparılması üçün yol hissələrə (16–44-cü, 45–89-cu və 90–134-cü kilometrlər) bölünmüşdür.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, beynəlxalq əhəmiyyətli bu yolda yük maşınlarının hərəkətinin intensivliyi nəzərə alınmaqla, qalın beton örtüyün döşənməsi yolun davamlılığını artırır. Beton örtüyün qalınlığı 28 santimetrdir. Magistral boyu 21 körpü və yolötürücüsü, 10 qovşaq, 15 malqara keçidi, 112 boru keçidi, 5 xidmət məntəqəsi olacaqdır. Yenidənqurma işləri üç növbədə gedir.*

*Dövlətimizin başçısı Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun 16–134-cü kilometrinin açılışını bildirən qırmızı lenti kəsdi.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl yolun açılışı münasibətilə sizin hamınızı təbrik edirəm! Yaxşı işləmisiniz, çox böyük işlər görmüsünüz. Heç vaxt Bakı–Sumqayıt yolu bu qədər rahat, gözəl olmamışdır. Həm yol genişləndirilib, həm də ki,

müasir dünya səviyyəsində tikilibdir. Beton yollar indi Avropanın ancaq ən inkişaf etmiş şəhərlərində tikilir. Amma biz nəinki aeroportdan şəhərə gələn yolu beton örtüyü ilə tikmişik. Bakı–Sumqayıt və Bakı–Rusiya sərhədinə qədər yolu da belə tikirik. Bu, insanlara rahatlıq verəcək, bu yolun əsas məqsədi də odur. Bu, təzə yol deyil, Azərbaycanı Rusiya ilə birləşdirən yol həmişə olmuşdur. «Akkord» şirkəti artıq bu işlərdə çox böyük təcrübə toplayıb, çox böyük işlər görür. Azərbaycanda bu sahədə aparıcı şirkətə çevrilmişdir və bildiyimə görə, başqa ölkələrdə də iş görür. Bizim Azərbaycan şirkətləri gərək möhkəmlənsin, güclənsin. Əvvəllər, xüsusilə böyük miqyaslı işləri ancaq xarici şirkətlər görürdü. Bizim imkanlarımız yox idi. Ancaq indi bu imkanlar var. İmkanların səbəbi, ilk növbədə, Azərbaycanda gözəl biznes şəraitinin yaradılmasıdır, digər tərəfdən, dövlət tərəfindən icra edilən layihələrin olmasıdır. Çünki bütün bu layihələr dövlət tərəfindən maliyyələşdirilir və dövlət də maraqlıdır ki, bu vəsait yerli şirkətlərə getsin, Azərbaycan vətəndaşları bundan faydalansın. Azərbaycan şirkətləri bundan həm təcrübə toplasınlar, həm də ki, öz maddi imkanlarını genişləndirsinlər. Əgər dövlət investisiya proqramları olmasaydı, bu yolların heç biri tikilməz və bizim şirkətlər də bu işlərdə iştirak etməzdi. Əvvəllər xaricdən alınan müəyyən miqdarda kreditlərin hesabına icra edilən layihələrlə bağlı işləri daha çox xarici şirkətlər görürdü. Çünki kredit verən xarici tərəf maraqlıdır ki, işləri onun öz şirkətləri görsün. İş görülürdü, amma pullar xaricə gedirdi. İndi isə həm iş görülür, həm də pul Azərbaycanda qalır. Həm Azərbaycan vətəndaşları işlə təmin olunur, yüksək maaş alırlar, həm də ki, keyfiyyət yüksəlir. Azərbaycanın müasir reallıqları bunlardır və bütün istiqamətlərdə bu işlər görülür. Bakını təkcə Rusiya ilə yox, Gürcüstanla, İranla birləşdirən yollar, şəhərlərarası yollar tikilir. Şamaxı yolu tikilir, ondan sonra Qəbələ–Şəki–Balakən yolu tikiləcək. İndi dünyanın ən məşhur, inkişaf etmiş ölkələrində də şəhərlərarası yollar işıqlandırılmır. Elədir? Şəhərlərarası yollarda ancaq çox az sayda işıq dirəkləri

qoyulur. Amma biz Bakı–Sumqayıt yolunu tam işıqlandıracağıq. Bu da insanların rahatlığı üçün, təhlükəsizliyi üçün edilir. Siz də yaxşı işləyirsiniz, çoxlu sayda layihələr icra edirsiniz. Bunu çox gözəl, yüksək səviyyədə və peşəkarlıqla edirsiniz. Mən sizi həm təbrik edirəm, həm də sizə təşəkkürümü bildirirəm.

Bu işlərə rəhbərlik edən Nəqliyyat Nazirliyinin fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Bir müddət əvvəl Nəqliyyat Nazirliyi tərəfindən gələcəkdə Azərbaycanda bütün yol infrastrukturunun yeniləşdirilməsi, müasirləşdirilməsi ilə bağlı geniş müşavirə, təqdimat mərasimi keçirilmişdir. Həm bu il üçün, həm də gələn il üçün bütün layihələr təsdiq olunmuş, maliyyə resursları da müəyyən edilmişdir. Yəni Azərbaycanda bu işlər davamlı şəkildə, biz bütün yol infrastrukturumuzu dünyanın ən yüksək səviyyəsinə qaldırana qədər aparılacaqdır. Bu vaxt da uzaqda deyil.

Bir daha sizi təbrik edirəm.

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, icazə verin, biz də nəqliyyatçılar adından, bu gözəl şirkətdə fəaliyyət göstərən insanlar adından Sizə dərin minnətdarlığımızı bildirək. Heç şübhə yoxdur ki, bütün bu işlər Sizin təşəbbüsünüzlə, rəhbərliyinizlə, diqqət və qayğınızla həyata keçirilir. Azərbaycanda ilk beton yolun tikilməsinin təşəbbüskarı da, buna rəhbərlik edən də Sizsiniz. Biz də Sizin tapşırığınıza uyğun olaraq, bu işlərin icrası ilə məşğuluq. Siz bütövlükdə Azərbaycan iqtisadiyyatına çox böyük töhfələr verməklə yanaşı, yol infrastrukturuna da yeni həyat, yeni nəfəs, yeni mədəniyyət gətirdiniz. Əslində, ulu öndərimizin dediyi kimi, «Yol iqtisadiyyatdır, mədəniyyətdir, bir sözlə, həyatdır». Həqiqətən də, Siz bunu reallaşdırdınız. Bu gün gördüyümüz bu mənzərə, açılışını etdiyiniz bu yol, həqiqətən də, Sizin ölkəmizə yol mədəniyyəti gətirməyinizi bir daha əyani şəkildə nümayiş etdirir. Bizə göstərdiyiniz diqqətə, qayğıya,

verdiyiniz tövsiyələrə görə Sizə bir daha dərin minnətdarlığımızı ifadə edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun! Təbrik edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XIZI RAYONUNDA

*22 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Xızı rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzində ulu öndərin adını daşıyan parkda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev abidəni seyr edərək, parkda aparılan quruculuq-abadlıq işləri ilə tanış oldu. Məlumat verildi ki, 3,2 hektar ərazini əhatə edən parkda sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır. Burada müasir oturacaqlar qoyulmuş, yaşıllıq salınmış, gül kolları, ağaclar əkilmiş, döşəməyə daş piltələr düzülmüşdür.*

### Ümummilli lider Heydər Əliyev Muzeyinin açılışı

*Avqustun 22-də Xızı şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan muzeyin təntənəli açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev muzeyin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. Bildirildi ki, 2007-ci ilin may ayında tikintisinə başlanılmış muzey hazır olduqdan sonra, bu il avqustun 1-dən Mədəniyyət və Turizm Nazirliyində qeydiyyata alınmışdır.*

*Ekspozisiya salonunda ulu öndərin həyatının müxtəlif mərhələlərini – uşaqlıq, gənclik dövrünü, müxtəlif vəzifələrdə çalışdığı, respublikaya rəhbərlik etdiyi illəri, prezident kimi səfərlərini, keçirdiyi görüşləri əks etdirən yüzlərlə fotoşəkil,*

*eləcə də dahi şəxsiyyət haqqında yazılmış müxtəlif kitablar toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur. Binada kompyuter, iş otaqları, konfrans salonu vardır. Uşaqlar və gənclər burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı videofilmlərə baxa biləcəklər.*

## İctimaiyyətin nümayəndələri ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Xızı şəhərində ictimaiyyətin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Bu gün mən Bakı–Sumqayıt yolunun açılışında iştirak etmişəm. Bildiyiniz kimi, bu yol Rusiya sərhədinə qədər uzanacaqdır. Əlbəttə ki, Xızı rayonunun sakinləri də bu yoldan istifadə edəcəklər. Gözəl, beton örtüklü, müasir standartlara uyğun yoldur. Bu işlər ona görə görülür ki, Azərbaycan vətəndaşları yaxşı yaşasınlar, şərait yaxşı olsun. Bütün rayonlarda işlər yaxşı getməlidir.

Xızı böyük rayon deyildir. Ancaq böyük-kiçikliyindən asılı olmayaraq, bütün rayonlara eyni dərəcədə diqqət göstərilməlidir. Hər bir yerdə iş yerləri açılmalı, abadlıq işləri aparılmalıdır, iqtisadi imkanlar və rayonun potensialı maksimum dərəcədə işə düşməlidir. Azərbaycan dövləti bunun üçün nə lazımdırsa edir. Xızı rayonunun inkişafı üçün də yaxşı imkanlar var. Rayonun potensialından həm kənd təsərrüfatı, həm turizm, həm də başqa sahələrdə çox səmərəli istifadə etmək lazımdır.

Dünən mən kənd təsərrüfatının inkişafı ilə bağlı yeni sərəncam imzalamışam. Sərəncama əsasən, prezidentin ehtiyat fondundan əlavə 25 milyon manat vəsait ayrılacaqdır. Bu vəsait həm toxumçuluğun inkişafına yönəldiləcək, eyni zamanda, fermerlərə güzəştli şərtlərlə gübrənin verilməsi, yanacağın verilməsi və başqa tədbirlər də nəzərdə tutulur ki, Azərbaycan özünü kənd təsərrüfatı məhsulları ilə tam şəkildə təmin etsin. Bu gün dünyada bir çox sahələrdə bütövlükdə gərginlik hiss olunur, o cümlədən ərzaq məhsulları istehsalında və

təchizatında. Biz elə etməliyik ki, Azərbaycan özünü bütün ərzaq məhsulları ilə maksimum dərəcədə təmin etsin. Bunun da əsası kənd təsərrüfatıdır. Kənd təsərrüfatı həmişə Azərbaycan iqtisadiyyatında mühüm rol oynamışdır. Bu gün bu rol daha da artır.

Burada, Xızı rayonunda da kənd təsərrüfatı ilə məşğul olan insanların sayı çoxdur. Demək olar ki, əksəriyyət kənd təsərrüfatında çalışır. Biz bu insanların imkanlarını daha da artırmalıyıq. Dövlət tərəfindən texnika alınır, icarəyə verilir, yanacaq və gübrələr güzəştli şərtlərlə verilir. Fermerlər, demək olar ki, bütün vergilərdən – bir vergi istisna olunmaqla – azad ediliblər. Bu, dövlət dəstəyidir. Dövlət öz dəstəyini bu yollarla etməlidir: həm kreditlərin, texnikanın, gübrənin verilməsi, həm də yolların çəkilişi, infrastrukturun yaradılması. Bütün bunlar olduğu halda, insanların maddi vəziyyəti özlərindən asılı olacaqdır.

Xızı rayonunda imkanlar kifayət qədər çoxdur. Rayonun gözəl təbiəti var, Bakıya yaxındır. Mən əvvəllər Xızı rayonunda çox olmuşam. Prezident vəzifəsinə seçiləndən sonra isə gəlmək imkanım olmayıbdır. Amma, əlbəttə, yenə gələcəyəm. Mən bu illər ərzində, demək olar ki, bütün rayonlarda olmuşam. Olmadığım rayonlara da getmək istəyirəm ki, hər yerdə olum. Həm özüm vəziyyətlə tanış olum, həm də insanlarla görüşüm və sizdən eşidim ki, əlavə nə etmək lazımdır.

Düzdür, çox iş görülübdür. Son beş il ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının bütün bəndləri, maddələri, nəzərdə tutulmuş bütün tədbirlər, demək olar ki, yerinə yetirilibdir. Ancaq elə işlər var ki, onlar hələ həll olunmayıbdır. Biz gərək onları aşkar edək və həll edək. Bunu ən yaxşı bilən rayon əhalisidir, rayon rəhbərliyidir. Ona görə, əlavə nə etmək lazımdır, hansı tədbirlər görülməlidir, rayon əhalisini hansı məsələlər narahat edir, hansı məsələlər həll olunmalıdır – bunları mənə deyin ki, biz onları həll edək. Çünki biz yerlərdən gələn və əlbəttə, başqa mənbələrdən gələn məlumata əsasən vəziyyəti təhlil edirik və bu, ölkəmizin uğurlu inkişafı üçün çox

lazımdır: harada hansı problem var və onun həlli yolları nədir. Xüsusilə indiki, Azərbaycanın iqtisadi imkanlarının, büdcə xərclərinin artdığı vəziyyətdə. Son beş il ərzində dövlət xərcləri on dəfədən çox artıbdır. Yəni problemlərin həlli üçün indi iqtisadi, maddi imkanlarımız var. Hər bir məsələ öz həllini taparsa, hər bir rayonda, hər bir kənddə bütün məsələlər həll olunar. Ona görə siz deyin, Xızı rayonu üçün əlavə nə lazımdır?! Hansı tədbirlər görülməlidir? Bəlkə sən deyəsən?

**V a q i f A b d u l l a y e v** (*Xızı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, çox sağ olun, Sizin diqqətiniz sayəsində Xızıya şəhər statusu verilibdir. Sizə sakinlər adından təşəkkür edirik. Rayonun içməli su və Altıağac istiqamətində yolun təmiri problemi var. Təbiətin özündə də quraqlıq yaranıb, mənbələrdə su azalıbdır.

**İ l h a m Ə l i y e v:** Su bura haradan gəlir?

**V a q i f A b d u l l a y e v:** 40 kilometr uzaqlıqda yerləşən və meşədən keçən Dubraq xəttindən götürülmüşdür. Çox əzablı yollardan keçir. Keçmişdə çəkilmiş borulardır. Əlaqədar təşkilatlar bildirir ki, bu işləri 2009-cu ildə görəcəklər.

**İ l h a m Ə l i y e v:** Bəs əhali suyu haradan alır?

**V a q i f A b d u l l a y e v:** Su gəlir, qıtlıq o dərəcədə deyildir. Ancaq avqust ayında suyun azlığı xüsusi nəzərə çarpır.

**İ l h a m Ə l i y e v:** İndi bizim qarşımızda duran ilk əsas vəzifə budur. Çünki əvvəllər həm qaz problemi çox ciddi idi, həm də elektrik enerjisi ilə problemlər var idi. İndi olmamalıdır.

**S a k i n l ə r:** Cənab Prezident, elə bir problem yoxdur, qaz və işıq çox yaxşıdır.

**İ l h a m Ə l i y e v:** Ona görə ki, biz bu problemləri, demək olar ki, həll etmişik. İndi elə yer yoxdur ki, orada işıq problemi olsun. Düzdür, qazlaşdırılmayan kəndlər var. Ancaq indi elə bir ölkə yoxdur ki, orada bütün kəndlər qazlaşdırılsın. Azərbaycanda qazlaşdırma 80 faizdən çoxdur. Ancaq bizdən daha çox həcmdə qaz hasil və ixrac edən ölkələrdə bu rəqəm 50–60 faizdir. Buna baxmayaraq mən qarşıya vəzifə qoymuşam ki, əvvəllər, heç sovet dövründə də qazlaşdırılmayan bölgələrə

qaz xətləri çəkək, hamının təminatı maksimum dərəcədə yaxşılaşsın. Ona görə bu, həll olundu, elektrik enerjisi ilə bağlı məsələləri həll etdik. Son illərdə nə qədər yeni elektrik stansiyaları tikilibdir. Əsasən su və kanalizasiya problemi qalıbdır. Bəli, bir də yol. Yollarla bağlı prioritetlər var. İlk növbədə Bakını bütün ölkələrlə birləşdirən yolların tikintisi prioritetdir və ən vacib məsələdir. Biz bunu edirik. O cümlədən şimal, cənub və qərb istiqamətlərində. Bütövlükdə bu, təxminən min kilometrdən çox yoldur və çox böyük vəsait tələb edir. İkinci dərəcəli məsələ şəhərdaxili yollar, şəhərlərarası yollar və kənd yollarıdır. Yəni bütün bunlar nəzərdə tutulur. Kənd və rayondaxili yolların tikintisi bu yaxınlarda yenidən rayon icra hakimiyyətlərinin sərəncamına verilibdir. Yəni bu daha məqsədəuyğundur və əlavə vəsait də ayrılır. Mən yenidən vəsait ayıracağam ki, bu məsələləri həll edək. Yəni yol problemi tezliklə həll olunacaqdır.

O ki qaldı su və kanalizasiya problemlərinə, biz bu işlərə başlamışıq. Bu il, gələn il və ondan sonrakı illərdə daha ciddi məşğul olacağıq. Dünya Bankı ilə birlikdə işlənmiş layihələrə əsasən, Azərbaycanın rayonlarının hamısında içməli suyun normal səviyyəyə çatdırılması və kanalizasiya məsələləri həll olunacaqdır. Onu da bilirsiniz ki, problemlər həmişə olub. Biz gərək elə edək ki, həm mövcud su mənbələrindən çox böyük səmərə ilə istifadə edək, həm də yeni mənbələri üzə çıxaraq və təminatı yaxşılaşdıraq. Bu da çox böyük vəsait tələb edən layihədir. Bu layihəyə yəqin ki, milyardlarla vəsait lazım olacaqdır. Ancaq insanların rahatlığı üçün Azərbaycan dövləti hər şeyi etməlidir.

İndi bütün ölkədə məktəb tikintisi gedir. Bu işlər Xızı rayonunda da görülür.

**V a q i f  A b d u l l a y e v:** Bəli, Heydər Əliyev Fondunun hesabına Altıağac qəsəbəsində məktəb binası tikilir.

**İ l h a m  Ə l i y e v :** Dövlət xətti ilə də tikilməlidir.

**V a q i f  A b d u l l a y e v:** Bəli, planlaşdırılıbdır. Hazırda bir çoxu təmir olunur.

**İ l h a m Ə l i y e v:** Su məsələsi aydındır, biz bunu həll edəcəyik. Yollar çəkiləcəkdir.

**S v e t a R ü s t ə m o v a** (*Giləzi qəsəbə orta məktəbinin direktoru*): Cənab Prezident, çox sağ olun. Sizi rayonumuzun ziyalıları adından salamlayıram. Dağlar yurdu Xızı torpağına xoş gəlmisiniz. Biz Sizin səfərinizi çoxdan gözləyirdik. Sizi Xızı torpağında böyük sevinclə qarşılayırıq. İndi rayonumuzun əhalisinin sevincinin həddi-hüdudu yoxdur, bu gün Xızı toy-bayram içindədir. Ona görə ki, ulu öndərimizin layiqli davamçısı bu gün onların görüşünə gəlibdir.

Əziz prezidentimiz, inanın ki, bu görüş bizim həyatımızın ən əlamətdar anıdır. Prezident kimi, Siz ilk dəfədir Xızı torpağındasınız. Səfəriniz uğurlu, qədəmləriniz mübarək olsun. Ölkəmizin bütün regionları kimi, Xızı da hər gün gözəlləşir, abadlaşır. Sizin xalqımız üçün gördüyünüz bütün işlər indi hər evdə, hər ailədə özünü göstərir. Biz Sizin Xızıya olan diqqətinizi görürük, hiss edirik. Təsadüfi deyil ki, Siz bu yaxınlarda Xızıya şəhər statusu vermisiniz. Əziz Prezidentimiz, buna görə Sizə xızılılar adından dərin minnətdarlığımızı bildiririk. Biz də çalışacağıq ki, dövlətin bu qayğısına öz zəhmətimizlə cavab verək.

Xızının bu füsunkar təbiəti, Siz qeyd etdiyiniz kimi, turizmin inkişafını zəruri edir. Biz inanırıq ki, Sizin bu səfəriniz Xızıda hər sahədə olduğu kimi, turizmin də inkişafına güclü təkan verəcəkdir. Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın da gördüyü işlər göz qabağındadır. Onun mədəniyyətimizin, təhsilimizin, səhiyyəmizin inkişafında, xüsusilə də milli-mənəvi dəyərlərimizin qorunmasında gördüyü səmərəli işlər xalq tərəfindən hər yerdə rəğbətlə qarşılanır.

Siz ulu öndərimizin yolunu layiqincə davam etdirərək, Azərbaycanı qüdrətli, zəngin, firavan bir ölkəyə çevirirsiniz. Siz həmişə xalqın arasındasınız. Ona görə də Sizi özümüzə böyük dayaq, arxa hesab edirik.

Əziz Prezidentimiz, bu gözəl, fərəhli, qürur dolu anları bizə bəxş etdiyiniz üçün Sizə bir daha öz minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Mən Bakıya qayıdan kimi göstəriş verib əlavə vəsait ayıracağam ki, siz özünüz lazımi tədbirlər görəsiniz və Altıağac yolunu tezliklə normal vəziyyətə gətirəsiniz. Bütövlükdə, başqa yolların təmiri, tikintisi lazımdır və mən əlavə tədbirlər görəcəyəm. Xızı rayonunun inkişafı gələcəkdə də sürətlə getməlidir.

İndi Azərbaycanda belə gözəl ab-hava, gözəl şərait var, insanlar işlə təmin olunublar. Demək olar ki, Azərbaycanda işsizlik xeyli dərəcədə aradan qaldırılır. İndi Azərbaycanda yoxsul adamların sayı da azalır. Əlbəttə, hər ölkədə olduğu kimi, hələ var, amma azalır. Elə etməliyik ki, bu problemi tamamilə aradan qaldıraq. Bütün bunları etmək üçün, əlbəttə, ölkədə sabitlik olmalıdır. Bunsuz heç bir işi görmək mümkün olmayacaqdır. Sabitlik olmayan yerlərə heç kim vəsait qoymur, turist gəlmir, qonaq gəlmir və orada iqtisadiyyat da inkişaf etmir. Azərbaycanda bu sahədə çox böyük nailiyyətlər əldə edilibdir. Azərbaycanda çox gözəl şərait var, ab-hava var, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar, arxayındırlar. Əsas budur. Bu, böyük bir nəticədir, böyük bir nailiyyətdir. Xüsusilə görəndə ki, dünyanın müxtəlif ölkələrində müxtəlif xoşagəlməz hadisələr baş verir, sabitlik pozulur, münaqişələr baş verir. Biz bu sabitliyi saxlamalıyıq, möhkəmləndirməliyik. Əlbəttə, bu bizim gələcək uğurlarımızın başlıca şərtidir və bunun əsasında gələcəyə getməliyik, ölkəmizi müasirləşdirməliyik. Uşaqları yaxşı tərbiyə etməliyik, onlar məktəblərdə yaxşı oxumalı, yaxşı bilik almalıdırlar. Onlar gələcək üçün dəyərli insan olmalıdırlar, sağlam olmalıdırlar. Ona görə indi biz müxtəlif yerlərdə yeni tibb ocaqları yaradırıq. Onlar idmanla məşğul olmalıdırlar. Hər bir rayonda böyük idman qurğuları tikilir və bu proses davam edir.

Görürsünüz, bizim idmançılarımız Olimpiada kimi mötəbər yarışda nə qədər böyük uğurlar əldə ediblər. İndi bizim 6 me-

dalımız var, 7-ci medal da olacaqdır. Bu, Azərbaycan kimi böyük olmayan ölkə üçün çox böyük nailiyyətdir. 200-dən çox ölkənin arasında yüksək nəticə göstərmək böyük bir uğurdur, böyük bir qürur mənbəyidir və hər bir azərbaycanlı bununla fəxr edir.

İdman sağlamlığa da çox böyük təsir edir. Gərək uşaqlar idmanla məşğul olsun, yaxşı oxusunlar ki, dəyərli vətəndaşlar kimi, gələcəkdə ölkəni idarə etsinlər. Bütün bunları etmək üçün biz hamımız çalışmalıyıq, bütün insanlar da hərəsi öz yerində fəal işləməlidir ki, ölkəmizi daha da gözəl gələcəyə aparaq. Mən bu işlərdə sizə uğurlar arzulayıram.

* * *

*Sonra dövlətimizin başçısı rayon ağsaqqalı, Sosialist Əməyi Qəhrəmanı Əlisəfa Abbasov ilə söhbət etdi.*

**Əlisəfa Abbasov:** Bu ordenlər ulu öndərimiz Heydər Əliyevin sayəsindədir. O mənim dörd övladıma da ali təhsil veribdir, onları Gəncədəki Kənd Təsərrüfatı Akademiyasına göndərdi. Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin.

**İlham Əliyev:** Bizim bütün uğurlarımızın təməlində onun fəaliyyəti dayanır. O vaxt, 1970-80-ci illərdə siz də işləmisiniz, bu ordenləri almısınız və indi də xatırlayırsınız ki, Azərbaycan üçün necə gözəl işlər görübdür. Bütün bölgələr abadlaşırdı, gözəlləşirdi. O, Azərbaycandan gedəndən sonra vəziyyət yavaş-yavaş pisləşməyə başladı. Nəticədə nə oldu?! Azərbaycan böhran vəziyyətinə düşdü. Vətəndaş müharibəsi, iqtisadi böhran – hər şey baş verdi. Amma o, 1993-cü ildə gəldi və sabitliyi bərpa etdi. 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycan çox böyük inkişaf yolu keçdi. Hər şey sabitləşdi, inkişaf yenidən başladı. İndi də biz davam etdiririk. Sizin kimi veteranlar, gənclər – hamımız birlikdə bunu etməliyik.

Siz böyük qəhrəmanlıq göstərmisiniz. İndi də işləyirsiniz?

**Əlisəfa Abbasov:** Bəli, işləyirəm, fermam var, övladlarım işlədir.

**İ l h a m  Ə l i y e v :** Əvvəllər dövlətə işləyirdiniz, indi isə özünüzə, yəni həm dövlətə, həm də özünüzə. Siz özünüzə işləməklə dövləti də gücləndirirsiniz. Sağ olun.

* * *

*Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdi və onlarla çox səmimiyyətlə görüşüb sağollaşdı.*

## Şahmat məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Xızı şəhərində Şahmat məktəbi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, qısa müddətdə daxili imkanlar hesabına tikilib istifadəyə verilmiş məktəbdə bu qədim oyunun sirlərinə yiyələnmək üçün lazımi şərait yaradılmışdır. Gələcəkdə məktəbin genişləndirilməsi nəzərdə tutulmuşdur. Rayonun uşaq və gəncləri şahmata böyük maraq göstərirlər. Ümummilli lider Heydər Əliyevin 85 illiyi ilə əlaqədar Xaçmazda keçirilmiş zona yarışlarında məktəbin yetirməsi Xalidə Abdullayeva birinci, respublika yarışlarında isə dördüncü yeri tutmuşdur. Məktəbdə beynəlxalq yarışlarda ölkəmizin idman şərəfini qoruyacaq şahmatçıların yetişəcəyinə ümid bəslənilir.*

*Ölkəmizdə idmanın bütün növlərinə, o cümlədən şahmatın inkişafına göstərilən qayğıya görə prezidentə minnətdarlıq bildirildi.*

*Prezident İlham Əliyev gənc şahmatçılara uğurlar arzuladı.*

## Tarix-diyarşünaslıq Muzeyinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Xızı Tarix-diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Muzeydə 300 eksponat toplanmışdır. Burada Xızının qədim tarixindən xəbər verən arxeoloji tapıntılar, qədim silahlar, xalq sənətinə aid nümunələr, məişət əşyaları, musiqi, kənd*

*təsərrüfatı alətləri diqqəti cəlb edir. Muzeydə Xızıda doğulub boya-başa çatan Azərbaycanın görkəmli yazıçısı və dramaturqu Cəfər Cabbarlının yaşadığı evin maketi də nümayiş etdirilir.*

*Bildirildi ki, sakinlər yeni yaradılan muzeyə müxtəlif əşyalar təqdim edirlər. Bu rayon Xızır peyğəmbərin adını daşıdığından Azərbaycanın müqəddəs guşələrindən biri sayılır.*

*Prezident İlham Əliyev Xızı təbiətinin zənginliyini və qədim tarixini əks etdirən eksponatlara baxdı. Dövlətimizin başçısı qədim əşyaların bir yerdə toplanmasının zəruriliyini, tariximizə diqqətin artırılmasının vacibliyini vurğuladı və müvafiq tövsiyələrini verdi.*

## Altıağac Milli Parkında

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Altıağac Milli Parkında olmuşdur.*

*Buraya toplaşan meşə təsərrüfatı işçiləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Bu park prezident İlham Əliyevin sərəncamı ilə 2004-cü il avqustun 31-də Xızı və Siyəzən rayonlarının ərazilərində – Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan Dövlət Meşə Fondu torpaqlarının bazasında yaradılmışdır. Ərazinin 90,5 faizini palıd, fıstıq və vələs ağaclarının üstünlük təşkil etdiyi, zəngin flora və faunası olan dağ meşələri təşkil edir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, fotostendlərə baxdı.*

*Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına məlumat verdi ki, parkın ərazisi 11 min 35 hektardır. Parkda MDB məkanında, o cümlədən Qafqaz regionunda yeganə olan Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiyası Klinikası da fəaliyyət göstərir. Burada müasir laboratoriya, lazımi avadanlıq vardır. Əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftının, flora və faunasının qorunub saxlanması, bərpası, təbii komplekslərinin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata*

*keçirilməsi, həmçinin tədqiqatlar, turizm və istirahət üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.*

*Prezident İlham Əliyev Altıağac Milli Parkının ekoturizm və informasiya mərkəzi, inzibati binası, turist ləvazimatlarının kirayəsi və satışı şöbəsi ilə tanış oldu, parkda saxlanılan meşə heyvanlarına tamaşa etdi.*

## QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ

*Avqustun 22-də Xızı şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş ikimərtəbəli 16 mənzilli yaşayış binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Binanın qarşısına toplaşan sakinlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İ l h a m  Ə l i y e v:** Mən sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu mənzillərdə xoşbəxt yaşayasınız. Siz buna layiqsiniz. Azərbaycan dövləti bütün vətəndaşlarına diqqət göstərir. İlk növbədə Vətən uğrunda döyüşmüş, həlak olmuş insanların ailələrinə, öz sağlamlığını itirmiş insanlara. Siz qəhrəmansınız, Vətən uğrunda mübarizə aparmısınız və ən yüksək qayğıya layiqsiniz. Azərbaycan dövləti əlindən gələni etməyə çalışır ki, sizin həyat səviyyəniz yaxşılaşsın, məişət problemləriniz daha da tez həll edilsin. Ümumiyyətlə, sizin həyatınızda yaxşı anlar çox olacaqdır.

Azərbaycan hərbi təcavüzdən əziyyət çəkən ölkədir. Bu təcavüzün qarşısını almaq üçün Azərbaycan gəncləri, Azərbaycan vətəndaşları, əsgərlər fədakarcasına vuruşub, öz doğma torpaqlarını müdafiə etmişlər, həlak olmuşlar, yaralanmışlar. Biz həmişə onların qəhrəmanlığını yadda saxlamalıyıq və gələcək nəsli vətənpərvərlik ruhunda tərbiyə etməliyik.

Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır. Azərbaycan əlindən gələni etməlidir və edir ki, öz ərazi bütövlüyünü bərpa etsin. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Bu, başlıca şərtdir. Bunun kənarında heç bir razılaşma mümkün deyildir. Bununla bərabər, biz öz iqtisadi və

hərbi gücümüzü artırmalıyıq ki, istənilən anda, istənilən yollarla öz ərazi bütövlüyümüzü bərpa edək.

Bizim ərazi bütövlüyümüz pozulanda, Azərbaycan torpaqları işğal altına düşəndə beynəlxalq təşkilatlar tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi var, onlarda açıq göstərilib ki, Ermənistanın işğalçı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdırlar. Ancaq bu günə qədər bu qətnamələr icra olunmur. Bu onu göstərir ki, beynəlxalq təşkilatların qərarları mütləq xarakter daşımır. Əfsuslar olsun ki, beynəlxalq hüquq normaları pozulur və biz ikili standart hallarını tez-tez görürük. Belə olan halda, Azərbaycan ancaq öz gücünə güvənməlidir, öz imkanlarına güvənməlidir və biz güclü ölkə qurmaqla, güclü ordu yaratmaqla öz məqsədlərimizə nail olacağıq. Bizim heç bir başqa ölkənin torpağında gözümüz yoxdur. Öz torpağımızı da heç kimə verməyəcəyik.

Mən sizi bir daha təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm ki, siz yaxşı həyata layiqsiniz. Biz bundan sonra da çalışacağıq ki, sizin bütün məişət problemlərinizi həll edək və bu gözəl evlərdə yaxşı yaşayasınız.

**S a k i n l ə r:** Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**E l ç i n  B a ğ ı r o v** (*İkinci qrup Qarabağ müharibəsi əlili*) : Hörmətli cənab Prezident, icazə verin, bütün Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından Sizi salamlayaq. Xızıda bu gözəl binanı tikdirib bizə verdiyinizə görə öz minnətdarlığımızı bildiririk. Çox sağ olun.

Azərbaycan günü-gündən inkişaf edir. Ali Baş Komandan kimi, Sizin rəhbərliyiniz altında torpaqlarımızı işğalçılardan azad etməyə bu gün də hazırıq. Vətən uğrunda vuruşmağa yenə hazırıq. Özüm Qarabağ müharibəsi əliliyəm, imkanımız pis deyil, dolanışıq yaxşıdır. Çox sağ olun. Əgər imkan varsa, buyurub bizim mənzilimizə baxın və öz xeyir-duanızı verin.

*Prezident İlham Əliyev yeni yaşayış binası ilə tanış oldu, mənzillərə baxdı.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq tikilən binanın dörd mənzili 3, qalanları isə 2 otaqlıdır. Mənzillərdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılmış, qaz, su və enerji ilə təmin olunmuşdur.*

*Dövlət başçısının adından hər ailəyə televizor və soyuducu hədiyyə edildi.*

*Bununla da prezident İlham Əliyevin Xızı rayonuna səfəri başa çatdı.*

* * *

*Xızı rayonuna səfərdən qayıdan prezident İlham Əliyev yolüstü Bakıda yeni avtovağzalın tikintisinin gedişi ilə tanış oldu.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Bişkek yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 avqust 2008-ci il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Bişkek yaxınlığında aviasiya qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Qırğızıstan xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 avqust 2008-ci il*

# ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN ÜZVÜ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də ABŞ Senatının xarici əlaqələr komitəsinin üzvü, senator Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, regional, beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## QƏRBİ AVROPA İTTİFAQI PARLAMENT ASSAMBLEYASININ FƏXRİ SƏDRİ STEFAN QORİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Qərbi Avropa İttifaqı Parlament Assambleyasının Fəxri sədri Stefan Qorisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bu gözəl ölkəyə yenidən səfərindən məmnunluğunu bildirən Stefan Qoris dedi ki, nümayəndə heyətinə bir sıra Avropa ölkələrinin təmsilçiləri daxildir. Səfərdən məqsəd Azərbaycanda və ümumən Xəzər regionunda gedən proseslər, enerji təhlükəsizliyi məsələləri istiqamətində görülən işlər barədə məruzə hazırlamaqdır. Ümidvaram ki, bu hesabatda Azərbaycanda hökm sürən sabitlik məsələsi də öz əksini tapacaqdır.*

*Prezident İlham Əliyev regional məsələlərin hazırda böyük önəm kəsb etdiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Xəzər regionunda, Qafqazda sabitliyin, enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə daha böyük rol oynayır. Azərbaycan prezidenti ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin səfəri ölkəmizdə gedən inkişaf prosesləri ilə daha yaxından tanışlıq üçün yaxşı imkan olacaqdır.*

## PAYTAXTDA YENİ YOL QOVŞAQLARINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 26-da Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsinə dair tədbirlər planının icrasına uyğun olaraq, Əzizbəyov dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunda həyata keçirilən yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olmuş, paytaxta yeni gətirilmiş sərnişin avtobuslarına baxmışdır.*

*Dövlətimizin başçısı əvvəlcə avtomobil yolunun metronun «Əzizbəyov» stansiyasından Sabunçu dairəsinədək olan hissəsində işlərin gedişi ilə maraqlandı. Nəqliyyat naziri Ziya Məmmədov məlumat verərək bildirdi ki, tikinti işlərinə 2007-ci ilin mart ayında başlanılmışdır və bu ilin dördüncü rübündə başa çatdırılacaqdır. Yolun ümumi uzunluğu 13,2 kilometr, Sabunçu dairəsinədək olan hissə 12 zolaqlı, oradan hava limanına qədər olan hissə isə 8 zolaqlı olacaqdır. Asfalt - beton örtüyün qalınlığı 27 santimetr, hərəkət zolaqlarının eni isə 3,75 metrdir. Bu da ən müasir beynəlxalq standartlar səviyyəsindədir.*

*Dövlətimizin başçısı Sabunçu dairəsində uzunluğu 127 metr olan yeni körpünün tikintisi ilə də tanış oldu. Avtomobil yolunda hərəkətin tənzimlənməsi üçün yol kəsişmələrində müxtəlif səviyyəli yolötürücülərinin tikilməsinin əhəmiyyəti vurğulandı. Bildirildi ki, bir neçə yerdə olacaq bu yolötürücüləri nəqliyyatın istənilən istiqamətdə hərəkətinə şərait yaratmaqla yanaşı, həm də tıxacların aradan qaldırılmasında mühüm rol oynayacaqdır. Yol boyu 6 yerüstü və 1 yeraltı piyada keçidinin tikilməsi də nəzərdə tutulur. Prezident İlham Əliyev tikinti işlərinin vaxtında və yüksək keyfiyyətlə görülməsi ilə əlaqədar müvafiq tövsiyələrini verdi. Sonra dövlət başçısı*

*Əzizbəyov dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunda digər yol qovşağının tikildiyi yerə gəldi. Prezidentə yol qovşağının texniki göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, bu ərazidə uzunluğu 97 metr olan yeni körpü inşa edilir.*

*Prezident İlham Əliyev avtomobil yolunda növbəti yol qovşağının, kanal üzərində yeni salınan körpünün tikinti işlərinə baxdı, müvafiq tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısına Heydər Əliyev prospektində 5 kilometrlik yol boyunca yaradılacaq yaşıllıq zolağı və işıqlandırma sistemi barədə də məlumat verildi. Azərbaycan prezidenti şəhərimizə xüsusi yaraşıq verəcək yaşıllıq zolağının yüksək zövqlə, ən müasir tələblər səviyyəsində salınmasını tövsiyə etdi.*

*Prezident İlham Əliyev sonra Heydər Əliyev prospektində dəmiryol körpüsü olan hissədə yolun təhlükəsizliyinin təmin edilməsi və oranın estetik baxımdan yenidən qurulması ilə əlaqədar görülən tikinti və bərpa işləri ilə də tanış oldu.*

*Daha sonra Hökumət evinin qarşısına gələrək paytaxta yeni gətirilmiş sərnişin avtobuslarına baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, Almaniya istehsalı olan yeni avtobuslar ən müasir beynəlxalq standartlara cavab verir. Ən son texniki nailiyyətlərin tətbiq edildiyi və uzunluğu 11,8 metr olan avtobusların 38 oturacaq yeri vardır. Hər biri ilə 98 sərnişin daşımaq mümkündür. 15 illik zəmanətlə alınan avtobuslarda istilik sistemi ən müasir tələblər səviyyəsindədir.*

*Azərbaycan prezidenti yeni avtobuslarla yaxından tanış oldu, sərnişinlərin rahatlığı üçün bundan sonra da hər cür şəraitin yaradılması ilə bağlı göstərişlərini verdi.*

## BAKI METROSUNUN YENİ TİKİLƏN STANSİYALARI İLƏ TANIŞLIQ

*27 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 27-də Bakı metrosunun yeni tikilən «Nəsimi» və «Azadlıq prospekti» stansiyaları ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Nəsimi» stansiyasının davamı olaraq çəkilən xətt ilin sonunadək digər stansiya ilə birləşdiriləcəkdir. Metropolitenin yeni stansiyalarının çəkilməsi ilə bağlı layihələr də vardır. Bu layihələr, ilk növbədə şəhərdaxili şəbəkənin genişləndirilməsini və paytaxt əhalisinin tələbatının tam ödənilməsini nəzərdə tutur. Ölkəmiz müstəqillik qazandıqdan sonra ilk tikilən «Nəsimi» stansiyasının inşası bütünlüklə yerli mütəxəssislərə tapşırılmışdır. Gələcəkdə metronu Sumqayıta qədər uzatmaq nəzərdə tutulur. Perspektivdə Badamdar və Günəşli yaşayış massivlərinə metro xətlərinin çəkilməsi planlaşdırılır.*

*Son tamamlama işlərinin aparıldığı «Nəsimi» stansiyası ilə tanışlıq enerji blokundan başladı. Daha sonra prezident İlham Əliyev stansiyanın platforması ilə tanış oldu.*

*Bakı Metropolitenində ən müasir avadanlıq ilk dəfə məhz bu stansiyada quraşdırılmışdır. Tikintisinə 2006-cı ildə başlanmış stansiyanın ağır hidrogeoloji şəraitdə inşa olunmasına baxmayaraq, işlər vaxtından tez yerinə yetirilmişdir. Stansiyada ilk dəfə olaraq qatarların hərəkətinin tənzimlənməsi və texniki nəzarət kompyuterləşdirilmişdir. Stansiya işə düşdükdən sonra burada 251 nəfər işlə təmin olunacaqdır. «Memar Əcəmi» stansiyasından «Nəsimi» stansiyasına qədər xəttin uzunluğu 2660 metr, yeni stansiyada platformanın uzunluğu 102, eni 18 metrdir. Dörd çıxışı olan stansiyada eskalatorlar quraşdırılmışdır.*

*Paytaxtın 6 və 9-cu mikrorayonlarını birləşdirən stansiyanın ətrafı abadlaşdırılmış, yaxınlıqdakı binalarda təmir-bərpa işləri aparılmışdır.*

*Ərazidə yaşayan sakinlər də insanların rahatlığı üçün yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkürlərini bildirdilər.*

**İ l h a m Ə l i y e v:** Görürsünüz, Binəqədi rayonu necə gözəlləşir, abadlaşır.

**S a k i n l ə r:** Cənab Prezident, çox sağ olun. Bəli, hər şey göz qabağındadır. Bunlar hamısı Sizin diqqətiniz sayəsində olmuşdur. Binəqədi camaatı bunu yaxşı başa düşür.

**İ l h a m Ə l i y e v:** Metro insanların rahatlığı üçün əsas nəqliyyat vasitəsidir.

**S a k i n l ə r:** Bəli, cənab Prezident, metronun işə düşməsi ilə əlaqədar yeni iş yerləri də açılır. Allaha çox şükür, indi hər cür şərait var.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, həm də metro çox gözəl tikilir. İnsanlara rahatlıq yaradacaqdır.

**S a k i n l ə r :** Cənab Prezident, hər şey çox gözəldir. Yeni avtovağzal da tikilir, körpülər, yollar salınır. Bütün bunlar insanlara göstərilən diqqətdir. Ölkəmiz günbəgün dəyişir. Biz Sizi həmişə dəstəkləyirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bütün ölkədə, o cümlədən Bakı şəhərində, Bakının bütün rayonlarında böyük quruculuq işləri gedir.

**S a k i n l ə r:** Hörmətli Prezident, gənclər Sizi daha çox sevir. Bu da təbiidir. Sizin onlara qarşı diqqətiniz böyükdür. Bu yaxınlarda Olimpiya oyunlarından gənclərimiz alnıaçıq qayıtdılar. Sizi, xalqımızı hamımız ürəkdən təbrik edirik. Azərbaycan bayrağı yüksək zirvələrdə dalğalandı.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizə də cansağlığı və uğurlar arzulayıram.

**S a k i n l ə r:** Biz də Sizə uğurlar arzulayırıq. Sizə minnətdarıq.

*Sonra prezident İlham Əliyev metronun tikintisi davam edən «Azadlıq prospekti» stansiyasına gəldi. Həmin stansiya paytaxtın Binəqədi rayonunun 7 və 8-ci mikrorayonları arasında yerləşir.*

*Dövlətimizin başçısına burada 2007-ci ilin avqust ayından başlanan tikinti-quraşdırma işləri barədə məlumat verildi. Bildirildi ki, «Nəsimi» stansiyasını «Azadlıq prospekti» stansiyası ilə birləşdirəcək tunelin uzunluğu 1300 metr olacaqdır. İndiyədək burada təxminən 50 min kubmetr torpaq, 4 min 500 kubmetr beton işi görülmüşdür. Tikintidə 150 nəfər çalışır. Artıq platforma və hər iki giriş inşa olunmuş, stansiyanı elektrik enerjisi ilə qidalandıracaq yardımçı stansiya tikilmişdir. Azərbaycanda ilk dəfə məhz bu stansiyada platformanın tavanı tağ şəklində inşa olunmuşdur. Tikinti işlərini «Azərmetrotuneltikinti» Qapalı Səhmdar Cəmiyyəti görür. Ehtiyac olduqda iş dörd növbədə aparılır.*

*Prezident İlham Əliyevə «Azadlıq prospekti» stansiyasının davamı kimi nəzərdə tutulan stansiyalar və bununla bağlı görüləcək tədbirlər barədə geniş məlumat verildi.*

*«Bakımetrolayihə» İnstitutu stansiyanın daxili görünüşünün iki variantda layihəsini hazırlamışdır. Hər iki layihə ilə tanış olan prezident İlham Əliyev birinci variantı bəyəndi. «Azadlıq prospekti» stansiyasının dərinliyi 12 metr, uzunluğu isə 220 metrdir. Stansiyanın tikintisi 2009-cu ilin sonunda başa çatdırılacaqdır.*

*Dövlətimizin başçısına «Azadlıq prospekti» – «Dərnəgül deposu» stansiyaları arasındakı ərazinin torpaq planı da nümayiş etdirildi.*

*Tikinti işlərinin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev metronun bu stansiyasında və ətraf ərazilərdə görüləcək işlərlə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## RUMINİYA XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU MİXAY REZVAN UNQUREANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Rumıniya Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixay Rezvan Unqureanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rumıniya prezidenti Trayan Beseskunun bu yaxınlarda ölkəmizə səfərini xatırlayaraq səfər zamanı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi istiqamətində səmərəli danışıqlar aparıldığını vurğuladı. Azərbaycanla Rumıniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev regionda təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində də əməkdaşlığın böyük əhəmiyyət daşıdığını qeyd etdi və əmin olduğunu bildirdi ki, qonağın ölkəmizə səfəri əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.*

*Rumıniya Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixay Rezvan Unqureanu ölkəmizə səfərindən və prezident İlham Əliyevlə görüşündən böyük şərəf duyduğunu dedi. O, iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı və bu səfərin də əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT ŞƏHƏRİNDƏ

*28 avqust 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 28-də Sumqayıt şəhərində olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikanın ikinci böyük sənaye şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül qoydular.*

*Dövlətimizin başçısı ətrafda salınmış istirahət parkında aparılan abadlıq işləri ilə tanış oldu. Prezidentə Sumqayıt şəhərində aparılan tikinti-quruculuq işləri barədə məlumat verildi.*

## PARALİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI

*Avqustun 28-də Sumqayıtda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Paralimpiya İdman Kompleksinin açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Milli geyimli qız dövlətimizin başçısının xanımına gül dəstəsi təqdim etdi.*

*Prezidentə məlumat verildi ki, kompleksin tikintisi barədə qərar ümummilli lider Heydər Əliyevin paralimpiyaçılarla görüşündən sonra qəbul edilmişdi. MDB məkanında yeganə olan bu kompleksdə respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi, təlim-məşq toplanışlarının təşkili nəzərdə tutulmuşdur. Tikintisinə 2005-ci ildə başlanılmış və 2,25 hektar sahəni əhatə edən kompleksin smeta dəyəri 3,1 milyon manatdır.*

*Kompleksə müasir avadanlıqla təchiz olunmuş 130 nəfərlik akt salonu, trenajor, əl oyunları, böyük və kiçik atıcılıq zalları, açıq futbol və voleybol meydançaları, qapalı üzgüçülük hovuzu daxildir. Burada əlillərin sərbəst hərəkəti üçün lazımi şərait yaradılmış, müasir tipli liftlər quraşdırılmışdır.*

*Ərazidə abadlıq işləri aparılmış, yaşıllıq salınmış, ağac və gül kolları əkilmişdir.*

*Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif vaxtlarda idmançılarla görüşlərini əks etdirən fotoşəkillərdən ibarət guşə yaradılmışdır.*

*Dövlətimizin başçısı kompleksin qapalı hovuzuna baxdı. Uzunluğu 25, eni 10 metr olan hovuzda avtomatik təmizləmə, dezinfeksiya və qızdırıcı qurğular quraşdırılmışdır.*

*Prezident İlham Əliyev əsas idman salonuna baxdı. Cüdo, güləş və əl oyunlarının keçirilməsi üçün nəzərdə tutulan salonda quraşdırılmış xüsusi havalandırma sistemi havanın daim təmiz və normada saxlanılmasına imkan verir. 32 metr uzunluğu, 24 metr eni olan salonda 210 tamaşaçı yarışları izləyə biləcəkdir.*

*Dövlətimizin başçısı kompleksin atıcılıq tirləri ilə də tanış oldu. 25x12 metr və 10x12 metr ölçülü atıcılıq tirlərində beynəlxalq yarışlara hazırlaşan idmançıların məşq keçməsi üçün bütün şərait yaradılmışdır. Tirlərin hər birində eyni vaxtda 8 atıcı məşq edə biləcəkdir.*

*Prezident İlham Əliyev kompleksin akt salonunda Pekində keçiriləcək XIII Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək idmançılar və onların məşqçiləri ilə görüşdü. Dünyanın 145 ölkəsindən 4000 idmançının mübarizə aparacağı Pekin Paralimpiya Oyunlarında Azərbaycanı 4 idman növündə 18 nəfər təmsil edəcəkdir.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Əziz dostlar!

Əziz paralimpiyaçılar!

İlk növbədə mən sizin hamınızı Paralimpiya İdman Kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bu mərkəz imkan verəcək ki, siz istənilən vaxt məşq edəsiniz. Burada yarışlar keçirmək mümkündür. Mən xatırlayıram, bir neçə il bundan əvvəl belə bir təklif irəli sürülmüşdür ki, paralimpiyaçılar üçün xüsusi bir idman mərkəzi yaradılsın. Azərbaycanın inkişafı, maddi imkanlarımızın artması nəticəsində indi biz istənilən layihəni həyata keçirə bilərik. Əlbəttə, çalışırıq ki, idmançılar və paralimpiyaçılar üçün bütün lazımi şəraiti yaradaq. Bu gün mənə verilən məlumata görə, bütün MDB məkanında ilk dəfədir ki,

paralimpiyaçılar üçün xüsusi və çox yüksək səviyyədə, yüksək dünya standartlarına uyğun şəkildə idman mərkəzi tikilibdir.

Bir də deyirəm ki, mən bu gün bu mərkəzlə tanış olarkən bir daha gördüm ki, məşq etmək, yarışların keçirilməsi üçün burada bütün şərait, bütün imkanlar var. Əminəm ki, siz bu idman mərkəzindən çox səmərəli şəkildə istifadə edəcək və öz hazırlıq səviyyənizi daha da yüksəkdə saxlayacaqsınız.

Bütövlükdə Azərbaycanda idman infrastrukturunun inkişafı üçün çox böyük səylər göstərilir. Ölkəmizin istənilən bölgəsində müasir komplekslər, böyük olimpiya kompleksləri, idman meydançaları tikilir. Azərbaycanda idmanın inkişafı üçün lazımi maddi-texniki baza möhkəmlənir, güclənir və biz bunun nəticələrini idmançılarımızın uğurlu çıxışlarında, beynəlxalq yarışlarda əldə etdiyimiz qələbələrdə, xüsusilə çox gərgin şəkildə keçməsinə baxmayaraq, Olimpiya oyunlarında görürük. Olimpiya oyunları dünyanın ən birinci idman yarışıdır və bizim idmançılarımız çox böyük uğurlar qazanmışlar, Vətənə qələbələrlə, medallarla qayıtmışlar.

Siz də öz həyatınızı idmana həsr etmisiniz. Sizin həyatınızda idman çox böyük bir yer tutur. Mən çox şadam ki, biz Azərbaycanda belə gözəl mərkəzin yaranmasına nail ola bilmişik.

Əlbəttə ki, idman həyatı asan deyil. İdmanda yüksək nəticə əldə etmək üçün çox böyük işlər görülməlidir və idmançılar həyatlarını idmana, məşqlərə həsr edirlər. Sizin üçün bu bəlkə də ikiqat ağırdır. Paralimpiyaçıların idmana olan sədaqəti və xüsusilə Azərbaycan paralimpiyaçılarının uğurları və beynəlxalq yarışlarda iştirakı böyük qəhrəmanlıqdır.

Azərbaycan dövləti sizin bu səylərinizi çox yüksək qiymətləndirir və qiymətləndirməlidir. Məhz buna görə maksimum dərəcədə çalışırıq ki, sizin üçün lazımi şəraiti yaradaq. O cümlədən, belə gözəl idman mərkəzinin tikintisi bunu bir daha sübut edir.

Mən çox şadam ki, Azərbaycanda Paralimpiya Komitəsi fəaliyyətini genişləndirir və ümumiyyətlə, Paralimpiya

oyunlarında iştirak edən idmançıların sayı artır. Bizim Paralimpiya oyunlarında nəticələrimiz də hər dəfə daha da böyük olur. Keçən dəfə Afinada Paralimpiya oyunlarında dörd medal qazanılmışdır. Onlardan ikisi qızıl, biri gümüş, biri bürünc medal idi. Yəni bu, böyük göstəricidir, böyük nailiyyətdir və biz buna çox sevinirik.

Hamımız yaxşı bilirik ki, Olimpiya oyunları dünyanın nəinki ən mötəbər idman yarışıdır, hətta bəlkə də dünyanın diqqətini cəlb edən birinci dərəcəli tədbirdir. Paralimpiya oyunları, təbii ki, Olimpiya oyunlarının bir növ kölgəsində qalır. Ancaq biz elə etməliyik ki, bu oyunlara da diqqət azalmasın və dövlət, idmanın inkişafına cavabdehlik daşıyan qurumlar və şəxslər Azərbaycanda paralimpiya hərəkatının inkişafı üçün öz səylərini davam etdirsinlər.

Biz bu barədə çox danışa bilərik, amma daha yaxşısı bizim gördüyümüz işlərdir və bu gözəl paralimpiya kompleksinin timsalında biz Azərbaycanda son illər ərzində bu sahədəki işlərin nəticəsini görürük.

Mən əminəm ki, siz bu kompleksdən Pekin Paralimpiya Oyunlarına hazırlıq baxımından da səmərəli şəkildə istifadə edəcəksiniz, baxmayaraq ki, artıq bir neçə gündən sonra siz yola düşürsüz. Əminəm ki, sonrakı dördillik dövr ərzində peşəkarlığınızı yüksək səviyyədə saxlamaq üçün burada bütün imkanlar, bütün şərait var.

Onu da demək istəyirəm ki, Azərbaycan dövləti paralimpiyaçıların mükafatlandırılması üçün lazımi tədbirlər görür və görəcəkdir. Keçən dəfə biz bunu etdik. İndi də mən sərəncam imzalamışam və sərəncama əsasən Paralimpiya oyunlarında yüksək nəticələr qazanan idmançılara pul mükafatı veriləcəkdir. Birinci yer üçün 200 min manat, ikinci yer üçün 100 min manat, üçüncü yer üçün isə 50 min manat vəsait veriləcəkdir. Mən hesab etmirəm ki, bu, böyük bir stimuldur. Ancaq bu sizin fəaliyyətinizə dövlət tərəfindən verilən qiymətdir və əminəm ki, ədalətli bir qərardır.

Sizin hamınızı bu gözəl idman mərkəzinin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və Pekində uğurlar, qələbələr arzulayıram.

***

**V a q i f  M ü s ə d d i q** (*Əməkdar məşqçi*) : Möhtərəm cənab Prezident!

Azərbaycan paralimpiyaçıları onlara hədiyyə etdiyiniz bu gözəl kompleksə görə Sizə öz minnətdarlıqlarını bildirirlər.

Bu gün tarixi bir gündür. Sizin qeyd etdiyiniz kimi, MDB dövlətləri arasında bu, paralimpiyaçılar üçün tikilmiş birinci kompleksdir. Tarixi gündür ona görə ki, bu işlərlə əlaqədar ulu öndərimizin fikir və arzusu həyata keçmişdir.

Cənab Prezident, 2000-ci ilin oktyabr ayı Sizin xatirinizdədir. Biz Sidney Paralimpiya oyunlarından qayıdandan sonra ulu öndərimiz bizi qəbul etdi. Həmin qəbulda mənə də söz verilmişdi. Mən çıxışımın sonunda bütün paralimpiyaçılar adından ulu öndərimizdən xahiş etdim ki, bizim üçün də bir idman kompleksi inşa olunsun. Ulu öndərimiz bu xahişimizə müsbət fikrini bildirdi və dərhal öz göstərişlərini verdi. Budur, indi biz bunun bəhrəsini görürük.

Bu paralimpiya bazası dahi insanın fikir və arzularının reallaşmasının bariz nümunəsidir. Ona görə də biz inanırıq ki, ulu öndərimizin ölkəmizlə bağlı, xalqımızla bağlı bütün fikir və arzuları Sizin rəhbərliyiniz altında indiyə kimi pillə-pillə necə reallaşıbsa, sabah da reallaşacaqdır.

Möhtərəm cənab Prezident, bizə göstərdiyiniz diqqət və qayğıya görə bütün paralimpiyaçılar Sizə bir daha öz dərin minnətdarlıqlarını bildirirlər.

Bir məsələyə də toxunmaq istərdim. Sizin 2008-ci il 5 fevral tarixli Sərəncamınızla paralimpiyaçı rəhbərlərə, idmançı və məşqçilərə fəxri adlar və medallar verilmişdi. Buna görə çox sağ olun. Biz söz veririk ki, Pekin Paralimpiya oyunlarında əlimizdən gələni əsirgəməyəcək, uğurla çıxış edəcək və ölkəmizə mümkün qədər çoxlu medallar gətirəcəyik.

Möhtərəm cənab Prezident, biz həmişə sizinləyik. Çox sağ olun.

* * *

**İ l h a m  Z ə k i y e v** (*Afina Paralimpiya oyunlarının cüdo üzrə qalibi, yığma komandanın kapitanı*): Möhtərəm Prezident, paralimpiyaçıların əziz və sevimli dostu!

1999-cu ildə Qarabağda düşmən snayperinin gülləsindən başımdan aldığım ağır yara nəticəsində görmə qabiliyyətimi tamam itirdim. Yaşamağa ümid tükəndiyi bir vaxtda milli Paralimpiya Komitəsi Allahın izni ilə mənim köməyimə çatdı. Əvvəllər cüdo ilə məşğul olmağım, sözün əsl mənasında, məni yenidən həyata qaytardı. Məndə özümə inam və qələbə əzmi yarandı və iştirak etdiyim ilk Paralimpiya oyunlarından – Afinadan vətənə qızıl medalla döndüm. Bundan sonra mən dünya və ikiqat Avropa çempionu oldum.

Ötən dörd il komanda yoldaşlarım üçün də çox uğurlu oldu. Cənab Prezident, Sizin Paralimpiya Komitəsinə, paralimpiya hərəkatına göstərdiyiniz diqqət və qayğı olmasaydı, nə mən, nə də komanda yoldaşlarım bu qələbələri əldə edə bilməzdik. Şəxsən mən Sizin diqqət və qayğınızı həmişə hiss etmişəm. 2005-ci ildə Sizin tapşırığınızla məni İsrailə müayinəyə göndərdilər. Həmin ildə mən el adət-ənənəsi ilə toy elədim. Toyda da mən Sizin diqqətinizi hiss etdim. Mənə QAZ–31» markalı maşın hədiyyə etdiniz. Fürsətdən istifadə edib, Sizə təşəkkürümü bildirirəm.

Cənab Prezident, Sizin xeyir-duanızla, inşallah, Pekin Paralimpiya Oyunlarına yola düşürük. Bu oyunlarda Azərbaycanın bayrağını dalğalandırmaq şərəfi komandanın kapitanı kimi, mənə həvalə olunubdur. Çalışacağam ki, bu etimadı Pekində qazandığım növbəti qələbəmlə doğruldum.

Çox sağ olun.

* * *

**İ l h a m  Ə l i y e v :** Sağ olun, xoş sözlərə görə təşəkkür edirəm. Bilin ki, mən həmişə sizinləyəm, həmişə sizinlə olacağam.

Mən xatırlayıram ki, 8 il bundan əvvəl ulu öndər Heydər Əliyevə müraciət edilmişdi və çox şadam ki, bu gün biz o müraciətin nəticəsini görürük. Doğrudan da verilən o qərar və artan imkanlarımız bizim üçün bu şəraiti yaradır. Biz də çalışırıq ki, Azərbaycanın ümumi uğurlu inkişafının bəhrəsini hər bir vətəndaş, hər bir insan görsün. Bunu etmək üçün müxtəlif sosial proqramlar icra olunur, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə də böyük işlər görülür. Bu kompleksin tikintisində onların böyük zəhməti, rolu olubdur.

İnsanların yaxşı yaşaması, maaşların, pensiyaların, sosial müavinətlərin artırılması üçün son illər ərzində çox böyük işlər görülübdür. İndi təxminən 500 minə qədər insan dövlət tərəfindən sosial yardım alır. Əvvəlki illərdə bunu biz böyük miqdarda edə bilmirdik, halbuki, həmişə buna böyük ehtiyac var idi. Bu gün isə bizim imkanlarımız var. Uğurlu iqtisadi siyasət, aparılan islahatlar nəticəsində bizim maddi imkanlarımız son 5 il ərzində 10 dəfədən çox artıbdır. Ən önəmlisi odur ki, biz bu imkanlardan insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün istifadə edirik. Ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin qaldırılması çox vacibdir. Düzdür, yoxsulluq şəraitində yaşayanların sayı son illər ərzində xeyli azalıbdır. Ancaq yenə də var. Vətəndaşlarımızın 16 faizi yoxsulluq şəraitində yaşayır. Görülən tədbirlər nəticəsində hər il bu rəqəm azalır. Ümid edirəm ki, gün gələcək, Azərbaycanda yoxsul adam olmayacaqdır. Yəni dövlət qayğısı bütün insanlara göstərilməlidir.

Azərbaycan güclü iqtisadi imkanlara malikdir. Biz bazar iqtisadiyyatı prinsipləri əsasında işləyirik. Ancaq güclü sosial siyasət həmişə olmalıdır. Bunun müxtəlif yolları var. Bayaq qeyd etdiyim kimi, həm maaşların, pensiyaların, sosial müavinətlərin artırılması, həm də ki, güclü sosial infrastrukturun yaranması. Bu kompleks həm idman infrastrukturudur, həm də sosial infrastrukturdur. Yəni Azərbaycanın dövlət siyasətinin bu iki vacib istiqamətini özündə birləşdirir.

Bir də demək istəyirəm ki, paralimpiyaçılar, sözün əsl mənasında, fədakar insanlardır. Onlar zədələrdən, yaralardan, bəzən sağalmayan yaralardan əziyyət çəkirlər. Ancaq buna baxmayaraq, öz fədakarlıqlarını göstərərək, idmanla məşğul olur, Azərbaycanı təbliğ edirlər. Beynəlxalq yarışlarda Azərbaycanın bayrağını qaldırırlar və Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir. Azərbaycan dövləti də çalışır əlindən gələni etsin ki, sizin şəraitiniz, həyatınız daha da yaxşı olsun.

Mən sizə bir də demək istəyirəm ki, həmişə olduğu kimi, biz birlikdə olacağıq, hər bir Azərbaycan vətəndaşı kimi, mən də sizin bütün uğurlarınıza sevinirəm və sizə daha yaxşı şərait yaratmaq üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

Əminəm ki, Pekindən qayıdandan sonra biz sizin qələbələrinizi birlikdə qeyd edəcəyik.

***

*Sonda paralimpiya yığma komandasının üzvləri dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.*

*Prezident İlham Əliyev beynəlxalq yarışların, zona yarışlarının və təlim-məşq toplanışlarının iştirakçıları üçün kompleksin ərazisində inşası nəzərdə tutulan mehmanxananın konseptual layihəsi ilə də tanış oldu. Ümumi sahəsi 1120 kvadratmetr olacaq ikimərtəbəli mehmanxanada 30 otaq tikiləcəkdir.*

## YENİDƏN QURULMUŞ MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA

*28 avqust 2008-ci il*

*Prezident İlham Əliyev Sumqayıtda yenidən qurulmuş Nəsimi adına mədəniyyət və istirahət parkında olmuşdur.*

*Buradakı «Göyərçin» abidəsi və park dövlətimizin başçısının tapşırığı ilə yenidən qurulmuşdur.*

*Parkda yerə daş piltələr döşənmiş, dekorativ gül kolları və ağaclar əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmış, köpüklü fəvvarə tikilmişdir. Sakinlərin istirahəti üçün lazımi şəraitin yaradıldığı parkda iaşə obyektləri də fəaliyyət göstərir. Sumqayıtda «Yeni ailə quranlar günü» hər il iyul ayında bu parkda qeyd edilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdilər.*

**S a k i n:** Cənab Prezidentimiz, qəhrəman Sumqayıt şəhərinə xoş gəlmisiniz. Allah-Taaladan Sizə uzun ömür, cansağlığı, işinizdə müvəffəqiyyətlər arzu edirəm. İnsanlarımızı mehribanlığa, həmrəyliyə çağırıram. Sumqayıtdakı bu gözəl bərpa işlərinə, bu komplekslərə, məscidlərə, bu parklara görə çox sağ olun. Allah rəhmət eləsin Heydər Əliyevə, onun qoyduğu təməldir, indi də Siz davam etdirirsiniz. Mehriban xanım, çox sağ olun, var olun, xoş gəlmisiniz.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Sumqayıta gələndə sevinirəm ki, şəhər gözəlləşir, abadlaşır, yaxşı xiyabanlar, küçələr salınır. Bu park da gözəlləşibdir. Xatırlayıram, bir neçə il əvvəl bu parka gəlmişdim, vəziyyət o qədər də ürəkaçan deyildi.

**S a k i n:** Heç yox idi, bərbad halda idi.

**İ l h a m Ə l i y e v:** Amma görün indi nə gözəl olubdur.

**S a k i n:** Deyəsən beşinci dəfədir buraya gəlirsiniz. Rəhmətlik atanız, ulu öndər Heydər Əliyev Sumqayıtı çox sevirdi, sumqayıtlıları da çox sevirdi. Görürük ki, Siz də bizi sevirsiniz. Çox sağ olun, bizim şəhərin işi ilə məşğulsunuz, problemləri ilə maraqlanırsınız, həll edirsiniz. Mən Sumqayıtın Ağsaqqallar Şurasının sədriyəm. Siz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasəti uğurla aparırsınız. Biz ağsaqqallar, sumqayıtlılar Sizə arxa-dayağıq. Sizə cansağlığı, uzun ömür, ailə səadəti, Sizin rəhbərliyiniz altında ölkəmizə əmin-amanlıq, ən xoş günlər diləyirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun, mən Sumqayıtın inkişafına doğrudan da çox böyük diqqət göstərirəm və işlərlə maraqlanıram. Biz Sumqayıtı çox müasir sənaye şəhərinə çevirməliyik. Sumqayıt məhz bu məqsədlər üçün də salınıbdır. Amma əvvəllər tikilmiş fabriklər, zavodlar bu gün artıq köhnəlibdir.

**S a k i n:** 250 minlik Sumqayıtda indi 500 min əhali yaşayır. 500 min əhali işıq, su, qaz, çörək – hamısı ilə təmin olunur. Şəhərdə çoxlu qaçqın-köçkün vardır. Bu da böyük problemdir. Şəhərdə hər şey, bütün kommunikasiya 250 min əhali üçün nəzərdə tutulmuşdu. Amma indi olub 500 min əhali. Hələ gəlib-gedən qonaqları demirəm.

**İ l h a m Ə l i y e v:** Bəli, buna görə biz son illər ərzində ən böyük elektrik stansiyasını məhz Sumqayıtda tikirik. 517 meqavat gücündə stansiya həm Sumqayıtı dayanıqlı elektrik enerjisi ilə təmin edəcək, həm də, ümumiyyətlə, bizim energetika sistemimizi sağlamlaşdıracaqdır. Bakı–Sumqayıt yolunun tikintisi artıq başa çatıbdır. Beton örtüklü gözəl yoldur. İndi beton örtüklü yollar ancaq dünyanın ən inkişaf etmiş ölkələrinin ən birinci şəhərlərində salınır. Bu ətrafda heç yerdə beton örtüklü yol yoxdur. Biz bunu Bakıdan Sumqayıta tikdik. İndi Sumqayıtdan şimal sərhədinə qədər gedəcəkdir. Şəhərlərarası yol işıqlandırılacaqdır. Mən bunu bilirəm, işıqlandırılan şəhərlərarası yollar ancaq nadir hallarda

Avropanın ən böyük şəhərlərində var. Başqa şəhərlərarası yollarda işıq yoxdur. Burada isə olacaqdır.

Yəni bütün bunlar şəhər üçün, insanların yaxşı, rahat yaşaması üçündür. Binalar rənglənir, bərpa olunur, xiyabanlar, parklar salınır. Kanalizasiya, su təchizatı məsələləri həll edilir. Məktəblər tikilir, təmir olunur. Bu gün mən böyük Paralimpiya Kompleksinin açılışında iştirak etdim. Ondan əlavə, böyük idman kompleksi tikilir. Yəni bütün bunlar onun üçündür ki, insanlar yaxşı yaşasınlar. Bura həm böyük, həm də müasir sənaye şəhəri olacaqdır. Yəni Azərbaycana lazım olan sənaye müəssisələrində insanlar işlə təmin edilsinlər və həm sosial məsələlərin həlli, insanların rahatlığı üçün, həm də gözəllik üçün şəhərin böyük imkanları olsun. Siz burada yaşayırsınız, məndən daha yaxşı bilirsiniz ki, son illər ərzində burada böyük işlər görülübdür.

**S a k i n:** Sizi Sumqayıt gəncləri adından salamlamaq, gənclərə, gənc ailələrə göstərilən dövlət qayğısına görə təşəkkürümü bildirmək istəyirəm. Elə bu Paralimpiya Kompleksinin tikintisi hər cəhətdən sağlam gənclərin yetişməsi üçün böyük imkan yaradır. Yəni gənclər pis vərdişlərdən uzaq olurlar. Həqiqətən də biz bunun şahidiyik, həyatda öz gözlərimizlə görürük. Bütün bunlara görə Sizə çox sağ olun deyirik.

Pekində idmançılarımızın uğurlarını, Sizin onlara dəstək olmağınızı, Azərbaycan bayrağının qalxmasını görəndə, himnimizi eşidəndə sevincdən göz yaşlarımız axırdı. Doğrudan da qürur hissi keçiririk. Cənab Prezident, Sumqayıt gəncləri hər zaman Sizinlə olacaqdır. Mən bunu tam əminliklə deyirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bizim həm çox gözəl, vətənpərvər gənc nəslimiz yetişir, həm də veteranlarımız belə möhkəmdirlər.

**S a k i n:** İlham müəllim, bütün müəllimlər adından, bütün veteranlar adından Sizə öz təşəkkürümüzü bildiririk ki, Siz pensiyaçıların təqaüdünü 25 faiz artırdınız. Bu, gələcəkdə bizim güzəranımızın yaxşı olmasından xəbər verir. Təşəkkür edirik, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, bəli və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanda ildə iki dəfə pensiyaların və minimum əməkhaqqının həddi qaldırılır və bundan sonra da biz bunu edəcəyik. Bizim iqtisadi islahatlarımız, iqtisadi imkanlarımız, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyamız buna imkan yaradır. İndi Azərbaycan çox sabit ölkədir. Hər bir inkişaf üçün ən başlıca şərt sabitlikdir. Bu da var, Azərbaycan inkişaf edir, vətəndaşlar təhlükəsizlik, sülh, əmin-amanlıq şəraitində yaşayırlar.

**S a k i n:** Cənab Prezident və Mehriban xanım, Sumqayıt şəhərinə xoş gəlmisiniz. Ümummilli liderimiz Heydər Əliyevə Allah rəhmət eləsin. Mən onunla çox görüşmüşəm, onunla şəklim də var. İkinci dəfədir ki, Sizinlə görüşürəm. Yenə də deyirəm, xoş gəlmisiniz, qədəmləriniz uğurlu olsun.

Rəhmətlik Heydər Əliyevin apardığı siyasəti Siz davam etdirirsiniz, onun qoyduğu yolla gedirsiniz. Bu beş ildə hər sahədə nə qədər inkişaf var, bunlar barədə çox danışmaq olar. Əfv fərmanına, pensiyaların artırılmasına görə minnətdarıq Sizə. Siz də var olun, sağ olun, Mehriban xanım.

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

* * *

*Daha sonra prezident İlham Əliyev Sumqayıtın 3-cü mikrorayonuna – Sülh və Bakı küçələrinin kəsişməsindəki əraziyə gəldi.*

*Dövlətimizin başçısının tapşırığına əsasən buradakı 12 mərtəbəli üç bina müasir üslubda üzlənmiş, park yenidən qurulmuş, fəvvarə tikilmişdir. Ətrafda abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada da şəhər sakinləri ilə görüşüb söhbət etdilər.*

**S a k i n:** Biz belə yerləri gəzəndə ulu öndərin nəfəsini, ruhunu hiss edirik. Sizə olduqca minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Binalar da gör necə gözəlləşib.

**S a k i n:** Sizin köməyinizlə, Sizin sayənizdə. Hamısı Sizin rəhbərliyiniz altında olub, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Şadam ki, Sumqayıtda işlər yaxşı gedir. İş yerləri açılır, zavod, fabrik tikilir və tikiləcəkdir. Sumqayıt ən müasir şəhərə çevrilir. Əvvəllər şəhərə daxil olanda bura yaxşı görünmürdü.

**V a q i f Ə l i y e v** (*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*): Buranı tamamilə yenidən qurduq. Müasir oturacaqlar, dibçəklər qoyulmuşdur. Sumqayıtda parklara nə qədər oturacaq qoysan, dincəlməyə bir o qədər insan gəlir.

**İ l h a m Ə l i y e v:** Şəhər böyüyür, əhali artır.

**V a q i f Ə l i y e v:** Oturacaqları nə qədər artırsaq da, kifayət etmir.

**İ l h a m Ə l i y e v:** İnsanların istirahəti üçün belə yerlər mütləq çox olmalıdır. Çünki insanlar axşam evdə oturmaqdansa, burada gəzməyə, dincəlməyə, istirahət etməyə gəlirlər.

**S a k i n:** Ən əsası odur ki, əmin-amanlıq olsun, Sizin sayənizdə biz buna nail olmuşuq.

**İ l h a m Ə l i y e v:** Bəli, həmişə belə də olacaq. Növbəti beş il ərzində Sumqayıtın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Bura ən müasir şəhərə çevrilməlidir və çevrilir.

**V a q i f Ə l i y e v:** Sizin bayaq qeyd etdiyiniz 517 meqavat gücündə elektrik stansiyası Sumqayıtın sənayesinin inkişafına çox böyük təkan verəcəkdir.

**İ l h a m Ə l i y e v:** Alüminium zavodu, ondan sonra böyük kabel zavodu tikilir. O, zavod deyil əslində, sənaye kompleksidir.

***

*Prezident İlham Əliyev Sumqayıtın müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdiriləcəyini, ölkənin sosial-iqtisadi siyasətinin daha da gücləndiriləcəyini vurğuladı.*

*Sumqayıt sakinləri Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın fəaliyyətindən də razılıqlarını bildirdilər.*

***

*Prezident İlham Əliyev Sumqayıtda reallaşdırılacaq digər tədbirlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

# ŞƏHİD AİLƏLƏRİNƏ VƏ ƏLİLLƏRƏ MƏNZİLLƏRİN ORDERLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*28 avqust 2008-ci il*

*Avqustun 28-də Sumqayıtda Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və Çernobıl qəzası əlilləri üçün tikilmiş dördmərtəbəli 36 mənzilli yaşayış binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə tikilmiş binaya əlillərin rahat daxil olmaları üçün xüsusi giriş quraşdırılmış, hər bir mənzil mebel və digər məişət avadanlığı ilə təmin edilmişdir.*

*Azərbaycan prezidentinin adından hər bir ailəyə televizor və soyuducu hədiyyə olunmuşdur.*

*Binaya qaz, elektrik və su xətləri çəkilmiş, bütün mənzillər telefonlaşdırılmış, mərkəzi istilik sistemi, yanğın əleyhinə xəbərdarlıq siqnalı quraşdırılmışdır.*

*Ətrafda abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Prezident İlham Əliyev yeni mənzillərin orderlərini sakinlərə təqdim etdi.*

*Azərbaycanın Milli Qəhrəmanı, şəhid Vasili Əliyevin həyat yoldaşı, polis mayoru Aygün Əliyeva yeni mənzil alanlar adından dövlətimizin başçısına minnətdarlıq edərək dedi:*

– Hörmətli Prezident, xoş gəlmisiniz. İcazə verin, şəhid ailələri adından, əlillər adından Sizə öz minnətdarlığımızı bildirək. 1992-ci ildə həyat yoldaşım torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid olmuşdur, Azərbaycanın Milli Qəhrəmanıdır. Mən özüm də həyat yoldaşımla birgə döyüş-

müşəm, müharibə veteranıyam. Bu gün də daxili işlər orqanlarında xidmət edirəm, polis mayoruyam.

Cənab Prezident, bizim üçün çox əziz bir gündür, sevincimizin həddi-hüdudu yoxdur. Bütün şəhid ailələri adından, müharibə veteranları adından Sizə dərin minnətdarlığımızı bildiririk. O qədər həyəcanlıyam, o qədər sevincliyəm ki, cənab Prezident, nə deyəcəyimi bilmirəm. Bu binanın xarici görünüşü də, daxili quruluşu da çox gözəldir.

Cənab Prezident, biz Sizin siyasətinizə inanırıq, ulu öndərimizin davamçısısınız. 1996-cı ildə mənə ulu öndərimizlə görüşmək qismət olmuşdu. Bu gün də mənim üçün çox xoş gündür ki, onun davamçısı, gözəl siyasətçimiz – Sizinlə görüşürəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Çox sağ olun. Hamınızı təbrik edirəm. Xoşbəxt yaşayın. Həm xarici görünüşü baxımından, həm də ki, daxili təchizatı baxımından gözəl binadır. Burada çox gözəl standartlar tətbiq olunubdur. Ümumiyyətlə, son illər ərzində Azərbaycanda şəhid ailələri, Qarabağ əlilləri üçün binaların, evlərin tikintisi çox geniş vüsət almışdır. Demək olar ki, ölkəmizin hər bir yerində belə binalar tikilir və mənzillər paylanır. Siz buna layiqsiniz. Siz daha da böyük hörmətə, diqqətə layiqsiniz. Azərbaycan uğrunda, Vətən uğrunda şəhid olmuş insanların ailələri, yaralanmış, zədə almış, xəsarət almış insanlar, əlil olmuş insanlar dövlət tərəfindən maksimum dərəcədə qayğı ilə əhatə olunmalıdırlar. Biz çalışırıq bunu edək. Azərbaycan güclü sosial siyasət aparmaqla həm öz dövlət siyasətini, öz niyyətini göstərir, həm də ki, insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün çox böyük işlər görür. Biz gələcəkdə bu siyasəti davam etdirəcəyik və ehtiyacı olan, növbədə dayanan hər bir insanın məişət problemlərinin həlli üçün çalışacağıq. Bundan sonrakı illərdə bu daha da geniş tətbiq olunacaqdır. Çünki Azərbaycan dövlətinin iqtisadi imkanları böyüyür, möhkəmlənir, bizim dövlət büdcəmiz artır.

Əlbəttə ki, sosial məsələlərin həlli üçün bundan sonrakı illərdə daha da böyük vəsait ayrılacaqdır. Biz çalışmalıyıq ki,

Azərbaycanda ehtiyac içində yaşayan insanların sayı azalsın, xüsusilə Vətən uğrunda böyük xidmətlər göstərmiş, öz sağlamlığını itirmiş, yaxınlarını itirmiş insanlar üçün bütün tədbirlər görülməlidir.

Siz Vətən uğrunda, Azərbaycanın müstəqilliyi uğrunda döyüşmüsünüz, vuruşmusunuz. Bu gün Azərbaycan müstəqil dövlət kimi, uğurla inkişaf edir. Bütün problemlər öz həllini tapır və tapacaqdır. O cümlədən, şübhə etmirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də həlli beynəlxalq hüquq normaları və prinsipləri əsasında olacaqdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt öz ərazi bütövlüyünü güzəştə getməyəcək, heç vaxt Dağlıq Qarabağın müstəqil olmasına imkan verməyəcəkdir.

Azərbaycanın razılığı olmadan heç vaxt Dağlıq Qarabağ müstəqil qurum kimi tanınmayacaqdır. Biz heç vaxt buna razılıq verməyəcəyik. Biz tələb edirik ki, münaqişə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır, dəstəklənir. Bu yaxınlarda bu barədə yeni bəyanatlar səslənmişdir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qəbul edilmiş 4 qətnaməsində göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır və bütün işğalçı qüvvələr bizim torpaqlarımızdan qeyd-şərtsiz çıxmalıdır. Biz buna çalışırıq və danışıqların əsas mahiyyəti bundan ibarətdir.

Bir də demək istəyirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün bütün imkanlardan istifadə edəcəkdir. Biz həm siyasi, həm iqtisadi, diplomatik və hərbi imkanlarımızdan istifadə etmək hüququndayıq. Bu bizim təbii hüququmuzdur və bir də demək istəyirəm ki, beynəlxalq hüquq normaları da bu hüququ bizə verir.

Azərbaycanın Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, mən bundan sonra da ordu quruculuğuna böyük diqqət göstərəcəyəm. Bildiyiniz kimi, son illər ərzində bu sahədə çox böyük nailiyyətlər vardır. Azərbaycan Ordusu bölgədə ən güclü ordudur və bu il keçirilmiş hərbi parad bunu

bir daha göstərdi. Həm Azərbaycanı sevən insanlara, həm də Azərbaycana düşmənçilik mövqeyində dayanan qurumlara bunu göstərdik. Biz ordu quruculuğu prosesini davam etdirəcəyik. İldən-ilə artan hərbi xərclər Azərbaycan Ordusunu gücləndirir. Azərbaycan Ordusu istənilən anda öz ərazisində istənilən əməliyyatı apara bilər, heç kim bu işlərə müdaxilə edə bilməz. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verməyəcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm. Əminəm ki, siz bu gözəl evlərdə yaxşı yaşayacaqsınız, xoşbəxt yaşayacaqsınız.

***

*Sonra prezident İlham Əliyev mənzillərlə tanış oldu. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov bildirdi ki, binanın tikintisinə 2007-ci ildə başlanılmışdır. Mənzillərin 5-i şəhid ailələri, 29-u Qarabağ müharibəsi əlilləri, 2-si isə Çernobıl qəzası əlilləri üçün ayrılmışdır.*

*Dövlətimizin başçısı yeni mənzillərin sakinlərini bir daha təbrik etdi və onlara ən xoş arzularını bildirdi.*

## XXIX PEKİN YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*29 avqust 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev avqustun 29-da XXIX Pekin Yay Olimpiya oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşmüşdür.*

*Görüşə toplaşanlar Azərbaycan prezidentini və ailə üzvlərini hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz idmançılar!

Əziz olimpiyaçılar!

Əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan milli olimpiya komandasının Pekin Yay Olimpiya oyunlarında qazandığı böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm.

Biz hamımız yaxşı xatırlayırıq ki, idmançıları Pekinə necə yola saldıq. Yola salanda inanırdıq ki, idmançılarımız Azərbaycanın idman şöhrətini yüksəklərə qaldıracaqlar, Azərbaycanın idman şöhrətini qoruyacaqlar və Vətənə qələbə ilə qayıdacaqlar. Belə də oldu. Belə fikirləşmək üçün bizim bütün əsaslarımız var idi. Çünki Azərbaycan idman dövlətidir. Bunu həm biz deyirik, həm də beynəlxalq idman qurumlarının rəhbərləri etiraf edirlər.

Azərbaycanda idman çox sürətlə inkişaf edir. Azərbaycanda çox güclü idmançılar var, güclü məşqçilər var. İdmançıların peşəkarlığı yüksək səviyyədədir. Bizim idmançılarımız keçən

dörd il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında böyük uğurlar qazanmışlar, medallar qazanmışlar. Azərbaycanda çox güclü idman infrastrukturu yaradılır. Bütün bölgələrdə müasir olimpiya idman kompleksləri tikilir. Onların 13-ü istismara verilibdir, 23-ündə isə tamamlama işləri gedir.

Azərbaycanda dövlət tərəfindən idmanın inkişafına çox böyük dəstək var və məqsədyönlü proqramlar icra olunur. Yəni bütün bu amillər və bununla bərabər, idmana məsuliyyət daşıyan bütün qurumların – Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin, federasiyaların, idman cəmiyyətlərinin, klublarının birgə fəaliyyəti belə deməyə əsas verirdi ki, idmançılarımız Vətənə qələbə ilə qayıdacaqlar. Mən çox şadam ki, bu gün biz bu böyük qələbəni birlikdə qeyd edirik.

Olimpiya oyunları kimi çox böyük və dünyanın ən mötəbər idman yarışında 7 medal qazanmaq çox böyük nailiyyətdir, böyük uğurdur və bizim hamımızı çox sevindirir. Müstəqil dövlət kimi, Azərbaycan Yay Olimpiya oyunlarında dörd dəfə iştirak etmişdir və hər dəfə daha da böyük nailiyyətlər qazanmışdır. İlk dəfə Atlantada 1 gümüş medal qazanılmışdı, sonra Sidneydə 2 qızıl, 1 bürünc, ondan sonra Afinada 1 qızıl, 4 bürünc və bu dəfə Pekində 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıldı. Bu doğrudan da böyük nailiyyətdir və onu göstərir ki, idmançılarımızın çox böyük potensialı, çox böyük peşəkarlığı var.

Nəzərə alsaq ki, bizim idmançılarımızın bir neçəsi medala çox yaxın idi, yəni bir addımlığında idi, gümüş və bürünc medal qazanan idmançılar daha da böyük uğur əldə edə bilərdilər – bəzən onların bəxti gətirmədi, bəzən təsadüf, bəzən hakimlərin qeyri-ədalətli qərarları ucbatından mümkün olmadı – görürük ki, doğrudan da bizim çox böyük imkanlarımız var. Medalların sayı 10 da ola bilərdi, ondan da çox ola bilərdi, ondan da az ola bilərdi, çünki bu idmandır. Siz idmançılar bunu yaxşı bilirsiniz ki, idmanda qələbə də olur, məğlubiyyət də olur. Qələbə bizi

daha da ruhlandırır, məğlubiyyət isə nəticə çıxarmağa sövq edir. Hər bir yarışda idmançıların imkanları özünü büruzə verir, xüsusilə Olimpiya oyunlarında. Bu, idmançılarda çox böyük bir psixoloji gərginlik yaradır. Biz hamımız bunu yaxşı başa düşürük. Bizim idmançılarımız göstərdilər ki, onlar həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən güclüdürlər, möhkəmdirlər və doğma Vətənin üçrəngli bayrağının dalğalanması üçün onlardan nə asılı idisə, onu etdilər.

Sevindirici hal ondan ibarətdir ki, medal qazanan bütün idmançılar Olimpiya oyunlarında ilk dəfədir ki, medal qazanırlar. Bu da çox vacib göstəricidir. Bu onu göstərir ki, son dörd il ərzində bu idmançılar belə böyük nailiyyətlərə çatıblar. Bu onu göstərir ki, keçən dörd il ərzində Azərbaycanda idmanın inkişafında, idmançıların hazırlanmasında çox böyük işlər görülmüşdür. Mən burada xüsusilə məşqçilərin fəaliyyətini qeyd etmək istəyirəm. Azərbaycanda çox güclü məşqçi korpusu yaranmışdır və bu da bizim uğurlarımızın vacib şərtidir. Yəni bütün bu amillər bizi idman dövləti kimi daha da gücləndirir, Azərbaycanın nüfuzu artır, Azərbaycanın idman imkanları daha da genişlənir.

Əlbəttə, mən tam əminliklə deyə bilərəm ki, bu uğurlu çıxışdan sonra gənc nəsildə, uşaqlarda idmanla məşğul olmaq üçün daha da böyük maraq olacaqdır. Bu, böyük stimul olacaqdır. Bizim çempionlarımız, medal qazanan idmançılar – onlar gənc nəsil üçün nümunədirlər. Bizim uşaqlarımız sizə oxşamaq istəyəcəklər. Onlar idman bölmələrinə daha da böyük həvəslə gedəcəklər. İndi bunu etmək üçün bütün imkanlar var. Qeyd etdiyim kimi, Azərbaycanda idman infrastrukturu çox güclənib və möhkəmlənibdir.

Əlbəttə, bütün bu amillər onu göstərir ki, müstəqil dövlət kimi, Azərbaycan uğurla inkişaf edir. Müstəqilliyi şərtləndirən müxtəlif amillər var. Həm müstəqil siyasət aparmaq imkanlarımız, güclü iqtisadiyyat, güclü sosial siyasət, ölkəmizdə sabitliyin, əmin-amanlığın bərqərar olunması, Azərbaycanda təhlükəsizliyin təmin olunması – yalnız belə şəraitdə

idmanın inkişafı mümkündür. Kasıb ölkələrdə, problemlərlə üz-üzə qalan ölkələrdə idman, adətən, sürətlə inkişaf etmir. Ümumiyyətlə, idmanın inkişafı hər bir ölkənin potensialının əlamətidir, onun təzahürüdür. Təsadüfi deyil ki, Azərbaycan – dinamik, çox sürətlə inkişaf edən ölkə və iqtisadi artım baxımından son üç il ərzində dünyada birinci yerdə olan ölkə güclü idman imkanlarına da malikdir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və bu gözəl bayram günündə bunları deməklə, sadəcə olaraq, mən bizim son illər ərzində gördüyümüz işlərin bir hissəsini sizin diqqətinizə bir daha çatdırmaq istəyirəm.

Mən bütün idmançılara, bizim bütün qəhrəmanlara öz minnətdarlığımı bildirmək istəyirəm. Siz Azərbaycan xalqını sevindirmisiniz. İki həftə ərzində bütün vətənpərvər insanlar televiziya vasitəsilə sizin yarışlarınızı izləyirdilər, sizə azarkeşlik edirdilər və sizin qələbənizi öz qələbələri kimi qəbul edirdilər. Bu, Azərbaycan dövlətinin qələbəsidir. Hər bir idmançının və eyni zamanda, Azərbaycan dövlətinin qələbəsidir.

Mən xüsusilə medal qazanmış idmançılarımızın fəaliyyətini vurğulamaq istəyirəm. Onlar çox gərgin şəraitdə medallar qazanmışlar. Onlar bu medallara layiqdirlər. Hamı görürdü ki, onlar öz məharəti, peşəkarlığı hesabına bu medalları qazanmışlar. Bir daha demək istəyirəm ki, bizim idmançılarımız daha da böyük nailiyyətlərə çata bilərdilər, əgər bəzi subyektiv məsələlər ortaya çıxmasaydı, bizim qızıl medalların da sayı çox ola bilərdi. Ümumiyyətlə, medal alan idmançıların sayı çox ola bilərdi. Ancaq mən əminəm ki, gələcəkdə, gələcək yarışlarda siz bu uğurlu yolu davam etdirəcəksiniz.

Olimpiya oyunları bir mərhələ idi. Bu mərhələ artıq arxada qalmışdır. Növbəti dövr başlayır. Növbəti dövr ərzində siz Avropa, dünya çempionatlarında, beynəlxalq yarışlarda artıq çempionlar kimi, medal qazanan idmançılar kimi iştirak, çıxış edəcəksiniz. Əlbəttə ki, siz bütün yarışlarda favorit olacaqsınız.

Mən bir daha demək istəyirəm ki, milli komandanın bütün fəaliyyətini yüksək qiymətləndirirəm. Bu günlər ərzində biz daha da birləşdik, bütün Azərbaycan xalqı daha da birləşdi və

siz Azərbaycan xalqına sevinc gətirmisiniz, təbəssüm və qürur hissi bəxş etmisiniz.

Mən bu gün xüsusilə bizim gənc çempionumuzu, Elnur Məmmədlini qeyd etmək istəyirəm. Hesab edirəm ki, Elnur bütün Olimpiya oyunlarında bütün idman növləri üzrə ən istedadlı idmançılardan biridir. Onun qələbəsindən sonra mən dedim ki, araşdırın, görün Olimpiya oyunlarında belə bir hal olubmu ki, bir idmançı bütün görüşləri təmiz qələbə ilə başa vursun və final görüşündə dünya çempionunu cəmi 13 saniyə ərzində məğlub etsin, özü də gözəl şəkildə. Həm onun peşəkarlığı, həm onun vətənpərvərliyi və həm də ki, fəndləri çox estetik şəkildə etmək bacarığı bizim hamımızı heyrətləndirdi. Belə insanlar, belə gənclər hər bir gənc üçün nümunə olmalıdır. Bütün başqa idmançılar da çox gərgin mübarizədə qələbə qazanmışlar.

Ölkə prezidenti kimi və Milli Olimpiya Komitəsinin prezidenti kimi, mən Azərbaycan xalqı adından bütün idmançılara, onların məşqçilərinə, idman mütəxəssislərinə öz minnətdarlığımı bildirmək istəyirəm. İdmançıların uğurlu çıxışlarını nəzərə alaraq, mən bu gün onların və məşqçilərin dövlət tərəfindən mükafatlandırılması üçün müvafiq sərəncam imzalamışam və bu indi oxunacaqdır.

Sizi böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə növbəti qələbələr, uğurlar arzulayıram.

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin* «Azərbaycan milli olimpiya komandasının üzvlərinin təltif edilməsi haqqında» *sərəncamı oxundu.*

*Prezident İlham Əliyev Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXIX Yay Olimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Şöhrət» ordeni və «Tərəqqi» medalları, habelə pul mükafatları təqdim etdi, onlara bir daha uğurlar arzuladı.*

*Görüşdən sonra prezident İlham Əliyev olimpiyaçılarla və onların məşqçiləri ilə xatirə şəkli çəkdirdi.*

## ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENNMARKER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lennmarkeri qəbul etmişdir.*

*Qoran Lennmarker ölkəmizdə, xüsusilə Bakı şəhərində böyük iqtisadi inkişafın şahidi olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanda bütün sahələrdə sürətli inkişaf proseslərinin getdiyini bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRANKO SRVENKOVSKİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Makedoniya əlaqələrinin və əməkdaşlığının genişlənməsi bir-birinə dostluq hissləri bəsləyən xalqlarımızın rifahına daim töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2008-ci il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Sədr!

Milli bayramınız – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin inkişafı xalqlarımız arasında dostluq və əməkdaşlığın möhkəmlənməsi üçün daim geniş imkanlar açacaqdır.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2008-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Braziliya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2008-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və bütün Tacikistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Tacikistan arasında ənənəvi dostluq münasibətləri və çoxtərəfli əməkdaşlıq bizim birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafeyi naminə inkişaf edəcək, regionda təhlükəsizliyin və tərəqqinin təmin olunmasına kömək edəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, Sizə möhkəm cansağlığı, dövləti fəaliyyətinizdə uğurlar, dost Tacikistan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2008-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA «AZƏRBAYCAN–2008» MİLLİ SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*2 sentyabr 2008-ci il*

*Sentyabrın 2-də Bakıda Heydər Əliyev adına İdman və Konsert Kompleksində «Azərbaycan–2008» milli sərgisinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Respublika Sənaye və Ticarət Palatasının təşkil etdiyi sərgidə 185 yerli şirkətin məhsulları nümayiş etdirilir. Təmsil olunan müəssisələrin 11-i dövlət, qalanları isə qeyri-dövlət sektoruna aiddir. Sentyabrın 6-dək davam edəcək sərgidə Kənd Təsərrüfatı, Vergilər, Səhiyyə, Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Dövlət Neft Şirkəti, Milli Aviasiya, Yanacaq-Energetika, Tikinti kompleksi ilə yanaşı, Abşeron, Gəncə–Qazax, Şəki–Zaqatala, Lənkəran, Quba–Xaçmaz, Aran, Dağlıq Şirvan və Naxçıvan iqtisadi rayonları üzrə pavilyonlar yaradılmışdır. İqtisadi islahatların dərinləşməsində böyük əhəmiyyət kəsb edən özəlləşdirmə prosesinin həyata keçirilməsi nəticəsində 2003–2007-ci illərdə ümumi dəyəri 73,4 milyon manat olan 11,4 min kiçik müəssisə və obyekt, o cümlədən 223 sənaye, 3 kənd təsərrüfatı, 952 ticarət, 487 məişət xidməti, 293 iaşə müəssisəsi, 217 tikinti təşkilatı, 104 yanacaqdoldurma məntəqəsi, 3,5 min nəqliyyat müəssisəsi və nəqliyyat vasitəsi, 107 kommunal təsərrüfatı obyekti və 5,5 min digər obyekt və avadanlıq özəlləşdirilmişdir.*

*Dövlət və qeyri-dövlət sektorunu təmsil edən şirkət, firma və müəssisələrin məhsulları ilə tanış olan prezident İlham Əliyev əvvəlcə Naxçıvan Muxtar Respublikasına aid pavilyona baxdı. Məlumat verildi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyasının indiki mərhələdə uğurla davam etdirilməsi muxtar respublikada da müsbət nəticələr verir. Burada 110 yeni istehsal müəssisəsi fəaliyyətə başlamış, 250 növ məhsul istehsal olunur. Yerli istehsal nəticəsində əhalinin tələbatı 220 növ məhsul üzrə tamamilə ödənilir. İndiki sərgidə muxtar respublikanın 46 şirkətinin – «Naxçıvan» MMC, «Naxçıvan Mebel Fabriki» MMC, «Cahan Holdinq» kommersiya şirkəti, «Gəmiqaya şirkəti» MMC, «Ləzzət Qida Məhsulları» MMC, «Bərəkət Qida Məhsulları» MMC, «Dizayn» MMC, Babək «Şərab-2 Yeddilər ASK» MMC, Naxçıvan «Kərpic» ASC və başqalarının istehsalı olan tikinti materialları, ərzaq, elektrotexnika məhsulları, mineral sular, ümumiyyətlə, 100-dən çox çeşiddə məhsulu nümayiş etdirilir.*

*Prezident İlham Əliyev bu istehsal sahələrinin son 4 ildə yaradıldığını və daxili tələbatın böyük hissəsinin ödənildiyini vurğuladı.*

*«Kür» Məhdud Məsuliyyətli Cəmiyyətin guşəsi ilə tanış olan Azərbaycan prezidentinə məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində yaradılmış və yüksək texnologiyaya malik müəssisənin sərgidə nümayiş etdirilən kompyuterləri yeni layihə əsasında hazırlanır. Ümumiyyətlə, müəssisə 20-dən çox adda məhsul buraxır. Sərgidə göstərilən kiosk Nəqliyyat Nazirliyi üçün nəzərdə tutulubdur. Sərnişinlər onun vasitəsilə avtovağzallarda şəhərlərarası avtobusların hərəkət qrafiki, boş yerlərin sayı barədə məlumat ala və həmin yerləri bron, yaxud sifariş edə bilərlər. Müəssisədə monitor kimi də istifadə olunan kiçikhəcmli noutbukların, çox və azfunksiyalı telefon aparatlarının istehsalına başlanılmışdır.*

*Prezident İlham Əliyev kompyuter və kioskların nümunələrinə baxaraq dedi ki, son illər ərzində müəssisə fəaliyyətini genişləndirmişdir. Dörd il bundan əvvəl yaradılmış müəssisənin mallarına tələbat böyükdür və gələcəkdə daha da artacaqdır.*

*Ayaqqabı istehsal edən «Bot» MMC-nin, «Vəfa ev tekstil»in, «İmişli broyler»in, hərbi geyimlər istehsal edən «Bakı tikiş evi»nin, «Bakı transformatorlar zavodu» ASC-nin məhsulları ilə tanış olan dövlətimizin başçısına müəssisələr barədə məlumat verildi. Bildirildi ki, indi ayaqqabı və hərbi geyimlərə tələbat artdığından sifarişlər çoxdur. Məhsullar xarici bazara da çıxarılır. Sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması nəticəsində 2003–2007-ci illərdə məşğul əhalinin sayı 7,1 faiz artmışdır. Hazırda ölkədə iqtisadi fəal əhalinin sayı 4,3 milyon nəfərdir və onların 4 milyonunu işləyənlər təşkil edir.*

*Prezident İlham Əliyev bildirdi ki, burada nümayiş etdirilən bütün məhsullar son illər ərzində yaradılmış istehsal sahələrində buraxılır. Bu onu göstərir ki, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edir. Əvvəllər mallar daha çox xaricdən gətirilirdi. İndi isə özümüzü təmin edirik.*

*Səhiyyə naziri Oqtay Şirəliyev son illərdə respublikamızda səhiyyənin inkişafı üçün həyata keçirilən kompleks tədbirlər barədə məlumat verdi, rayonların təcili tibbi yardım maşınları ilə təmin olunduğunu, tezliklə Bakıya yeni maşınların gətiriləcəyini və müasir səhiyyə obyektlərinin tikildiyini söylədi. Pavilyonda səhiyyənin inkişafı ilə bağlı doqquz Dövlət Proqramı, bu sahədə görülən işlər geniş əksini tapmışdır.*

*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin pavilyonu əsasən Xıllı nərəbalıqartırma zavodunun fəaliyyətini əks etdirir. Nazir Hüseynqulu Bağırov məlumat verdi ki, 2003-cü ildə prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən zavod ən yeni texnologiyalarla təchiz olunmuşdur. Burada nərə balıqlarının 4 növünün süni yolla çoxaldılması ilə məşğul olurlar. Fəaliyyətə başladığı vaxtdan bəri zavod 34,7 milyondan çox nərə körpəsi yetişdirmişdir. Onların ölçüləri və çəkisi standart səviyyəyə*

*çatdıqdan sonra Kür çayına buraxılır. Zavodda ana balıq fondu yaradılması məqsədi ilə 2004-cü ildən elmi-praktik eksperimentlər keçirilir. Hazırda burada 2500-dən çox ana balıq saxlanılır.*

*Fəaliyyətini getdikcə genişləndirən «Akkord» şirkətlər qrupu yol çəkilişi, bina tikintisi ilə yanaşı, yeni istehsal sahələri də yaradır.*

*Prezident İlham Əliyevə bildirildi ki, «Qafqaz Lift Zavod» MMC Yaponiyanın «Mitsubishi» şirkətinin texnologiyası əsasında bir ton yük qaldıra bilən liftlərin istehsalına hazırlıq görür. Keçən ildən fəaliyyətə başlamış «Qafqaz Lift Zavod» MMC respublikamızın müxtəlif növ liftlərə və eskalatorlara olan tələbatını ödəyəcəkdir. Kiçik və böyük tutumlu liftlər qonşu ölkələrə də ixrac olunacaqdır.*

*«Tovuz Baltika» şirkətinin məhsullarının çeşidini və keyfiyyətini durmadan artırır. Hazırda burada 30-a qədər adda məhsul istehsal edilir. Bunlar Rusiyaya və Baltikyanı ölkələrə ixrac olunur. Müəssisədə yeni milli brendlərin yaradılması üçün iş gedir.*

*«Karvan-L» şirkəti də respublikamızın uğurla inkişaf edən, ölkəmizin iqtisadiyyatına töhfə verən qurumlardandır. Bu ilin payızında şirkətin yeni istehsal sahəsinin açılışı olacaqdır. Prezident İlham Əliyev həmin müəssisənin açılışına dəvət edildi.*

*Dövlətimizin başçısı Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə də tanış oldu. Nazir İsmət Abasov dedi ki, burada ayrı-ayrı müəssisələr tərəfindən istehsal olunan kənd təsərrüfatı malları nümayiş etdirilir. Aqrar siyasətin uğurla həyata keçirilməsi nəticəsində 871 min ailəyə torpaq payı verilmiş, 6,5 min kənd təsərrüfatı müəssisəsi və fərdi sahibkar təsərrüfatı yaradılmış, son beş ildə kənd təsərrüfatının ümumi məhsulu 24,7 faiz artmışdır. Dövlətin gördüyü kompleks tədbirlər sayəsində cari ilin birinci yarısında kənd təsərrüfatı sektorunda ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artım olmuşdur.*

*Prezident İlham Əliyev «Göygöl» şərab zavodunun, «AzNar» ASC-nin məhsullarına baxdı və dedi ki, biz gərək ölkəmizi ərzaq məhsulları ilə maksimum dərəcədə təmin edək. Gələn il ayrıca kənd təsərrüfatı məhsulları sərgisinin keçirilməsi yaxşı olardı. Biz o vaxta qədər özümüzü bütün ərzaq məhsulları ilə tam təmin edəcəyik. Beş il bundan əvvəl belə vəzifə qoyulmuşdu və buna nail oluruq. Gələcəkdə ixracın həcmi də artacaq, imkanlarımız da genişlənəcəkdir.*

*1963-cü ildən fəaliyyət göstərən, son illərdə yenidən qurulan «Mingəçevir İzolit» müəssisəsi 10-dan çox adda məhsul istehsal edir. Bunlar Rusiya və Qazaxıstana da ixrac olunur, elektrotexnika sənayesində, neft-qazçıxarmada, suvarma və kanalizasiya xətlərinin çəkilişində geniş tətbiq edilir.*

*Prezident İlham Əliyevə bildirildi ki, «AER» firması ölkəmizdə xaricə dondurma ixrac edən yeganə müəssisədir. Gürcüstana 100 ton dondurma satılmışdır, tezliklə Qazaxıstana da ixrac olunacaqdır.*

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin pavilyonu da diqqəti cəlb edirdi. Nazir Əli Abbasov burada nümayiş etdirilən yeni texnologiyalar, jeton və kartla işləyən küçə telefonları barədə məlumat verərək dedi ki, hazırda paytaxtda 200 ədəd belə telefon qoyulmuşdur. Bu telefonlarla xarici ölkələrə də zəng etmək mümkündür. Çin və İran istehsalı olan bu telefonlar gələcəkdə ölkəmizdə buraxılacaqdır.*

*Nazir 2010–2011-ci illərdə Azərbaycanın iki süni peykinin orbitə buraxılacağını və bununla bağlı hazırlıq işlərinin aparıldığını bildirdi. O dedi ki, birinci süni peyk əsasən Şimali Afrika, Mərkəzi və Şərqi Avropanı, ikincisi isə okeandan-okeana qədər olan ərazini əhatə edəcəkdir. Resursları almaq üçün artıq sifarişlər verilibdir. Ən maraqlı layihələrdən biri Azərbaycanın təşəbbüsü ilə Şərq–Qərb arasında super informasiya magistralının yaradılmasıdır və bu ilin noyabrında bununla əlaqədar Bakıda görüş keçiriləcəkdir.*

*Dövlətimizin başçısı telefon aparatlarının dizaynı ilə bağlı, üstündəki yazıların Azərbaycan dilində olması barədə tapşı-*

*rıqlar verdi, informasiya-kommunikasiya texnologiyaları sahəsində görülən işləri yüksək qiymətləndirdi.*

*Sonra prezident İlham Əliyev sərgi salonundan video-telefon vasitəsilə Şamaxı rayonunun Məlikçobanlı kəndində yaşayan ağsaqqal müəllim Əlisöhbət Abdullayev ilə danışdı.*

**İlham Əliyev:** Salaməleyküm.

**Əlisöhbət Abdullayev:** Salam.

**İlham Əliyev:** Necəsiniz?

**Əlisöhbət Abdullayev:** Cənab Prezident, çox sağ olun. Sizi şamaxılılar adından, Məlikçobanlı kəndinin sakinləri adından, şəxsən öz adımdan ürəkdən salamlayıram.

Sizin prezidentlik dövrünüz xalqımız üçün çox uğurlu bir dövrdür. Bu illər ərzində xalqımızın güzəranı gündən-günə yaxşılaşmışdır. Biz bunu öz həyatımızda aydın hiss edirik. Hörmətli Prezident, son illər bütün regionlar kimi, Şamaxı da inkişaf edir, gözəlləşir. Əlbəttə, bu bir həqiqətdir. Şamaxıda yeni-yeni layihələr həyata keçirilir, zavodlar tikilir, təzə iş yerləri açılır. Bunların hamısı Sizin əməli fəaliyyətinizin yüksək nəticəsidir. Xalqımız, Şamaxı camaatı Sizə öz minnətdarlığını bildirir.

Hörmətli Prezident, Şamaxıda istifadəyə verilmiş yeni nəsil rabitə sistemi çox yüksək qiymətə layiqdir. Biz bu rabitə xidməti ilə şəxsən Sizi Şamaxıda gedən abadlıq işləri ilə tanış edirik və Sizə bu sahədə uğurlar arzulayırıq. Əvvəllər kim düşünərdi ki, danışdığın adamı üzbəüz görəcəksən?! Bu rabitə xidməti, əlbəttə ki, çox böyük nailiyyətdir. Bu sahədə də Sizin fəaliyyətinizi çox yüksək qiymətləndiririk.

Cənab Prezident, Şamaxıya göstərdiyiniz diqqətə, qayğıya görə bütün Şamaxı camaatı, bütün Məlikçobanlı kəndinin camaatı Sizə öz minnətdarlığını bildirir. Çox sağ olun, Allah Sizi qorusun.

**İlham Əliyev:** Sağ olun. Baxın görün, Şamaxının bir kəndində video-telefon quraşdırılmışdır. İndi biz sizinlə bir-birimizi görərək söhbət edirik. Bax, budur Azərbaycanın müasir reallıqları, Azərbaycanın inkişafı. Bunu bəlkə on il bundan

əvvəl təsəvvür etmək mümkün deyildi. Amma indi bu reallıqdır. Biz gələcəyə çox böyük ümidlərlə gedirik, gələcəyə ümidlərlə baxırıq. Azərbaycanın hərtərəfli inkişafı artıq reallıqdır. Bu sərgi də bunu əyani şəkildə göstərir. Azərbaycanda istehsal olunan mallar bizim tələbatımızı maksimum dərəcədə ödəyir. Ərzaq məhsulları, demək olar ki, tələbatı 80–90 faiz ödəyir. Azərbaycanda müasir texnologiyaya uyğun məhsullar da istehsal olunur. Bax, bu telefon onun bir hissəsidir, bir parçasıdır. Bu onu göstərir ki, ölkəmiz hərtərəfli inkişaf edir, Azərbaycan iqtisadiyyatı, qeyri-neft sektoru inkişaf edir, yüksək texnologiyalar inkişaf edir və ölkəmiz güclənir. Azərbaycanın hər bir yerində, rayonunda, kəndində bu gözəl inkişaf özünü göstərir.

Mən bu fürsətdən istifadə edərək bütün şamaxılılara öz salamlarımı çatdırmaq istəyirəm. Şamaxının çiçəklənməsi, inkişafı işində sizə yeni uğurlar arzulayıram. Sağ olun.

***

*Prezident İlham Əliyev «Azkompozit» zavodunun məhsulları ilə də maraqlandı. Bildirildi ki, müəssisə Oğuz–Qəbələ–Bakı su xəttinin çəkilişi ilə bağlı dövlət sifarişini yerinə yetirmişdir. İndi digər sifarişlərlə bağlı iş aparılır. Müəssisə ABŞ-dan da sifariş almışdır.*

*Ölkəmizin informasiya-kommunikasiya bazarında xüsusi yeri olan «Azel–Azərbaycan Elektronikası» şirkətinin fəaliyyəti ilə maraqlanan dövlətimizin başçısına məlumat verildi ki, bu qurumun ən maraqlı layihələrindən biri respublikamızdakı bankların avtomatlaşdırılması üçün proqram təminatının yerinə yetirilməsi ilə bağlıdır.*

*Qeyri-dövlət müəssisələrinin məhsulları ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, son beş ildə dünyanın 150-dən çox ölkəsi ilə ticarət əlaqəsi qurularaq 62,8 milyard ABŞ dolları həcmində idxal-ixrac əməliyyatları həyata keçirilmişdir. Sahibkarlar onlara yaradılan şəraitdən razılıqlarını bildirdilər və vurğuladılar ki, yüksək iqtisadi potensiala malik Azərbaycanda*

*müasir texnologiya əsasında istehsal edilən mal və məhsullar artıq daxili tələbatı ödəməklə yanaşı, Azərbaycan markası altında xarici bazarlara çıxarılır.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov milli aviasiyanın bu gününü əks etdirən pavilyon barədə məlumat verdi. Bildirdi ki, bu sahə sürətlə inkişaf edir, respublikamızın paytaxtı ilə yanaşı, bölgələrdə də yeni hava limanları inşa olunmuşdur, respublikamıza müasir «Boinq» və «Airbus» təyyarələri, vertolyotlar alınır. Hazırda Zaqatala və Lənkəran hava limanlarının tikintisi başa çatır.*

*Sərgidə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin pavilyonunda qurumun sədri Əhməd Əhmədzadə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması, Mil–Muğan kollektoru, Xanarx kanalı, Taxtakörpü su anbarı kimi iri layihələrin reallaşdırılması barədə məlumat verdi. Bildirildi ki, bütün işlər 2010-cu ilədək tam başa çatdırılacaqdır. Prezident İlham Əliyev Taxtakörpü su anbarının maketinə baxdı və digər layihələrlə tanış oldu. «Azərikimya» Dövlət Şirkəti də ölkəmiz üçün mühüm olan bir sıra layihələr üzərində işləyir. Şirkətin prezidenti Məcid Kərimov dedi ki, belə layihələrdən biri yeni neft kimyası və gübrə kompleksinin yaradılmasıdır. Bu layihə xarici şirkətlərlə birgə hazırlanmışdır.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin banisi olduğu yeni neft strategiyasının uğurlarını hərtərəfli əks etdirən Azərbaycan Dövlət Neft Şirkətinin pavilyonuna gəldi. Burada sosial inkişaf, ekologiya, sərmayələr, neftin emalı, elmi-tədqiqatlar, layihələndirmə, informasiya texnologiyaları, qaz və neft hasilatı ilə bağlı əsas göstəricilər, şirkət tərəfindən bölgələrdə tikilən müalicə-diaqnostika mərkəzlərinin maketləri, bütün istiqamətlərə gedən neft-qaz kəmərlərinin xəritəsi əks etdirilmişdir.*

*Bildirildi ki, iqtisadiyyatın əsas infrastruktur sahələrindən olan nəqliyyat kompleksinin dayanıqlı inkişafı ötən beş il ərzində dünyanın ən iri nəqliyyat xətlərindən olan Bakı–Tbilisi–*

*Ceyhan neft kəmərinin istifadəyə verilməsi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərində işlərin başa çatması, habelə Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlanması ilə xarakterizə olunur.*

*Sərgi ilə tanışlıqdan razı qalan prezident İlham Əliyev iştirakçılara uğurlar arzuladı.*

# OANA İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 30-cu İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin «Qloballaşan dünyada informasiya hamı üçün» mövzusunda Bakıda keçirilən 30-cu iclasının iştirakçıları ilə görüşmüşdür.*

**İlham Əliyev:** Salam, əziz qonaqlar!

Sizi ölkəmizdə görməyimə çox şadam. Əminəm ki, Azərbaycana səfəriniz çox uğurlu olacaq və Azərbaycanı yaxından tanımaq imkanı verəcəkdir. Çünki bildiyimə görə, əksəriyyətiniz ölkəmizə ilk dəfədir ki, səfər edirsiniz. Bu, ölkəmizlə və vəziyyətlə yaxından tanış olmaq və təbii ki, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün çox yaxşı bir imkandır. Şadam ki, sizin təşkilat iclasını Bakıda keçirir.

Bizim informasiya agentliyimiz təşkilata yaxın zamanlarda, bir neçə il bundan öncə qoşulub və əminəm ki, o, bütün fəaliyyətinizdə çox fəal iştirak edəcəkdir. Siz yaxşı bilirsiniz ki, qloballaşan dünyada informasiya necə böyük əhəmiyyət kəsb edir, xüsusilə də Azərbaycan kimi müstəqilliyini yenicə əldə edən ölkələr üçün. Ölkəmiz 20 ilə yaxındır ki, müstəqil dövlətdir və özümüzü qlobal cəmiyyətə təqdim etmək üçün böyük işlər görməliyik. Bəzən Azərbaycan haqqında məlumat o qədər də dolğun olmur, bəzən isə həqiqəti əks etdirmir. Ona görə də real vəziyyəti öyrənməyin ən yaxşı yolu, təbii ki, Azərbaycandakı

vəziyyəti görmək və təşkilatda təmsil edilən ölkələr, agentliklər arasında informasiya mübadiləsi aparmaq imkanına malik olmaqdır.

Hesab edirəm ki, burada apardığınız danışıqlar və fikir mübadiləsi, informasiya mübadiləsi üzləşdiyiniz problemlərin həlli üçün daha etibarlı yolları müəyyən etməyə imkan yaradacaq və xalqlar arasında daha yaxşı ünsiyyətin necə qurulmasına kömək edəcəkdir. Çünki adi insanlar informasiyanı ölkələrindəki kütləvi informasiya vasitələrindən və qlobal mediadan əldə edirlər. Ona görə də hadisələrin real vəziyyətini, həqiqəti əks etdirmək çox vacibdir, xüsusilə də bəzi ölkələr tərəfindən müxtəlif hadisələrə siyasi maraq, yaxud siyasi əlaqələr baxımından fərqli yanaşılarkən. Hadisələrə qərəzsiz yanaşma asan iş deyildir. Çünki o da həqiqətdir ki, media qurumları və informasiya agentlikləri ayrı-ayrı ölkələrdə fəaliyyət göstərir və onlar həmin ölkələrin müxtəlif hadisələrə siyasi yanaşmalarını nəzərə alırlar. Baş verən hadisələrə müxtəlif ölkələr tərəfindən, hətta eyni bölgədə yerləşən ölkələr tərəfindən belə, fərqli yanaşılır.

Mən başa düşürəm ki, vəziyyəti olduğu kimi təqdim etmək asan deyildir. Çünki bu cür cəhdlər müəyyən şəxslərdən asılıdır, vəziyyəti əks etdirən jurnalistlərdən və təbii ki, bəzi hallarda subyektiv yanaşmalardan asılıdır. Lakin burada, Azərbaycanda biz elə bir mühit yaratmağa çalışırıq ki, bütün media qurumları özlərini azad hiss etsin, öz baxışlarını sərbəst ifadə edə bilsin. İnformasiya agentliklərinə gəldikdə isə, mən dövlət informasiya agentlikləri haqqında danışa bilərəm, onlar vəziyyəti real əks etdirir. Şərhlər fərqli ola bilər, siyasi analizlər tamamilə müxtəlif ola bilər, lakin informasiyanın özü dəqiq və səlis olmalıdır.

Biz Azərbaycanda siyasi, iqtisadi və media sahələrində islahatların aparılması üçün böyük işlər görmüşük. Siz yəqin bilirsiniz ki, 20 ildən bir qədər az əvvəl burada azad media yox idi. Biz Sovet İttifaqında yaşayırdıq və orada yalnız bir mövqe, bir informasiya mənbəyi var idi. Şübhəsiz ki, müstəqil medianın

yaradılması asan olmayıbdır. Lakin hesab edirəm ki, biz Azərbaycanda bütün media qurumları üçün bərabər şəraitin yaradılmasına nail olmuşuq, söz azadlığı, informasiya azadlığı tam təmin edilmişdir. Bizim təcrübəmiz bu sahədə keçid dövrünün necə baş verməsini görmək üçün maraqlı ola bilər. Bu proses təkcə media sektorunda deyil, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə baş verir.

Biz müstəqilliyi əldə etdiyimiz zaman ölkəmizin iqtisadiyyatı 100 faiz dövlətdən asılı idi, indi isə ÜDM-in, demək olar ki, 90 faizi özəl sektorun payına düşür. Müstəqilliyimizə qədər yalnız bir siyasi partiya var idi, indi isə siyasi partiyaların sayı onlarladır.

Əgər 1991-ci ildə Azərbaycanda cəmi bir neçə qəzet var idisə, indi isə onların sayı 500-ü ötübdür. Hökumət lazım olan hər cür şəraiti yaradır, lakin təbii ki, jurnalistlərin məsuliyyəti, onların peşəkarlığı da çox vacib məsələdir. Ona görə də biz lazım olan ən yaxşı şəraiti yaratmaq üçün treninqlərə, təcrübə mübadiləsinə xüsusi diqqət yetiririk ki, jurnalistlər öz intellektual məhsullarını yarada bilsin və vətəndaşlarımız obyektiv informasiya əldə edə bilsinlər.

Bir daha demək istəyirəm ki, bu sahədəki beynəlxalq əlaqələr bizim üçün böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanda media məsələləri ilə bağlı çoxlu sayda beynəlxalq tədbir keçirmişik. Bu, təşkilatınızın burada keçirdiyi ilk tədbirdir və əminəm ki, müzakirə olunan məsələlər, aparılan fikir mübadiləsi təşkilat üzvləri arasında daha yaxşı anlaşmaya xidmət edəcəkdir. Eyni zamanda, qeyd etdiyim kimi, ölkəmizə ilk dəfə səfər edənlər üçün Azərbaycandakı vəziyyəti görmək və ölkələrinə qayıtdıqdan sonra real vəziyyət haqqında obyektiv şərhlər vermək üçün yaxşı bir fürsət yaradır.

Təşəkkür edirəm!

**Əhməd Muxlis Yusuf** (*OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin Baş icraçı direktoru*): Mən İndoneziyanın Antara agentliyinin Baş icraçı direktoru və

hazırda Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının prezidentiyəm.

Mənimlə birgə burada təşkilatın xeyli sayda üzvləri – İranın, Malayziyanın, Çinin, Rusiyanın, Koreya Respublikasının, Qətərin, Birləşmiş Ərəb Əmirliklərinin, Suriyanın, müşahidəçi qismində olan Bolqarıstanın və digər ölkələrin xəbər agentliklərinin nümayəndələri iştirak edirlər. Onların hamısı AzərTAc-ın dostlarıdır.

Biz bazar günündən etibarən buradayıq və ölkənizdə böyük inkişafın şahidi olmuşuq, genişmiqyaslı tikinti işləri gedir. Təhsil və səhiyyə sahələrindəki inkişaf barədə də məlumatımız var. Biz bunu yüksək dəyərləndiririk. Demək istəyirəm ki, AzərTAc-ın təşkilata üzvlüyü davamlı və faydalı olacaqdır.

Bildiyiniz kimi, biz buraya təkcə tariximizi müzakirə etmək üçün deyil, həm də gələcəyimizi qurmaq üçün toplaşmışıq.

Biz tam inanırıq ki, informasiya bütün dünyanı əhatə edir və bütün dünyaya lazımdır.

Cənab Prezident, biz bu gün səhər Fəxri xiyabana və Şəhidlər xiyabanına baş çəkdik və tarixin gələcəyi necə dəyişməsindən təsirləndik.

Biz bu gün başladığımız və cümə axşamınadək davam edəcək tədbirdə konkret fəaliyyətləri necə reallaşdıra biləcəyimizi, dünyada öz yerimizi tutmaq üçün üzv-ölkələr arasında informasiyanı tarazlaşdırmaqla əməkdaşlığın gücləndirilməsi məsələlərini müzakirə edəcəyik.

Cənab Prezident, icazə verin, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edim. Ümid edirəm ki, bizim buradakı iclasımız ölkələrimizi gələcək inkişafa doğru aparacaqdır.

Təşəkkür edirəm!

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm! Düzgün qeyd etdiniz, deyə bilərəm ki, Azərbaycanda inkişafla bağlı bütün istiqamətlərdə böyük işlər görülür. Son üç il ərzində Azərbaycan iqtisadiyyatın artımına görə dünyada lider ölkə olubdur. Ölkədəki ÜDM hər il 25–35 faiz həddində artmışdır. Son dörd

il ərzində isə biz faktiki olaraq, ÜDM-i və sənaye istehsalını iki dəfə artırmışıq.

Təhsil və səhiyyə sahələri də prioritet istiqamətlərdəndir. Bu sahələrə böyük sərmayələr qoyulmuşdur. Kompyuterləşdirmə prosesi sürətlə gedir. Biz indi Azərbaycanın bütün məktəblərində kompyuter sinifləri yaradırıq. Kompyuterləşdirmə eyni zamanda, məlumatın əldə edilməsi üçün bir vasitədir, çünki biz Azərbaycanın hər bir məktəbini internet şəbəkəsinə qoşuruq. Gənclər, uşaqlar, yeniyetmələr informasiyaya birbaşa çıxış əldə edəcəklər. Biz həm də onların xarici dilləri öyrənməsi məsələsinə böyük diqqət yetiririk. Çünki xarici dilləri bilmədən kompyuter vasitəsilə beynəlxalq informasiyaya çıxış mümkün deyildir. Dörd il bundan öncə hər 1000 şagirdə 1 kompyuter düşürdüsə, indi 24 şagirdə 1 kompyuter düşür. Biz artıq kompyuterləşdirmənin yüksək standartlarına yaxınlaşırıq.

Bütün sahələrdə, o cümlədən infrastruktur, tikinti, iqtisadiyyatımızın lider sahəsi olan enerji sektoru, sosial və digər sahələr üzrə konkret inkişaf proqramlarımız var. Bu illər ərzində biz ölkəni inkişaf etdirmək, güclü iqtisadiyyat qurmaq, sosial siyasət həyata keçirmək və beləliklə, dünyanın inkişaf etmiş ölkələri arasında olmaq üçün daxili məsələlərimizə böyük diqqət yetirmişik. Qeyd etdiyim kimi, iqtisadi inkişaf sahəsində xeyli iş görmüşük. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan rəqabət qabiliyyətinə görə 66-cı, informasiya texnologiyalarının inkişafına görə 67-ci, MDB ölkələri arasında ilk yerdədir.

Ölkə və xalq üçün yaxşı işlərin görülməsi bizim üçün prioritet olmuşdur. Bu baxımdan biz beynəlxalq təqdimata bir o qədər də böyük diqqət yetirməmişik. Yəqin elə ona görə də bəzən dünya mediasında Azərbaycan haqqında yayılan məlumatlar tam reallıqları əks etdirmir, yanlış məlumatlar gedir, Azərbaycan haqqında danışarkən insanlar, ilk olaraq, neft haqqında düşünürlər. Əlbəttə, bu vacibdir, lakin iqtisadiyyatın digər sahələrindən daha çox əhəmiyyət kəsb etmir.

Ona görə də biz özümüzü olduğumuz kimi təqdim etmək üçün təbii ki, çox işlər görməliyik. Biri var biz beynəlxalq forumlarda, konfranslarda özümüz haqqında danışırıq, biri də var ki, insanlar özləri buraya gəlsin və buradakı inkişafı, insanların necə yaşamasını, onların təhlükəsizliyinin necə təmin olunmasını, yaşayış səviyyəsini, ölkədəki tolerantlığı, müxtəlif dinlərin nümayəndələrinin birgə yaşamasını, çoxmillətli ölkə olan Azərbaycanda müxtəlif etnik qrupların necə ünsiyyət qurduqlarını və bir yerdə yaşadıqlarını görsünlər. Bu, beynəlxalq media tərəfindən hələ öyrənilməmiş bir sahədir və əminəm ki, bu sahə yaxından öyrənildiyi zaman böyük maraq doğuracaqdır.

Beləliklə, əldə etdiyimiz sürətli iqtisadi artım iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunduğu və sürətli iqtisadi islahatlar apardığımız bir vaxtda, sözsüz ki, insanların həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün güclü sosial siyasətin həyata keçirilməsi vacibdir. Neft hasil edən ölkələrdə onun da dərk edilməsi vacibdir ki, prioritet neft deyil, insan kapitalı olmalıdır, yoxsulluğa, işsizliyə qarşı mübarizə olmalıdır.

Biz son beş il ərzində işsizlik problemini əsasən həll etmişik. Ölkəmizdə 700 mindən çox iş yeri yaradılıbdır. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2007-ci ildə 16 faizə düşmüşdür. Mən əminəm ki, bu ilin nəticələrinə görə bu rəqəm daha da aşağı düşəcəkdir. Beləliklə, bu, enerji resurslarının insan kapitalına necə çevrildiyini nümayiş etdirir.

Qeyd etdiyim kimi, bizim təhsil sahəsində bir çox proqramlarımız var. Gənclərin xaricdə təhsil almağa göndərilməsi, təhsil mübadilələri – bütün bunlar bizim beynəlxalq ictimai rəydə daha çox tanınmağımıza imkan verir. Bizim beynəlxalq aləmdə daha yaxşı tanınmağımız üçün dünya mətbuatının əhəmiyyətli rolu var. Çünki bu olmazsa, nə etdiyimizə baxmayaraq, bunu heç kim bilməyəcək, yalnız Azərbaycan xalqı biləcək, digərləri isə fərz edəcəkdir. Ona görə də sizin bu iclası burada keçirməyiniz hər baxımdan çox vacibdir.

**V o l f q a n q  V i s l o z i l** (*Avropa Xəbər Agentlikləri Alyansının (EANA) prezidenti, Avstriyanın APA agentliyinin Baş direktoru*): Cənab Prezident, mən Avropa Xəbər Agentlikləri Alyansının rəhbəriyəm. Təşkilatımız müxtəlif qurumları özündə birləşdirən nüfuzlu Avropa təşkilatıdır. Biz çox məmnunuq ki, bir təşkilat kimi, Azərbaycan ilə sıx münasibətlər qurmuşuq.

Azərbaycana gələndən sonra mən burada gedən inkişafı öz gözlərimlə görmək imkanını əldə etdim. Bu amil indicə söylədiyiniz kimi, ölkənizin Avropa üçün əhəmiyyətindən xəbər verir. Qeyd edim ki, Azərbaycanın agentliyi AzərTAc Avropa Xəbər Agentlikləri Alyansına üzv kimi qəbul olunmuşdur. Təşkilatımıza üzvlük o qədər də asan proses deyildir. Azərbaycanın üzvlük məsələsi bir neçə il bundan öncə başlamışdı və alyansa daxil olan üzvlər səs verməli idilər. Dostumuz Mixail Qusman proses zamanı mühüm dəlillər irəli sürmüşdür. Üç və ya dörd il çəkən həmin proses zamanı ölkənizlə bağlı əsas götürülən dəlil mətbuat azadlığı ilə əlaqədar olmuşdur. Avropadakı «Sərhədsiz reportyorlar», «Ay-Ti-Ay» kimi təşkilatlar bu sahədəki vəziyyətlə bağlı bir çox tənqidi fikirlər söyləmişlər. Mixail Qusman Avropa alyansının rəhbərini Azərbaycana səfər etməyin vacib olmasına inandırdı. Lakin proses normal getdi və yekun olaraq təşkilatımızın üzvləri, demək olar ki, yekdilliklə Azərbaycanın namizədliyinə səs verdilər. Nəhayət, mən indi ölkənizdə səfərdəyəm.

Siz Azərbaycan haqqında məlumatın dünyanın bir çox yerlərində, eləcə də Avropada yayılmasının vacibliyini qeyd etdiniz.

Ölkənizdə olduğumuz müddət ərzində biz öncə bilmədiyimiz reallığı daha yaxşı şəkildə qavramağa başladıq. Məhz bu məsələ gələcəkdə AzərTAc ilə müzakirə etmək istədiyimiz əsas məsələlərdən biridir.

Bir sözlə, Avropa təşkilatı kimi biz AzərTAc-ın qeyd etdiyiniz istiqamətdə inkişafı üçün yardım göstərməyə hazırıq. Hazırda təşkilatımızın 31 üzvü var və onlardan biri də AzərTAc-dır.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Məmnunam ki, hazırda AzərTAc müxtəlif təşkilatlar çərçivəsində işləyir. Ola bilsin, coğrafi nöqteyi-nəzərdən bu, təbiidir. Yəni, bu, Azərbaycana hansı istiqamətdən baxmağınızdan asılıdır. Əgər siz Şərqdən baxırsınızsa, o, Avropadır, əgər Qərb tərəfdən baxırsınızsa, Asiyadır.

Lakin zənnimcə, Avropa təşkilatlarına qoşulmanın coğrafi səbəblərindən başqa, digər səbəblər də mövcuddur. O da həqiqətdir ki, Azərbaycan haqqında bəzən səhv informasiya gedir. Bunun səbəbi, bir tərəfdən, informasiyanın çatışmazlığı, digər tərəfdən isə formalaşmış stereotiplər, hadisələr haqqında məlumatların bilərəkdən saxtalaşdırılması ilə izah oluna bilər. Deyə bilərik ki, Qərb mətbuatında Azərbaycan haqqında məlumat ya çox məhduddur, yaxud da, birtərəflidir.

Digər ölkələrdə olduğu kimi, bizdə də bir çox problemlər və həll olunmamış məsələlər var. 1991-ci ildə müstəqilliyi qazandığımız zaman biz keçmiş sovet respublikaları arasında ən ağır vəziyyətdə idik. Çünki həmin vaxt ölkədə vəziyyət çox gərgin idi, Azərbaycan ərazisinin müəyyən hissəsi artıq Ermənistanın işğalı altında idi. Həmin işğal sonrakı illər ərzində də davam etdi. Siyasi idarəçilik təcrübəsi yox idi. Azad mətbuatımız da olmamışdır. Lakin qısa bir tarixi dövrdə – 1918–1920-ci illər ərzində, Rusiya imperiyasının süqutu nəticəsində Azərbaycan müstəqilliyini qazanmışdı. Ancaq bu müstəqillik iki ildən az sürdü. İki il isə, azad mətbuatın formalaşması üçün kifayət qədər müddət ola bilməzdi.

Bu, bizim üçün tam yeni bir məsələ idi. Biz bir sıra problemləri də həll etməli idik – Ermənistanın təcavüzünə son qoyulması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli və sair.

Geniş beynəlxalq ictimaiyyətə yaxşı məlum olmayan bir məsələ də var: Azərbaycanın 8,5 milyon əhalisinin 1 milyonu qaçqın və məcburi köçkündür. Onlar Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaranmışdır. Hazırda, nəinki Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ, həm də onun

inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonumuz da Ermənistan tərəfindən işğal olunmuşdur.

Bəzi hallarda bu reallıq dünyada diqqətdən kənarda qalır.

Bütün bu çətinliklərə baxmayaraq, biz ölkədə sürətli iqtisadi inkişafa nail olmuşuq.

İqtisadi və siyasi islahatlar, açıq qapı və xarici sərmayələrin cəlb olunması siyasəti nəticəsində biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet respublikaları arasında birinci yerdəyik. Bu, bizə olan etimadı, yaxşı sərmayə mühitini və imkanları nümayiş etdirir. Dünyanın bir çox iri şirkətləri on ildən çoxdur ki, burada çalışır.

Bununla belə, mətbuat azadlığı məsələsi vaxtaşırı beynəlxalq mətbuat səhifələrində qaldırılır. Lakin mən sizi əmin edə bilərəm ki, burada mətbuat azadlığı və demokratiyanın səviyyəsi heç də digər qonşu ölkələrdəki səviyyədən aşağı deyildir. Bəzi qonşularımızdan fərqli olaraq, biz heç vaxt, müxalifət mətbu orqanlarını bağlamırıq, bu yaxınlarda Ermənistanda baş verdiyi kimi, interneti kəsmirik. Biz heç bir məhdudiyyət tətbiq etmirik. Bəzi qonşu ölkələrdə olduğu kimi, biz seçkilərdən sonra ölkədə fövqəladə vəziyyət elan etmirik. Biz Ermənistanda olduğu kimi, müxalifət üzvlərini həbs etmirik, fövqəladə vəziyyət rejimi tətbiq etmirik.

Lakin burada və Ermənistanda baş verən hadisələrin mətbuatda işıqlandırılmasını müqayisə etsəniz görərsiniz ki, beynəlxalq ictimai rəy qonşu ölkəyə çox dözümlə yanaşmış və necə deyərlər, passiv olmuşdur. Beynəlxalq mətbuat həmin ölkədəki hadisələri lazımınca işıqlandırmamışdır. Əslində bunlar fövqəladə hadisələr oldu. Ermənistan hökuməti yüz minlərlə dinc nümayişçiyə qarşı zor tətbiq etdi. Bu hadisələr zamanı on nəfər öldürüldü, bu rəqəm rəsmən təsdiqlənibdir. Lakin bizim məlumatımıza görə, ölənlərin sayı daha çox olmuşdur. Onlar media və interneti bağladılar. Fövqəladə vəziyyət elan edildi. Müxalifət arasında həbslər başlandı. Orada gərginlik bu günə qədər davam edir. Lakin «Sərhədsiz reportyorlar» buna fikir vermədilər, buna göz yumdular. Burada

isə hər hansı kiçik bir hadisə baş verəndə, özlərini «Sərhədsiz reportyorlar» adlandıran təşkilat bizə hücum çəkən ilk təşkilat olur. Biz bunun nə səbəbdən baş verdiyini bilirik. Bu cür münasibətin köklərini də bilirik. Sadəcə, mən təfərrüatlara varmaq istəmirəm. Bu, tam ədalətsiz yanaşmadır.

Mən bir daha demək istəyirəm ki, ölkəmizdə tam azad mətbuat mövcuddur. Əgər siz müxalifət qəzetlərinə nəzər yetirsəniz görərsiniz ki, onlar hər gün prezidenti tənqid edirlər. Mən bu cür yazılara heç bir reaksiya vermirəm. Lakin beynəlxalq yanaşma, məlumatların təqdim edilməsi bəzi ölkələrin siyasi maraqlarından və stereotiplərindən asılı olaraq, fərqli olur.

Eyni zamanda, onu da açıq deməliyəm ki, bu, dünyadakı erməni diasporunun səyləri ilə izah oluna bilər. Ermənilər nəinki bizim ərazilərimizi işğal edib və işğalı davam etdirir, yüz minlərlə azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti aparıblar. Hətta bütün dünyaya car çəkirlər ki, guya təcavüzkar bizik. Tarixi həqiqətləri bilməyən beynəlxalq ictimai rəy, dünya mətbuatını izləyən oxucular bəzi hallarda buna inanırlar.

Mən bir daha medianın dünyada oynadığı rolun vacibliyini qeyd etmək istəyirəm. Bu rol on il əvvəlki vəziyyətdən fərqli olaraq, daha vacibdir. Bu gün internet və mediaya mövcud çıxış əsasında siz dərhal məlumat alırsınız. Lakin həmin məlumat heç də həmişə düzgün olmur. Əvvəldə qeyd etdiyim kimi, dünyada cərəyan edən hadisələr hətta çox nüfuzlu xəbər agentlikləri tərəfindən müxtəlif formada işıqlandırılır, siyasi üstünlüklərə uyğun şəkildə təqdim olunur. Burada mövcud olan tərəflərin xüsusi yanaşması yox, ümumi yanaşma tətbiq edilməlidir. Bu işdə isə medianın oynadığı rol mühümdür.

Bu regionda yerləşən bir ölkə kimi, biz regionumuzda nəyin baş verdiyini yaxşı bilirik. Biz regiondan uzaqda yerləşən dairələrdən fərqli olaraq, bu hadisələrə daha yaxşı bələdik. Görürük ki, bir çox hallarda hadisələr haqqında məlumatlar, faktlar və şərhlər heç də həmişə reallıqla uyğun gəlmir. Bu özlüyündə böyük bir məsuliyyətdir, çünki həmin amilin

medianın inkişafı üçün mühüm əhəmiyyəti var. Uzun dövlətçilik ənənələrinə malik olan və dünyanın əksər insanlarının tanıdığı ölkələr üçün bu, ola bilsin o qədər də əhəmiyyətli deyildir.

Ancaq biz özümüzü olduğumuz kimi təqdim etmək üçün səylərimizi daha da artırmalıyıq. Biz yalnız ədalətli, siyasi üstünlüklərdən azad yanaşmaya əsaslanmalıyıq. Məsələn, dünya mətbuatında neftlə bağlı toxunulan bu məsələyə mənfi rəy verilir. Amma bəzən neft də müəyyən insanlar üçün deyil, hamı üçün rifah mənbəyi ola bilər. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın misalı nümunə kimi götürülə bilər. Ötən il bizim Neft Fondumuz BMT-nin mükafatına layiq görülmüşdür. Bu, beynəlxalq ictimaiyyətin həmin qurumun səmərəli işinə verdiyi ən yüksək qiymətdir. Ölkəmizdə neftdən əldə olunan gəlirlərin toplanmasının və xərclənməsinin tam şəffaf sistemi mövcuddur. Azərbaycanın hər bir vətəndaşı neftdən nə qədər vəsaitin daxil olduğunu öyrənə bilər. Bununla bağlı mətbuatda vaxtaşırı məlumat dərc edilir, qurumda beynəlxalq təşkilatlar tərəfindən audit aparılır.

Vəsaitlərin xərclənməsinə gəldikdə, Azərbaycanın hər bir vətəndaşı parlamentə seçdiyi nümayəndələri vasitəsilə qərarların qəbul olunması prosesində iştirak edir. Bu onu göstərir ki, neft hər bir insanın rifahına xidmət edə bilər. Yoxsulluğun azaldılması ilə bağlı bir az əvvəl gətirdiyim rəqəmlər xeyli dərəcədə neft gəlirlərinin bərabər şəkildə bölüşdürülməsi hesabına mümkün olmuşdur.

Əlbəttə ki, gələcəkdə enerji siyasətimizdən və həyata keçirəcəyimiz digər layihələrdən asılı olaraq, maliyyə imkanlarımız daha da artacaqdır. Məhz maliyyə resursları ölkənin güclü olması üçün əsas şərtlərdən biridir. Məqsədimiz dünyanın inkişaf etmiş ölkələri sırasında olmaqdır. Biz buna nəinki iqtisadi islahatlar vasitəsilə, o cümlədən, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı olan ən yüksək göstəricilər əldə etməklə nail ola bilərik.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, lakin yaxşı olardı ki, siz buradakı inkişaf proseslərini öz gözlərinizlə görəsiniz. Bu cür vacib tədbirin keçirilməsi üçün məhz Azərbaycanı seçməyinizi yüksək qiymətləndirirəm. Mən sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Sağ olun.

## ABŞ-ın VİTSE-PREZİDENTİ DİK ÇEYNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 sentyabr 2008-ci il*

*Sentyabrın 3-də Azərbaycan prezidenti İlham Əliyevin ABŞ-ın vitse-prezidenti Dik Çeyni ilə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab vitse-prezident!

Mən Sizi bir daha görməyimə şadam və Sizi Azərbaycanda salamlayıram. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Bu gün ikitərəfli münasibətlərimiz və regional vəziyyət barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkanımız oldu. Bir daha bildirdik ki, ikitərəfli əlaqələrimiz uğurla inkişaf edir və bir çox yeni sahələri əhatə edir. Münasibətlərimizin artıq uzun tarixi var. Əlaqələrimiz əsasən enerji məsələlərindən başlanmışdır. Regionda həyata keçirdiyimiz enerji layihələri Amerika Birləşmiş Ştatlarının güclü dəstəyi və Azərbaycanın təşəbbüsü ilə başlamışdır. Bütün bu layihələr artıq reallaşmışdır. Bunlar, sözün əsl mənasında, uğurlu hadisələrdir.

Hazırda biz energetika sahəsində tərəfdaşlığın və enerji təchizatının şaxələndirilməsinin daha da inkişaf etdirilməsi üzərində çalışırıq. Bu, təkcə istehlakçılar üçün deyil, həmçinin Azərbaycan istehsalçıları üçün də vacibdir. Bundan sonra ölkələrimiz arasında münasibətlər digər müxtəlif sahələrdə də inkişaf etməyə başladı və hazırda əlaqələrimiz çox geniş formatı əhatə edir. Siyasi əlaqələrimiz uğurla inkişaf edir. Güclü iqtisadi münasibətlərimiz var. Təhlükəsizlik, müdafiə sahəsində əlaqələrimiz, beynəlxalq sülhməramlı əməliyyatlar sahəsində əməkdaşlığımız və sözsüz ki, Ermənistan–Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin nizamlanması məsələsi bizim üçün çox əhəmiyyətlidir.

Minsk qrupunun həmsədrlərindən biri kimi, Amerika Birləşmiş Ştatları hər iki tərəfin münaqişənin həlli yollarını tapması işinə kömək göstərilməsində vacib rol oynayır. Lakin əlbəttə ki, digər münaqişələr kimi, bu münaqişənin həlli də beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Azərbaycanın, regionun və dünyanın bütün ölkələrinin ərazi bütövlüyünə hörmət edilməsi şərti ilə.

Əlbəttə ki, burada regional vəziyyət də müzakirə olundu. Bildiyiniz kimi, Azərbaycan böyük regional əhəmiyyət daşıyan, hətta ola bilsin, daha geniş məkanı əhatə edən bir sıra layihələrin təşəbbüskarıdır. Bütün bu layihələrin həyata keçirilməsində Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında münasibətlər çox mühüm, hətta mən deyərdim, həlledici rol oynayır. Bu günə qədər əməkdaşlığımız uğurla gedir və planlaşdırdığımız işləri həyata keçirə bilmişik. Əminəm ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında, eləcə də digər regional ölkələrlə güclü tərəfdaşlıq gələcəkdə daha çox müvəffəqiyyətlərin əldə olunması, təhlükəsizlik tədbirlərinin, sülhün, sabitliyin və rifahın daim möhkəmləndirilməsi ilə nəticələnəcəkdir.

**D i k  Ç e y n i:** Çox sağ olun, Sizi bir daha görməyimə çox şadam.

Cənab Prezident, iki il öncə Birləşmiş Ştatlara etdiyiniz səfəri xoş təəssüratla xatırlayırıq. Əlbəttə, öz növbəmdə deməliyəm ki, mən də Sizin ölkənizdə enerji sahəsində fəaliyyətimlə bağlı olmuşam. Burada olmağımdan və uzun müddətdir ki, ölkənizə səfər etməklə bağlı dəvətinizi qəbul edib buraya gəlməyimdən məmnunam. Mənim səfərim bir neçə vaxtdır ki, planlaşdırılırdı. Mənə, həyat yoldaşıma və nümayəndə heyətimizə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdaram. Mən prezident Buşun və Amerika xalqının Azərbaycan xalqına xoş arzularını çatdırıram.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında bir çox məsələlər üzrə mövqelər eynidir. Hər iki tərəf dünyanın bu önəmli regionunda təhlükəsizlik, sabitlik və əməkdaşlığın gücləndirilməsini vacib hesab edir. Biz özümüz və beynəlxalq birlik üçün enerji təhlükəsizliyi məsələlərinin həllinə xüsusi əhəmiyyət veririk. Hər iki tərəf sülhün bərqərar olunması işinə tam sadiqdir. Azərbaycan və Amerika Birləşmiş Ştatları bu gün qorxu altında olan sülh, təhlükəsizlik və sabitlik kimi prinsiplərin qorunmasına xüsusi əhəmiyyət verir.

Cənab Prezident, biz bir neçə ay öncə bu səfəri planlaşdırırdıq, lakin bu gün axşam apardığımız danışıqlar Rusiyanın Gürcüstan ərazisinə girdiyi bir zamanda baş tutur. Bu akt beynəlxalq birlik tərəfindən aydın şəkildə pislənibdir. Bu baxımdan prezident Buş və mən Azərbaycan xalqına və bütün regiona aydın və sadə mesajı çatdırırıq: Birləşmiş Ştatlar bu regionda rifahın və təhlükəsizliyin tam bərqərar olunmasında dərindən və hərtərəfli maraqlıdır. Artıq iki onillik ərzində biz xalqınıza müstəqilliyin, suverenliyin qurulması və möhkəmləndirilməsi, eləcə də nüfuzlu beynəlxalq təşkilatlara inteqrasiyası yolunda dəstək vermişik.

Bu gün biz həmin öhdəliyimizi və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinə sadiq olduğumuzu bir daha təsdiqləyirik. Amerika Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir. Biz Dağlıq Qarabağ münaqişəsinin ölkənizin ərazi bütövlüyü prinsipinə və bütün digər beynəlxalq hüquq normalarına əsaslanan danışıqlar yolu ilə həllinə tərəfdarıq. Bu gün münaqişənin həlli indiyə qədər olduğundan daha çox vacibdir. Çünki bu məsələnin həllindən regiondakı sülh və sabitlik, o cümlədən Azərbaycanın təhlükəsizliyi asılıdır.

Amerika Azərbaycanın enerji sahəsində Qərb ölkələri ilə əməkdaşlığa sadiqliyini yüksək dəyərləndirir. Bütün xalqlar bazar iqtisadiyyatı prinsiplərinin işlədiyi, məlumatın şəffaf olduğu, enerjinin ixrac marşrutlarının müxtəlif və etibarlı olduğu təqdirdə ən münasib xidmətlərdən yararlanır.

Birləşmiş Ştatlar digər Avropa dövlətləri, o cümlədən Türkiyə ilə birgə qəti şəkildə inanır ki, təbii sərvətlərin sərbəst nəqlini təmin etmək və əlavə ixrac marşrutlarının işlənməsi üçün Azərbaycan, Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birgə iş aparılmalıdır. Enerji təhlükəsizliyi məsələləri son illərdə daha çox əhəmiyyət kəsb edir.

Yekun olaraq, cənab Prezident, mən Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı apardığı qlobal mübarizəyə Azərbaycanın verdiyi töhfəyə görə ölkəm adından minnətdarlığımı bildirmək istəyirəm. Bizim qüvvələrimiz Əfqanıstan və İraqda birgə çalışır, zorakılıq və ekstremizm hallarının qarşısının alınmasında əməkdaşlıq edirlər. Ölkələrimiz təhlükəli rejimlərdən irəli gələn kütləvi qırğın silahlarının yayılmasının həm Azərbaycan, həm də beynəlxalq birlik üçün risk doğurduğunu yekdilliklə etiraf edir. Amerika Azərbaycanın həm regional, həm də beynəlxalq miqyasda sülh və təhlükəsizlik işinə verdiyi böyük töhfəsini yüksək dəyərləndirir.

Biz demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsi, insan hüquqlarına hörmət edilməsi kimi məsələlərdə və Azərbaycan xalqının üzləşdiyi mürəkkəb problemlərin həllində, habelə müasir, tərəqqi edən və müstəqil dövlətin qurulmasında xalqınızın səylərini dəstəkləyirik. Biz ölkənizin dünyanın bu guşəsində sülh və sabitliyin bərqərar olmasına nümunə kimi xidmət edəcəyinə inanırıq.

Çox sağ olun.

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Meksika münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2008-ci il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının dost xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2008-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Milli bayramınız – Krallıq elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, dost xalqlarımızın iradəsi ilə ölkələrimiz arasındakı münasibətlər, əməkdaşlığımız bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Səudiyyə Ərəbistanının dost xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2008-ci il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDVARD FENEK ADAMİYƏ**

Hörmətli cənab Prezident!

Maltanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Malta münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq ruhunda öz inkişafını davam etdirəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Malta xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2008-ci il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB AMADU TUMANİ TUREYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün Mali xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mali arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2008-ci il*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də İranın Xarici İşlər nazirinin müavini Mehdi Səfərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Mehdi Səfəri İran prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycanla İran arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

# MACARISTAN MİLLİ ASSAMBLEYASININ SƏDRİ XANIM KATALİN SİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Macarıstan parlamentinin – Milli Assambleyanın sədri xanım Katalin Silinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Macarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Ölkələrimiz arasında tərəfdaşlığın səviyyəsindən məmnunluğunu vurğulayan prezident İlham Əliyev parlamentlərarası əməkdaşlıq üçün də böyük potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı xanım Katalin Silinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*Prezident İlham Əliyevlə Budapeştdəki görüşünü xatırladan xanım Katalin Sili dövlətimizin başçısı ilə yenidən görüşündən məmnunluğunu bildirdi. O, ölkələrimiz arasında əməkdaşlığın genişləndiyini vurğuladı, parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsi baxımından bu səfərin əhəmiyyətli olacağını qeyd etdi.*

## VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Vatikanın ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir.*

*K.Qucerotti Roma Papası XVI Benediktin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Vatikanın Dövlət katibi, kardinal Tarçizio Bertoninin Azərbaycana səfərini və Bakıda katolik kilsəsinin açılış mərasimini məmnunluqla xatırladaraq, Azərbaycan prezidentinin və xanımının həmin mərasimdə iştirakının tədbirə xüsusi şərəf verdiyini vurğuladı.*

*Azərbaycanla Vatikan arasında əlaqələrin səviyyəsindən məmnunluğunu bildirən prezident İlham Əliyev ölkəmizdə bütün dinlərin, o cümlədən katolik icması nümayəndələrinin sərbəst fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını vurğuladı, bu siyasətin bundan sonra da davam etdiriləcəyini bildirdi.*

*Dövlətimizin başçısı Roma Papası XVI Benediktin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SALYAN VƏ CƏLİLABAD RAYONLARINA SƏFƏRİ

*7 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 7-də Salyan rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə Cəsur Əliyev adına Qardili kənd orta məktəbinin yeni binasının açılışında iştirak etdi.*

*Mərasimə toplaşanlar ölkə rəhbərini hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi, məktəbin foyesində bu təhsil ocağının əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillərə, ümummilli lider Heydər Əliyevin fəaliyyətinə dair fotoguşəyə baxdı. Foyedə ulu öndər Heydər Əliyevin təhsil işçilərinin əməyinə verdiyi qiyməti təsdiqləyən «Mən yer üzündə müəllimdən yüksək ad tanımıram» kəlamı yazılmışdı.*

*Dövlət başçısına məlumat verildi ki, Qardili kənd orta məktəbinin müəllim və şagirdləri uzun illərdən bəri köhnə binanın yaratdığı problemlərdən əziyyət çəkirdilər. Qış aylarında burada dərs keçmək daha çox çətinlik yaradırdı. Yeni bina 220 şagird üçün nəzərdə tutulmuşdur. Bu il məktəbdə təhsil alacaq 161 şagirdin təlim-tərbiyəsi ilə 21 müəllim məşğul olacaqdır. 11 sinif otağı, 2 emalatxana, 2 laboratoriya və 1 həkim otağından ibarət bina müasir istilik sistemi ilə təchiz olunmuş, transformator quraşdırılmışdır. Məktəbin həyəti abadlaşdırılmış, burada gözoxşayan yaşıllıq salınmışdır.*

*Azərbaycanda təhsilin inkişafında misilsiz xidmətləri olan Heydər Əliyev Fondu əvvəlki illərdə olduğu kimi, bu il də məktəbə ilk dəfə qədəm qoyacaq uşaqlara çanta, dərslik və digər məktəb ləvazimatı hədiyyə etmişdir.*

*Prezident İlham Əliyev birincilərin oxuyacağı sinif otağına baxdı, Heydər Əliyev Fondunun hədiyyələri ilə tanış oldu, fondun ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi.*

*Məlumat verildi ki, bu təhsil ocağının kitabxanasına prezidentin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamına əsasən çap olunmuş kitablar, kimya və fizika laboratoriyalarına isə Heydər Əliyev Fondunun nəşr etdirdiyi əyani vəsaitlər hədiyyə olunmuşdur. Hərbi hazırlıq otağı da bütün lazımi tədris vəsaiti ilə təchiz edilmişdir.*

*Dövlət başçısı kompyuter otağına, akt və idman zallarına da baxdı. Kompyuterlərin hamısı internetə qoşulmuşdur. Əmək təlimi kabinetində isə uşaqlar dərzi, xalçaçı və çəkməçi peşələri üzrə kurslarda da məşğul ola biləcəklər.*

*Məktəblə tanışlıqdan sonra pedaqoji kollektivlə söhbət edən prezident İlham Əliyev dedi:* «Sizi gözəl məktəbin tikilməsi münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl şərait var. Əvvəlki məktəbin şəkillərinə də baxdım. Gördüm ki, siz çox çətin vəziyyətdə işləmisiniz. Uşaqlar da çətin vəziyyətdə oxuyublar. Amma indi bu məktəb ən gözəl səviyyədədir. Oxumaq üçün də, işləmək üçün də burada bütün imkanlar var. Mən çox şadam ki, bizim kənd məktəblərimiz belə gözəl səviyyədədir, şəhər məktəblərindən heç nə ilə fərqlənmir. Bəlkə də onların bəzilərindən daha da üstündür. İndi əsas məsələ burada uşaqları yaxşı oxutmaqdır, onlara yaxşı tərbiyə verməkdir ki, gələcəkdə ölkəmizin inkişafı üçün öz səylərini göstərsinlər. Sizi təbrik edirəm, uğurlar arzulayıram».

*Müəllimlər yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıq etdilər.*

## OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI

*7 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 7-də Salyanda Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Açılış mərasiminə toplaşan rayon ictimaiyyətinin nümayəndələri, Olimpiya oyunlarının, o cümlədən Pekin Olimpiadasının qalibləri və mükafatçıları, məşqçilər dövlət başçısını sürəkli alqışlarla qarşıladılar.*

*10 hektar ərazidə yerləşən və müasir tələblərə cavab verən idman kompleksində 2 min tamaşaçı yeri olan futbol stadionu, 264 yerlik mini futbol meydançası, tennis kortu, basketbol, voleybol meydançaları, üzgüçülük hovuzu, boks, güləş və əl oyunları salonları vardır. Kompleksdə yüngül atletika, akrobatika və bədii gimnastika ilə də məşğul olmaq üçün hər cür şərait yaradılmışdır.*

*Ərazidəki üçmərtəbəli beşulduzlu mehmanxanada bar, restoran, inzibati mərkəz və böyük konfrans salonu yerləşir. Kompleksin ətrafında kotteclər tikilmişdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, idman kompleksi, mehmanxana, yeməkxana və kotteclərə baxdı. Dövlət başçısı futbol meydançası, üzgüçülük hovuzu, boks, güləş meydançaları, əl oyunları zalları ilə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi.*

*Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşə də vardır. Burada ulu öndərin və prezident İlham Əliyevin idmana göstərdikləri diqqət və qayğını, eləcə də Azərbaycanın idman həyatına dair yenilikləri, son illər idmançılarımızın qazandıqları uğurları əks etdirən fotoşəkillər toplanmışdır.*

*Sonra Olimpiya İdman Kompleksinin təntənəli açılışı oldu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz salyanlılar!
Əziz dostlar!
Əziz idmançılar!

Bu gün Salyan rayonunun həyatında çox əlamətdar bir gündür. Salyanda gözəl Olimpiya İdman Kompleksi istismara verilir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Mən xatırlayıram, iki il bundan əvvəl Salyanda olarkən kompleksin tikintisi ilə tanış olmuşdum və o vaxt demişdim ki, bu gözəl idman qurğusu dünyanın ən yüksək standartlarına cavab verməlidir. Bu gün kompleksin bütün elementləri ilə tanış olarkən bir daha gördüm ki, doğrudan da bu belədir. Burada idmanla məşğul olmaq üçün çox gözəl imkanlar var, ən müasir şərait, dörd açıq meydança, böyük stadion, idman zalı, hovuz, digər zallar var. Yəni bu kompleksdə həm beynəlxalq yarışların keçirilməsi mümkündür, həm də yerli idmançıların məşqləri üçün, təlim-məşq toplanışlarının keçirilməsi üçün bütün şərait vardır.

Bildiyiniz kimi, Azərbaycanda olimpiya idman komplekslərinin tikintisi çox geniş vüsət alıbdır.

Ölkəmizin müxtəlif bölgələrində belə gözəl idman obyektləri tikilir. Son illər ərzində 13 idman kompleksi istismara verilmişdir. Salyan idman kompleksi 14-cüdür və növbəti illərdə 20-dən çox olimpiya kompleksi tikiləcəkdir. Bu sadəcə olaraq, idman infrastrukturu deyil, eyni zamanda, turizmin inkişafı üçün, rayonların inkişafı üçün gözəl şərait yaradır. Burada gözəl mehmanxana və digər qurğular tikilibdir. Yəni bir sözlə, burada idmanla məşğul olmaq üçün, peşəkar idmançılar üçün və eyni zamanda, Salyan rayonunun sakinləri üçün hər cür şərait vardır. Mən çox istəyirəm ki, Azərbaycanda istismara verilmiş bütün yeni idman qurğularında daimi proses getsin,

yəni uşaqlar, gənclər burada idman bölmələrində məşq eləsinlər, öz fiziki hazırlıqlarını daha da yüksək səviyyəyə qaldırsınlar.

Azərbaycanda idman çox böyük addımlarla inkişaf edir. Azərbaycan idman ölkəsidir, idman dövlətidir. Bizim beynəlxalq yarışlarda gözəl nəticələrimiz var, idmanın kütləviliyi geniş hal alır və biz bu məsələyə də çox böyük diqqət göstərməliyik. İdmanın kütləviliyi insanlarda idmana daha da böyük marağın yaranmasına gətirib çıxaracaq, uşaqlar daha da sağlam olacaqlar. Fiziki cəhətdən sağlam olan insan mənəvi cəhətdən də sağlam olur. Beləliklə, Azərbaycanda gənc nəsil – uşaqlar, gənclər fiziki cəhətdən daha da güclü olacaqlar.

Əlbəttə, idmanın kütləviliyi hər bir ölkənin inkişafının əlamətidir. İnkişaf etmiş ölkələrdə bu daha da geniş xarakter alır. Azərbaycan da bu yolu seçibdir. Bütün istiqamətlərdə atılan addımlar, görülən tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün şərait yaradır. Biz çox yüksək sürətlə inkişaf edirik. Sosial məsələlərin həlli – idman da bu istiqamətdə çox vacib bir amildir – əlbəttə, böyük əhəmiyyət daşıyır. İdmanın kütləviliyini daha da böyük dərəcədə təmin etmək üçün, əlbəttə ki, bizim idman qələbələrimiz də olmalıdır və çox şadam ki, bu var. İdmançılarımız son illər ərzində müxtəlif beynəlxalq yarışlarda böyük nailiyyətlər, uğurlar qazanmışlar. Bu gün bizimlə bərabər burada Pekin Olimpiya oyunlarının qalibləri də iştirak edirlər. Həm Pekin, həm Sidney, həm Afina, həm də Barselona Olimpiya oyunlarında Azərbaycanı təmsil edən, bizim idman şöhrətimizi yüksəklərə qaldıran insanlar, Azərbaycanın Dövlət bayrağını yüksəklərə qaldıran idmançılarımız buradadırlar. Onların uğurlu çıxışları, o cümlədən Pekin Olimpiya oyunlarında böyük qələbə qazanmaları, əlbəttə ki, bizim hamımızı ruhlandırır və ilk növbədə, uşaqları idmanla məşğul olmağa daha da çox sövq edir. Mən əminəm ki, onların nümunəsi, qələbələri bütün gənc idmançılar üçün bir örnəkdir. Mən şübhə etmirəm ki, bu böyük qələbədən sonra idman bölmələrinə uşaqların axını daha da

sürətli olacaqdır. Biz bunu müşahidə edirik. Biz görürdük ki, əvvəlki Olimpiya oyunlarından sonra, qazanılmış qələbələr nəticəsində idman bölmələrinə uşaqların axını daha da sürətli olur. İndi idmanla məşğul olmaq üçün, demək olar ki, Azərbaycanın bütün bölgələrində gözəl şərait var. Bax, bu olimpiya kompleksinin timsalında biz bunu görürük. Biz görürük ki, bizim çox güclü idman infrastrukturumuz yaradılır.

Bu Olimpiya İdman Kompleksində istənilən beynəlxalq yarışları da keçirmək mümkündür. Yəni indi Azərbaycanın bütün imkanları var ki, biz ən mötəbər beynəlxalq yarışları ölkəmizdə keçirək. Biz bunu edirik. Artıq dünya, Avropa çempionatları Azərbaycanda keçirilir və gələcəkdə belə imkanlar daha da geniş olacaqdır. Yəni bir sözlə, bu olimpiya idman komplekslərinin tikilməsi çox əlamətdar bir hadisədir və bir neçə məqsədi güdür: idmanın kütləviliyini təmin etməyi, müasir idman və turizm infrastrukturunun yaradılmasını, təlim-məşq toplanışlarının keçirilməsini. Eyni zamanda, mən istərdim ki, Salyan rayonunun sakinləri də bu idman kompleksinin imkanlarından səmərəli istifadə etsinlər, burada idmanla məşğul olsunlar və öz sağlamlıqlarını daha da möhkəmləndirsinlər.

Deyə bilərəm ki, bütünlükdə son illər ərzində bu istiqamətdə görülən işlər məni çox sevindirir. Bizim gələcək fəaliyyət üçün də konkret planlarımız, proqramlarımız var. Bütövlükdə Salyanın inkişafına böyük diqqət göstərilir. Rayonun iqtisadi, sənaye potensialı artır, yeni müəssisələr yaradılır. Mənə verilən məlumata görə, son dörd il ərzində rayonda 10 mindən çox yeni iş yeri açılmışdır. Beləliklə, insanlar daha da yaxşı yaşamağa başlamışlar.

Salyanda sosial məsələlərin həlli sürətlə gedir. Mən bu gün səhər kənd məktəbinin açılışında iştirak etdim və gördüm ki, məktəb çox yüksək səviyyədə tikilibdir. Bu da Dövlət Proqramının tərkib hissəsidir. Azərbaycanın bütün bölgələrində yeni məktəblər tikilir. Son dörd il ərzində 1400 yeni məktəb tikilmişdir və bu proses sürətlə davam etdirilir. Mənə verilən məlumata görə, indi Salyanda bütün məktəblərdə kompyuter

sinifləri yaradılmışdır. Biz kompyuterləşmə proqramını, demək olar ki, çox uğurla başa çatdırırıq. Bu, bir tərəfdən, onu göstərir ki, dövlət siyasəti çox məqsədyönlüdür, digər tərəfdən, biz onun nəticəsini təhsilin keyfiyyətinin artmasında görürük. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Güclü sosial infrastruktur eyni zamanda, tərəqqiyə, inkişafa gətirir.

Salyanda son illər ərzində 12 yeni məktəb tikilmişdir. Bir neçə məktəbdə əsaslı təmir işləri aparılmışdır və tikilməkdə olan məktəblər də var. Əlbəttə ki, gələcəkdə bu siyasət davam etdiriləcəkdir. Azərbaycanda bir dənə də yararsız, yaxud da qəza vəziyyətində məktəb olmamalıdır, olmayacaqdır. Dörd ildə 1400 məktəbin tikilməsi bunun əyani sübutudur. Mən əminəm ki, növbəti 3-4 il ərzində Azərbaycanda bütün məktəb infrastrukturu dünyanın ən yüksək standartlarına cavab verəcəkdir.

Salyan rayonunda sosial məsələlərin həlli üçün başqa tədbirlər də görülür. Mən xatırlayıram, keçən dəfə Salyanda olanda rayon xəstəxanası ilə tanış oldum və gördüm ki, vəziyyət o qədər də ürəkaçan deyildir. Xəstəxana, demək olar ki, yararsız vəziyyətə düşmüşdü. Bu gün mənə məlumat veriblər ki, artıq əsaslı təmir işləri tam başa çatıb və ən yüksək dünya səviyyəsindədir. Mən bu gün o xəstəxana ilə tanış olacağam. Bax, budur Azərbaycanın reallıqları. Azərbaycan vətəndaşları yaxşı şəraitdə yaşamalıdırlar, uşaqlar yaxşı məktəblərdə oxumalıdırlar, yaxşı tibbi xidmət göstərilməlidir, infrastruktur yaradılmalıdır, yeni iş yerləri açılmalıdır. Azərbaycanın iqtisadiyyatı çoxşaxəli olmalıdır və biz bu məqsədlərə çatırıq.

Bu gün Bakıdan gələrkən paytaxtı Salyanla birləşdirən yolun tikintisinə də nəzər saldım. Bu yol ən müasir səviyyədədir, Azərbaycan–İran sərhədinə qədər gedəcəkdir. Bu, insanlara rahatlıq gətirəcəkdir. Yol olan yerdə inkişaf da olur. Beləliklə, Azərbaycanın inkişafı uzunmüddətli, dayanıqlı olacaqdır və Azərbaycan xalqına böyük uğurlar gətirəcəkdir.

Mən bir daha demək istəyirəm ki, biz iqtisadi islahatlar aparmaqla ölkəmizin hərtərəfli inkişafına nail ola bilmişik. Biz

bu gün kənd təsərrüfatına böyük diqqət göstəririk və kənd təsərrüfatı istehsalı ildən-ilə artır. Bu günlərdə Bakıda Azərbaycanda istehsal olunan məhsulların sərgisi keçirilirdi. Mən sərgi ilə tanış oldum. Bilirdim və bir daha gördüm ki, demək olar, ərzaq məhsullarının böyük əksəriyyəti ilə özümüzü təmin edirik. Əvvəllər biz daha çox idxaldan asılı idik. Azərbaycanda strateji xarakter daşıyan bir çox ərzaq məhsulları xaricdən gətirilirdi. Biz indi özümüzü kənd təsərrüfatı məhsulları ilə 90–95 faiz səviyyəsində təmin etməyə nail ola bilmişik. Cəmi 4-5 il ərzində buna nəyin hesabına nail ola bilmişik?! Məqsədyönlü iqtisadi islahatlar, sahibkarlığın dəstəklənməsi, fermerlərə güzəştli kreditlərin verilməsi, ölkəmizdə liberallaşma siyasətinin aparılması, sahibkarlara dövlət tərəfindən həm maddi, həm də mənəvi, siyasi dəstəyin verilməsi, «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması, gübrənin, yanacağın fermerlərə güzəştli şərtlərlə verilməsi sayəsində. Azərbaycanda fermerlərə hər il 100 milyon dollar həcmində güzəştli kreditlər verilir. Bax, budur dövlət tərəfindən görülən əsas işlər. Əlbəttə ki, bununla bərabər, elektrik xətləri, yollar çəkilir və digər infrastruktur obyektləri yaradılır. Bu, Azərbaycanın qeyri-neft sektorunun inkişafına böyük təkan vermişdir. Əgər Azərbaycan uzun illər, əsrlər boyu neft ölkəsi kimi tanınırdısa, XXI əsrdə özünü müasir, inkişaf etmiş ölkə kimi tanıtdıracaqdır. Bunu deməyə əsas var. Son illər ərzində aparılan çox ciddi iqtisadi islahatlar öz bəhrəsini verməkdədir.

Mən şübhə etmirəm ki, ölkəmizin gələcək inkişafı da uğurlu olacaqdır və hər bir rayonda abadlıq işləri aparılacaq, sosial infrastrukturun yaradılması və müasirləşdirilməsi üçün, insanların rahat yaşaması üçün lazımi tədbirlər görüləcəkdir.

Mən çox şadam ki, Salyan rayonunun iqtisadi göstəriciləri də çox yaxşıdır. Burada istehsal olunan məhsulların ümumi həcmi artır, yeni iş yerləri açılır. Rayonun infrastrukturunun möhkəmləndirilməsi üçün Azərbaycan dövləti bundan sonra da səy göstərəcəkdir. Gələn ilin əvvəlində qəbul ediləcək regionların sosial-iqtisadi inkişafına dair növbəti Dövlət

Proqramında bütün rayonların problemləri öz əksini tapacaqdır. O cümlədən, Salyan rayonunun növbəti beş il ərzində uğurlu inkişafı üçün nəzərdə tutulan əməli-praktiki tədbirlər orada göstəriləcəkdir.

Əziz salyanlılar!

Əziz dostlar!

Əziz idmançılar!

Bu gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

## RAYON XƏSTƏXANASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI

*Sentyabrın 7-də Salyan Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra açılışı olmuşdur.*

*Bu münasibətlə keçirilən mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi xəstəxananın işçiləri səmimiyyətlə qarşıladılar.*

*Ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin göstərişi ilə tikilmiş xəstəxananın əsaslı təmiri üçün prezident İlham Əliyev 2006-cı ilin avqustunda Salyana səfəri zamanı tapşırıq vermişdi. 13 hektar ərazidə yerləşən və beş korpusdan ibarət olan mərkəzi xəstəxana müayinə və müalicə üçün ən müasir avadanlıq və tibbi ləvazimatla təmin olunmuşdur. Təcili yardım şöbəsinə xüsusi avtomobillər verilmişdir.*

*Beşmərtəbəli əsas korpusun foyesində prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın səhiyyənin inkişafına göstərdikləri qayğını əks etdirən fotoşəkillər diqqəti cəlb edir. Bu korpusda diaqnostika, poliklinika, oftalmologiya, terapiya şöbələri və palatalar da daxil olmaqla, 230 otaq vardır.*

*Reanimasiya bölməsinin də yerləşdiyi cərrahiyyə korpusunda ən çətin əməliyyatların aparılması üçün bütün şərait yaradılmışdır.*

*Dövlət başçısı intensiv terapiya bölməsinə, əməliyyat blokuna, palatalara baxdı, buradakı şəraitlə tanış oldu.*

*Son illər ölkəmizdə səhiyyənin inkişafı ilə bağlı görülən işlərdən danışan respublika prezidenti İlham Əliyev bu sahəyə xüsusi diqqət yetirdiyini, bölgələrdə ən müasir xəstəxanaların açıldığını bildirdi, əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərilməsi ilə bağlı tövsiyələrini verdi.*

*Dövlət başçısı xəstəxananın kollektivi ilə xatirə şəkli çəkdirdi, tibb işçilərini təbrik etdi, onlara uğurlar arzuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABAD RAYONUNA GƏLMİŞDİR

*7 sentyabr 2008-ci il*

*Sentyabrın 7-də Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad rayonuna gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Cəlilabad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev abidənin ətrafındakı parkda aparılmış abadlıq işləri ilə tanış oldu.*

*Tamamilə yenidən qurulmuş və şəhər sakinlərinin sevimli istirahət guşələrindən birinə çevrilmiş parkda yaşıllıq salınmış, çoxlu bəzək və gül kolları, ağac əkilmiş, fəvvarə quraşdırılmışdır.*

*Parkın yaxınlığında müasir üslubda mədəniyyət evi tikilmişdir.*

### Ulu öndər Heydər Əliyev Muzeyinin açılışı

*Sentyabrın 7-də Cəlilabad şəhərində Heydər Əliyev Muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*İkimərtəbəli, müasir memarlıq üslubunda tikilmiş binanın birinci mərtəbəsində eksponatlar 4 bölmədə yerləşdirilmişdir. Birinci bölmədə ümummilli lider Heydər Əliyevin həyatının uşaqlıq və gənclik illərinə, sovet dövründəki fəaliyyətinə dair fotoşəkillər nümayiş etdirilir. İkinci bölmədə dünyanın görkəmli şəxsiyyətlərinin ulu öndər barədə kəlamları ilə tanış olmaq*

*mümkündür. Digər bölmələrdə isə ümummilli liderin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini, ötən əsrin 70–80-ci illərində və ölkəmizin müstəqilliyi dövründə Cəlilabada səfərlərini əks etdirən fotoşəkillər toplanmışdır.*

*Muzeyin ikinci mərtəbəsində kompyuter və inzibati otaqlar, arxiv yerləşir.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Heydər Əliyev seyrəngahı ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 7-də Cəlilabad şəhərinin mərkəzindəki Heydər Əliyev seyrəngahı ilə tanış olmuşdur.*

*Beş hektar sahədə yerləşən seyrəngahda süni göl, fəvvarə, pilləli şəlalə yaradılmışdır, uşaq-əyləncə mərkəzi və beş istirahət kotteci vardır. Burada üçmərtəbəli hotel, kafe, çayxana, yeməkxana fəaliyyət göstərir. Bu obyektlərdə 40 nəfər işlə təmin olunmuşdur.*

*Dövlət başçısı seyrəngahda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**M i r a ğ a S a l m a n o v** (*sakin*): Cənab Prezident, Sizin keçən gəlişinizdən ötən bir ildə Cəlilabad simasını o qədər dəyişib ki, tanınmaz olubdur. Bunların hamısını bizə Siz bəxş etmisiniz. Sizin sayənizdə bunlara nail olmuşuq.

Cəlilabadda quruculuq işləri göz qabağındadır. Sizin keçənilki tapşırığınıza əsasən Yardımlı–Cəlilabad yolu çəkilibdir. Bu yolun üstündə 60 kənd var. Cənab Prezident, keçmişdən belə bir adət var, deyirlər ki, yol çəkənin atasına rəhmət! Allah Sizin atanıza qəni-qəni rəhmət eləsin. 1998-ci ildə mənə ulu öndərlə görüşmək nəsib olmuşdur. Bu gün də Sizin o nurlu simanızı görürəm. Vallah, mən səmimi adamam, hamı başa düşür, həmin nur sizin üzünüzdən yağır. Allah Sizi uca etsin, bədnəzərdən qorusun.

Cənab Prezident, çox sağ olun, bütün cəlilabadlılar Sizə minnətdarlıq edir ki, indi biz həkim müayinəsindən keçməyə yüz kilometrlərlə yol ölçüb Bakıya yox, Lənkərana gedirik. Amma Sizin sayənizdə xəstəxana yaradılıb, biz daha heç Lənkərana da getməyəcək, elə Cəlilabadda müayinə olunacağıq.

Cənab Prezident, bu gün Cəlilabadda gedən işləri saymaqla qurtarmaq olmaz. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən məktəblərimiz var. Bu seyrəngahı bizə Siz bəxş etmisiniz. Vaxtilə bura zibillik idi. Siz özünüz də görmüşdünüz. Deyirəm ki, Allah bizə bir 20 il də ömür versin, Sizin bu yaratdığınız cənnətdə biz də yaşayaq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu inkişafı görəndə mən də çox sevinirəm. Yadımdadır ki, keçən il mən burada olarkən işlər hələ tam başa çatmamışdı, yarımçıq idi. Amma görünürdü ki, gözəl bir seyrəngah olacaqdır. Son bir il ərzində burada çox güclü işlər görülüb. Siz burada yaşayırsınız, görürsünüz, hiss edirsiniz. Mən də vaxtaşırı gəlirəm və görürəm, yeni-yeni yollar salınır, işıq dirəkləri qoyulur, binaların xarici görkəmi dəyişir. Gözəl park – Heydər parkı, Heydər Əliyev Muzeyi, bir neçə məktəb tikilib, biz açılışını qeyd elədik. Bu da çox vacibdir. Azərbaycanın gələcək inkişafı üçün mütləq bilikli vətəndaşlar olmalıdır. Uşaqlar yaxşı şəraitdə oxumalıdırlar. Müəllimlər üçün də yaxşı şərait yaradılmalıdır. İndi olimpiya kompleksi tikilir, yəqin ki, gələn il onun da açılışında iştirak edəcəyəm.

Müalicə-Diaqnostika Mərkəzi tikilir. Əvvəllər biz hər bir bölgədə, hər bir regionda diaqnostika mərkəzinin tikintisinə nail olmuşduq, amma indi bütün rayonlarda yaradılır. Ən yüksək tibbi xidmət göstəriləcəkdir, yəni bu, insanların rahatlığı üçündür. Bütün bu qoyulan investisiyalar – olimpiya kompleksi, məktəblər, xəstəxana – bunlar hamısı kommersiya xarakteri daşımır, sadəcə olaraq, insanların daha da yaxşı yaşaması üçündür. Cəlilabad–Yardımlı yolunun tikintisinə də başlamışıq. O vaxt mənə müraciət olunmuşdu ki, belə bir layihə var və bu yola böyük ehtiyac var. Yol tikilib qurtarandan sonra əminəm

ki, kəndlərdə yaşayan insanların həyat səviyyəsi xeyli dərəcədə yaxşılaşacaq, mərkəzi yollarla əlaqə yaxşılaşacaqdır. Bu kəndlərə daha da çox insanlar gedib iş görəcəklər. Müxtəlif biznes imkanları yaranacaqdır.

Yəni bütün bunlar ona görə edilir ki, insanlar daha da yaxşı yaşasınlar. Cəlilabadda həm sənaye potensialı inkişaf edir – mənə verilən məlumata görə, son dörd ildə sənaye istehsalı, ümumi daxili məhsul iki dəfədən çox artıb, bu, böyük nəticə, böyük nailiyyətdir – həm də burada işlər böyük zövqlə, səliqə ilə aparılır. Biz görürük ki, bu parklar, burada əkilən ağaclar necə gözəldir. Bu, xüsusi diqqət tələb edir və mən çox şadam ki, burada yerli rəhbərlik də çox fəal işləyir. Əslində bizim uğurumuzun səbəbi bundadır. Biz düzgün qərarlar qəbul edirik, vəsait ayırırıq, büdcə xərcləri ildən-ilə artır. Yerlərdə bütün fəallar, bütün vəzifəli şəxslər, ictimaiyyət – hərə öz yerində gərək səmərəli işləsin ki, inkişaf daha da sürətlə getsin.

Mən çox şadam ki, Cəlilabadın simasında biz Azərbaycanda son illər ərzində gedən işlərin nəticələrini görürük. Siz də bunu görürsünüz. Siz burada yaşayırsınız, bəlkə də bu yaxşı dəyişikliklərə tez öyrəşirsiniz, bu da çox yaxşıdır. Amma mən, misal üçün, keçən il gəlmişdim, ondan əvvəl 2005-ci ildə gəlmişdim və hər dəfə gələndə bu dəyişiklikləri görürəm və sizinlə bərabər mən də sevinirəm.

**M i r a ğ a S a l m a n o v:** Hamımız gördük ki, çətin vəziyyətlərdə necə təmkinli qərarlar qəbul etdiniz. Xalq bunu görür, hamı duyur, hamı danışır.

**İ l h a m Ə l i y e v:** Biz ölkəmizi qorumalıyıq, Azərbaycanın müstəqilliyini qorumalıyıq, möhkəmləndirməliyik, ölkəmizin milli maraqlarının təmin olunması üçün nə lazımdırsa, onu da edəcəyik və edirik. Hər bir atılan addım istər daxildə, istərsə də bölgədə Azərbaycanı gücləndirir. Bizim bölgədə mövqelərimiz böyük dərəcədə möhkəmlənibdir.

Son illər, aylar ərzində bölgədə Azərbaycanın nüfuzu, Azərbaycanın çəkisi, regionda aparıcı ölkə kimi dünya birliyinə özünü təqdim etməsi – bütün bunlar reallıqlardır. Bütün dünya

bunu görür, bunu dərk edir, dəstəkləyir. Azərbaycan bölgədə sabitləşdirici rol oynayır və bu rol getdikcə artır. Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik və rifah içərisində yaşamalıdır. Bunu etmək üçün bizim bütün imkanlarımız var: ölkədə qəbul edilmiş proqramlar, artan maddi imkanlarımız, uğurlu neft strategiyamız, sosial məsələlərin həlli. Hansı istiqamətə baxsaq görərik ki, inkişaf var. İqtisadi inkişaf baxımından dünyada ikinci belə bir ölkə yoxdur ki, son dörd il ərzində iqtisadi artım bu qədər sürətlə getsin. Yəni biz dünya miqyasında bir nömrəli ölkəyik.

Sosial məsələlərin həlli baxımından təkcə Cəlilabad rayonunda deyil, bütün başqa rayonlarda da məktəblər, xəstəxanalar, yollar, yeni fabriklər, zavodlar tikilir. Bölgələr inkişaf edir, yeni iş yerləri açılır. Son beş il ərzində 700 mindən çox yeni iş yeri açılmışdır. Bu, böyük bir nailiyyətdir. Hər bir iş yeri insanlara daha da yaxşı şərait yaradır, onları daha da yaxşı əməkhaqqı ilə təmin edir, daxili istehsal artır.

Azərbaycan indi özünü ən zəruri əksər ərzaq məhsulları ilə 85–95 faiz səviyyəsində təmin edir. Heç vaxt belə olmamışdır.

Burada ağsaqqallar, təcrübəli insanlar var, bilirlər, vaxtilə Sovet İttifaqında hər bir respublika üzrə xüsusi iqtisadi planlar var idi. Məsələn, Azərbaycanda kənd təsərrüfatı əsasən üzümçülük, pambıqçılıq istiqamətində inkişaf edirdi. Başqa respublikalardan isə ət, yağ, digər ərzaq məhsulları gətirilirdi. İndi biz özümüzü təmin edirik – şəkərlə 100 faiz, bitki yağları ilə 100 faiz, kərə yağı, süd, ət, yumurta, meyvə-tərəvəzlə də, Azərbaycanda istehsal olunan məhsullarla təmin olunuruq. Təkcə taxıl istehsalında biz hələ ki, xarici idxaldan asılıyıq. Ancaq son qərarlar, kənd təsərrüfatının inkişafına dair atılmış addımlar bu istiqamətdə də böyük irəliləyişə gətirib çıxaracaqdır. Biz indi elə etməliyik ki, taxıl istehsalı tam şəkildə Azərbaycanı təmin

etsin. Beləliklə, Azərbaycanda ərzaq təhlükəsizliyi məsələsi həll olunur.

Enerji təhlükəsizliyini təmin etmişik, indi başqa ölkələrə enerji daşıyıcıları ixrac edirik. Nəqliyyat təhlükəsizliyini təmin etmişik. Qonşu ölkələrlə bizim nəqliyyat əlaqələrimiz güclənibdir. İndi Bakı–Astara avtomobil yolu tikilir, bir hissəsi tikilibdir. Dəmir yolu, hava nəqliyyatı və ərzaq təhlükəsizliyi – bax, bu üç əsas məsələ indi, demək olar ki, bütün ölkələri narahat edir. Dünyada enerji daşıyıcılarının, ərzaq məhsullarının qiyməti artır. Əgər biz idxaldan asılı olsaq, Azərbaycanda da qiymətlər artacaqdır. Bizdə də bu var – inflyasiya, qiymət artımı var. Amma elə etməliyik ki, daxildə istehsal olunan məhsullar qiymətin aşağı salınmasına gətirib çıxarsın. Əlbəttə ki, bütün bu nəticələrə çatmaq üçün ölkəmizdə sabitlik, əmin-amanlıq davam etməlidir.

Azərbaycan öz əməyi ilə bütün bu uğurları əldə edibdir. Əminəm ki, gələcək illər üçün nəyi nəzərdə tutmuşuqsa, onu da edəcəyik.

**L y u b o v  D a n i l o v a** (*sakin*): Çox hörmətli cənab Prezident, axır ki, mən vaxtilə Sizin atanıza dediyim kimi, ən səmimi, xoş sözlərimi indi də Sizə ünvanlamaq imkanı əldə etdim. Bu gün biz Sizi bərəkətli Cəlilabad torpağında salamlamağımıza çox şadıq. Axı Siz ümummilli liderin davamçısısınız, elə böyük insanın, əsrin insanının işlərini davam etdirirsiniz. Biz Sizin ailənizi sevirik. Sizin ünvanınıza çox xoş sözlər söyləmək olar. Heydər Əliyev bizim rayonda tez-tez olub. Bəlkə də mən eqoist adamam, əlbəttə, o, başqa rayonları da sevirdi, lakin hələ uşaq vaxtımdan yadımdadır ki, o bizim rayonu çox sevirdi. Həmişə deyirdi ki, nə üçün Cəlilabadda üzüm yoxdur, nə üçün Cəlilabadda, Privolnoye kəndində gül-çiçək, ağaclar yoxdur? Bu gün biz hiss edirik ki, Siz də rayonumuza çox böyük qayğı göstərirsiniz. Ona görə də rayonumuz vaxtilə Heydər Əliyevin sayəsində olduğu kimi, indi də Sizin sayənizdə tərəqqi edir. Bu gün bizim hamımızın sevimlisi, ölkəmizin birinci xanımı Mehriban xanım haqqında

söz deməmək olmaz. O Sizin bütün qərarlarınızı həyata keçirmək üçün çox iş görür. İdmana xüsusi diqqət yetirilir.

Bizim icmamız artıq 200 ildən çoxdur ki, bu gözəl, xeyirxah diyarda yaşayır. Heç vaxt din, dil, təhsil və mədəniyyətlə bağlı problemlərlə üzləşməmişik. Biz hamımız bir beynəlmiləl ailədə yaşayırıq. Bu fikri belə bir fakt da təsdiqləyir ki, bu gün mənim rəhbərlik etdiyim «Ruçeyok» rus folklor ansamblı 1987-ci ildən bəri respublikada keçirilən bütün tədbirlərdə iştirak edir. Bir haşiyə çıxmaq istəyirəm: mən Heydər Əliyevi çox sevirdim, ömrümün axırına qədər də onu unutmayacağam. Mən ona həmişə deyirdim: Heydər Əliyeviç, mənim atam yoxdur, Siz mənə ata əvəzi olmusunuz. Heydər Əliyeviçin andiçmə mərasimi münasibətilə qoşduğumuz çastuşka bütün dünyaya yayılmışdı, çünki bir çox ölkənin telekanalları bu hadisəni lentə çəkmişdi. Hörmətli İlham Heydər oğlu, mən Sizin üçün də bir çastuşka hazırlamışam.

Çox sağ olun ki, Siz ümummilli liderin işini davam etdirirsiniz. Siz həmişə xalqın yanındasınız. Sizin həmişə beləcə cavan, əzmkar olmağınızı arzu edirik. Qoy bizim çiçəklənən doğma Azərbaycan bundan sonra da tərəqqi etsin, qoy bütün dünyada Heydər Əliyevi tanıdıqları kimi, bu diyarı da tanısınlar. Heydər Əliyev bizim hamımız üçün yeni yol açmışdır. Onun sayəsində ölkəmizdə sülh və əmin-amanlıq bərqərar olmuşdur. Respublikamız onun sayəsində dünya səhnəsinə çıxmış, bütün beynəlxalq təşkilatların tamhüquqlu üzvü olmuşdur. İlham Heydər oğlu, Sizə, ailənizə, uşaqlarınıza xoşbəxtlik diləyirik. Qoy ailənizdə həmişə firavanlıq olsun, Siz də həmişə ailənizin üstündə olun.

**İlham Əliyev:** Sağ olun, bu səmimi sözlərinizə görə təşəkkür edirəm. Doğrudur, Heydər Əliyev Cəlilabadı həmişə çox sevirdi. Siz düz dediniz ki, Heydər Əliyev dəfələrlə burada olmuşdur. Demək olar ki, hər il buraya gəlirdi. XX əsrin 70-ci illərində sizin rayon tərəqqi edirdi. Burada başqa rayonlardan daha çox üzüm istehsal olunurdu. Rayonda çoxsaylı sosial obyektlər tikilmişdi. Heydər Əliyev Azərbaycandan gedəndən

sonra nə oldu – tənəzzül başlandı, hər şey dağıldı. Ölkəmiz müstəqillik əldə edəndən sonrakı ilk illərdə onun inkişaf perspektivi yox idi, müstəqilliyi itirmək təhlükəsi yaranmışdı. Təxminən keçən əsrin 80-ci illərinin ortalarından 1993-cü ilə qədər, sözün tam mənasında, Azərbaycanda ən ağır dövr idi. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra isə dirçəliş prosesi başlandı. Bu gün Azərbaycan ən dinamik inkişaf edən ölkədir. Bizdə bütün xalqlar bir ailə kimi yaşayır. Bizdə milli, dini və dil mənsubiyyətinə görə heç bir ayrı-seçkilik yoxdur və bu həmişə belə olacaqdır. Bu baxımdan Azərbaycan dünya dövlətlərinin çoxu üçün nümunədir. Çünki bizim ölkədə millətlərarası həmrəylik hökm sürür, bütün xalqlar arasında sülh, dostluq, qardaşlıq münasibətləri möhkəmlənir, hər kəsin öz ənənələrini, öz dinini, dilini, mədəniyyətini qoruyub saxlamaq və onları zənginləşdirmək imkanı var. Ölkəmizin xüsusiyyəti bundadır. Bizim əhatəmizdə elə ölkələr var ki, orada yalnız bir millət yaşayır, başqa millətlər yoxdur, yalnız monomillət vardır. Bu isə heç bir yaxşı nəticəyə gətirib çıxarmayacaqdır. Bu onu göstərir ki, həmin ölkələrdə başqa xalqların yaşaması çətindir. Onlar bir-biri ilə yola getmir, təzyiqlərə, təqiblərə, müxtəlif mənfi təsirlərə məruz qalırlar. Azərbaycanda isə əksinə, hamı bir ailə kimi yaşayır, hamı sevinir, fərəhlənir.

**L y u b o v  D a n i l o v a:** Hətta vaxtilə bizim kənddən köçüb getmiş adamlar da indi geri qayıdırlar. Ən başlıcası isə, hörmətli İlham Heydər oğlu, deməliyəm ki, mən tez-tez Rusiyada oluram. Bilirsinizmi, Cəlilabaddan köçüb gedənlər onun haqqında necə səmimi sözlər söyləyirlər, nə qədər xoş xatirələri var?! Qadınlardan biri deyirdi ki, biz tarlada işlədiyimiz vaxt Heydər Əliyev gəlmişdi, mənim əllərim çirkli idi, o isə mənim əlimi sıxdı. Bu, insana xas olan səmimiyyətdir. İnsanlar məhz belə cəhətləri xatırlayırlar. Bütün görüşləri xatırlayırlar – əsas məsələ budur. Allah Heydər Əliyevə rəhmət eləsin. Heydər Əliyev həmişə qəlbimizdədir – dar günümüzdə də, fərəhli anlarımızda da.

**İ l h a m Ə l i y e v:** Onun işləri davam etdirilir.

**L y u b o v D a n i l o v a:** O daim bizim qəlbimizdə yaşayacaq, heç kəsin yadından çıxmayacaqdır. Kaş hamının belə prezidenti olsun.

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA ORTA MƏKTƏBDƏ

*7 sentyabr 2008-ci il*

*Sentyabrın 7-də prezident İlham Əliyev Cəlilabad şəhərindəki akademik Zərifə Əliyeva adına orta məktəbdə olmuşdur.*

*Dövlət başçısı əvvəlcə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məktəbin həyatindəki abidəsi önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, 1100 şagird yeri olan bu məktəb binası Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində inşa edilmiş, ötən ilin sentyabrında istifadəyə verilmişdir. Üç və dördmərtəbəli tədris korpuslarından ibarət təhsil ocağı ən müasir avadanlıqla təchiz edilmişdir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotoguşə vardır.*

*Kompyuter otağı ilə tanış olan dövlət başçısına bildirildi ki, internet şəbəkəsinə qoşulmuş kompyuterlər uşaqların müasir informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklərə yiyələnmələrində mühüm rol oynayacaqdır.*

*Məktəbin sonuncu mərtəbəsində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevaya həsr olunmuş fotoguşə yaradılmışdır.*

*Dövlət başçısı burada latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunmuş müxtəlif ədəbiyyatla təmin edilmiş kitabxanaya və Heydər Əliyev elektron kitabxanasına baxdı.*

*Prezident İlham Əliyev ayrı-ayrı fənn kabinetlərini, sinif otaqlarını və örtülü idman zalını gəzdi, tədris işinin yüksək səviyyədə təşkili ilə bağlı tövsiyələrini bildirdi.*

## Yeraltı keçid istifadəyə verildi

*Sentyabrın 7-də Cəlilabad şəhərinin mərkəzindəki Heydər Əliyev prospektində müasir üslubda tikilmiş və milli ornamentlərlə bəzədilmiş yeraltı keçid istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ulu öndərin adını daşıyan bu prospekt şəhərdə nəqliyyatın və piyadaların hərəkətinin daha çox olduğu yerdir. Yeraltı keçid piyadaların rahat gediş-gəlişini təmin edəcəkdir. Keçidin 2600-dən çox şagirdi olan 1 və 8 nömrəli şəhər orta məktəblərinin yaxınlığında yerləşməsi uşaqların təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusilə əhəmiyyətlidir.*

*Keçidlə yaxından tanış olan dövlət başçısı onun milli memarlıq üslubunda inşa olunmasını yüksək qiymətləndirdi, ətraf ərazilərdə abadlıq işlərinin davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## Müalicə-Diaqnostika Mərkəzində işlərin gedişi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 7-də Cəlilabad şəhərində tikilən Müalicə-Diaqnostika Mərkəzində işlərin gedişi ilə tanış olmuşdur.*

*Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən və 1,5 hektar ərazidə yerləşəcək mərkəzin inşasına 2007-ci ildə başlanmışdır. 3 və 4 mərtəbəli üç korpusdan ibarət olacaq sağlamlıq ocağında qəbul, şüa-diaqnostika, cərrahiyyə, dializ, reanimasiya-anesteziologiya şöbələri, poliklinika, laboratoriyalar, cərrahiyyə bloku fəaliyyət göstərəcəkdir.*

*Ən müasir tibb avadanlığı və texnika ilə təchiz ediləcək mərkəz cəlilabadlıların və ətraf rayonların əhalisinin sağlamlığının qorunmasında mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə görülməsi ilə bağlı tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin tikintisində

*Prezident İlham Əliyev sentyabrın 7-də Cəlilabad Olimpiya İdman Kompleksinin tikintisində olmuşdur.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində tikintisinə 2007-ci ildə başlanmış bu idman qurğusu 4 hektarlıq ərazidə yerləşəcəkdir. Kompleksə əsas idman salonu, üzgüçülük hovuzu, müxtəlif idman meydançaları, salonlar, ikimərtəbəli müasir mehmanxana və kotteclər daxildir. Burada respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün hər cür şərait yaradılacaqdır. Yeni qurğu həm də bədən tərbiyəsi və idmanın inkişafına təkan verəcəkdir.*

*Prezident İlham Əliyev obyektin layihəsinə baxdı, tikinti işlərinin gedişi ilə tanış oldu.*

*Dövlət başçısı ölkəmizdə bu sahənin tərəqqisinə xüsusi diqqət yetirildiyini bildirdi, tikinti işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması barədə tapşırıqlarını verdi.*

* * *

*Bununla da prezident İlham Əliyevin Salyan və Cəlilabad rayonlarına səfəri başa çatdı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Biz Azərbaycan–Pakistan münasibətlərinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin hərtərəfli inkişafı sahəsində səylərimizi, əməkdaşlığımızı istər birbaşa qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Pakistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2008-ci il*

**İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ KƏND TƏSƏRRÜFATI ÜZRƏ YÜKSƏK VƏZİFƏLİ RƏSMİLƏRİNİN 3-cü VƏ TƏŞKİLATA ÜZV- ÖLKƏLƏRİN KƏND TƏSƏRRÜFATI NAZİRLƏRİNİN 4-cü İCLASLARININ İŞTİRAKÇILARINA**

Hörmətli iclas iştirakçıları!

Sizi – bu mötəbər beynəlxalq təşkilatın yüksək təmsilçilərini səmimi-qəlbdən salamlayır, hər birinizə möhkəm cansağlığı, əmin-amanlıq və uğurlar arzulayıram. Ümidvaram ki, Bakı şəhərində keçirilən bu toplantı həm qarşılıqlı əməkdaşlığımızı möhkəmləndirəcək, həm də regionun ərzaq təchizatı baxımından təhlükəsiz əraziyə çevrilməsi işinə öz töhfəsini verəcəkdir.

Ölkəmizdə sosial-iqtisadi tərəqqinin sürətlənməsi, maliyyə imkanlarının genişlənməsi aqrar sektorun inkişafı üçün də yeni imkanlar açmışdır. İndi kənd təsərrüfatı məhsulları istehsalının artırılması, bu sahədə infrastrukturun təkmilləşdirilməsi, əhalinin ərzaqla etibarlı təminatı aqrar siyasətin prioritet istiqamətləri kimi müəyyən edilmişdir.

Əminəm ki, ərzaq təhlükəsizliyi probleminin qlobal xarakter daşıdığı indiki dövrdə ölkələrimiz arasında aqrar məsələlərə aid fikir və təcrübə mübadiləsi böyük əhəmiyyət kəsb edəcək, kənd təsərrüfatının özünəməxsus problemlərinin həllinə yönəldilmiş müxtəlif regional proqramların həyata keçirilməsinə dəstək verəcəkdir.

Bir daha tədbirin işinə uğurlar arzulayır, ölkələrimiz arasında dostluğun daha da möhkəmlənəcəyinə, qarşılıqlı əməkdaşlığın bütün sahələrdə inkişaf edəcəyinə böyük ümidlər bəsləyirəm.

*Dərin hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2008-ci il*

## «AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTANIN NEFT VƏ QAZ POTENSİALI: ENERGETİKA, İQTİSADİYYAT, EKOLOGİYA. ƏMƏKDAŞLIĞIN STRATEGİYASI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası» beynəlxalq konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır və konfransın işinə uğurlar diləyirəm.

Ümidvaram ki, belə bir mötəbər konfrans hər iki dövlətin enerji sahəsində malik olduğu zəngin potensialın nümayiş etdirilməsinə, toplanmış böyük təcrübənin öyrənilməsinə və əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına təkan verəcəkdir. Bu forumda dünyanın bir çox ölkəsindən olan nümayəndələrin iştirakı ona beynəlxalq səviyyədə göstərilən böyük diqqətin nəticəsidir.

1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi»ni imzalayaraq ölkəmizin tarixində yeni inkişaf və tərəqqi dövrünün əsasını qoydu. Bu gün də Azərbaycanın çoxvariantlı ixrac strategiyası məhz həmin siyasətin ardıcıl davamıdır.

Azərbaycan ənənəvi olaraq neft-qaz sənayesinin bütün sahələri üzrə dərin bilik və bacarığa yiyələnmiş yüksək səviyyəli mütəxəssislərə, böyük elmi potensiala malikdir. Eyni zamanda, hazırda Azərbaycanda dünya standartlarına uyğun geniş infrastruktur yaranmışdır və biz bütün bu imkanları qarşılıqlı maraq doğuran tərəfdaşlıq üçün təqdim etməyə tam hazırıq.

Türkmənistan prezidenti cənab Qurbanqulu Berdıməhəmmədovun cari ilin may ayında Azərbaycana rəsmi səfəri

ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinə etibarlı zəmin yaratmışdır. Bu işgüzar tədbirin keçirilməsi barədə razılığın əldə olunması da həmin səmərəli dialoqun nəticəsidir.

Xəzər regionunda neft-qaz sahəsində irimiqyaslı beynəlxalq investisiya layihələrinin nəzərdən keçirilməsi, yeni texnika və texnologiyalardan istifadə olunması, elm və ekologiya sahələrində işlərin əlaqəli aparılması, habelə əməkdaşlıq imkanlarının hərtərəfli öyrənilməsi üçün belə bir konfransın keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

Əminəm ki, bugünkü görüş qardaş, qonşu xalqlarımızın rifahına və tərəqqisinə öz dəyərli töhfəsini verəcəkdir. Bir daha konfransın işinə müvəffəqiyyətlər, sizin hər birinizə xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2008-ci il*

## TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Hilmi Gülərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Hilmi Gülər Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında, eləcə də regionda energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.*

## YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Yunanıstanın İnkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xristos Folias «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası» mövzusunda keçirilən beynəlxalq konfransın işində iştirak etmək məqsədi ilə ölkəmizə səfər etdiyini dedi və tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qonaq ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.*

*Dövlət başçısı Azərbaycanla Yunanıstan arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən iqtisadi, enerji və digər sahələrdə genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Yunanıstanın İnkişaf nazirinin ölkəmizə səfərinin bu əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

## ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da ABŞ prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında enerji sahəsində əmək-daşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.*

## ATƏT-in SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI BORİS FRLETSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da ATƏT-in seçkiləri müşahidə missiyasının başçısı Boris Frletsin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda gedən demokratikləşmə prosesləri, qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*10 sentyabr 2008-ci il*

*Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev qardaş ölkənin dövlət başçısını böyük səmimiyyətlə qarşıladı.*

*Görüşdə Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə sürətlə inkişaf etdiyi vurğulandı, ikitərəfli əlaqələrin genişlənməsinin regional əməkdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyətli olduğu bildirildi.*

*Dövlət başçıları ikitərəfli münasibətlər, regional və beynəlxalq problemlər, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi apardılar.*

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*Sentyabrın 10-da Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül təkbətək görüşdən sonra mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Əziz qardaşım!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Bu gün biz Türkiyə prezidenti Abdullah Gülü Azərbaycanda qəbul edirik. Azərbaycana xoş gəlmisiniz!

Bu səfər imkan verdi ki, biz ikitərəfli münasibətlərin bütün istiqamətlərini bir daha müzakirə edək və gələcək birgə fəaliyyət haqqında öz qərarlarımızı verək. Bizim münasibətlərimiz çox yüksək səviyyədədir. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, çox fəal əlaqələrimiz, əlbəttə ki, bölgədə gedən proseslərə operativ reaksiya vermək imkanlarını da genişləndirir. İkitərəfli müstəvidə birgə çoxlu layihələr icra olunur. Türkiyə və Azərbaycanı birləşdirən enerji və nəqliyyat dəhlizləri çox uğurla fəaliyyət göstərir. Bütün bunlar bizim birgə səylərimiz nəticəsində baş vermiş uğurlu hadisələrdir.

Bu gün Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin istismarı nəticəsində hər iki ölkə öz iqtisadi və siyasi maraqlarını daha da böyük dərəcədə təmin edir. Bizim nəqliyyat sektorunda atdığımız addımlar və Türkiyə ilə Azərbaycanı dəmir yolu ilə birləşdirən layihə uğurla icra edilir. Enerji, nəqliyyat və başqa sahələrdəki əməkdaşlığımız təkcə

xalqlarımız, ölkələrimiz üçün fayda gətirmir, həm də bölgədə gedən proseslərə də çox müsbət təsirini edir. Bizim bütün iqtisadi və siyasi təşəbbüslərimiz bölgədə əməkdaşlığın, sabitliyin, sülhün bərqərar olunmasına xidmət edir. Bu baxımdan tam əminliklə deyə bilərik ki, ümumiyyətlə, Türkiyə və Azərbaycanın siyasəti, bölgədə irəli sürülən təşəbbüslər bu gün və gələcəkdə sabitliyin daha da möhkəmlənməsinə yeni şərait yaradacaqdır.

Bir sözlə, bu gün hörmətli prezidentlə ikitərəfli məsələləri, bölgədə yaranmış vəziyyəti və baş vermiş hadisələri müzakirə edərkən bir daha görürük ki, bizim mövqeyimiz birdir, maraqlarımız birdir və bu hadisələrə baxışlarımızda da fərq yoxdur. Bu çox önəmlidir. Çünki bu həm iki ölkə arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirir, digər tərəfdən, sirr deyil ki, Türkiyə və Azərbaycanın bölgədəki rolu və təsir imkanları böyüyür. Bunun müxtəlif səbəbləri var və bu səbəblərin yaranmasında, əlbəttə ki, bizim fəaliyyətimiz də az əhəmiyyət kəsb etmir. Beləliklə, biz gələcək birgə fəaliyyətimizi çox açıq və aydın şəkildə görürük və əminəm ki, gələcək birgə səylər nəticəsində biz bölgədə sülhün təmin olunmasına nail olacağıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli də ön plana çıxır. Çünki məsələnin uzun illər həll olunmaması həm Azərbaycan üçün, həm də bölgə üçün böyük təhlükə mənbəyidir. Biz istəyirik ki, məsələ tezliklə və beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Azərbaycan bütün beynəlxalq təşkilatlarda öz mövqeyini açıq-aydın ortaya qoyur. Bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan hərbi qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılmasına dair tələblər göstərilibdir. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində bu ilin mart ayında qəbul edilmiş qətnamə də bu istiqamətdə çox müsbət bir addımdır, digər beynəlxalq təşkilatların qərarları da.

Biz istəyirik ki, bu işğala son qoyulsun. Biz istəyirik ki, məsələni sülh yolu ilə həll edək. Məhz buna görə – baxmayaraq ki, 15 ildən çoxdur danışıqlar nəticəsiz gedir – biz yenə də sülh

prosesinə sadiqik. Ancaq o da aydındır ki, bu məsələnin həlli yalnız beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistanın silahlı qüvvələri işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın 1 milyon qaçqını və məcburi köçkünü öz doğma torpağına qayıtmalıdır.

Beləliklə, əgər biz buna nail olsaq, bölgədə tam yeni vəziyyət yaranacaqdır: işbirliyi, sabitlik, yeni iqtisadi və siyasi təşəbbüslər, kommunikasiyaların açılması. Bir sözlə, bölgədə həm sülh təmin olunacaq, həm də inkişaf daha da sürətlə gedəcəkdir.

Düzdür, bu gün Türkiyə və Azərbaycanın iqtisadiyyatları o qədər möhkəmdir ki, bizim uğurlu inkişafımıza heç nə təsir edə bilməz. Ancaq əgər biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edə bilsək – mən buna ümid edirəm – əlbəttə ki, bütün ölkələrin inkişafı daha da sürətli olacaqdır. Hər bir ölkə bundan faydalanacaqdır. Biz bunu istəyirik. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun və bölgədəki bütün ölkələr bir-biri ilə normal münasibətlər yarada bilsinlər. Yenə də deyirəm, bunu etmək üçün, sadəcə olaraq, Ermənistanın siyasi rəhbərliyinin iradəsi və müdrik addımları lazımdır.

Mən də, hörmətli Abdullah Gül də belə fikirdəyik ki, Ermənistanın yeni rəhbərliyi məsələnin həlli üçün öz səylərini göstərməyə davam edəcəkdir. Müəyyən ümidverici amillər də var, ümidverici məlumatlar da var. Əlbəttə ki, hadisələri qabaqlamaq istəməzdim, ancaq biz gələcəyə artan ümidlərlə baxırıq. İnanmaq istəyirəm ki, həm Türkiyənin, həm Azərbaycanın, həm Ermənistanın və digər ölkələrin səyləri nəticəsində biz bölgədə sülhün təmin edilməsinə nail olacağıq.

## Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Dəyərli mətbuat nümayəndələri!

Bu gün hörmətli prezident İlham Əliyevlə hər zaman olduğu kimi, çox gözəl bir görüş keçirdik. Türkiyə ilə Azərbaycanın qardaşlığı, dostluğu daimidir, əbədidir və bu çərçivədə əvvəlcə ikitərəfli əlaqələrimizi müzakirə etdik, daha sonra bölgə ilə əlaqədar məsələləri nəzərdən keçirdik. İkitərəfli münasibətlərimiz əsas mövzu olduğuna görə Türkiyə və Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə mükəmməl bir şəkildə əməkdaşlıq etməkdədir. Siyasi məsələlərdə Türkiyə daim Azərbaycanın yanında olmuşdur və hər zaman da yanında olacaqdır.

İqtisadi sahədə də, hörmətli prezident Əliyevin dediyi kimi, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft, qaz və ən sonuncu, Qarsda bir hissəsinin təməlini qoyduğumuz, daha əvvəl isə Gürcüstanda başladığımız Bakı–Tbilisi–Qars dəmiryol layihələri bütün dünyanın böyük hörmətlə təqdir etdiyi layihələrdir. İnanıram ki, dəmir yolunu da gələcəkdə tamamlamaq, iqtisadi əlaqələrimizi daha da gücləndirmək və inkişaf etdirmək üçün böyük iradəyə və gücə sahibik.

Qafqazda meydana çıxan yeni vəziyyəti də bu gün çox əhatəli şəkildə nəzərdən keçirdik. Bu baxımdan bir neçə gün əvvəl milli komandaların oyununa baxmaq üçün Ermənistana etdiyim səfər və orada Ermənistan prezidenti ilə keçirdiyim görüş haqqında hörmətli İlham Əliyevə əhatəli şəkildə məlumat verdim. Sizinlə səmimi olaraq bunu paylaşmaq istəyirəm ki, hörmətli prezident Əliyevin Qafqaz regionu ilə bağlı çox realist, gerçək düşüncəli təhlili doğrudan da məndə çox böyük təəssürat yaratmışdır. Ona burada təqdir və təşəkkürümü ifadə etmək istəyirəm.

Ortadakı yeni bir vəziyyət əsas mövzudur. Gürcüstanda meydana çıxan hadisələrlə bağlı dövlət adamları kimi, liderlər kimi, vəziyyəti ən yaxşı şəkildə təhlil edib düzgün və səbatlı siyasi iradə göstərməyimiz lazımdır. Ümid edirəm ki, Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ məsələsi dialoq yolu ilə, anlayış və qarşılıqlı görüşlərlə həllini tapacaqdır.

17 ildir həllini tapmayan bu məsələnin çözümü üçün yeni fürsətlərin yarandığı fikrindəyik. Bu baxımdan Ermənistan səfərindən də ümidli dönmüşəm. Görüşlərlə bunun həll ediləcəyinə inanıram.

Şübhəsiz ki, işğal altındakı torpaqların tezliklə boşaldılması çox böyük addım olacaq və sülh, təhlükəsizlik bərqərar olduqda bu bölgədə çox böyük iqtisadi işbirliyi yaranacaqdır. Haqqında bəhs etdiyimiz boru xətləri, dəmir yolu bütün Qafqaz bölgəsini əhatə edəcəkdir. Ona görə də yeni bir fürsəti ən yaxşı şəkildə dəyərləndirmək və dondurulmuş münaqişələri bu şəkildə davam etdirmək yox, həll etmək lazımdır. Həll etmək üçün də yeni bir fürsətin ortaya çıxdığının qənaətindəyəm. Ümid edirəm ki, bölgə ölkələri bunu ən yaxşı şəkildə dəyərləndirəcək, sülh yollarını üstün tutacaqlar. Onsuz da Birləşmiş Millətlər Təşkilatının qətnamələri ortadadır – bütün bunlar nəzərə alınar və sonda düşmənçilik deyil, dostluq hökm sürər. Belə olarsa, bu, bölgədə hamımızın xeyrinə, bölgə xalqlarının hamısının xeyrinə olacaqdır. Ona görə də hər şeydən əvvəl xoş niyyətlə çalışmaq vacibdir və ümid edirəm ki, bütün dünya da bunu təqdirlə qarşılayar və dəstəkləyər.

Mən bu gün gördüyümüz çox səmimi, isti münasibətdən duyduğum məmnunluğu bir daha ifadə etmək istəyirəm. Bu baxımdan da bütün azərbaycanlı qardaşlarıma türk xalqının sevgisini, hörmət və ehtiramını çatdırmaq istəyirəm. Bu bir həqiqətdir ki, biz hamımız bir millətin parçalarıyıq və ayrı-ayrı dövlətlərin daxilindəyik. Həmrəyliyimiz sona qədər davam edəcəkdir.

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 sentyabr 2008-ci il*

*Sentyabrın 11-də Özbəkistan prezidenti İslam Kərimov Azərbaycana gəlmişdir. İki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev Özbəkistan prezidenti İslam Kərimovu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Özbəkistan prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Özbəkistanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və İslam Kərimov Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Özbəkistan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət rəsmiləri Özbəkistan prezidenti İslam Kərimova, Özbəkistan nümayəndə heyətinin üzvləri isə Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*11 sentyabr 2008-ci il*

*Sentyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyevin və Özbəkistan prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev ali qonağı salamlayaraq, Azərbaycanın və Azərbaycan xalqının böyük dostunu qəbul etməyə şad olduğunu vurğuladı.*

*Özbəkistan prezidenti İslam Kərimov Azərbaycana rəsmi səfər etmək imkanına görə təşəkkürünü bildirdi. O dedi ki, Azərbaycana yaxın və doğma saydığı bir ölkə kimi səfər edir.*

*Dövlət başçıları görüşdə ikitərəfli əlaqələrin müxtəlif aspektlərini, regional əməkdaşlıq və beynəlxalq vəziyyət barədə məsələləri müzakirə etdilər. Qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*11 sentyabr 2008-ci il*

*Sentyabrın 11-də Azərbaycan və Özbəkistan nümayəndə heyətlərinin iştirakı ilə prezident İlham Əliyevin və prezident İslam Kərimovun geniş tərkibdə görüşü olmuşdur. Azərbaycan dövlətinin başçısı İlham Əliyev görüş iştirakçılarını salamlayaraq dedi:*

Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycan torpağında səmimi salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Biz Sizin səfərinizi gözləyirdik və dəvətimizi qəbul edərək, ölkəmizə səfərə gəldiyinizə görə Sizə çox minnətdarıq.

Bizim ölkələr arasında qardaşlıq, dostluq münasibətlərinin tarixi qədimdir və hazırda uğurla inkişaf edir. Əlbəttə, dövlət rəhbərlərinin səfərləri bu münasibətlərin inkişafı üçün yeni zəmin yaradır. Bu gün biz ikitərəfli münasibətlərin bütün aspektlərini, regional məsələləri ətraflı müzakirə etdik. Biz ümumi fikirdəyik ki, inteqrasiya prosesləri, kooperasiya, birgə layihələr ikitərəfli əlaqələri daha da möhkəmləndirəcək və əməkdaşlıq üçün yeni imkanlar yaradacaqdır.

Özbəkistan bizə qardaş, dost ölkədir, biz beynəlxalq təşkilatlarda sizin dəstəyinizi çox yüksək qiymətləndiririk. Biz də öz tərəfimizdən, əvvəllər olduğu kimi, gələcəkdə də həmişə sizin yanınızda olacağıq.

Sizin səfəriniz ilk növbədə iqtisadiyyatda və başqa sahələrdə əməkdaşlığın perspektivlərini daha dərindən öyrənmək üçün yaxşı imkanlar yaradır. Əminəm ki, nümayəndə heyətləri üzvlərinin də fikir mübadiləsi etmək imkanı olmuşdur, xüsusən ona görə ki, bu yaxınlarda komissiyanın iclası keçirilmişdir. Bütün bunlar münasibətlərimizin səviyyəsini əks etdirir. Biz həm də ümid edirik ki, bu səfərdən sonra ölkələrimizin daha da yaxınlaşması baxımından yeni əməli addımlar atılacaqdır.

Bir daha xoş gəlmisiniz!

*Özbəkistan prezidenti İslam Kərimov səmimi qəbul üçün təşəkkür edərək dedi:*

Hörmətli İlham Heydər oğlu!

Bərəkətli Azərbaycan torpağında bizi bu qədər səmimiyyətlə, hərarətlə qəbul etdiyinizə görə şəxsən Sizə və azərbaycanlı dostlarımıza ürəkdən təşəkkür etmək istəyirəm. Mən əminəm ki, Özbəkistan nümayəndə heyətinin hər bir səfəri bizim üçün, ilk növbədə Özbəkistan üçün böyük əhəmiyyət kəsb edir, çünki ikitərəfli və çoxtərəfli münasibətlərimizdə gerçəkləşdirilməli olan məsələləri, böyük imkanları müzakirə etmək üçün yaxşı fürsət yaranır.

Azərbaycan bizə qardaş ölkədir. Bizə həm tarixi, həm də mədəni baxımdan yaxın olan ölkədir. Bu mənada bir daha deyirəm ki, biz özümüzə yaxın saydığımız ölkəyə gəlmişik, burada özümüzü qonaq kimi yox, yaxın adamlar arasında olduğu kimi hiss edirik. Başa düşürəm ki, bu cür səmimi qəbul məhz bununla izah edilir.

Dünyada bir-birinə öz kökləri ilə bağlı olan iki dövlət, iki xalq tapmaq çətindir. Biz öz ana dilimizdə danışa bilərik və həmişə bir-birimizi başa düşəcəyik.

Bu gün Azərbaycanla bağlı nə varsa, mən onları həmişə Heydər Əliyevlə yaxın dostluğumun prizmasından görürəm. O məni özünün yaxın dostu hesab edirdi. Mən də onu özüm üçün ən yaxın insan hesab edirdim. O, Özbəkistanın bütün problemlərini, bizim həll etdiyimiz bütün mürəkkəb məsələləri özünün problemləri kimi qəbul edirdi. O, yaşca məndən böyük

idi, lakin müstəqillik əldə ediləndən sonrakı ilk illərdə həm Azərbaycanın, həm də Özbəkistanın yeni, müstəqil inkişaf şəraitində öz ölkəsinin, öz xalqının tab gətirməsi, qorunub saxlanması ilə bağlı ən çətin, deyərdim ki, ən ağır problemləri həll etdiyi vaxtda postsovet məkanında baş verən hadisələrə münasibət məsələsində mən onun şəxsində, sadəcə, həmməslək deyil, bu məsələləri çox dərindən başa düşən bir insan tapırdım. Mən ona, sadəcə, ünsiyyətliliyinə, müdrikliyinə görə deyil, başqaları üçün gözlənilməz olan bütün prosesləri dərindən başa düşdüyünə görə hörmət edirdim.

Heydər Əliyev Moskvada ən yüksək vəzifələrdə işlədiyi dövrdə mən hələ o qədər də nəzərə çarpmayan bir adam idim, lakin onun fəaliyyətini çox diqqətlə izləyirdim və bilirəm ki, Azərbaycan üçün nə qədər çox iş görmüşdür. O həqiqətən tarixi simadır. Azərbaycanın tarixində həmişəlik qalacaq şəxsiyyətdir. Bir vaxt biz də dünyamızı dəyişəcəyik, amma onu xatırlayacaqlar. Onu ən müdrik bir insan kimi, Azərbaycanın ən böyük vətənpərvəri kimi, mən deyərdim ki, ölkəni qoruyub saxlamış bir insan kimi xatırlayacaqlar. O, çətin dövrdə nə mümkündürsə etmiş, onun ardınca gələn gənc nəsli gələcək barədə aydın təsəvvürlə, proqramla, modellə silahlandırmışdır. Hörmətli İlham Heydər oğlu, bu gün mən görürəm ki, bütün bunlar artıq Sizin rəhbərliyiniz altında gerçəkləşir.

Səmimi sözümdür, bu gün mən yalnız bir şey deyə bilərəm: mən Sizə təşəkkür edirəm ki, atanızın xatirəsini bu cür qayğı ilə qoruyursunuz. Sizin vasitənizlə Sizin komandaya, Sizin əhatənizdəkilərə təlqin edilən münasibətinizə görə Sizə təşəkkür edirəm. Heydər Əliyevin nəzərdə tutduğu bütün işlər şübhəsiz ki, bu gün reallaşır və bundan sonra da reallaşacaqdır.

## SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*Prezident sarayı*

*11 sentyabr 2008-ci il*

*Sentyabrın 11-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Özbəkistan prezidenti İslam Kərimovun iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Ekologiya və Təbii Ehtiyatlar Nazirliyi ilə Özbəkistan Respublikasının Dövlət Təbiəti Mühafizə Komitəsi arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Ekologiya və Təbii Ehtiyatlar naziri Hüseynqulu Bağırov, Özbəkistan tərəfindən Baş nazirin müavini Nodirxon Xanov imzaladılar.*

*Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Özbəkistanın Rabitə və İnformasiyalaşdırma Agentliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov, Özbəkistan tərəfindən Baş nazirin müavini Nodirxon Xanov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında dəmiryol nəqliyyatı sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə və kombinə olunmuş daşımaların inkişafına dair tədbirlər haqqında sazişi Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, Özbəkistan tərəfindən Xarici İqtisadi Əlaqələr, İnvestisiyalar və Ticarət naziri Elyor Qəniyev imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında vergi sahəsində əməkdaşlıq və*

*informasiya mübadiləsi haqqında sazişi Azərbaycan tərəfindən Vergilər naziri Fazil Məmmədov, Özbəkistan tərəfindən Baş nazirin birinci müavini, Maliyyə naziri Rüstəm Əzimov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı surətdə qorunması haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Özbəkistan tərəfindən Xarici İşlər naziri Vladimir Norov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında humanitar sahədə əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Özbəkistan tərəfindən Xarici İşlər naziri Vladimir Norov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsi tədbirləri haqqında sazişi Azərbaycan tərəfindən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Özbəkistan tərəfindən Baş nazirin birinci müavini, Maliyyə naziri Rüstəm Əzimov imzaladılar.*

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*Sentyabrın 11-də sənədlərin imzalanma mərasimindən sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İslam Abduqəniyeviç, icazə verin, Sizi bir daha Azərbaycan torpağında ürəkdən salamlayım. Sizin səfəriniz bu vaxta qədər də dinamik və səmərəli inkişaf edən münasibətlərimizin inkişafında çox mühüm mərhələdir. Əlbəttə, bu səfər və onun nəticələri ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsində çox mühüm rol oynayacaqdır. Bizi birləşdirən ənənələrimizin, mədəniyyətimizin, dillərimizin ümumiliyidir, bizi birləşdirən tərəqqiyə çalışmağımız, vətəndaşlarımızın maddi rifahının yaxşılaşdırılmasına, iqtisadi islahatların aparılmasına və güclü dövlətlər yaradılmasına yönəlmiş mühüm tədbirlərin həyata keçirilməsi sahəsində çox səmərəli işimizdir.

Xalqlarımız və ölkələrimiz arasında ənənəvi əlaqələr dövlətlərimiz müstəqillik əldə edəndən sonrakı dövrdə bizim regionda – Mərkəzi Asiya, Xəzər, Qafqaz regionunda mühüm rol oynayır. Regional əməkdaşlıq da bizim birgə fəaliyyətimizin mühüm istiqamətidir. Lakin şübhəsiz ki, bizim ikitərəfli münasibətlərimiz birinci yerdə dayanır.

Bugünkü səfər, bizim aramızda, nümayəndə heyətlərinin üzvləri arasında aparılmış müzakirələr, eləcə də imzalanmış sənədlər – bütün bunlar ölkələrimiz arasında çox möhkəm münasibətlərin olduğunu göstərir. Bu münasibətlər dinamizm

meyillidir, onların çox yaxşı perspektivləri var. Biz beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı məsələlər barədə Özbəkistanın mövqeyini çox yüksək qiymətləndiririk. Biz də öz tərəfimizdən, lazım gələrsə, qardaş ölkəni həmişə dəstəkləyəcəyik.

Bir sözlə, əməkdaşlığımızın bütün istiqamətlərində – istər ikitərəfli əlaqələr olsun, istərsə də qarşılıqlı siyasi əlaqələr, iqtisadi perspektivlər və mövcud layihələr, humanitar sahədə regional səviyyədə və beynəlxalq formatda əməkdaşlıq – biz öz sözümüzü deyirik və yaxın müttəfiqlər kimi hərəkət edirik.

Regionumuzda, Qafqazda, Xəzər regionunda, Mərkəzi Asiyada vəziyyətin qiymətləndirilməsində bizim yanaşmalarımızda ortaq cəhətlər çoxdur. Təbii ki, bizim bu çağırışlara vaxtında və dəqiq cavab verə bilməyimiz yaranmış və dəyişməkdə olan vəziyyətin düzgün qiymətləndirilməsindən və düzgün nəticələr çıxarılmasından asılı olacaqdır.

Biz istəyirik ki, regionumuzda sülh olsun, bütün Qafqazda sabitlik bərqərar olsun, bizim regiondakı münaqişələr beynəlxalq hüququn normaları və prinsipləri əsasında ədalətlə həll edilsin. Bu halda bizim regionda əməkdaşlıq üçün lap çox imkan olacaqdır.

Hazırda Azərbaycan istər energetika, nəqliyyat sahəsində, istərsə də başqa sahələrdə bir sıra regional layihələrin təşəbbüsçüsüdür. Bu layihələr çox uğurla həyata keçirilir və sözün geniş mənasında, bütün regionu əhatə edir. Buna görə də biz çox istəyirik ki, gələcəkdə Özbəkistanla birgə layihələrimiz, daha sıx kooperasiyaya, müştərək istehsalatlar yaradılmasına investorların marağı olarsa, müştərək investisiyalara şərait yaradan layihələr olsun. Başqa sözlə, biz ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün bazar münasibətlərinin bütün mexanizmlərini cəlb etmək istəyirik.

Bir daha demək istəyirəm, bunun üçün hər cür şərait var: həm ənənəvi tarixi və mədəni əlaqələr, həm də regional siyasətin və beynəlxalq fəaliyyətin bir çox məsələlərinə ümumi ya-

naşmalar. Bu gün artıq deyildiyi kimi, regional və beynəlxalq xarakterli bütün məsələlər barədə Özbəkistanın prinsipial mövqeyini, sizin dövlətin müstəqil xəttini və son illərdə Sizin rəhbərliyiniz altında ölkənizin qazandığı uğurları xüsusi qeyd etmək istəyirəm. Bütün bunlar burada, Azərbaycanda böyük rəğbət və hörmət doğurur. Siz Azərbaycan xalqının qardaş özbək xalqına münasibətini, Azərbaycan xalqının şəxsən Sizə böyük hörmət bəslədiyini bilirsiniz. Biz Sizin səfərinizi həm də dostluğumuzun mühüm əlaməti kimi qəbul edirik.

Əminəm ki, səfərin davamı çox uğurlu olacaqdır. Bu gün bizim müzakirə etdiyimiz və nəzərdə tutduğumuz məsələlər belə deməyə əsas verir. Gələcəkdə isə əldə olunmuş razılaşmalar əsasında biz daha fəal inkişaf və əməkdaşlıq edəcəyik.

Sağ olun.

## Özbəkistan prezidenti İslam Kərimovun bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələri nümayəndələri, xanımlar və cənablar!

Fürsətdən istifadə edərək, məni Azərbaycana rəsmi səfərə dəvət etdiyinə görə, eləcə də Azərbaycan torpağında hiss etdiyimiz, duyduğumuz bu səmimi və hərarətli qəbula görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bir daha ürəkdən minnətdarlığımı bildirmək istəyirəm.

Özbəkistan–Azərbaycan münasibətlərinə xas olan ənənəvi səmimilik və qarşılıqlı etimad şəraitində keçmiş danışıqların yekunlarından tamamilə razı qaldığımı bildirmək istəyirəm. Biz ikitərəfli əməkdaşlıq məsələlərinin geniş dairəsini ətraflı müzakirə etdik, regional qarşılıqlı fəaliyyətin aktual məsələləri və beynəlxalq problemlər barəsində də fikir mübadiləsi apardıq. Biz müzakirə edilən məsələlərin əksəriyyəti barədə mövqelərimizin üst-üstə düşməsini və ya oxşar olmasını qeyd etdik.

Hesab edirik ki, bu gün dövlətlərarası və hökumətlərarası səviyyədə imzalanmış 7 sənəd, habelə Azərbaycan tərəfi ilə bağlanmış müqavilələr münasibətlərimizin inkişafına böyük təkan verəcək, qarşılıqlı surətdə faydalı birgə layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradacaqdır.

Danışıqların gedişində biz Cənubi Qafqazın və Mərkəzi Asiyanın genişlənməkdə olan qarşılıqlı asılılığı, dövlətlərimiz qarşısında, regionlarımız qarşısında duran problemlərin oxşarlığı barədə ümumi fikrə gəldik. Özbəkistan tərəfi bir daha təsdiq etdi ki, o, Dağlıq Qarabağ probleminin sülh yolu ilə, siyasi yolla həllinin tərəfdarı olmuşdur və olacaqdır. Həm də biz hesab edirik ki, bu münaqişənin həllinin əsas şərtlərindən biri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi olmalıdır. Mənim fikrimcə, Dağlıq Qarabağ probleminin həllinin Azərbaycan tərəfindən təklif edilən modeli optimal və hər cəhətdən məqbuldur. Əlbəttə, mən öz fikrimi deyirəm, lakin əminəm ki, ötən 17 ildə baş vermiş hadisələri obyektiv qiymətləndirən insanların hamısı bu fikirlə razılaşar. Qarabağ problemi 1988-ci ildə başlanmışdır və bu münaqişə ilə əlaqədar prosesləri müşahidə edənlərin, sadəcə müşahidə etməklə kifayətlənməyib, onları diqqətlə izləyənlərin hamısı, zənnimcə, Azərbaycan tərəfinin mövqeyini birmənalı şəkildə dəstəkləyir.

Azərbaycanın qazandığı sanballı uğurlar, bu ölkənin gücünün, potensialının artması, iqtisadiyyatının davamlı inkişaf sürəti Özbəkistanda səmimi hörmətlə qarşılanır. Mən Azərbaycan prezidentinin rəhbərliyi altında həyata keçirilən, Azərbaycanı Şərqlə Qərbi və Şimal ilə Cənubu birləşdirən aparıcı logistika mərkəzlərindən birinə çevirməyə yönəlmiş, hərtərəfli düşünülmüş, praqmatik xarici siyasət xəttini xüsusi vurğulamaq istəyirəm.

Zənnimcə, heç kəs şübhə etmir ki, bütün bu uğurlar prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ölçülüb-biçilmiş, bir daha vurğulayıram, düşünülmüş siyasətin nəticəsidir.

Danışıqların yekunlarına əsasən qəbul edilmiş qərarlarda ölkələrimiz arasında iqtisadi kooperasiyanın və əmtəə dövriyyəsinin artırılmasının, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinin, mədəni-humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsinin zəruriliyinə xüsusi diqqət yetirilmişdir.

Sabah Bakıda özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsinin təntənəli açılışı, Azərbaycan paytaxtındakı küçələrdən birinə böyük özbək alimi, astronom Mirzə Uluqbəyin adının verilməsi iki qardaş xalq arasında humanitar əlaqələri möhkəmləndirən mühüm amillər olacaqdır.

Tam əmin olmağımıza hər cür əsas var ki, Özbəkistan nümayəndə heyətinin Azərbaycana indiki səfəri iki ölkənin dostluq və əməkdaşlığının daha da möhkəmlənməsində mühüm mərhələ olacaqdır.

Fürsətdən istifadə edərək, birmənalı şəkildə bəyan etmək istərdim ki, Özbəkistan Azərbaycanla uzunmüddətli və qarşılıqlı surətdə faydalı münasibətlərin möhkəmləndirilməsində maraqlıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*11 sentyabr 2008-ci il*

*Sentyabrın 11-də «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin adından Özbəkistan prezidenti İslam Kərimovun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*
*Dövlət başçıları qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli İslam Abduqəniyeviç!
Hörmətli qonaqlar!
Əziz dostlar!
Bu gün Özbəkistan–Azərbaycan münasibətlərinin tarixində olduqca əlamətdar gündür. Bu gün Özbəkistan prezidenti, Azərbaycan xalqının böyük dostu İslam Abduqəniyeviç Kərimov Azərbaycana rəsmi səfərə gəlmişdir.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk və şadıq ki, səfər böyük uğurla keçir. Əminəm ki, bu səfərin nəticələri və imzalanmış sənədlərdə əksini tapmış qərarların yerinə yetirilməsi münasibətlərimizin hərtərəfli inkişafı üçün yeni şərait yaradacaqdır. Biz bunda çox maraqlıyıq və istəyirik ki, münasibətlərimizin hərtərəfli inkişafı, həyatımızın bütün sahələrini əhatə etməsi üçün gələcəkdə də bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar, nəqliyyat, energetika sahələrində fəal əməkdaşlıq edək. Bunun üçün bütün imkanlar var.

Əvvələn, bu, əsrlər boyu həmişə sülh və həmrəylik şəraitində yaşamış xalqlarımız arasında olan ənənəvi qardaşlıq münasibətləridir. Bu həm də mədəniyyətlərimizin, ənənələrimizin, habelə dilimizin ümumi olmasıdır, çünki bir-birimizi tərcüməçisiz başa düşürük. Bütün bunlar indi – müstəqil

dövlətlərimizin fəal və dinamik inkişaf etdiyi, öz siyasi və iqtisadi potensiallarını möhkəmləndirdiyi, Mərkəzi Asiya və Qafqaz regionunda mühüm rol oynadığı bir vaxtda münasibətlərin inkişafı üçün möhkəm bazadır.

Beləliklə, əminəm ki, regionumuzdakı inteqrasiya prosesləri, Mərkəzi Asiyada və Qafqazda, Xəzər hövzəsində regional əməkdaşlıqla bağlı proseslər xeyli dərəcədə bizim münasibətlərimizin uğurlu inkişafından asılı olacaqdır. Bizi böyük tarix birləşdirir, lakin gələcəkdə bizi qarşılıqlı əlaqələrin, kooperasiyanın səviyyəsinin yüksəldilməsinə yönəldilmiş yeni layihələr, nəqliyyat layihələrinin birgə həyata keçirilməsi, müştərək iştirak gözləyir. Başqa sözlə, yaşadığımız regionda əməkdaşlığın uğurlu inkişafını xeyli dərəcədə həm də bizim münasibətlərimizin uğurlu olması müəyyənləşdirəcəkdir.

Bugünkü səfər və aparılmış danışıqlar bir daha təsdiq edir ki, ölkələrimiz arasında münasibətlər çox yüksək səviyyədədir. Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin çox geniş dairəsini – ikitərəfli münasibətləri, regional siyasəti, Qafqazda baş verən prosesləri, yeni çağırışları, yeni təhdidləri, bizi narahat edən və həlli tələb olunan məsələləri müzakirə etdik. Belə bir ümumi fikrə gəldik ki, dialoq, işbirliyi və qarşılıqlı surətdə faydalı əməkdaşlığın potensialını artırmaq yolu ilə bir çox problemləri həll edə bilərik. Biz buna köklənmişik. İndi bunun üçün bütün şərait var: Özbəkistanın artmaqda olan iqtisadi potensialı, maliyyə imkanları, habelə bizim ölkəmizdə gedən və müstəqilliyimizi möhkəmləndirən, müstəqil siyasət yeritməyə imkan verən müsbət proseslər.

Yəqin ki, ölkələrimizə əminliklə aid edə biləcəyimiz bir çox digər cəhətlər sırasında müstəqil siyasət xəttini, ölkələrimizin və xalqlarımızın milli mənafelərinin qorunmasında, habelə regionda baş verən proseslərə münasibətdə ardıcıl və prinsipial siyasəti də vurğulamaq olar.

Mən çox şadam ki, biz bu gün Azərbaycanı çox yaxşı tanıyan, onu sevən və Azərbaycanda sevilən əziz qonağımız İslam Abduqəniyeviç Kərimovu qəbul edirik. Tam məsuliyyətlə deməliyəm ki, ölkələrimiz arasındakı müasir münasibətlərin

əsasını xalqlarımızın iki böyük lideri – İslam Kərimov və Heydər Əliyev birgə problemlərin həllində səylərimizin birləşdirilməsi işində fəal əməkdaşlığa başlayanda qoymuşlar. Onlar ölkələrimizin dövlətçiliyinin əsasını qoymuşlar, sabitliyi, davamlı inkişafı təmin etmişlər. Onların rəhbərliyi altında ölkələrimiz sübut etmişlər ki, nəinki müstəqil yaşaya, həm də milli mənafelərini uğurla təmin edə, regional proseslərdə əhəmiyyətli rol oynaya bilərlər.

Müasir dövrdə münasibətlərimiz məhz bu müsbət məqam üzərində qurulur və daha da genişləndirilir. Bu gün imzalanmış sənədlər və ən başlıcası, münasibətlərimizin ruhu bunu təsdiq edir. Bütün bunlar – həm forma, həm ruh, həm də qarşılıqlı anlaşma xalqlarımızın yaxınlaşmasına kömək edir. Əlbəttə ki, həm də özbək xalqının böyük oğlu, mütəfəkkir şair Əlişir Nəvainin sabah açılacaq abidəsi. Bu həm özbək xalqının böyük oğlunun xatirəsinə ehtiram əlamətidir, həm də bizim münasibətlərimizin xarakterini göstərir.

Mən bu badəni Özbəkistan prezidentinin sağlığına, qardaş özbək xalqının tərəqqisi, ölkələrimiz və xalqlarımız arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

## Özbəkistan prezidenti İslam Kərimovun nitqi

Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Nümayəndə heyətimizə göstərilən səmimiyyətə, mehribanlığa və qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, bütün azərbaycanlı dostlarımıza ən dərin minnətdarlıq hisslərimi bildirməkdən böyük zövq və məmnunluq duyuram.

Bizim xalqımız haqqında dediyi səmimi və xoş sözlərə görə, bu gün formalaşmaqda olan ikitərəfli və çoxtərəfli münasibətlərin səviyyəsini yüksək qiymətləndirdiyinə görə mən Azərbaycan prezidentinə təşəkkür edirəm. Əminəm ki, qardaş xalqlarımız və ölkələrimiz arasında bu münasibətlər bundan sonra da davam

edəcəkdir. Azərbaycan ilə Özbəkistan arasında dərin hörmət və etimadın təcəssümü olan münasibətlər milli dəyərlərimizin, ənənələrimizin, adətlərimizin, dilimizin, mədəniyyətlərimizin yaxınlığına, çox cəhətdən ümumiliyinə, eyni dinimizə əsaslanır və bu münasibətlərin çoxəsrlik tarixi həmişə qarşılıqlı dəstək və kömək mənbəyi olmuşdur. Əcdadlarımızın obrazları, ruhən bir-birinə yaxın olmuş böyük sələflərimiz Nizami Gəncəvi, Əlişir Nəvai və başqalarının haqlı olaraq dünya sivilizasiyasının inci-lərinə aid edilən əsərləri, yaradıcılıq irsi bütün dövrlərdə həm azərbaycanlılar, həm də özbəklər üçün ilham mənbəyi olmuşdur.

Bir daha demək istəyirəm ki, sabah Bakıda görkəmli özbək şairi, mütəfəkkiri və dövlət xadimi Əlişir Nəvainin möhtəşəm abidəsinin açılışı və Azərbaycan paytaxtının mərkəzi küçələ-rindən birinə böyük özbək astronomu və maarifçisi Mirzə Uluqbəyin adının verilməsi bizim mənəvi yaxınlığımızın və möhkəm dostluğumuzun rəmzidir.

Nizamini tanımayan və sevməyən bir özbək tapmaq çətindir. Zənnimcə, Əlişir Nəvainin əsərlərini oxumayan və ona ehtiram bəsləməyən azərbaycanlı tapmaq da çətindir. Özbəkistanın Xalq şairi, Azərbaycan oğlu, taleyin hökmü ilə Özbəkistan torpağında yazıb-yaratmış Maqsud Şeyxzadə bizim mənəvi yaxınlığımızı çox gözəl və dəqiq ifadə etmişdir. O özünün məşhur rübailərindən birində demişdir:

Bakılı qocaya dedim: əmican,
Dostluq bu mənanı kəsb edib haçan?
Belə cavab verdi o müdrik qoca:
«Nizami, Nəvai qardaş olandan».

Bunu vurğulamaq mənə xüsusilə xoşdur ki, Maqsud Şeyxzadə milli mədəniyyətimizin inkişafında xidmətlərinə görə ölkəmizin ən yüksək mükafatlarına layiq görülmüşdür və bu gün də xalqımız ona çox böyük ehtiram bəsləyir. Bu il Daşkənddə bu gözəl şairin 100 illik yubileyi qeyd ediləcəkdir və artıq buna hazırlıq görülür.

Özbək və Azərbaycan xalqları öz vətənlərində sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əsrlər boyu bir

yerdə olmuşlar, biz sevincimizi də, kədərimizi də bir-birimizlə bölüşmüşük. Xalqlarımız həyatın çətin sınaqlarına sinə gərməli olanda biz həmişə bir-birimizə dost kimi əl uzadaraq bu çətinlikləri çiyin-çiyinə dəf etmişik.

Keçən əsrin 30-cu illərində kütləvi repressiyalar dövründə on minlərlə azərbaycanlının Özbəkistan torpağında sığınacaq tapması, xalqımızın onları öz doğma qardaşları kimi açıq ürəklə qəbul etməsi, bir tikə çörəyi onlarla bölüşməsi, öz evində onlara sığınacaq verməsi hamımızın yadındadır.

Hazırda Özbəkistanda 40 mindən çox azərbaycanlı yaşayır. Müstəqil Özbəkistanın tamhüquqlu vətəndaşları olan bu insanlar başqa xalqlarla sülh və həmrəylik şəraitində ölkəmizin sosial-ictimai, iqtisadi həyatında və digər sahələrdə fəal iştirak edirlər. Bunu belə bir fakt da təsdiq edir ki, təkcə son illərdə Azərbaycan diasporunun altı nümayəndəsi yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Özbəkistan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanı birmənalı şəkildə dəstəkləyir. Bu problem, əlbəttə, dinc yolla və vurğulamaq istərdim ki, yalnız beynəlxalq normalara əməl edilməklə və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hökmən riayət olunmaqla həll edilməlidir.

Hörmətli İlham Heydər oğlu, bu fürsətdən istifadə edib vurğulamaq istəyirəm ki, mən bu tarixi yaddaşın daşıyıcısıyam, vahid Sovet İttifaqının tabeliyində olduğumuz əvvəlki tariximizin ayrı-ayrı dövrlərini xatırlayıram – hərçənd bu heç də həmişə xoş olmur. 1985-ci ildə Sovet İttifaqına başçılıq edən adam «Azərbaycan» sözünü hətta düzgün tələffüz edə bilmirdi. O bu sözü təhrif edərdi. Mən indiyədək xatırlayıram, bizə doğma olan «Azərbaycan» sözünü hətta tələffüz edə bilməyən həmin adam bu problemin, bu münaqişənin yaranması üçün çox şey etmişdir. Bu münaqişə bilavasitə onun iştirakı ilə, Moskvada sakitcə əyləşib Qafqazda baş verənləri müşahidə edənlərin iştirakı ilə yaranmışdı. Məni təəccübləndirən odur ki, indinin özündə də həmin problemi necə həll etməyi müəyyən dərəcədə başa düşməyənlər vardır. Mənə belə gəlir ki, belə

vəziyyət, yaxud belə münasibət, mövqe var və bununla həmin münaqişəni mümkün qədər uzatmaq istəyirlər.

Bu gün mən İlham Heydər oğlu ilə bu barədə danışmışam, burada bizim aramızda əyləşən cavanlar həmin dövrü – 1988-ci ili bəlkə də xatırlamırlar. Mahiyyət etibarilə yeni nəsil yaranır. Məncə kimlərsə ümid edir ki, yeni nəsil yaranacaq və Qarabağ problemi ilə əlaqədar baş vermiş bütün hadisələr yaddaşlardan silinəcəkdir.

Lakin bu gün doğulan nəslin necəliyindən asılı olmayaraq – Qarabağ probleminin yarandığı ildə doğulmuş insanların artıq 20 yaşı tamam olmuşdur və bu çox ciddi məsələdir, bu gənclər elə bil bütün bunları xatırlamır – mən çox istərdim ki, bizim bir fikrimiz üst-üstə düşsün: övladlarımız bizim başladığımız işi axıra çatdırmalıdır, uşaqlarımız bizim işimizin davamçıları olmalıdır.

Bugünkü görüşdə mən bir məsələyə toxunmuşdum, onu burada bir daha təkrarlamaq istəyirəm – bugünkü Azərbaycan 1991-ci ildə müstəqillik əldə ediləndəki Azərbaycan deyil. Obrazlı şəkildə desək, yerlə-göy qədər fərq var. İndi İlham Heydər oğlu Özbəkistan haqqında belə xoş sözlər söyləyərkən çox təvazökarlıq edərək dedi ki, Azərbaycanın da uğurları var. Mən isə belə hesab edirəm ki, postsovet məkanındakı ölkələrin çoxu Azərbaycandan öyrənməlidir ki, Azərbaycan yaşadığı bugünkü mürəkkəb şəraitdə belə yüksəlişə, uğurlara necə nail olmuşdur. Buna nəinki postsovet dövlətləri, hətta Azərbaycanın ətrafındakı bir çox dövlətlər də həsəd apara bilər.

Mən Heydər Əliyevlə tanışlığımdan fəxr edirəm və bundan həmişə fəxr duymuşam. Tanışlıq demək azdır, yaşımızda müəyyən fərq olmasına baxmayaraq, mən özümü Heydər Əliyevin dostu hesab edirdim. O, Özbəkistana gələndə, Daşkənd Universitetinin tələbələri qarşısında çıxış edəndə, biz özbək gəncləri qarşısında dayananda mən ona Haydar əkə (özbək dilində Haydar Azərbaycan dilində Heydər adının qarşılığıdır) deyə müraciət edirdim.

O dəqiqələr, o anlar hələ də yadımdadır, biz bir-birimizi bircə kəlmədən başa düşürdük. Mən bir daha demək, təkrarlamaq və təsdiq etmək istəyirəm: bəli, mən həqiqətən Azərbaycan xalqının dostuyam, bəli, mən həqiqətən təkcə Özbəkistanın nailiyyətlərinə görə deyil, həm də Azərbaycanın uğurlarına görə fəxr edirəm. Bunlar sadəcə gəlişigözəl sözlər deyil, bu mənim qəlbimdədir və ömrümün axırına qədər belə olacaqdır.

Özbəklər və azərbaycanlılar hamımızın ehtiram bəslədiyimiz, mərdliyi, mənəvi gücü, dönməz iradəsi qarşısında həmişə baş əydiyimiz Heydər Əliyevin xalqlarımız arasında etimadın bərpa olunması, bir daha təkrar edirəm, etimadın bərpa olunması və qarşılıqlı hörmətin möhkəmlənməsi işinə verdiyi böyük, qiymətli töhfəni heç vaxt unutmayacaqlar.

Elçibəyin dövrü yadımdadır, Özbəkistanla Azərbaycan arasında, özbək xalqı ilə Azərbaycan xalqı arasında əsrlər boyu yaranmış münasibətləri heç nədən pozmağa cəhd göstərilən dövr mənim yadımdadır. Bu olub. Əgər kimsə bunu xatırlamırsa, çox pis. Tarixi yadda saxlamaq lazımdır. Öz tarixini unudanlar öz yolunu azır, gələcəyini görmür. Biz bunu həmişə demişik və deyəcəyik. Tarixi bilmək lazımdır, onu yadda saxlamaq, ona hörmətlə yanaşmaq lazımdır. Bu nə deməkdir? O deməkdir ki, bizim övladlarımızın düzgün yol seçmələri üçün müvafiq nəticələr çıxarmaq lazımdır.

Buna görə də yadımdadır: Heydər Əliyev özbəklərlə azərbaycanlılar arasında həmişə mövcud olmuş etimadın bərpa olunması üçün nə lazımdırsa etmişdir. Bununla əlaqədar bir fakt xüsusi ehtirama layiqdir ki, Azərbaycan xalqı, onun bugünkü tanınmış lideri vaxtilə Heydər Əliyevin seçdiyi perspektivli xətti ardıcıl olaraq davam etdirir və onun xatirəsini dərin hörmətlə yad edirlər. Bu siyasətin tam varisliyi göz qabağındadır. Bu gün İlham Heydər oğlu dedi: bizim heç nə icad etməyimizə ehtiyac yoxdur, biz Heydər Əliyevin yaratdıqlarını götürməli, onun işləyib hazırladığı proqrama ciddi riayət etməli və bu gün, sadəcə olaraq, həmin proqramı həyata keçirməli, yerinə yetirməliyik.

Özbəklərdə belə bir məsəl var: atasından xeyir-dua alanlar həmişə uğur, firavanlıq qazanır. Mən istəyirəm ki, burada əyləşən azərbaycanlılar bunu yadda saxlasınlar, deyərdim ki, hər bir azərbaycanlının şüuruna aşılasınlar. Məncə, bu müdrik sözləri İlham Heydər oğlu Əliyevin bugünkü fəaliyyətinə tamamilə aid etmək olar.

Hörmətli dostlar, bu gün həqiqətən çox səmimi, açıq söhbətlər, danışıqlar aparıldı. Bu gün Qafqazda, Mərkəzi Asiyada, Orta Asiyada yaranan çox mürəkkəb problemlərdən eləsi yadıma gəlmir ki, onların barəsində müəyyən məqamlarda bizim aramızda fikir ayrılığı olsun və mövqelərimiz fərqli olsun.

Buna görə də mən belə hesab edirəm ki, bizim missiyanın, Azərbaycana rəsmi səfərin uğuru, ilk növbədə məhz bundadır. Mən istərdim ki, indicə deyəcəyim sözləri siz hərfi mənada başa düşəsiniz: biz – Azərbaycan prezidenti və Özbəkistan prezidenti həmfikirlərik, bizim problemlərə münasibətimiz, yanaşmalarımız üst-üstə düşür və zənnimcə, bu bizim ən böyük uğurumuzdur. Bu gün biz dönə-dönə yəqin etdik ki, əslində İlhamla mənim aramda müəyyən problemlər yarada biləcək heç bir fikir ayrılığı yoxdur. Əksinə, biz birmənalı şəkildə dərk edirik ki, Azərbaycan və Özbəkistan bir-birinə nə qədər yaxın olsa, həm Azərbaycanın məsələlərini, həm də Özbəkistanın məsələlərini həll etmək bir o qədər asan olacaqdır.

Sözün qısası, müasir reallıqlar beynəlxalq strukturlar çərçivəsində iki ölkənin topladığı müsbət təcrübənin bazasında səylərin daha artıq dərəcədə əlaqələndirilməsini, bizim milli mənafelərimizin, həm Azərbaycanın, həm də Özbəkistanın mənafelərini çətinliklə də olsa qorumağın zəruriliyini diktə edir.

Bu gün İlham Heydər oğlu ilə danışıqlarda bizim çıxardığımız ən mühüm nəticə budur: ölkələrimiz arasında əməkdaşlığın miqyasını genişləndirmək üçün hələ istifadə edilməmiş çox böyük imkanlarımız, resurslarımız vardır. Bu, ilk növbədə qarşılıqlı ticarətin inkişaf perspektivlərinə, birbaşa kooperasiya və investisiya əlaqələrinin tənzimlənməsinə, birgə müəssisələr

yaradılmasına, energetikada, habelə nəqliyyat kommunikasiyalarından qarşılıqlı surətdə faydalı istifadə edilməsi sahəsində əməkdaşlığa aiddir.

Bir daha təkrarlamaq istəyirəm, Özbəkistan Azərbaycanın ilbəil böyüməkdə olan logistika mərkəzi kimi, Şərq ilə Qərbi əlaqələndirən dəhliz kimi, malik olduğu çox böyük imkanlardan istifadə edilməsində birmənalı şəkildə maraqlıdır.

Bu imkandan istifadə edib Azərbaycan xalqına, onun keçmişinə, bu gününə və böyük gələcəyinə özümün tükənməz, səmimi hörmət hisslərimi bildirmək istəyirəm.

Mən Azərbaycan prezidenti İlham Əliyevin sağlığına, Azərbaycan və Özbəkistanın dostluğu və əməkdaşlığı şərəfinə, bu salondakıların hamısının şərəfinə badə qaldırmağı təklif edirəm.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*12 sentyabr 2008-ci il*

*Özbəkistan prezidenti İslam Kərimov sentyabrın 12-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Özbəkistanın dövlət başçısını səmimiyyətlə qarşıladı.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.*

*Özbəkistan prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr edilmiş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Özbəkistanın dövlət başçısı fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Prezident İslam Kərimova xatirə hədiyyəsi təqdim olundu.*

*Ali qonaq fonddan xoş təəssüratla ayrıldı.*

## BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİNİN AÇILIŞI

*12 sentyabr 2008-ci il*

*Sentyabrın 12-də Bakının Nərimanov rayonunda, Azadlıq prospekti ilə Nəcəf Nərimanov küçəsinin kəsişdiyi yerdəki parkda böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsi açılmışdır.*

*Açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov iştirak etmişlər.*

*Parka toplaşmış şəhər sakinləri dövlət başçılarını ehtiramla qarşıladılar. Prezidentlər yeni parkda görülmüş abadlıq işləri ilə tanış oldular. Bildirildi ki, abidənin müəllifi özbəkistanlı memar Ravşan Mirtajiyevdir.*

*Mərasimi Azərbaycan prezidenti İlham Əliyev açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli dostlar!

Bu gün Özbəkistan və Azərbaycan xalqları arasındakı münasibətlərin tarixində çox əlamətdar gündür. Bu gün Bakıda, şəhərimizin mərkəzi küçələrindən birində özbək xalqının böyük oğlu, böyük şair, mütəfəkkir, dövlət xadimi Əlişir Nəvainin abidəsi açılır. Bizə çox xoşdur ki, bu gün abidənin açılışında Özbəkistan prezidenti İslam Abduqəniyeviç Kərimov iştirak edir.

Azərbaycanda Nəvainin yaradıcılığına çox bələddirlər. Bu böyük şairin, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə

tərcümə edilmişdir. O, Özbəkistan ədəbiyyatının, Şərq xalqları ədəbiyyatının inkişafına çox böyük təsir göstərmişdir.

Bu abidə bu böyük insanın xatirəsinə ehtiram əlaməti olmaqla bərabər, həm də əsrlər boyu bir-biri ilə sülh, həmrəylik şəraitində yaşamış, həmişə dostluq etmiş özbək və Azərbaycan xalqları arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Bu münasibətlər bu gün də davam edir. İndi, mən deyərdim ki, ölkələrimizin tərəqqisi dövründə, Özbəkistanın və Azərbaycanın müstəqilliyinin, dövlət suverenliyinin möhkəmləndiyi və inamla inkişaf etdiyi dövrdə ölkələrimiz arasında münasibətlər yeni xarakter kəsb edir. Biz keçid dövrünə, transformasiya dövrünə xas olan çətinliklərin, demək olar, hamısını keçmişdə qoymuşuq.

Bu gün artıq heç kəs şübhə etmir ki, həm Özbəkistan, həm Azərbaycan gələcəkdə də fəal inkişaf edəcək, inteqrasiya, kooperasiya edəcək və ölkələrimizin xalqları daha yaxşı yaşayacaqlar. Ona görə də bizim firavanlığımız da, Mərkəzi Asiya və Qafqaz regionunda sülh və sabitlik də ölkələrimiz arasında sıx münasibətlərdən asılıdır. Biz bu münasibətləri çox əziz tuturuq, onlar qardaşlıq münasibətləri xarakteri daşıyır, ənənələrə, möhkəm tarixi bazaya əsaslanır və bu gün çox uğurla inkişaf edir.

Mən çox şadam ki, biz hörmətli qonağımız, Özbəkistan prezidenti İslam Abduqəniyeviç Kərimovu Bakıda qəbul edirik. Biz dünən və bu gün bir daha yəqin etdik ki, münasibətlərimiz nə qədər yaxındır. Mən dünən İslam Abduqəniyeviçə dedim ki, özbək xalqının bəxti gətirib: onun tarixinin ən məsul dövründə, Özbəkistanın müstəqil dövlət kimi formalaşdığı vaxtda bu ölkəyə İslam Abduqəniyeviç Kərimov rəhbərlik etmişdir.

Bu mənada bizim bəxtimiz az gətirdi. Azərbaycan dövlətçiliyinin formalaşması müstəqilliyin əldə edilməsi ilə eyni vaxtda deyil, iki il sonra başlandı. Bu iki il ölkəmizi geri saldı və müstəqilliyin ilk illərinin ağır nəticələrini aradan qaldırmaq və inkişaf yoluna çıxmaq üçün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çox gərgin səylər göstərməsi lazım gəldi.

Bu gün ölkələrimiz arasında yaranmış münasibətlər də çox cəhətdən xalqlarımızın iki liderinin fəaliyyəti, onların dostluğu və şəxsi münasibətləri sayəsində formalaşmışdır.

Biz Azərbaycanda ötən illər ərzində ölkələrimiz arasında münasibətlərdə seçilmiş xətti davam etdiririk və gələcəkdə də bu münasibətləri inkişaf etdirmək, onları yeni səviyyəyə qaldırmaq üçün lazım olan hər şeyi edəcəyik.

Bakıda Əlişir Nəvainin abidəsinin açılması, şəhərin mərkəzi küçələrindən birinə böyük alim, böyük özbək xalqının nümayəndəsi Mirzə Uluqbəyin adının verilməsi kimi xalqlarımızın həyatındakı mühüm hadisələr isə, sadəcə, münasibətlərimizi səciyyələndirən, qarşılıqlı rəğbət hisslərimizin dərinliyini, qarşılıqlı sevgi və qardaşlıq münasibətlərini əks etdirən səciyyəvi cəhətlərdir.

Mən sizin hamınızı – həm qardaş Özbəkistan xalqını, həm də Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Əminəm ki, bu hadisə gələcəkdə ölkələrimiz arasında daha sıx münasibətlərin yaranmasına kömək edəcəkdir.

Sağ olun.

## Özbəkistan prezidenti İslam Kərimovun çıxışı

Əziz dostlar!

Mən ilk növbədə Azərbaycan prezidenti İlham Əliyevə, sizə – Azərbaycan ictimaiyyətinin nümayəndələrinə ən səmimi hörmət hisslərimi və sizin şəxsinizdə Azərbaycan xalqına öz məhəbbətimi bildirmək istəyirəm. Mən xoşbəxtəm ki, bu gün Azərbaycanın necə yüksəlməsinin şahidiyəm. Xoşbəxtəm ki, Heydər Əliyevlə birlikdə işləmişəm. Xüsusən ona görə xoşbəxtəm ki, mən burada, Bakıda rəsmi səfərdə olarkən görürəm ki, Heydər Əliyevin oğlu İlham Əliyev öz atasının işini davam etdirmək üçün, adı böyük hərflə yazılmağa layiq İnsan hesab etdiyim şəxsiyyətin işini davam etdirmək üçün hər şeyi edir.

Mən tarixdə çox şəxsiyyətlər tanıyıram və artıq çox illərdir ki, təkcə postsovet məkanında deyil, onun hüdudlarından kənarda da baş verən hadisələri izləyirəm. Mən Heydər Əliyev miqyaslı və ən başlıcası isə, öz ölkəsinə, öz torpağına, öz xalqına Heydər Əliyev qədər sədaqətli olan insanlara çox az-az rast gəlmişəm. Bu fürsətdən istifadə edərək, mən bir daha, dönə-dönə demək istəyirəm: onun öz xalqı üçün, öz xalqının gələcəyi üçün gördüyü işlərin qədir-qiyməti əvəzsizdir və gənc nəsil təməli Heydər Əliyev tərəfindən qoyulmuş işlərin nəticələrini artıq bu gün görür. Demək istəyirəm ki, biz Özbəkistanda onu təkcə öz ölkəsi üçün gördüyü işlərə görə, təkcə öz ölkəsinin vətənpərvəri adlandırıla biləcək insan olduğuna görə deyil, həm də ona görə yüksək qiymətləndiririk ki, o, Özbəkistan və Azərbaycan arasındakı münasibətləri, çoxəsrlik dostluq, qarşılıqlı hörmət, qarşılıqlı məhəbbət münasibətlərini müstəqilliyin ilk illərində burada təsadüfi adamların ölkəyə rəhbərlik etdiyi vaxtda məruz qaldığı bütün hücumlardan qorumaq üçün hər şeyi etmişdir.

Mən o adamların adlarını çəkməyəcəyəm, çünki onlar buna layiq deyil, xeyirxah işlər görmüş insanlar haqqında, bu gün xalqın taleyində, ayrılıqda götürülmüş hər bir insanın taleyində hiss etdiyimiz yaxşı işləri görmüş insanlar haqqında daha çox danışmaq lazımdır.

Sizə demək istəyirəm ki, dörd il bundan əvvəl İlham Əliyevlə birlikdə Daşkəndin ən mənzərəli, ən gözəl meydanlarından birində, yeri gəlmişkən, Nizaminin adını daşıyan meydanda – Daşkənd Dövlət Pedaqoji Universitetinin binası qarşısında Nizaminin abidəsini açmışdıq. O vaxt mən özbək dilində danışdım, o isə Azərbaycan dilində. Bu gün Özbəkistana, onun böyük oğlu Əlişir Nəvaiyə hörmət əlaməti olaraq Bakının bu çox gözəl meydanına toplaşdığımız kimi, o vaxt Nizaminin abidəsinin açılışına gəlmiş insanlar da həm özbək dilində, həm də Azərbaycan dilində deyilənləri başa düşürdülər. Yaxşı yadımdadır, o vaxt İlham Heydər oğlu ilk dəfə belə dedi: «Bu çox böyük sərvətdir – siz özbək dilində danışırsınız, mən

Azərbaycan dilində danışıram, amma adamların gözlərindən də görünür ki, heç kəsdə heç bir sual doğmadı, heç kəs yanındakından soruşmadı: «O nə dedi?». Hamı bir-birini başa düşürdü və bu, böyük sərvətdir, bizim ən ciddi şəkildə qorumalı olduğumuz böyük irsdir.

Özbəkistanın dünyanın çox ölkələri ilə münasibətləri var. Həmin ölkələrlə təkcə diplomatik, siyasi münasibətlər saxlamırıq, həm də hazırda bütün dünyada olduğu kimi, əməkdaşlıq münasibətləri qurmuşuq. Lakin mənim əzizlərim, mən sizə nəyi demək istəyirəm: indi dünyada vəziyyətin çox mürəkkəbləşdiyi, heç də sadə olmadığı bir vaxtda təkcə diplomatik, çox böyük əhəmiyyəti olan siyasi, iqtisadi, mədəni əlaqələr, mədəniyyətlərin qarşılıqlı təsirini əhatə edən mədəni münasibətlər deyil, həm də mənəvi birlik çox vacibdir.

Bu mənada bizim Azərbaycanla münasibətlərimiz başqa dövlətlərlə münasibətlərdən yaxşı mənada, hətta sadəcə yaxşı mənada yox, keyfiyyətcə əsaslı şəkildə fərqlənir, çünki bizim mənəvi birliyimiz var. Demək istəyirəm ki, insanı quşa bənzətmək olar. Quş bir qanadla uça bilmədiyi kimi, xalqlar, insanlar da təkcə maddi maraqlarla yaşaya bilməzlər. Hər cür sərvətə, firavanlığa nail olmaq mümkündür, lakin quş bir qanadla uça bilmədiyi kimi, mənəviyyat olmayan yerdə insan da öz gələcəyini, özünün ahəngdar inkişafını görə bilməz. Bunu görə bilmək isə hər bir insan üçün, hər bir xalq üçün vacibdir. Maddi və mənəvi sərvətlər yanaşı olmalıdır. Maddi sərvət bir qanaddırsa, ikinci qanad mənəvi sərvətdir. Onda insan tam olur, onda xalq öz gələcəyinə inamla baxa bilər.

Bu gün biz İlham Heydər oğlu ilə birlikdə özbək xalqının böyük oğluna, özbək ədəbiyyatının banisinə, özbək poeziyasını yaratmış insana ucaldılmış abidəni açırıq. Bu insan bizim də müasirimizdir. Ona görə ki, Nizaminin və Əlişir Nəvainin gördükləri işlər bu gün bizim həyatımızda yaşayır. Nizaminin və Əlişir Nəvainin irsi olmadan bizim bugünkü nəsil tərbiyə oluna bilməz. Onların irsi bizim güc aldığımız mənəviyyat və əxlaq xəzinəsidir.

Ona görə də mən mənəviyyat haqqında danışanda obrazlar vasitəsilə, bizim küçələrimizdə ucaldılan bu cür gözəl abidələr vasitəsilə təcəssüm edən mənəviyyatı nəzərdə tuturam. Biz Mərkəzi Asiyada yaşayırıq, bizim dil birliyi, din birliyi və bir sıra başqa amillərlə bağlı olduğumuz qonşularımız çoxdur. Lakin həmin qonşularımız bu gün Azərbaycanda görülən işi görməyiblər, Əlişir Nəvainin adını daşıyacaq belə bir meydan yaratmayıblar.

Buna görə mən Prezidentə, bütün Azərbaycan ictimaiyyətinə, mənim əzizlərim, sizə ürəkdən təşəkkür etmək istəyirəm. Əməkdaşlığı möhkəmlətmək üçün, bu gün birlikdə, bir-birimizə güvənərək öz həyatımızı qurmaq üçün gördüyünüz işlərə görə çox sağ olun. Əminəm ki, biz sabahkı günümüzü də birlikdə quracağıq, qarşıya qoyduğumuz məqsədlərə  də yalnız birlikdə çata biləcəyik.

Mən sizə təşəkkür edirəm, dərin hörmət və ehtiramımı bildirir, sizə xoşbəxtlik arzulayıram.

Sağ olun.

* * *

*Sonra prezidentlər İlham Əliyev və İslam Kərimov abidənin önünə əklil qoydular, xatirə şəkli çəkdirdilər.*

## DÖVLƏT BAŞÇILARININ TANINMIŞ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜ

*12 sentyabr 2008-ci il*

**İ s l a m  K ə r i m o v:** Sizin prezidentiniz İlham Əliyevin qeyd etdiyi kimi, Özbəkistan prezidenti Azərbaycanı yaxşı tanıyır və sevir. Prezident İlham Əliyev mənim üçün başlıca olan məqamı söylədi: həqiqətən, mən Azərbaycanı elə tanıyıram ki, dünyanın ən böyük dövlətlərinin nümayəndələri Azərbaycanı o dərəcədə tanımır. Mən azərbaycanlıları öz qardaşlarım kimi tanıyıram. Siz necə varsınızsa, mən sizi elə tanıyıram. Mən sizin tarixinizi bilirəm, sizin nə ilə yaşadığınızı, nəyin sayəsində öz millətinizə görə, öz prezidentinizə görə qürur hissi keçirdiyinizi bilirəm.

Həmişə belə olun. Bu mənim sizə ən böyük arzumdur.

**F ə r h a d  X ə l i l o v** (*Xalq rəssamı*): Sağ olun. Sizə xoşbəxtlik və firavanlıq arzulayıram. Özbək xalqı bizimlə qardaş xalqdır, biz həmişə ünsiyyətdə olmuşuq və ünsiyyətimiz davam edir. Bizim əlaqələrimiz kəsilmir. Sizin və bizim rəssamlar bir-birini tanıyırlar. Sizin rəssamlar Bakıya gəlirlər. Sizin mahir heykəltəraşınız belə gözəl abidə yaratmışdır.

**İ s l a m  K ə r i m o v:** Yeri gəlmişkən, bu abidə bizim milli parkın ən görkəmli yerində qoyulmuş abidənin surətidir. Müəllif mənə Nəvainin əyləşmiş vəziyyətdə təsvir edildiyi başqa bir abidə göstərəndə dedim: «Yox, abidəni elə düzəlt ki, şair sanki Azərbaycana doğru addımlayır». Fikir verin, o sizə doğru gəlir, qollarını açaraq sanki deyir: «Mən sizin yanınıza gəlirəm, mənim balalarım». Necə bilirsiniz, bu yaxşıdırmı?

**İ l h a m  Ə l i y e v:** Çox yaxşıdır. Elə abidələr var ki, sanki hərəkət edirlər. Yəqin ki, Özbəkistanda bu cür abidələr çoxdur.

**F i k r ə t  S a d i q** (*şair*): Nəvai türk dünyasının ən böyük şairidir.

**İ s l a m  K ə r i m o v:** Mən İlhamla birlikdə burada, sizin aranızda olmağıma ürəkdən şadam. Mən sizin bu gün hansı hisslər keçirdiyinizi başa düşürəm. İndi Qafqaz mürəkkəb bir dövr yaşayır və Azərbaycan bu cür olduqca mürəkkəb şəraitdə davamlı inkişafa, öz ölkəsində sülhə və sabitliyə nail olur. Bu, Heydər Əliyevin qoyub getdiyi və bu gün onun oğlunun layiqincə davam etdirdiyi irsdir. Mən onu ürəkdən təbrik edirəm.

## HEYDƏR ƏLİYEV ADINA SARAYIN ƏSASLI TƏMİRİ VƏ BƏRPASINDA SON TAMAMLAMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*12 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Heydər Əliyev sarayının əsaslı təmiri və bərpasında son tamamlama işləri ilə tanış olmuşdur.*

*Heydər Əliyev sarayında əsaslı təmir-bərpa və yenidənqurma işlərinə dövlət başçısının sərəncamı ilə başlanılmışdır. Ulu öndər Heydər Əliyevin xalqımız üçün yaratdığı saysız-hesabsız mədəniyyət ocaqlarından biri olan bu sarayda ötən 35 ildən sonra ilk dəfədir ki, təmir-bərpa işləri aparılır.*

*Prezident İlham Əliyev əvvəlcə binanın fasadına baxdı, burada işlərin gedişi ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, sarayın fasadı xüsusi mərmərlə üzlənib, binanın qarşı və yan tərəflərində ABŞ istehsalı olan ekran tipli şüşələr quraşdırılmışdır. Sarayın əsas özəlliklərindən olan bu şüşələr içəridə keçiriləcək tədbirləri birbaşa bayırda da izləməyə imkan verəcəkdir. Şəhərin gecə görüntüsünə xüsusi yaraşıq verəcək bu şüşələrdən monitor kimi də istifadə olunacaqdır.*

*İşlərin gedişi ilə tanış olan prezidentə bildirildi ki, əsaslı təmir və yenidənqurma tezliklə tam başa çatdırılacaqdır. İndi son tamamlama işləri gedir. Sarayın dam örtüyü dəyişdirilib, işıqlandırma sistemi yenidən qurulmuşdur. Binanın tavanının üzlənməsində xüsusi alkapon materialından istifadə olunub ki, bu da döşəmənin mərməri ilə uyarlıq təşkil edir. Girişdə yaradılacaq su pərdəsi zövq oxşayacaqdır. Saraya gələnlər buradan xüsusi lazer sistemi vasitəsilə müxtəlif görüntüləri izləmək imkanı qazanacaqlar.*

*Prezident İlham Əliyev salona da baxdı. Burada tamaşaçıların rahatlığı üçün bütün şərait yaradılır. Əlillərin salona girib-çıxması üçün xüsusi avtomatlaşdırılmış qurğu quraşdırılmışdır. Gözəl çilçıraqlar salona əlavə yaraşıq verəcəklər.*

*Akustikası müasir tələblərə tam cavab verəcək səhnədə işlərin əsas hissəsi başa çatıbdır. Liftlər və eskalatorlar yeniləri ilə əvəzlənib, binanın daxilində həssas avtomatik yanğınsöndürmə sistemi qurulmuşdur. Foyedə, banket salonunda və yardımçı otaqlarda bəzək-tamamlama işləri aparılır. Binada İtaliyadan gətirilmiş xüsusi havalandırma sistemi quraşdırılmışdır. Sarayın həyətinə 6 min kvadratmetrdən çox mərmər və qranit döşənir, ətrafda yaşıllıqlar salınacaqdır.*

*Prezident İlham Əliyev işlərin yüksək səviyyədə və keyfiyyətlə başa çatdırılması, habelə gələcəkdə sarayın istismarının da lazımınca təşkili barədə tövsiyə və tapşırıqlarını verdi.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İranın Xarici İşlər naziri Mənuçehr Muttəkini qəbul etmişdir.*

*Mənuçehr Muttəki İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi vurğulandı. Bu səfərin ikitərəfli münasibətlərin ümumi inkişafı və gələcək perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Dövlətimizin başçısı İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Permdə təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2008-ci il*

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN YENİ TƏDRİS KORPUSUNUN AÇILIŞI

*15 sentyabr 2008-ci il*

*Sentyabrın 15-də Bakı Dövlət Universitetində yeni inşa edilmiş, müasir tələblərə cavab verən tədris korpusunun açılış mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısını və xanımı Mehriban Əliyevanı Təhsil naziri Misir Mərdanov, BDU-nun rektoru Abel Məhərrəmov, universitetin Elmi Şurasının üzvləri hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və yeni tədris korpusu ilə tanış oldu.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin təhsilin inkişafına diqqət və qayğısını əks etdirən fotoguşə yaradılmışdır.*

*Yeni korpusun inşasına 1991-ci ildə başlanılsa da, sonradan burada işlər dayandırılmışdı. Əsas inşaat işləri 2006-cı ildən davam etdirilmişdir. Həmin il tikinti üçün büdcədən 600 min manat, 2007-ci ildə 2,5 milyon manat vəsait ayrılmışdı. Prezident İlham Əliyevin «Bakı Dövlət Universitetinin yeni tədris korpusunun tikintisi ilə bağlı bəzi tədbirlər haqqında» 2008-ci il 20 may tarixli Sərəncamına əsasən korpusun inşası üçün 4,6 milyon manat əlavə vəsait ayrılmışdır.*

*Bakı Dövlət Universitetinin sonuncu korpusu 20 il əvvəl istifadəyə verilmişdi. Sonralar açılan yeni fakültələr, kafedralar, elmi-tədqiqat institutları və digər bölmələr, o cümlədən tələbə-*

*lərin sayının ciddi şəkildə artması yeni korpusun tikilməsi zərurətini yaratmışdı.*

*15 min kvadratmetr ərazisi olan 10 mərtəbəli yeni tədris korpusunda 300-dən çox otaq, o cümlədən 220 auditoriya vardır. 4 mindən çox tələbənin təhsili üçün hər cür şərait yaradılmış, bütün kabinetlər mebel dəsti, lazımi avadanlıqla təchiz edilmişdir. Burada universitetin 3 fakültəsi – tarix, mexanika-riyaziyyat, tətbiqi riyaziyyat və kibernetika fakültələri yerləşmişdir.*

*Prezident İlham Əliyev 337 yerlik akt salonuna baxdı. Mərasimlərin, elmi toplantıların keçirilməsi üçün nəzərdə tutulan akt salonu orijinal memarlıq üslubu ilə diqqəti cəlb edir.*

*Dövlət başçısı universitet poliklinikasında yaradılan şəraitlə, yeməkxana ilə də tanış oldu. Poliklinika ən yüksək standartlara cavab verən müasir avadanlıqla təchiz olunmuş, lazımi tibbi xidmət göstərilməsi üçün burada hər cür şərait yaradılmışdır.*

*Sonra dövlət başçısı tarix fakültəsinin yerləşdiyi mərtəbədə oldu, 200 nəfərlik akt salonuna baxdı. Fakültədə ulu öndər Heydər Əliyevə həsr edilmiş fotoguşə də yaradılmışdır.*

*Prezident tətbiqi riyaziyyat və kibernetika fakültəsinin yerləşdiyi mərtəbədə tətbiqi analizin riyazi üsulları kafedrasında, kompyuter mərkəzində yaradılan şəraitlə maraqlandı. Bildirildi ki, mərkəzdəki kompyuterlərin hamısı internetə qoşulmuşdur.*

*Yeni korpusun istifadəyə verilməsi ilə BDU-nun korpuslarının ümumi sahəsi 40 min kvadratmetrdən 55 min kvadratmetrə çatmışdır.*

*Sonra tədris korpusunun açılışına həsr edilmiş mərasim oldu.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!
Əziz tələbələr!
Əziz müəllimlər!

Mən sizi, ilk növbədə yeni tədris ilinin başlanması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün Bakı Dövlət Universitetinin həyatında çox gözəl və əlamətdar bir gündür. Bu gün universitetin yeni gözəl korpusu açılır və bu münasibətlə də sizi ürəkdən təbrik edirəm.

Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır. Həm təhsilin keyfiyyəti artır, həm də universitetin maddi-texniki bazası möhkəmlənir. Bir sözlə, bizim – Azərbaycanın yerləşdiyi bu bölgədə Bakı Dövlət Universitetinin xüsusi çəkisi vardır.

Bildiyiniz kimi, Azərbaycanda təhsil məsələlərinə çox böyük diqqət göstərilir. Dövlət siyasətində təhsil məsələləri, demək olar ki, prioritet məsələlərdir, onlara ayrılan büdcə xərcləri ildən-ilə artmaqdadır. Həm orta məktəblər üçün binalar tikilir, həm ali məktəblərdə yeni korpuslar tikilir, avadanlıq alınır, o cümlədən Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün avadanlıq, laboratoriyalar alınmışdır. Yəni dövlət öz tərəfindən əlindən gələni etməyə çalışır ki, Azərbaycanda təhsil sistemi daha da inkişaf etsin və təhsilin keyfiyyəti artsın. Əlbəttə ki, gənclər, tələbələr, yaxud da məktəblərdə oxuyan uşaqlar, çalışan müəllimlər yaxşı şəraitdə yaşamalıdırlar, oxumalıdırlar, işləməlidirlər.

Təhsil işçilərinin sosial müdafiəsi məsələləri də öz həllini tapır. İldən-ilə artan maaşlar, əməkhaqları bunun əyani sübutudur. Biz gələcəkdə də bu siyasətə sadiq olacağıq. Çünki təhsil hər bir ölkənin gələcəyini müəyyən edir. Biz də bu məsələyə məhz ona görə diqqət göstəririk ki, gənc nəsil bilikli olsun, savadlı olsun və Azərbaycanın uzunmüddətli inkişafını təmin etsin.

Azərbaycan çox zəngin ölkədir. Bizim böyük təbii resurslarımız vardır. Ancaq bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə

edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik. Azərbaycanın zəngin neft-qaz yataqlarının işlənilməsi nəticəsində əldə edilmiş gəlirlər o cümlədən təhsil məsələlərinə sərf olunur. Bu yaxınlarda qəbul edilmiş müxtəlif proqramlar çərçivəsində gənclərin daha da gözəl təhsil alması üçün əməli-praktiki tədbirlər görülübdür. Həm tələbələrin təqaüdləri artırılıb, həm də xüsusi proqram çərçivəsində istedadlı tələbələrin xarici ölkələrin aparıcı ali məktəblərində oxuması nəzərdə tutulur. Ancaq mən çox istərdim ki, Azərbaycanda təhsilin keyfiyyəti və səviyyəsi o qədər yüksək olsun ki, xarici ali məktəblərə tələbələrin göndərilməsinə heç ehtiyac qalmasın. Əminəm ki, biz buna nail olacağıq. Çünki bunu etmək üçün bütün imkanlar var.

Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı üçün mütləq bütün sahələrdə çox güclü peşəkar mütəxəssislər olmalıdır. Elə mütəxəssislər ki, onlar müasir şəraitə uyğun şəkildə fəaliyyət göstərəcəklər. İndi dünya dəyişir, qloballaşma prosesləri gedir. Azərbaycan bu işlərdə geridə qalmamalıdır. Biz bütün mütərəqqi, qabaqcıl, bizə sərf edən təcrübəni Azərbaycanda tətbiq etməliyik. Ona görə həm müəllimlər öz peşəkarlıq səviyyəsini qaldırmalıdırlar, həm də təhsilin keyfiyyətində yeni mərhələ başlanmalıdır. Tələbələr də bilməlidirlər ki, həyatları, gələcəkləri üçün ilk növbədə onların bilik səviyyəsi rol oynayacaqdır.

Bu gün bütün başqa ölkələr kimi, Azərbaycan da öz iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurubdur və bu, ölkəmizə çox böyük mənfəət gətiribdir. İndi Azərbaycanda bazar iqtisadiyyatının bütün istiqamətləri güclənir. Bu yaxınlarda Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən aparılmış tədqiqata görə, Azərbaycan iqtisadi islahatlar işində dünya miqyasında birinci ölkədir. Yəni bu onu göstərir ki, Azərbaycanda çox köklü iqtisadi islahatlar aparılmışdır.

Bazar iqtisadiyyatı şəraitində hər bir insan, hər bir vətəndaş, əlbəttə ki, dövlətdən qayğı və diqqət görməlidir, eyni zamanda, öz gücünə güvənməlidir. Hər bir insanın gücü isə, əlbəttə ki,

onun biliyindən asılıdır. Ona görə mən əminəm, bizim gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır. Dövlət də öz tərəfindən bu şəraiti yaratmalıdır. Bu gözəl korpusların tikintisi, digər məsələlərin həlli, təhsil işçilərinin sosial müdafiəsinin möhkəmlənməsi işlərində dövlət öz köməyini göstərəcəkdir.

Mən çox şadam ki, indi Azərbaycanda, ümumiyyətlə, cəmiyyətdə təhsilə çox böyük diqqət var. Artıq hər kəs başa düşür ki, ölkəmizin uzunmüddətli inkişafını bilik səviyyəsi müəyyən edəcəkdir. Əgər dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə baxsaq, görərik ki, onlarda inkişaf və tərəqqi məhz texnologiyalar deyil, təhsil sahəsində mümkün olmuşdur. Neft-qazla zəngin olan ölkələrin bir neçəsi öz potensialını tam şəkildə işə sala bilməmişdir. Azərbaycanın timsalında biz görürük ki, həm güclü maddi baza əsasında, həm təbii resursların sayəsində, həm də yeni texnologiyalar, yeni yanaşmaları tətbiq etməklə ölkəmizi gücləndiririk. Təbii ehtiyatlar bizim üçün bir vasitədir. Ölkəmizin hərtərəfli inkişafı, bölgədə Azərbaycanın mövqelərinin möhkəmlənməsi, regional çərçivədə qabaqcıl ölkəyə çevrilməsi – bütün bu məqsədlərə çatmaq üçün müxtəlif amillər lazımdır və demək olar ki, onların hamısı var. Güclü iqtisadiyyat, güclü siyasət, sabitliyin möhkəm olması, xalqla iqtidar arasında olan birlik, güclü sosial siyasətimiz, təhsil və digər sosial, humanitar məsələlərə diqqətimiz – bütün bunlar ölkəmizi gücləndirir. Bu gün sirr deyil ki, Azərbaycan bölgədə həlledici mövqelərə malikdir. Bizim artan iqtisadi və siyasi çəkimiz Azərbaycanı güclü inkişaf etmiş ölkəyə çevirməlidir və bu məqsəd qarşımızda dayanır. Əlbəttə, təhsil məsələlərinə bir daha qayıtmaq istəyirəm: peşəkar, bilikli kadrlar olmadan biz heç bir məqsədə çata bilmərik.

Mən bu gün çox şadam ki, Bakı Dövlət Universiteti təzə korpusunun açılışı ilə tələbələrə, müəllimlərə yeni şərait

yaradır. Bu binanın tikintisi uzun illər idi ki, aparılırdı. Ancaq görülən əlavə tədbirlər nəticəsində, prezidentin ehtiyat fondundan ayrılmış vəsaitin hesabına bu korpusun tikintisi tezliklə başa çatmışdır və bu gün həm tələbələrin, həm də müəllimlərin ixtiyarına verilir.

Bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə uğurlar, cansağlığı arzulayıram.

Sağ olun.

## YASAMAL RAYONUNDAKI 60 NÖMRƏLİ ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI

*15 sentyabr 2008-ci il*

*Sentyabrın 15-də – Bilik günü Bakının Yasamal rayonundakı şəhid Paşa Nəzərov adına 60 nömrəli orta məktəbin yeni binasının açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşmış təhsil işçiləri, şagirdlər, valideynlər Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Dövlət başçısı müasir standartlara uyğun tikilmiş məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Təhsil naziri Misir Mərdanov məlumat verdi ki, Azərbaycanda son illər ərzində məktəb tikintisi və təmiri geniş vüsət almış və təhsil sisteminin maddi-texniki bazası möhkəmlənmişdir. Prezidentin xüsusi tapşırığı ilə ötən il iyunun 1-dən inşasına başlanılmış bu məktəbdə tədris üçün hər cür şərait yaradılmışdır. 50-dən çox sinif otağı olan 840 şagird yerlik məktəbdə yeni dərs ilində 600 şagird təhsil alacaqdır. Onların təlim-tərbiyəsi ilə 60 müəllim məşğul olacaqdır. Məktəbdə ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin fəaliyyətləri, Azərbaycanın dövlət dili, rəmzləri, hərb sənəti ilə və tədrislə bağlı xüsusi guşələr yaradılmışdır.*

*Paytaxtın qabaqcıl təhsil ocaqlarından olan, Qarabağ müharibəsi şəhidi, vaxtilə burada oxumuş Paşa Nəzərovun adını daşıyan məktəbin yeni binası müasirliyi ilə diqqəti çəkir. İnşaat işləri zamanı Türkiyə, Fransa və digər ölkələrdən gətirilən tikinti materiallarından geniş istifadə edilmişdir. Məktəbdə avadanlıqlar və əyani dərs vəsaitləri ilə təchizat yüksək səviyyədədir. Bu il dörd sinifdə 1-cilər təhsilə başlayacaqlar. Heydər Əliyev Fondu respublikamızdakı bütün 1-ci*

*sinif şagirdlərini çanta, məktəbləri isə nəfis tərtibatlı əyani vəsaitlə təchiz etmişdir.*

*Xatırladıldı ki, cari ildə bu məktəbin 55 məzunu respublikamızın ali məktəblərinə qəbul imtahanlarında iştirak etmiş, onlardan 41-i tələbə adını qazanmışdır. Məktəbin 600-dən çox bal toplamış məzunları prezident təqaüdünə layiq görülmüşlər.*

*Dövlət başçısı ayrı-ayrı sinif otaqlarına, fənn kabinetlərinə, müəllimlər otağına, bufetə, kiçik və böyük idman zallarına baxdı, tədris prosesi, dərs vəsaitləri ilə maraqlandı.*

*Məlumat verildi ki, informatika kabineti kompyuterlərlə təmin olunmuş və internet şəbəkəsinə qoşulmuşdur. Məktəbin kitabxanasında latın qrafikası ilə çap olunmuş 6000-ə qədər dərslik və müxtəlif ədəbiyyat toplanmışdır.*

*Məktəbdə mini ATS quraşdırılmış, tibb otağında səhiyyə xidməti üçün normal şərait yaradılmışdır. Məktəbin bufetindəki avadanlıqlar və yaradılan şərait keyfiyyətli qidalanmaya hərtərəfli təminat verir.*

*Kimya laboratoriyası həmin fənnin təkcə nəzəri deyil, həm də praktik baxımdan yüksək səviyyədə tədrisinə hərtərəfli imkan yaradır. Fizika laboratoriyası da müasir tərtibatı və zəngin avadanlığı ilə diqqəti cəlb edir. Burada da nəzəri biliklər praktik məşğələlərlə əlaqələndiriləcəkdir.*

*Bütün bunlar tədrisin səviyyəsinin yüksəldilməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmişdir.*

*Məktəbin davamlı işıqlandırılması, istilik, havalandırma sistemi müasir səviyyədədir. Yanğından mühafizə sistemi ən son texnologiyalara əsaslanır və istənilən fövqəladə halın qısa müddətdə aradan qaldırılmasına imkan verir.*

*Dövlət başçısı 1-ci sinif şagirdləri ilə görüşdü, onlara təhsildə uğurlar arzuladı və məktəblərə qayğının daha da gücləndiriləcəyini, müəllimlərin iş şəraitinin və maddi rifah halının mütəmadi yaxşılaşdırılacağını vurğuladı.*

*Məktəbin idman zalı ilə tanışlıq zamanı bildirildi ki, buradakı münasib şərait və müxtəlif avadanlıqlar bədən tərbiyəsi dərslərinin lazımınca tədrisinə imkan yaradır. Burada*

*həndbol, voleybol, mini futbol, stolüstü tennis və digər oyunlar keçirmək mümkündür. Duşxana, soyunub-geyinmə otaqları da vardır. Prezident İlham Əliyev bu təhsil ocağının açılışı və yeni dərs ilinin başlanması münasibətilə məktəbin kollektivini təbrik etdi, uğurlar arzuladı və onlarla xatirə şəkli çəkdirdi.*

* * *

*Sonra prezident İlham Əliyev 60 nömrəli orta məktəbin qarşısındakı parkda aparılan yenidənqurma işləri ilə tanış oldu.*

*Dövlət başçısına məlumat verildi ki, burada əsaslı təmir işləri yüksək səviyyədə aparılmışdır. Parkda məktəblilərin və sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılmışdır. Müasir işıqlandırma sistemi quraşdırılmış bu istirahət ocağı ətraf ərazi ilə ümumi ansambl təşkil edir, paytaxtın bu hissəsinə əlavə yaraşıq verir.*

*Prezident İlham Əliyev Bakıda aparılan yenidənqurma işləri ilə bağlı fikirlərini bölüşdü, tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

*15 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Moskvaya işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Moskvaya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan prezidentini Vnukovo hava limanında Rusiya Federasiyasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*16 sentyabr 2008-ci il*

*Sentyabrın 16-da Moskva vilayətindəki «Mayendorf» qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.*

**Dmitri Medvedev**: Hörmətli İlham Heydər oğlu! Sizi Moskvada salamlamağa şadam. Bu, bir daha görüşmək, münasibətlərimizin inkişafında işlərin indiki vəziyyətini müzakirə etmək üçün yaxşı imkandır. Rusiya–Azərbaycan münasibətləri çox dinamik inkişaf edir, biz bu tərəfdaşlıqdan razıyıq. Mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə nəzərdə tutduğumuz məsələlərin, demək olar ki, hamısı yerinə yetirilir. Ümid edirəm ki, Sizinlə razılaşdığımız kimi, bu ilin sonuna qədər əmtəə dövriyyəsinin həcmini 2 milyard dollara çatdıra biləcəyik. Hərçənd, indi dünyada iqtisadiyyat sahəsində vəziyyət o qədər də sadə deyildir. Sevindirici cəhət odur ki, bizim münasibətlərimiz konyuktur xarakter daşımır.

Humanitar sahədə Sizinlə razılaşdığımız yaxşı nümunələr çoxdur. Yadımdadır ki, lap yaxın vaxtlarda Bakıda Moskva Dövlət Universitetinin filialı açılacaqdır. Bu da çox yaxşı hadisədir. Təbii ki, Gürcüstanın təcavüzündən sonra Qafqaz regionunda yaranmış problemlərlə əlaqədar bəzi məqamları dəqiqləşdirməliyik. Bu hadisələrdən sonra Sizinlə görüşməmişik, beynəlxalq vəziyyətin inkişafını müzakirə etməmişik. Zənnimcə, münasibətlərimizin və bütövlükdə Qafqazda vəziyyətin sabit və müsbət istiqamətdə inkişafında ölkələrimizin maraqlı olması

nəzərə alınmaqla, bu məsələləri müzakirə etmək çox faydalı olacaqdır. Sizi görməyimə şadam.

**İ l h a m Ə l i y e v:** Sağ olun, Dmitri Anatolyeviç. Məni Moskvaya səfərə dəvət etdiyiniz üçün sağ olun. Sizin qeyd etdiyiniz kimi, bizim görüşlərimiz intensiv xarakter daşıyır. Sizinlə bu yaxınlarda, Azərbaycana rəsmi səfəriniz çərçivəsində görüşmüşdük. Azərbaycanda hamı xüsusi qeyd edir ki, bu Sizin Rusiya prezidenti vəzifəsində ilk rəsmi səfərlərinizdən biri idi. Bu faktın özü də dövlətlərimiz arasında münasibətlərin xarakterini və ruhunu göstərir.

Biz münasibətlərimizin inkişafından çox razıyıq. Bu münasibətlər çox geniş spektrli olub, həm fəal siyasi qarşılıqlı əlaqələri, həm də iqtisadi əlaqələri əhatə edir. Sizin qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi çox sürətlə artır və çox sevindirici haldır ki, onun strukturu da yaxşılaşır. Biz humanitar sahədə nəzərdə tutduğumuz tədbirləri həyata keçiririk. Deməliyəm ki, Moskva Dövlət Universitetinin Bakı filialı artıq açılmışdır. Bu ilin əvvəlində mən bu barədə sərəncam vermişdim və artıq filiala tələbə qəbulu aparılmışdır. Yəni MDU-nun Bakıdakı filialı 2008-ci ildən mövcuddur. Bu onu göstərir ki, biz nəzərdə tutduğumuz məsələləri operativ şəkildə həll edirik və Sizin Bakıya səfəriniz çərçivəsində nəzərdə tutulan, Dostluq və strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədə öz əksini tapmış bütün məsələlər həyata keçirilir.

İnanıram ki, münasibətlərimizin səmərəli inkişafı davam edəcək, bu münasibətlər yeni məzmun və yeni formalar kəsb edəcəkdir. Bizim regionda sülhün, sabitliyin bərqərar olması, gələcəyin proqnozlaşdırıla bilməsi üçün qüvvələrin birləşdirilməsi çox vacibdir. Bizim münasibətləri fərqləndirən cəhət proqnozlaşdırıla bilən xarakterli olmasıdır. Bu münasibətlər dostluq, mehriban qonşuluq xarakteri daşıyır və biz onların inkişafından çox razıyıq. Bizim tez-tez görüşməyimiz də, ümumiyyətlə, əlaqələrimizin mahiyyətini əks etdirir. Dəvət üçün bir daha sağ olun, ümid edirəm ki, bizim səmərəli əməkdaşlığımız davam edəcəkdir.

## DÖVLƏT BAŞÇILARININ BƏYANATLARLA ÇIXIŞLARI

*Sentyabrın 16-da Azərbaycan və Rusiya prezidentləri təkbətək görüş başa çatdıqdan sonra mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Hörmətli həmkarlar!

Hörmətli xanımlar və cənablar!

Mən hörmətli qonağımız, Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevin səfəri ilə əlaqədar bir neçə söz demək istəyirəm. Əvvəla, İlham Heydər oğlunu bir daha salamlamaq və ona təşəkkürümü bildirmək istəyirəm ki, biz bu məsləhətləşmələri Azərbaycanın həyatında kifayət qədər mühüm bir dövrdə aparırıq. Artıq prezident seçkiləri başlanır və çox yaxşı haldır ki, İlham Heydər oğlu cari vəziyyəti, bizim ikitərəfli münasibətlərimizi, beynəlxalq problemləri müzakirə etmək üçün Moskvaya gəlməyə vaxt tapmışdır.

Təbii ki, biz Rusiya–Azərbaycan iqtisadi, sosial, humanitar münasibətlərinin inkişafı barədə danışdıq. Beynəlxalq məsələlər haqqında da söhbət etdik. Əlbəttə, mən bir müddət əvvəl Qafqazda baş vermiş böhranla əlaqədar informasiya mübadiləsini nəzərdə tuturam. Mən Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Rusiyanın atdığı addımlar barədə İlham Heydər oğluna ətraflı məlumat verdim və hesab edirəm ki, bütün məsələlərdə Rusiya ilə Azərbaycanın fəal qarşılıqlı əlaqələri regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün əsas amillərdən biridir.

Danışıqların gedişində biz işgüzar əməkdaşlıq, hazırda xüsusi əhəmiyyət kəsb edən məsələlər üzərində də dayandıq.

Ölkələrimiz arasında əmtəə dövriyyəsi çox yaxşı artmaqdadır. Biz söhbətə bu məsələdən başladıq. Ümumiyyətlə, əmtəə dövriyyəsinin artması onu göstərir ki, bizim iqtisadi münasibətlərimiz prinsipcə yeni səviyyəyə, qarşılıqlı strateji əlaqələr səviyyəsinə çatmışdır. Bu həm Rusiya üçün, həm də Azərbaycan üçün xeyirlidir, bizim xalqlarımız üçün faydalıdır. Bu ilin yeddi ayında əmtəə dövriyyəsinin yarıbayarı, 56 faiz artması onu göstərir ki, artım potensialı vardır və biz bu məqama daim diqqət yetirmək niyyətindəyik. Əmtəə dövriyyəsinin strukturunun yaxşılaşması da çox mühümdür. Azərbaycan prezidenti bunu söhbətimizin əvvəlində qeyd etdi. Mən bu fikirlə tamamilə razıyam. Bu bizim iqtisadiyyatlarımızın inkişafı üçün prinsipial əhəmiyyət kəsb edir.

Təbii ki, humanitar sahədə münasibətlər ayrıca bir məsələdir və burada da həqiqətən çox yaxşı nəticələr əldə edilmişdir. Biz Azərbaycanda rusdilli mədəni məkanın və təhsil məkanının qorunub saxlanması üçün göstərilən səylərə görə Azərbaycan rəhbərliyinə, Azərbaycan prezidentinə minnətdarıq. Biz Bakıda Moskva Dövlət Universitetinin filialının açılması, məktəb təhsili, bütövlükdə humanitar sahədə əməkdaşlıq haqqında danışdıq. Əlbəttə, mən belə hesab edirəm ki, bu bizim irsimizdir və iki ölkənin prezidentləri kimi, biz bu irsi daim qoruyub saxlamalı və bu məsələyə çox ciddi diqqət yetirməliyik.

Şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin həlli də bizim müzakirə mövzumuz oldu. Mən Azərbaycan prezidentinə dediyim sözləri bu auditoriyada bir daha təsdiq etmək istəyirəm. Biz Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların davam etdirilməsinin tərəfdarıyıq. Bu məsələdə Rusiyanın mövqeyi dəyişməz qalır. Biz bu mürəkkəb məsələnin tənzimlənməsi üçün qarşılıqlı məqbul həllin tapılmasına gələcəkdə də maksimum kömək edəcəyik. Zənnimcə, bizim bu məsələyə dair təmasların ən yaxın gələcəkdə davam etdirilməsinə də ümid etməyə haqqımız var.

Mən bugünkü səfərin baş tutmasına görə, dostcasına konstruktiv söhbətə görə həmkarım İlham Heydər oğlu Əliyevə

bir daha təşəkkür etmək istəyirəm. Hesab edirəm ki, bizim bu cür intensiv ünsiyyətimiz, tez-tez görüşməyimiz həm xalqlarımızın, həm dövlətlərimizin, həm də nəticə etibarilə bizim regionda təhlükəsizliyin və sabitliyin xeyrinədir. Görüş həm faydalı, həm də maraqlı oldu və biz lap yaxın gələcəkdə bu məsələlərin müzakirəsini davam etdirəcəyik. Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

İlk növbədə məni Moskvaya səfərə və bu görüşü keçirməyə dəvət etdiyinə görə Dmitri Anatolyeviç Medvedevə təşəkkürümü bildirmək istəyirəm. Dmitri Anatolyeviçin qeyd etdiyi kimi, bizim təmaslarımız çox intensiv xarakter daşıyır və bu, ölkələrimiz arasında münasibətlərin xarakterini əks etdirir. Biz bir neçə dəfə görüşmüşük və hər dəfə çoxlu mövzuları müzakirə etmişik.

Təbii ki, ikitərəfli münasibətlərlə bağlı məsələlər diqqət mərkəzindədir. Rusiya ilə Azərbaycan arasında münasibətlər çox dinamik, müsbət şəkildə inkişaf edir və regional proseslərə də müsbət təsir göstərir. Bizim qarşılıqlı iqtisadi əlaqələrimiz, siyasi dialoqumuz çox fəaldır, biz humanitar sahədə əməkdaşlıq edirik və bütün bu istiqamətlərdə, eləcə də başqa sahələrdə davamlı irəliləyiş olduğunu görürük.

Rusiyanın və Azərbaycanın iqtisadi potensialının artması təsərrüfat subyektlərinin, şirkətlərin dinamik inkişafına şərait yaradır, qarşılıqlı investisiyalar, birgə layihələr müzakirə edilir. Bu da təbii ki, bizim münasibətlərimizi daha da möhkəmlədəcəkdir.

Biz qonşu dövlətlərik, bizim həm quruda, həm də dənizdə ümumi sərhədimiz var və qonşular arasında münasibətlər çox vacibdir. Qonşular arasında münasibətlər heç də həmişə istənilən kimi olmur. Lakin mən belə hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər nümunəvi xarakter daşıyır və qonşular arasında münasibətlərə nümunə ola bilər. Biz

bundan çox razıyıq və ümidvarıq ki, gələcəkdə də bu münasibətləri inkişaf etdirmək, onları yeni məzmunla, yeni layihələrlə zənginləşdirmək, bununla da ölkələrimizin davamlı inkişafına və regionda inteqrasiyanın daha da güclənməsinə şərait yaratmaq üçün maksimum səy göstərəcəyik.

Əlbəttə, bu gün regionda yaranmış vəziyyət müəyyən narahatlıq doğurur və Azərbaycan bu gərginliyin azaldılmasına öz töhfəsini verməyə hazırdır. Biz hesab edirik ki, regionda fikir ayrılıqlarına səbəb olan məsələlər dinc yolla, dialoq yolu ilə, təmas nöqtələri tapmaq yolu ilə və əlbəttə, qarşılıqlı hörmət əsasında həll edilməlidir.

Bu gün biz ikitərəfli xarakter daşıyan məsələlərlə yanaşı, regional prosesləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə etdik. Biz ümid edirik ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya tənzimləmə prosesində fəal rolunu davam etdirəcəkdir. Qafqaz regionunda baş verən proseslər nə qədər mürəkkəb olsa da, bizə belə gəlir ki, bu gün münaqişənin bütün dövlətlərin mənafeyinə cavab verən və beynəlxalq hüquq prinsiplərinə əsaslanan şəkildə həlli üçün yaxşı imkanlar var. Mən əminəm ki, əgər münaqişə yaxın vaxtlarda həll olunarsa, kifayət qədər geniş formatda regional əməkdaşlıq üçün yeni perspektivlər yaranacaq, bu isə bütün ölkələrin xeyrinə olacaqdır. Biz bu regionda öz qonşularımızla bərabər yaşayırıq və yaşayacağıq, heç kəs bu regiondan heç yerə köçüb getməyəcəkdir. Ona görə də səmərəli qarşılıqlı əlaqələr, mehriban qonşuluq, əməkdaşlıq mexanizmlərini axtarıb tapmaq lazımdır. Bir daha demək istəyirəm, əgər bizim regionda bütün qonşu ölkələr arasında münasibətlər Rusiya ilə Azərbaycan arasındakı münasibətlər kimi olsaydı, sizi inandırıram, heç vaxt nəinki münaqişə, hətta heç bir anlaşılmazlıq da olmazdı.

Buna görə bir daha demək istəyirəm ki, biz münasibətlərimizin səviyyəsini çox yüksək qiymətləndiririk, bu münasibətləri daha da möhkəmlətməyə çalışırıq və öz tərəfimizdən həmin məqsədə nail olmaq üçün bundan sonra da lazım

olan hər şeyi edəcəyik. Heç şübhəsiz, bu baxımdan humanitar sahə ilə bağlı məsələlər də çox böyük əhəmiyyət kəsb edir. Dmitri Anatolyeviçin qeyd etdiyi kimi, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə çox qayğıkeş münasibət bəslənir və bu münasibət təkcə sözdə deyil, əməli işdə də özünü göstərir. Bəlkə də bu məsələlər geniş ictimaiyyətə həmişə məlum olmur, ola bilsin ki, biz indi piar deyilən məsələ ilə o qədər də fəal məşğul olmuruq, lakin hesab edirik ki, ən yaxşısı öz işini vicdanla və namusla görməkdir, informasiya isə hər bir halda öz oxucusunu tapacaqdır.

Mən bu dəvətə görə, yenə də bütün məsələləri çox açıq, səmimi, yoldaşcasına müzakirə etməyə imkan verən şəraitin yaradılmasına görə Rusiya prezidentinə bir daha təşəkkür etmək istəyirəm. Bu cür müzakirələr bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir.

Sağ olun.

## RUSİYA HÖKUMƏTİNİN SƏDRİ VLADİMİR PUTİNLƏ GÖRÜŞ

*16 sentyabr 2008-ci il*

*Sentyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Moskvada Rusiya hökumətinin Qəbullar evində RF Hökumətinin sədri Vladimir Putinlə görüşmüşdür.*

*Rusiya hökumətinin sədri Vladimir Putin Azərbaycan dövlətinin başçısını salamlayaraq dedi:*

– Hörmətli İlham Heydər oğlu, hörmətli həmkarlar. Sizi salamlamağıma çox şadam. Mənə çox xoşdur ki, Siz köhnə dostlarınızı unutmursunuz. Sağ olun. Əminəm ki, biz iqtisadi əlaqələrimizin inkişafı haqqında söhbət edə biləcəyik. Lakin demək istəyirəm ki, bizim dövlətlərarası münasibətlərimiz həqiqətən yüksələn xətlə inkişaf edir. Mən iqtisadi sahədə nail olduğumuz inkişaf sürətinə ən yüksək qiymət verirəm, elə siyasi sahədə də biz daim əlaqə saxlayırıq.

Bildiyiniz kimi, bu yaxınlarda biz Sizin atanızın – Azərbaycan prezidentinin, keçmiş Sovet İttifaqının və Azərbaycan Respublikasının görkəmli dövlət xadiminin 85 illik yubileyini birlikdə qeyd etdik. Xatırlatmaq istəyirəm ki, Sizin atanız dövlətlərarası münasibətlərimizin inkişafına çox böyük töhfə vermişdir. Biz çox ümid edirik ki, vaxtilə əvvəlki prezident tərəfindən təməli qoyulmuş müsbət işlər bu gün də, gələcəkdə də çoxalacaqdır.

Mən bunu yaxşı bilirəm və biz görürük ki, son illərdə Azərbaycanın xarici siyasətinin Rusiya istiqamətində varisliyi təmin edilmişdir və biz belə hesab edirik ki, siyasi səviyyədə toplanmış müsbət nə varsa, qarşılıqlı iqtisadi əlaqələrə çevrilməlidir. İndi dünya maliyyə bazarlarında, dünya iqtisa-

diyyatında rəqabətin kifayət qədər geniş miqyas aldığını gördüyümüz bir vaxtda bu xüsusilə aktualdır.

Hazırda dünya bazarlarından alınan məlumatlar sadəcə olaraq təşviş doğurur. Biz həmin bazarlarda nələr baş verdiyini görürük. Qərbin, demək olar ki, bütün bazarlarında tənəzzül müşahidə olunur. Bu, heç şübhəsiz, bizim iqtisadiyyata da bu və ya digər dərəcədə təsir göstərir, çünki iqtisadiyyatımız qlobal dünya iqtisadiyyatının tərkib hissəsidir. Lakin Rusiya Azərbaycan üçün olduğu kimi, Azərbaycan da bizim üçün həmişə etibarlı tərəfdaş olmuşdur və belə olaraq qalır. Sizə demək istəyirəm ki, dünya iqtisadiyyatında baş verən bu mürəkkəb hadisələrdən biz sakit ötüşəcəyik. Rusiyanın maliyyə bazarlarında likvidliyi dəstəkləmək üçün təkcə bu gün Maliyyə Nazirliyi 150 milyard rubl, Mərkəzi Bank isə 325 milyard rubl yerləşdirmişdir. Maliyyə Nazirliyi sabah yerləşdiriləcək məbləği iki dəfədən çox artıraraq 350 milyard rubla çatdırmaq niyyətindədir. Hazırda Maliyyə naziri və Mərkəzi Bankın sədri Rusiyanın ən iri banklarının rəhbərləri ilə gələcək birgə fəaliyyəti müzakirə edirlər. Biz şübhə etmirik ki, son illərdə Rusiya iqtisadiyyatında yaradılmış təhlükəsizlik «yastıqları» öz səmərəsini verəcəkdir. Hazırda biz Mərkəzi Bank tərəfindən uzunmüddətli təsir vasitələrinin tətbiq edilməsinin mümkünlüyünü də öyrənirik. Bizim bu cür praktikamız var. Biz səliqə ilə, düşünülmüş şəkildə hərəkət edəcəyik.

Mən Azərbaycan iqtisadiyyatındakı müsbət artım meyillərini nəzərə alaraq bilirəm ki, bu nəinki MDB məkanı üçün, hətta dünya miqyasında rekorddur – keçən il Azərbaycan iqtisadiyyatında 25 faiz, bu il 18 faiz artım olmuşdur. Bizdə bu ilin birinci yarısında iqtisadi artım 8 faiz, bütövlükdə keçən il 8,1 faiz olmuşdur. Bu, sabitlik elementidir və biz, əlbəttə, ondan istifadə etməliyik. Təbii ki, bu şəraitdə Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr arasında iqtisadi münasibətlərə tələbat daha çoxdur, kooperasiyanın dərinliyi və bizim qarşılıqlı əlaqələrimizin dərəcəsi bunu tələb edir. Sizi görməyimizə çox şadıq. Zənnimcə, lazımi vaxtda biz Moskvada görüşəcəyik.

*Prezident İlham Əliyev Rusiya hökumətinin başçısına müraciətlə dedi:*

– Sağ olun, Vladimir Vladimiroviç. Mən də Sizi görməyimə və ikitərəfli münasibətlərimiz, regional əməkdaşlıq haqqında, eləcə də ölkələrimizin iqtisadi uğurları və yeni birgə layihələrin imkanları barədə bir daha fikir mübadiləsi aparmaq imkanına görə çox şadam.

Sizin qeyd etdiyiniz kimi, ölkələrimiz arasında münasibətlər çox müsbət şəkildə inkişaf edir. Biz bunu çox yüksək qiymətləndiririk. Onu da qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında müasir münasibətlərin əsasını Siz və Azərbaycan prezidenti Heydər Əliyev qoymuşsunuz. Mən bunu çox yaxşı xatırlayıram. Sizin ilk görüşünüz, sonra isə Sizin Azərbaycana səfəriniz – bu, Rusiya prezidentinin bizim ölkəyə ilk rəsmi səfəri idi – ölkələrimiz arasında münasibətlərin inkişafının əsas mərhələləri oldu, bundan sonra biz çox böyük tərəqqinin şahidi olduq. İndi, o vaxtdan 8 il keçəndən sonra biz Rusiya ilə Azərbaycan arasında bütün sahələri əhatə edən, çox dinamik inkişaf edən münasibətlərin bütün bəhrələrindən istifadə edirik. Əlbəttə, Moskvada Heydər Əliyevin xatirəsinə göstərilən münasibət – onun yubileyinin keçirilməsi, eləcə də Baykal–Amur dəmir yolunun stansiyalarından birinə onun adının verilməsi, bununla əlaqədar çox səmimi mərasim keçirilməsi Azərbaycanda bizim hamımız üçün çox dəyərlidir. Bütün bunlar Azərbaycanda çox yüksək qiymətləndirilir.

Bizim ölkələr arasında münasibətlər təkcə siyasi maraqlar xarakteri daşımır, bu münasibətlər həm də çox səmimi, ürəkdən gələn münasibətlərdir və münasibətlərimizin tarixini və xalqlarımızın yanaşı yaşamaq ənənələrini əks etdirir. Əminəm ki, gələcəkdə biz birgə səylərimizlə bu münasibətləri daha da genişləndirəcəyik. Bizim aramızda çox fəal siyasi dialoq var. Sizinlə çoxsaylı görüşlərimizi xatırlayıram. Bu gün Rusiya siyasətində də Azərbaycana münasibətdə varislik qorunub saxlanır. Ona görə də biz paralel yollarla gedirik və bu bizim uğurlarımızın rəhnidir.

İndi Rusiya da, Azərbaycan da postsovet məkanında siyasi proseslər, iqtisadi nailiyyətlər baxımından ən dinamik inkişaf edən ölkələrdir. Son beş ildə Azərbaycanda iqtisadiyyatın həcmi 2,7 dəfə artmışdır. Əlbəttə, artmaqda olan bu potensial əməkdaşlığı daha da dərinləşdirməyə imkan verir. Biz buna çox ümid bəsləyirik və mən əminəm ki, qarşılıqlı siyasi əlaqələrin hazırda mövcud olan və möhkəmlənən səviyyəsi yeni iqtisadi təşəbbüslər üçün yaxşı zəmin yaradır. Əlbəttə, Sizin qeyd etdiyiniz kimi, dünya maliyyə bazarlarında yaranmış mürəkkəb şəraitdə biz bu məqamları nəzərə almalı, əməkdaşlığın potensialını təshih etməli və artırmalıyıq. Bu il əmtəə dövriyyəmiz çox böyük sürətlə, 50 faizdən çox artmışdır, özü də onun strukturu yaxşılığa doğru dəyişir. Bütün bunlar onu göstərir ki, iki ölkə arasında münasibətlər qarşılıqlı maraqlar, dostluq, mehriban qonşuluq əsasında qurulursa, bu münasibətlər proqnozlaşdırıla bilirsə, iqtisadi inkişafla bağlı bütün məsələlər daha uğurla həll edilir. Buna görə də münasibətlərimizin mövcud səviyyəsi məni çox sevindirir və ümid edirəm ki, bu münasibətlər bütün istiqamətlər üzrə genişlənəcək, şəxsi planda isə Sizinlə yenidən görüşəcəyik.

**V l a d i m i r  P u t i n:** Gərək ki, sizdə ikiqat profisit yaranmışdır – həm büdcədə, həm də ticarətdə, elədirmi?

**İ l h a m  Ə l i y e v:** Elədir, çox böyük profisit yaranmışdır. Son beş il yarımda büdcəyə daxilolmalar 15 dəfə artmışdır, büdcənin xərcləri də sürətlə artır. Təbii ki, bu vəziyyət inflyasiyaya mənfi təsir göstərir, lakin bu bizim iqtisadi artım üçün ödədiyimiz qiymətdir və hesab edirəm, bu meyillər gələcəkdə də davam edəcəkdir. Əlbəttə, ÜDM-in 35 faiz və 25 faiz artması yəqin ki, artıq tarixə çevrilmişdir, lakin artımın keyfiyyəti bizim maraqlarımıza daha çox uyğun gələcəkdir. Biz gələcəyə nikbin baxırıq – həm iqtisadi təşəbbüslər çərçivəsində, həm də ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından. Sağ olun.

* * *

*Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti ilə Moskvaya işgüzar səfəri başa çatmışdır.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab sədr!

Milli bayramınız – Çin Xalq Respublikasının Yaranması günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz ölkələrimiz arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Əminəm ki, Azərbaycan-Çin dostluğunun daha da möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın səmərəli şəkildə davam etdirilməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Çin xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2008-ci il*

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

Hörmətli cənab Federal Prezident!

Almaniyanın milli bayramı – Alman birliyi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Almaniya münasibətlərinin inkişafı sahəsindəki nailiyyətlərimiz bizi sevindirir. Əminəm ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2008-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ

Hörmətli xanım Federal Kansler!

Milli bayramınız – Alman birliyi günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Almaniya arasındakı münasibətlər möhkəm dostluq əlaqələri və geniş əməkdaşlıq imkanları ilə səciyyələnir. Əminəm ki, qarşılıqlı maraq doğuran və bir çox sahələri əhatə edən işbirliyimiz xalqlarımızın mənafeləri naminə daim öz miqyasını genişləndirərək hər cəhətdən faydalı olacaqdır.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2008-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Dövlətin yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı əməkdaşlığın öz əhatə dairəsini gündən-günə genişləndirməsi, sabit və ardıcıl inkişafı böyük məmnunluq doğurur. Əminəm ki, istər dövlətlərarası münasibətlərimizin, istərsə də bütün səviyyələrdə dostluq əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2008-ci il*

## MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin Bakıdakı səfirlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev diplomatlara müraciətlə dedi:*

– Hörmətli səfirlər!

Mən sizin hamınızı qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim təbriklərimi və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Ramazan bayramı Azərbaycanda rəsmi bayram kimi, ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra qeyd olunmağa başlamışdır. Amma ondan əvvəlki dövrlərdə, əlbəttə ki, Azərbaycan xalqı həmişə bu müqəddəs bayramı geniş qeyd edib. Bu bayram bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Müstəqillik bərpa olunandan sonra Azərbaycan bütün ölkələrlə və əlbəttə ki, müsəlman ölkələri ilə diplomatik münasibətlər qurmuşdur. O vaxtdan bu günə qədər bizim münasibətlərimiz sürətlə inkişaf edir. Bu münasibətlər çox yüksək səviyyədədir. Mən deyə bilərəm ki, təmsil etdiyiniz ölkələrin tam əksəriyyətinə rəsmi səfərlər etmişəm və sizin ölkələrinizin dövlət, hökumət başçıları Azərbaycanda dəfələrlə olmuşlar.

Müsəlman ölkələri ilə bizim münasibətlərimiz çoxşaxəlidir. Biz çox istəyirik ki, bütün istiqamətlərdə münasibətlər inkişaf

etsin və nəinki siyasi sahədə, eyni zamanda, ticarət, mədəni, humanitar və başqa sahələrdə biz birlikdə yeni işlər görək.

Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik və bu dəstək, əminəm ki, hər bir ölkə üçün çox önəmlidir. İslam Konfransı Təşkilatı çərçivəsində çox uğurlu əməkdaşlıq edirik. Bildiyiniz kimi, İslam Konfransı Təşkilatının xətti ilə Azərbaycanda nazirlər səviyyəsində bir sıra tədbirlər keçirilmişdir. Növbəti illərdə də yeni tədbirlər gözlənilir. Biz çox istəyirik ki, İslam Konfransı Təşkilatı çərçivəsində, orada təmsil olunan ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələr və islam həmrəyliyi daha da güclənsin. Bizi həm islam dini birləşdirir, həm tarix birləşdirir, həm də müştərək keçmişimiz birləşdirir. Mən tam əminəm ki, indiki zamanda, qloballaşan dünyada bütün islam ölkələrinin uğurlu əməkdaşlığı, bir-birini dəstəkləməsi hər bir ölkənin mövqelərini gücləndirir.

Mən əminəm ki, qarşılıqlı ticarət əlaqələrinin inkişafı istiqamətində atılmış və gələcəkdə atılacaq addımlar bizim imkanlarımızı daha da genişləndirəcəkdir. Bunu etməklə biz bir-birimizin iqtisadiyyatına öz töhfəmizi vermiş oluruq. Əlbəttə ki, bizim ölkələrimizin qarşısında duran problemləri həll etməliyik və bu istiqamətdə bir-birimizə arxa, dayaq olmalıyıq.

Müstəqil ölkə kimi, Azərbaycanın uğurlu inkişafı ölkəmizin bölgədə mövqelərinin möhkəmlənməsinə gətirib çıxarmışdır. Azərbaycanda aparılan islahatlar, güclü iqtisadi inkişaf ölkə qarşısında duran əsas ciddi problemlərin həlli üçün çox gözəl şərait yaratmışdır. İqtisadi inkişaf baxımından son dörd il ərzində Azərbaycan dünya miqyasında birinci yerdədir. Azərbaycanın dövlət büdcəsi son beş il ərzində 10 dəfədən çox artıbdır. Bu bizə imkan verir ki, bütün sosial məsələlərin həlli üçün səylərimizi davam etdirək. Yəni bir sözlə, Azərbaycan öz daxili imkanlarına, öz gücünə istinad edərək ölkə qarşısında duran iqtisadi və sosial problemləri uğurla həll edir.

Ölkə qarşısında duran ən ciddi problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll

olunmamasıdır. Azərbaycan uzun illərdir çalışır ki, bu məsələni danışıqlar yolu ilə həll etsin. Ancaq hələlik heç bir nəticə yoxdur. Şübhəsiz ki, bu məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli və işğalçı qüvvələr işğal olunmuş bütün torpaqları boşaltmalıdırlar. Bu işdə beynəlxalq təşkilatlarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatında islam ölkələrinin dəstəyi bizim üçün çox önəmlidir.

Bildiyiniz kimi, bu ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında yaranmış vəziyyətlə bağlı böyük üstünlüklə qətnamə qəbul edilmişdir. Böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, müsəlman ölkələrinin əksəriyyəti Azərbaycanın haqq işini dəstəkləmiş və qətnamənin qəbul olunmasında həlledici rol oynamışdır. Bu çox vacibdir. İlk növbədə, bu onu göstərir ki, islam həmrəyliyi məsələləri həll olunur və həlledici anlarda ölkə üçün, Azərbaycan üçün çox vacib olan məsələdə müsəlman qardaşlarımız bizimlə çiyin-çiyinə dayanmışlar. Digər tərəfdən, bu səsvermə bir növ həqiqət anı idi. Həm Azərbaycan dövləti üçün, həm də Azərbaycan vətəndaşları üçün bu səsvermə çox şeyi göstərdi.

Mən bunu dəfələrlə demişəm və bu fürsətdən istifadə edib Azərbaycanın haqq işini dəstəkləyən və bizim lehimizə səs verən bütün ölkələrin dövlət, hökumət başçılarına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan da öz növbəsində islam həmrəylik prinsiplərinə sadiqdir və bizim də beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də müxtəlif vaxtlarda səsvermələrdə mövqeyimiz islam həmrəyliyini əks etdirir.

Bir sözlə, mən bir daha qeyd etmək istəyirəm ki, bizim ölkələrimizin arasında olan münasibətlər həm ölkələrimizin mövqelərini möhkəmləndirir, həm də dünya miqyasında çox vacib bir amildir. Biz gələcəkdə islam həmrəyliyinin möhkəmləndirilməsi və islam ölkələri arasında münasibətlərin inkişafı üçün öz səylərimizi davam etdirəcəyik.

Sizi qarşıdan gələn gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

*İraqın Azərbaycandakı səfiri Ərşad Ömər İsmayıl dövlətimizin başçısını səfirlər adından təbrik edərək dedi:*

– Cənab Prezident, icazə verin, sözümü Sizə Azərbaycan dilində deyim.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasında akkreditə olunmuş islam dövlətlərinin səfirləri, nümayəndələri adından və şəxsən öz adımdan böyük fərəh hissi ilə Sizi müqəddəs Ramazan ayı və qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edirəm. Zati-alinizə davamlı müvəffəqiyyət və bütün Azərbaycan xalqına tərəqqi arzulayıram. Fürsətdən istifadə edərək zati-alinizə bu mübarək bayram münasibətilə islam dövlətlərinin səfirlərini qəbul etdiyiniz üçün dərin minnətdarlığımızı bildirmək istəyirəm.

Cənab Prezident, icazə verin, Azərbaycanın bütün Qafqaz regionunun iqtisadi və mədəni mərkəzinə çevrilməsinin şahidi olduğumuza görə dərin razılığımızı və fəxr etdiyimizi bildirim. Biz Azərbaycanda neft və qeyri-neft sahələrinin inkişafına gətirib çıxarmış və güclü iqtisadiyyatın düzgün əsaslarının möhkəmləndirilməsi məqsədilə həyata keçirilən siyasət, islahatlar nəticəsində bütün sahələrin tərəqqi etdiyi bir dövrdə yaşayırıq.

Azərbaycan son dörd ildə iki dəfədən çox iqtisadi artım səviyyəsinə görə dünya ölkələri arasında birinci yerə çıxmışdır.

Öz növbəsində, Azərbaycanda hökm sürən sabitlik və təhlükəsizlik də bütün Qafqaz regionunda onun əhəmiyyətini artırır. Müsəlman dövlətləri hər zaman və hər yerdə Azərbaycanı dəstəkləyərək Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına riayət

edilməklə bütün qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qaytarılması yolu ilə həllinə çağırır.

Biz hamımız şahidik ki, Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan dini tolerantlığın və sivilizasiyalar arasında dialoqun ən bariz nümunəsinə çevrilmişdir.

Cənab Prezident, bu mübarək günlər və qarşıdan gələn Ramazan bayramı münasibətilə Sizə bir daha ən səmimi təbriklərimizi yetirirəm. Qadir Allahdan bütün qardaş Azərbaycan xalqına və bütün islam aləminə tərəqqi, rifah, sülh, müvəffəqiyyətlər diləyirik.

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu!

## AŞPA-nın AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ BAŞÇISI ANDRES HERKELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda keçiriləcək prezident seçkilərinin müşahidə olunması üzrə Xüsusi Komitəsinin seçkiqabağı missiyasının başçısı Andres Herkelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikasında qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## HÜSEYN CAVİD PARKINDA APARILAN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 17-də paytaxtdakı Hüseyn Cavid parkında aparılmış əsaslı bərpa və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Görkəmli ədibin adını daşıyan park dövlətimizin başçısının Bakı şəhərində parkların və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı verdiyi tapşırıqlara əsasən abadlaşdırılmışdır. İki hektardan artıq ərazini əhatə edən parkda qısa vaxt ərzində əhalinin istirahəti üçün ən müasir şərait yaradılmışdır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülmüş işlər barədə prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, Hüseyn Cavidin parkda ucaldılmış abidəsi də yeni görkəm almışdır. Parkın ərazisində mina texnologiyasından istifadə edilməklə Təbriz memarlığına xas naxışlarla bəzədilmiş unikal «qızıl fəvvarə» quraşdırılmışdır. Abidə ilə onun arasındakı ərazidə isə Kanada mütəxəssislərinin layihəsi əsasında 50 metr uzunluğu, 15 metr eni olan musiqili fəvvarə quraşdırılmışdır. Fəvvarələrin ətrafına və hovuzlarına qranit, ağ mərmər döşənmişdir. Şəhər sakinlərinin zövqünü oxşayan parkda təzə oturacaqlar qoyulmuş, yeni yaşıllıq zolaqları salınmış və bəzək kolları əkilmişdir.*

*Dövlətimizin başçısı parkın ərazisini gəzdi, yaradılan şəraitlə yaxından tanış oldu, parka gəzintiyə çıxmış sakinlərlə görüşüb söhbət etdi.*

*Sonra prezident İlham Əliyev Milli Elmlər Akademiyasının qarşısındakı bağa baxdı, burada da abadlıq və yenidənqurma işlərinin aparılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

# BAKI MUSİQİ AKADEMİYASI BİNASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI

*18 sentyabr 2008-ci il*

*Sentyabrın 18-də Üzeyir musiqi günündə Bakı Musiqi Akademiyasının binasının əsaslı təmir-bərpa işlərindən sonra açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşmış müəllim və tələbələr, mədəniyyət və incəsənət xadimləri Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə dahi bəstəkar Üzeyir Hacıbəylinin akademiyanın binası qarşısındakı abidəsi önünə gül dəstələri qoydular.*

*Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin və Dövlət Xor Kapellasının ifasında ölməz «Koroğlu» operasından parçalar ifa olundu.*

*Sonra prezident İlham Əliyev binada aparılmış əsaslı təmir-bərpa işləri ilə tanış oldu.*

*Təmir-bərpa işlərinə «Bakı Musiqi Akademiyasının maddi-texniki bazasının yaxşılaşdırılması haqqında» prezidentin Sərəncamına uyğun olaraq keçən ilin sentyabrında başlanmışdı. Binanın əsaslı təmirinə və akademiya üçün yeni musiqi alətlərinin alınmasına prezidentin ehtiyat fondundan 7 milyon manat vəsait ayrılmışdı.*

*Bir ilə yaxın müddətdə görülmüş işlərin nəticəsində bina tamamilə yeni görkəm almışdır. Ən müasir materiallardan istifadə olunmaqla binanın fasadı, otaqları, kabinetləri əsaslı təmir olunmuş, istilik və havalandırma sistemi, mühəndis-kommunikasiya xətləri yenilənmişdir. Bu işlərdə Almaniya və İtaliya istehsalı olan avadanlıq və materiallardan istifadə edilmişdir.*

*Binanın tarixi memarlıq üslubu qorunub saxlanmış, 1300 kvadratmetr sahədə qranit və mərmərdən istifadə olunmuşdur.*

*Dünya şöhrətli bəstəkar Qara Qarayevin vaxtilə dərs dediyi sinif, 308 tamaşaçı yeri olan orqan musiqisi salonu, 600-dən çox tamaşaçı yeri olan Şövkət Məmmədova adına Opera studiyası da yüksək səviyyədə yenidən qurulmuş, müasir akustika və işıq sistemləri quraşdırılmışdır.*

*Bundan əlavə, akademiyanın maddi-texniki bazası da müasirləşdirilmiş, bir çox yeni alətlər alınmışdır.*

*Prezident İlham Əliyev binanın fasadına baxdı, sinif otaqlarında oldu, görülmüş işləri yüksək qiymətləndirdi.*

*Akademiyanın konsert salonunda davam etdirilən mərasimdə dövlətimizin başçısı çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ölkəmizin mədəni həyatında çox əlamətdar, gözəl bir gündür. Bu gün, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin doğum günündə Bakı Musiqi Akademiyasının binasının təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Üzeyir bəyin ölməz, unudulmaz əsərləri Azərbaycan xalqının qəlbində yaşayır və əbədi yaşayacaqdır. Üzeyir Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir. Onun yaradıcılıq irsi, ictimai fəaliyyəti Azərbaycanın mədəni həyatının inkişafında çox böyük rol oynamışdır. Azərbaycanın Dövlət himni öz musiqisi ilə, öz əzəməti ilə fərqlənir. Mən çox şadam ki, bu gözəl gündə biz sizinlə birlikdə Bakı Musiqi Akademiyasının, demək olar, yeni həyatının başlanmasını qeyd edirik.

Bildiyiniz kimi, bir il bundan əvvəl bu binanın əsaslı təmiri haqqında mənim tərəfimdən sərəncam imzalanmışdı və cəmi bir il ərzində bina, demək olar ki, tamamilə yenidən qurulub. Öz

memarlığını, tarixi simasını saxlamaqla, bina tamamilə müasirləşibdir. Bu gün akademiya ilə tanış olarkən bir daha gördüm ki, burada ən yüksək standartlar tətbiq edilib, ən gözəl şərait yaradılıbdır. Əlbəttə, burada işləyənlər və oxuyanlar üçün böyük əhəmiyyət kəsb edən odur ki, çox gözəl musiqi alətləri artıq vardır. Əminəm ki, bütün görülən işlər Azərbaycanın musiqi mədəniyyətinin inkişafı üçün də öz müsbət rolunu oynayacaqdır.

Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti, o cümlədən Azərbaycanın musiqi mədəniyyəti ilə də sıx bağlıdır. Xalqımız uzun illər, demək olar ki, əsrlər boyu müstəqillikdən məhrum idi. Biz başqa ölkələrin tərkibində yaşamışıq. Ancaq öz milli ənənələrimizi, milli-mənəvi dəyərlərimizi saxlamışıq, qorumuşuq. Mən tam əminəm ki, bu işdə əsas rol oynayan bizim mədəniyyətimiz olubdur. Musiqimiz, ana dilimiz, ədəbiyyatımız olub ki, Azərbaycan, azərbaycanlılar öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. Bu gün biz müstəqil ölkə kimi inkişaf edərkən, əlbəttə, çox istəyirik ki, ölkəmizin inkişafı çoxşaxəli olsun. Biz iqtisadi cəhətdən çox sürətlə inkişaf edirik. Azərbaycanda siyasi proseslər çox müsbət istiqamətdə gedir. Bütövlükdə, cəmiyyətdə yaranmış gözəl ab-hava Azərbaycanın ümumi inkişafını təmin edir və gələcəkdə də təmin edəcəkdir.

Əlbəttə ki, belə bir gözəl şəraitdə, dövlətin artan imkanları sayəsində biz həyatımızın bütün sahələrinin inkişafı üçün əməli-praktiki tədbirləri görməliyik. İlk növbədə, qeyri-maddi dəyərlərin qorunmasına, inkişafına daha da böyük diqqət göstərməliyik. Bakı Musiqi Akademiyasının əsaslı təmiri, deyə bilərəm ki, yenidən qurulması bunun əyani sübutudur, son illər ərzində Azərbaycanda aparılan siyasətin bir parçasıdır.

Azərbaycanın çox gözəl perspektivləri var. Biz uğurla inkişaf edirik və öz problemlərimizi özümüz həll edirik. Azərbaycanın zəngin təbii ehtiyatları, çox bilikli kadr potensialı,

coğrafi vəziyyəti və ölkədə gedən müsbət proseslər, cəmiyyətdə həmrəyliyin möhkəm olması – bütün bu amillər Azərbaycanda həm sabitliyin qorunmasına, möhkəmlənməsinə şərait yaradır, həm də uğurlu inkişafın gələcək addımlarını müəyyən edir.

Bizim ölkəmiz hərtərəfli inkişaf edir, bütün problemlər öz həllini tapır və mən çox istəyirəm ki, biz qarşıda duran bütün vəzifələri daha da tezliklə icra edək. Mən əminəm ki, Azərbaycanın zəngin mədəni irsi, çox gözəl mədəni ənənələri yaşayacaq və gənc nəsil bu ruhda tərbiyə olunacaqdır. Bizim indi əsas vəzifələrimizdən biri ondan ibarətdir ki, Azərbaycanda yetişən gənc nəsil həm bilikli, savadlı, həm də peşəkar, vətənpərvər olsun və gələcək illərdə Azərbaycan etibarlı əllərdə olsun. Çünki bugünkü gənclər bir müddətdən sonra ölkənin gələcək inkişaf istiqamətlərini müəyyən edəcəklər, onların qərarlarından ölkəmizin taleyi asılı olacaqdır. Elə etməliyik ki, Azərbaycanda yetişən gənc nəsil bu sadaladığım parametrlərə uyğun olsun. Bunu etmək üçün, əlbəttə ki, təhsil məsələlərinə biz çox böyük diqqət göstərməliyik.

Bakı Musiqi Akademiyası həm mədəniyyət, həm də təhsil ocağıdır. İki vacib istiqaməti özündə birləşdirir və hər iki istiqamətdə Azərbaycan dövlətinin çox ciddi, düşünülmüş və konkret proqramları vardır.

Azərbaycanın artan imkanlarını insan kapitalının möhkəmlənməsinə yönəldirik. Təhsil məsələlərinə ayrılan xərclər büdcəmizin böyük hissəsini təşkil edir və ildən-ilə bu xərclər artır. Azərbaycanda məktəb tikintisi geniş vüsət almışdır. Son 4-5 il ərzində 1400 yeni məktəb tikilibdir. Yeni tikilmiş bütün məktəblərdə kompyuterləşmə məsələləri öz həllini tapıbdır. Əgər beş il bundan əvvəl 1000 şagirdə 1 kompyuter düşürdüsə, bu gün 29 şagirdə 1 kompyuter düşür. Bu nə deməkdir? Bu o deməkdir ki, bizim uşaqlarımız kiçik yaşlarından yeni texnologiyalara bələd olacaqlar. Onlar daha da bilikli, dünyaya açıq olacaqlar, dünyada gedən prosesləri izləyəcək, mövcud olan yenilikləri öyrənəcəklər. Hər halda, belə imkan yaranacaq və onlar orta məktəbi bitirərkən artıq öz hazırlıq səviyyəsinə

görə daha da peşəkar ola bilərlər. Ali məktəbin bu işlərdə rolu daha da vacibdir, çünki insanın formalaşması daha çox ali məktəb divarları arasında başlayır. Azərbaycanda ali məktəblərdə aparılan islahatlar, təhsilin keyfiyyətinin təkmilləşməsi bizi çox sevindirir. Ancaq təbii ki, daha da böyük işlər görmək lazımdır.

Əminəm ki, Azərbaycanda bu istiqamətdə aparılan siyasətin davam etməsi nəticəsində biz bu məqsədlərə çatacağıq. Azərbaycan gəncləri həm mənəvi cəhətdən, həm fiziki cəhətdən, həm də peşəkarlıq baxımından ən yüksək meyarlara uyğun olacaqlar.

Hər bir ölkənin inkişafı müxtəlif amillərlə ölçülür. Burada həm iqtisadi potensial, ölkələrin coğrafi mövqeyi, siyasi proseslərin müsbət istiqamətə yönəldilməsi və həm də, əlbəttə ki, hər bir ölkənin mədəni həyatı, mədəni irsi və potensialı böyük rol oynayır. Ölkələr haqqında dünyada yaranan fikirlər xeyli dərəcədə onların mədəni həyatının zəngin olmasından asılıdır. Bu belə sahədir ki, bunu gizlətmək mümkün deyildir. Bəzi hallarda kütləvi informasiya vasitələrində Azərbaycan haqqında verilən məlumatlar həqiqəti əks etdirmir. Dünya ictimaiyyəti üçün aydın deyil ki, bizim ölkəmiz son dörd ildə dünya miqyasında iqtisadi inkişaf baxımından birinci ölkədir. Dünya Bankının hesablamalarına görə, bu il Azərbaycan islahatların aparılması sahəsində birinci ölkədir. Ancaq ölkəmizin mədəni həyatı, ölkəmizdə güclü kadrların mövcudluğu, peşəkar ifaçıların, mədəniyyət xadimlərinin fəaliyyəti, əlbəttə ki, daha da çox diqqəti cəlb edir. Biz çalışmalıyıq ki, Azərbaycanı dünya birliyinə lazımi səviyyədə təqdim edək. İstəyirik ki, bizi daha yaxından tanısınlar. Buna nail olmaq üçün, şübhəsiz, mədəniyyət xadimlərinin fəaliyyətindən çox şey asılıdır. Fürsətdən istifadə edib bir də demək istəyirəm ki, ölkə prezidenti kimi, mən Azərbaycanın mədəni həyatının inkişafı üçün, mədəniyyətlə bağlı bütün tədbirlərin görülməsi üçün bundan sonra da öz səylərimi göstərəcəyəm.

Bu gün bu işlər çox geniş vüsət alıbdır. Azərbaycanda, demək olar ki, bütün teatrlar təmir olunur, yenidən tikilir, bütün

muzeylərdə təmir-bərpa işləri aparılır. Yəni bizim istəyimiz odur ki, Azərbaycanda mədəniyyətlə bağlı olan bütün işlər, bütün tikinti işləri ən yüksək dünya standartlarına cavab versin və biz buna nail oluruq.

Biz hələ bu işin əvvəlindəyik, başladığımız böyük quruculuq, abadlıq işləri yəqin ki, bu il və gələn il başa çatacaqdır. Ondan sonrakı illərdə mədəniyyətlə bağlı bütün infrastruktur obyektləri yeniləşməlidir, yenidən tikilməlidir və ən qabaqcıl dünya standartlarına uyğunlaşdırılmalıdır.

Necə ki, bu gün deyə bilərəm, Bakı Musiqi Akademiyası gözəllik, memarlıq və təchizat baxımından Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada işləmək də, oxumaq da xoşdur. Həm müəllimlər, həm də tələbələr üçün çox gözəl şərait yaradılıbdır.

Doğma Bakımızın siması dəyişir, bütün tarixi binalar təmir olunur. Bununla bağlı bir müddət əvvəl mən xüsusi sərəncam imzalamışdım və Bakıdakı bütün tarixi binaların yeniləşdirilməsi, bərpası və orijinal formaya çatdırılması işində artıq böyük nailiyyətlər var və bu proses davam edir. Mən bilirəm ki, Bakı sakinləri bu işləri çox böyük sevinclə qarşılayırlar, hər birimiz buna sevinirik. Tarixi binaların təmirindən sonra yeniləşən simaları hər bir Bakı sakinini sevindirir.

Bir sözlə, mədəniyyətin inkişafı ilə bağlı çox işlər görülübdür. Azərbaycan dövləti ölkəmiz üçün vacib olan bu sahəyə bundan sonra da lazımi diqqət göstərəcəkdir.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə mən bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Bakı Musiqi Akademiyasının kollektivinə yeni uğurlar və yeni qələbələr arzulayıram.

Sağ olun.

* * *

*Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli mərasimdə çıxış edərək dedi:*

– Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Siz Üzeyir bəyin ocağına xoş gəlmisiniz. Biz bu gün doğrudan da xoşbəxtik, ona görə ki, bu gün bizim üçün əziz bir gündür. 1995-ci ildə ulu öndər Heydər Əliyev xüsusi fərman imzalayıb – 18 sentyabr həmişə Üzeyir musiqi günü kimi, bütün Azərbaycanda qeyd edilir.

O ki qaldı bu binaya, bura bizim evimizdir. Təsəvvür edin, hamımız, burada oturanlar 5 yaşından bu binaya gəlirik, çünki Bülbül adına məktəb vaxtilə burada yerləşirdi. Ona görə bura bizim üçün çox əzizdir.

Üzeyir bəyin ocağı yaşayır. İndi bu ocaqda Azərbaycanın ən görkəmli bəstəkarları, ifaçıları toplaşıblar, Siz onların hamısını tanıyırsınız. Onlar prezident təqaüdçüləridir. Bizdə 20 nəfər prezident təqaüdçüsü var. Mən bilmirəm, hansı təhsil ocağında bu qədər prezident təqaüdçüsü var? Müəllimlərimiz can-başla işləyirlər, son on ildə beynəlxalq müsabiqələrdə 1-ci, 2-ci, 3-cü yerləri tutan, laureat, diplomant adına layiq görülən neçə-neçə tələbəmiz olmuşdur.

Mən adları çəkmək istəmirəm, amma, cənab Prezident, çox istərdim ki, Sizin sərəncamınızı yerinə yetirən ən yüksək vəzifəli şəxslərdən tutmuş, fəhlələrə qədər hamıya ürəkdən minnətdarlığımı bildirəm. Çünki onlar qışın soyuğunda, yayın istisində gecə-gündüz işləyiblər, çalışıblar ki, məhz 18 sentyabra qədər işi qurtarsınlar. Biz çox xoşbəxtik ki, buna nail ola bildik.

Mən sadəcə onu demək istəyirəm ki, xoşbəxtik ki, Sizin yanınızda, Sizinlə çiyin-çiyinə Mehriban xanım var. Musiqimizin təbliği sahəsində Mehriban xanımın xüsusi xidmətləri var. Dünən onun son layihələrinin – möhtəşəm «Üzeyir dünyası» və «Muğam ensiklopediyası» layihələrinin təqdimatı oldu. Uşaqların və gənclərin simfonik orkestri Parisdə, YUNESKO-da çıxış etdi. Biz hamımız o məşhur konsertə baxırdıq.

Ulu öndərimizin «Mən fəxr edirəm ki, azərbaycanlıyam» sözləri hamımızın yadındadır. Bu konserti izləyərkən avropalıların bizim uşaqlarımızı ayaqüstə alqışladıqlarını görəndə, biz həqiqətən də çox xoşbəxt idik. Ona görə də Mehriban

xanım, bu layihələrə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri kimi, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, Heydər Əliyev Fondunun prezidenti kimi, siz böyük işlər görmüsünüz. Bu ancaq musiqiyə aiddir. Mən hələ təhsili demirəm, o qədər məktəblər tikilir, o qədər kompyuterlər alınır. Yəni indi şagirdlər, tələbələr üçün, müəllimlər üçün hər cür şərait var.

Cənab Prezident, həmişə Siz gələsiniz. Ulu öndərimiz bu binaya bir neçə dəfə gəlmişdi. Məhz Heydər Əliyevin sayəsində Rostropoviç yenidən Bakıya gəldi, burada müntəzəm ustad dərsləri keçdi.

Mən Sizi ürəkdən salamlayıb yenə deyirəm: Üzeyir bəyin ocağına xoş gəlmisiniz!

Çox sağ olun.

* * *

*Sonda akademiya tələbələrinin, Bülbül adına orta ixtisas musiqi məktəbi şagirdlərinin və italiyalı qonaq Cüzeppe Talemoenin ifasında Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndi.*

*Prezident İlham Əliyev təhsil ocağının kollektivinə bir daha uğurlar arzuladı.*

# ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də ABŞ Dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, regionda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## PROFESSOR MURTUZ ƏLƏSGƏROVA

Hörmətli Murtuz Ələsgərov!

Sizi – Azərbaycanda hüquq elminin inkişafında mühüm xidmətləri olan alim və tanınmış ictimai-siyasi xadimi 80 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram. Siz ölkəmizdə hüquq elmləri sahəsində qiymətli araşdırmaları ilə nüfuz qazanmış alimlərimizdənsiniz. Uzun illər ərzində Bakı Dövlət Universitetinin professoru və rektoru kimi göstərdiyiniz fəaliyyət səmərəli olmuşdur. Bu gün Azərbaycanın inkişafı və daha da çiçəklənməsi naminə çalışan yetirmələrinizlə Siz haqlı olaraq fəxr edə bilərsiniz.

Sizin Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməyiniz suveren dövlətçiliyimizin hüquqi bazasının möhkəm təməllər üzərində qurulması ilə bir vaxta düşür. Ölkəmizdə parlament ənənələrinin formalaşmasında Siz böyük xidmətlər göstərmiş və hüquqi dövlət quruculuğu işinə layiqli töhfələr vermisiniz. Müstəqil Azərbaycan Respublikasının ali mükafatı – «İstiqlal» ordeni ilə təltif edilməyiniz Vətən qarşısında xidmətlərinizin təsdiqidir.

Ümidvaram ki, Siz bundan sonra da özünüzə xas olan müdrikliklə respublikamızda hüquq elminin, təhsilin və parlamentarizmin inkişafı naminə səy və bacarığınızı sərf edəcəksiniz.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2008-ci il*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və regionda vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BALAKƏN, ZAQATALA, QAX, ŞƏKİ, OĞUZ, QƏBƏLƏ BÖLGƏLƏRİNƏ SƏFƏRİ

*Balakən rayonu*

*19 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Şəki–Zaqatala bölgəsinə səfərə getmişdir.*

*Əvvəlcə Balakən rayonuna gələn dövlətimizin başçısı rayon mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət etdi. Postamentlə birlikdə hündürlüyü 14 metr olan tunc heykəlin müəllifləri Akif Əsgərov və Cəlil Hüseynovdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular, parkı seyr etdilər.*

*Heydər Əliyev adına mədəniyyət və istirahət parkı şəhərin ən səfalı guşəsində – Balakən çayının sahilində yerləşir. 24 hektar sahəsi olan parkda geniş yaşıllıq işləri aparılmış, 4 mindən çox ağac, 5 minə yaxın dekorativ gül və kol əkilmişdir. Parkın ən hündür yerində ulu öndərin əzəmətli abidəsi ucaldılmışdır. Parkın ərazisində Heydər Əliyev Muzeyi, veteranlar evi, nikah evi, xidmət obyektləri tikilmiş, fəvvarə, yelləncəklər, karusellər quraşdırılmışdır. Ərazidə respublikada oxşarı olmayan 1200 metrlik kanat yolu inşa edilmişdir. Altı kabinəli buraz yolundan saatda 216 nəfər istifadə edə bilər. Yolun texniki avadanlığı Avstriyadan alınıb, qurğuya xidmət tam kompyuterləşdirilmişdir.*

*Parkda tikilmiş beşmərtəbəli mehmanxana binasında isə son tamamlanma işləri aparılır.*

*Parkın qarşısındakı meydanda 72 metr hündürlükdə Azərbaycanın Dövlət bayrağı dalğalanır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidə kompleksinin yanından kanat yolu ilə parkın aşağı hissəsinə düşdülər.*

## Heydər Əliyev Muzeyinin açılışı

*Prezident İlham Əliyev sentyabrın 19-da Balakən şəhərində Heydər Əliyev Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Muzeyin binası yaraşıqlı görünüşü, memarlıq üslubu ilə parka xüsusi gözəllik verir. Beş bölmədən ibarət muzeyin ümumi sahəsi 493, ekspozisiya salonunun sahəsi 330 kvadratmetrdir. Ekspozisiyada ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, kitablar, müxtəlif sənədlər toplanmışdır. Muzeydə ümummilli liderin büstü də qoyulmuşdur.*

*Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## Balakən şəhərində yeni su xəttinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Balakən rayon mərkəzinə çəkilmiş su xəttinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı su xəttinin açılışını bildirən düyməni basaraq xətti işə saldı.*

*Tikintisinə 2006-cı ilin mayında başlanmış su xəttinin uzunluğu 13,6 kilometrdir. Siltik çayından 319 millimetrlik polad borularla çəkilən su xəttinin üstündə təmizləyici qurğu, hər birinin tutumu 1000 kubmetr olan 12 su anbarı tikilmişdir. Dövlət Neft Şirkətinin vəsaiti ilə çəkilmiş su xətti yeni tikilməkdə*

*olan xəstəxana kompleksini, şəhərin yeni yaşayış massivini içməli su ilə təchiz edəcəkdir. Tikintiyə 4 milyon manat vəsait xərclənmişdir.*

*Prezident İlham Əliyev burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü, xatirə şəkli çəkdirdi.*

*Prezident İlham Əliyev bu əlamətdar hadisə münasibətilə balakənliləri təbrik etdi.*

**X ə l i f ə M i r ə l i y e v** (*rayon ağsaqqalı*): Hörmətli cənab Prezident!

Balakən rayonunun ağsaqqalları, ziyalıları, camaatı adından Sizə «Xoş gəlmisiniz!» deyirik. Qədəmləriniz mübarək olsun, uğurlu, düşərli olsun. Cənab Prezident, Siz bu gəlişinizlə Balakən camaatına su verdiniz. Su aydınlıq rəmzidir. Yüzlərlə ailə, bütün camaatımız buna sevinir.

Bu Sizin rayonumuza ikinci gəlişinizdır. Hər gəlişiniz bizim üçün bayram olmuşdur. Birinci gəlişiniz zamanı Balakən rayonunun girişində çox möhtəşəm bir xəstəxananın təməlini qoydunuz və o tezliklə istifadəyə veriləcəkdir. Camaatımız xəstələrini yüz kilometrlərlə uzaq məsafəyə – Şəkiyə, Bakıya aparmalı olurdu. Gözəl bir diaqnostika mərkəzi – xəstəxana istifadəyə veriləcəkdir. Bu Sizin təşəbbüsünüzlə olmuşdur, buna görə Balakən camaatı Sizə minnətdardır.

O səfərinizdən az vaxt keçməsinə baxmayaraq, rayonumuz görkəmini dəyişmişdir. Hər yer gül-çiçəyə bürünmüşdür. Kəndlərimiz də dəyişmiş, yenidənqurma işləri görülmüşdür.

Bu gün burada ulu öndərimizin adını daşıyan parkdayıq. Gələcəkdə bura yeni ailə quran gənclərimizin andiçmə yerinə çevriləcəkdir. Bütün bunlara görə Sizə təşəkkür edirik, minnətdarıq.

Demək istədiyim başqa sözlər də var.

Əgər tarixə nəzər salsaq görərik ki, vaxtilə ulu öndər Balakən rayonunu heç vaxt yaddan çıxarmamışdır. Yevlax–Balakən dəmir yolu xəttinin və şose yolunun çəkilməsi də ulu öndərin Balakənə böyük diqqətinin nəticəsi idi. Rayonun girəcəyindəki böyük konserv zavodunun təməlinin də

qoyulması ulu öndərimizin bizə göstərdiyi qayğının nəticəsi idi. Onun siyasətini Siz uğurla davam etdirirsiniz. Siz bu rayonun gözəl bir diyara çevrilməsini istəyirsiniz.

Cənab Prezident, buna görə Sizi alqışlayırıq. Bütün Azərbaycan xalqı kimi, Balakən camaatı da Sizə xanımınızla birlikdə uzun ömür, cansağlığı arzulayır.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Əlbəttə, bundan sonra da gələcəyəm. Mən çox şadam ki, Balakən belə qısa müddət ərzində gözəlləşdi, abadlaşdı. Burada çox böyük quruculuq, abadlıq işləri gedir. Siz bunu yaxşı bilirsiniz, siz burada yaşayırsınız.

Qeyd etdiyiniz kimi, bütün dövrlərdə Balakənə çox böyük diqqət göstərilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçən əsrin 70-ci illərində böyük işlər görülmüşdür. Dəmir yolu, avtomobil yolu çəkilmişdir. Ondan sonrakı dövrlərdə də işlər görülmüşdür. Məsələn, iki il bundan əvvəl böyük xəstəxananın təməlini bərabər qoyduq. Amma indi mən gələndə gördüm ki, demək olar, hazırdır, tamamlanma işləri aparılır. O nəinki bu bölgədə, bütövlükdə Azərbaycanda son illər ərzində tikilən ən böyük xəstəxanalardan biridir. Həm müalicə, həm diaqnostika, həm də müayinədən keçmək üçün bütün lazımi avadanlıq quraşdırılacaqdır. Balakənlilər artıq başqa yerlərə getməyəcəklər, başqa rayonlardan müalicə üçün Balakənə gələcəklər. Bu, insanların sağlamlığı üçündür.

Bura su xətti çəkilibdir. İnsanlar təmiz içməli su ilə təmin olunur. 16 məktəb tikilibdir. Gözəl park, kanat yolu tikilib, idman kompleksi tikilir. İndi biz Bakı–Balakən avtomobil yolunu yenidən tikirik. Ən gözəl, müasir standartlara cavab verəcək və gediş-gəliş daha da rahat olacaqdır.

Görülən bütün bu işlərlə bərabər, iqtisadi və sənaye potensialının möhkəmlənməsi, yeni zavodlar, fabriklər – bu gün mən onların bəzilərinə baş çəkəcəyəm – həm iş yerləridir, həm də rayonun inkişafına böyük töhfədir. Rayon həm də turizm üçün çox yararlı bölgədir. Çox gözəl təbiəti var. Amma turizm nə vaxt inkişaf edir?! Yeni infrastruktur lazımdır, turist gəlib

şəraiti olmayan yerdə nə edəcəkdir?! Amma indi mehmanxana tikilir, Zaqatala aeroportu bu gün açılacaqdır, avtomobil yolu yeniləşir, abadlıq, gözəllik işləri görülür. Mən çox istəyirəm ki, Azərbaycanın bütün bölgələri inkişaf etsin və ən müasir səviyyəyə çatsın. O cümlədən, Balakən, xüsusilə paytaxtdan uzaqda yerləşən rayonlar. Demək olar ki, Balakən ən ucqar rayonlardan biridir, sərhəd rayonudur. Ona görə buraya xüsusi diqqət göstərilməlidir. Yəqin ki, siz bu xüsusi diqqəti görürsünüz. Çox qısa bir müddət ərzində bu qədər böyük işlər görülübdür.

Çox sevinirəm və çox şadam ki, mənim tərəfimdən təyin olunmuş icra hakimiyyətinin başçısı da yaxşı işləyir. Onun da böyük əməyi var. Mən Dövlət Neft Şirkətinə göstəriş vermişdim ki, öz imkanları hesabına burada işlər görsün. Onlar da çox səmərəli işləyirlər. Balakənin inkişafı üçün, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün və insanların daha da yaxşı yaşaması üçün gələcəkdə başqa planlarımız da var. İnsanların yaxşı yaşaması üçün əsas bir neçə amil olmalıdır – təhlükəsizlik, sabitlik. Bu da bizdə var. Azərbaycan bu bölgədə bir sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Hara baxsaq görərik ki, orada çaxnaşma, münaqişə, gərginlik var, qan tökülür. Amma biz Azərbaycanda çox əmniyyətli şəraitdə yaşayırıq və insanlar bunu qiymətləndirirlər. Bu, hər bir ölkənin inkişafı üçün əsasdır.

İkincisi insanların yaşayış səviyyəsidir. Bu nədən ibarətdir: səhiyyə sisteminin təkmilləşdirilməsi, müasir xəstəxanaların tikilməsi, insanlar vaxtlı-vaxtında müayinədən keçsinlər, xəstəlik aşkar olunarsa, yerindəcə əməliyyat keçirilsin, yaxud da başqa müalicə aparılsın. Təhsil məsələləri, məktəblər – bu bizim gələcəyimizdir. Uşaqlarımız gözəl təhsil almalıdırlar. Onlar Azərbaycanı gələcəkdə idarə edəcəklər. Həm şərait yaxşı olmalıdır, həm də təhsilin keyfiyyəti. Yollar olmalıdır, infrastruktur layihələri, yeni müəssisələr, istehsal sahələri. Yəni bütün bunlar hər bir ölkənin inkişafını və insanların daha yaxşı

yaşamasını təmin edən əsas amillərdir. Bunların hamısı Balakəndə var.

Əminəm ki, növbəti illərdə atılacaq addımlar hesabına daha da böyük işlər görüləcəkdir. Bu gün deyə bilərəm ki, Balakən Azərbaycanın ən inkişaf etmiş rayonlarından biridir. Əminəm ki, siz bu yüksək səviyyəni saxlayacaqsınız. Azərbaycan prezidenti kimi, mən bundan sonra da rayonun inkişafı üçün lazımi tədbirləri görəcəyəm.

Gələn ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi qəbul olunacaqdır. Proqramda da hər bir rayon, kənd üzrə bütün lazımi tədbirlər nəzərdə tutulur ki, mövcud olan bütün problemlər tezliklə həll olunsun. Məqsədimiz odur ki, Azərbaycan çiçəklənsin, inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

Sağ olun, mənim salamlarımı bütün balakənlilərə çatdırın.

## Elektron kitabxananın açılışı

*Sentyabrın 19-da Balakəndə mərkəzi rayon elektron kitabxanasının açılışı olmuşdur.*

*Mərasimə gələn prezident İlham Əliyev kitabxana ilə yaxından tanış oldu.*

*Mərkəzləşdirilmiş kitabxana sisteminin yeni binası Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmişdir.*

*Heydər Əliyev adına mədəniyyət və istirahət parkının yaxınlığında yerləşən ikimərtəbəli binanın ümumi sahəsi 520 kvadratmetr, kitabxananın fondu isə 30 min nüsxədir. Kitabxananın geniş foyesi, oxu salonu, hər mərtəbədə iki kitab saxlancı və digər xidməti otaqlar vardır.*

*Binada avtomatlaşdırılmış kitabxana informasiya sistemi və elektron kitabxana fəaliyyət göstərir. Oxu salonunda quraşdırılmış 12 kompyuterin hamısı internet şəbəkəsinə qoşulmuşdur. Kitabxanada 21 işçi çalışır.*

*Prezident İlham Əliyevin sərəncamı ilə latın qrafikası ilə nəşr olunmuş kitablardan bu elektron kitabxanaya da hədiyyə edilmişdir.*

*Bu cür kitabxanaların yaradılmasını yüksək qiymətləndirən dövlətimizin başçısı burada insanların biliklərini artırmaları üçün gözəl şəraitin olduğunu bildirdi.*

## İdman kompleksinin tikintisi ilə tanışlıq

***S**entyabrın 19-da prezident İlham Əliyev Balakən idman kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı kompleksin layihəsinə və şəkillərdən ibarət guşəyə baxdı.*

*Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, nazirliyin sifarişi ilə tikilən kompleksin layihəsini Fövqəladə Hallar Nazirliyinin nəzdindəki «Azərkommunallayihə» İnstitutu hazırlamışdır.*

*İnşaat işləri bu il başlanmışdır. Kompleksdə 1500 tamaşaçı yeri olan futbol stadionu, voleybol, mini futbol, basketbol meydançaları, bir sıra idman növləri ilə məşğul olmaq üçün salonlar, soyunub-geyinmə otaqları, trenajor salonu, ən müasir tələblərə cavab verən üzgüçülük hovuzu olacaqdır.*

*İdman qurğusunun tikintisini 2009-cu ildə başa çatdırmaq nəzərdə tutulur.*

*İnşaat işlərinin yüksək keyfiyyətlə aparılmasının zəruriliyini bildirən prezident İlham Əliyev bu kompleksin rayonda idmanın inkişafına təkan verəcəyini vurğuladı.*

## Yeni avtovağzal binasının açılışı

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Balakəndə yeni avtovağzal binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən rəmzi lenti kəsdi və avtovağzalla tanış oldu.*

*Şəhərin Heydər Əliyev prospektində yerləşən yeni avtovağzal binasının tikintisinə 2007-ci ilin iyununda başlanılmışdır. Tikinti işlərinə 200 min manat vəsait xərclənmiş binanın ümumi sahəsi 1100 kvadratmetrdir. Gün ərzində 500 sərnişinə xidmət göstərəcək yeni avtovağzal binasında gözləmə salonu, kassa, ana və uşaq otaqları, yeməkxana və digər xidməti otaqlar vardır. Burada 25 nəfər işlə təmin ediləcəkdir. Prezident İlham Əliyev kassa otaqlarına baxdı, avtobusların hərəkət cədvəli ilə tanış oldu.*

## Balakən ticarət mərkəzinin açılışı

*Sentyabrın 19-da prezident İlham Əliyev Balakən ticarət mərkəzinin açılışında iştirak etmişdir.*

*Şəhər avtovağzalının yaxınlığında inşa edilmiş ticarət mərkəzi 1,82 hektar sahədə yerləşir. 2006-cı ilin noyabrında başlanmış tikinti işlərinə 1,2 milyon manat vəsait xərclənmişdir.*

*Ticarət mərkəzi bazar kompleksi, ümumi sahəsi 4800 kvadratmetr olan 250 mağaza və iaşə obyektlərindən ibarətdir. Həyatində hovuz da tikilmişdir.*

*Ticarət mərkəzində 450 nəfər daimi iş yeri ilə təmin ediləcəkdir.*

*Prezident İlham Əliyev mərkəzi gəzdi, yaradılan şəraiti yüksək qiymətləndirdi. İnsanların işlə təmin olunmasının zəruriliyini vurğulayan dövlətimizin başçısı bu cür obyektlərin əhalinin həyat şəraitinin yaxşılaşmasına, rahatlığına kömək etdiyini bildirdi.*

## Balakən Rayon Mərkəzi Xəstəxanası ilə tanışlıq

*Sentyabrın 19-da prezident İlham Əliyev yeni tikilən Balakən Rayon Mərkəzi Xəstəxanasında inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Xəstəxananın təməli 2006-cı il aprelin 12-də dövlətimizin başçısının iştirakı ilə qoyulmuşdur. Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən və smeta dəyəri 20,9 milyon manat olan 235 çarpayılıq xəstəxana kompleksində 9 şöbə, o cümlədən*

*cərrahiyyə, terapiya, nevrologiya, reanimasiya, doğum və uşaq xəstəlikləri şöbələri olacaqdır. Burada ən yüksək standartlara cavab verən müasir tibb aparatları və avadanlıqları quraşdırılacaqdır. «Podratçı» Rabitəinşaat MMC-nin kollektivi indiyədək burada 15 milyon manatlıqdan çox iş görmüşdür. Kompleksin 2009-cu ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev tikinti işlərinin gedişi ilə maraqlandı və tikintinin müasir standartlara uyğun, yüksək səviyyədə və keyfiyyətlə başa çatdırılması barədə tapşırıqlarını verdi.*

## Balakən konserv zavodunda

*Prezident İlham Əliyev sentyabrın 19-da Balakən konserv zavodunda olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 12 hektar ərazidə yerləşən zavod ümummilli lider Heydər Əliyevin bilavasitə qayğısı ilə 1970-ci ildə fəaliyyətə başlamışdı. Keçən əsrin 80-ci illərinin sonunda burada yeni avadanlıq quraşdırılmış, 2002-ci ildə zavodun bazasında «Balakən-Konserv» ASC yaradılmışdır.*

*2006-cı ilin ikinci yarısından etibarən Azərbaycan Beynəlxalq Bankı tərəfindən ayrılmış kredit hesabına zavodda yenidənqurma işlərinə, avadanlığın, binaların, qurğuların təmirinə başlanılmışdır. Zavodun yenidən qurulmasına ümumi vəsait qoyuluşu 12 milyon manat təşkil etmişdir.*

*Hazırda zavodda mürəbbə, tomat pastası, meyvə şirələri, cem istehsalı, fındıq emalı və konsentrat sexlərinin fəaliyyətinin bərpası istiqamətində iş gedir. Bu sexlərin işə düşməsi il ərzində 50 min ton müxtəlif çeşidli kənd təsərrüfatı məhsulunun tədarükünə və emalına imkan yaradacaqdır. Şirə, konsentrat və fındıq emalı sexlərində yenidənqurma işləri tamamlanıb və onlar məhsul istehsalına hazırdır. Zavodda tonluq soyuducu da quraşdırılmışdır. Müəssisənin fəaliyyətə başlaması nəticəsində 180 nəfər işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyev şirə sexinin işə düşməsini bildirən düyməni basdı. İstehsal prosesini izləyən dövlətimizin başçısına «Coca-Cola» brendi, «Çappi», habelə Azərbaycanın yüksək*

*standartlara cavab verən «İnnabı» və «Vell» brendləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrı-ayrı sexlərlə, istehsal xətti ilə tanış oldular, hazır məhsullara baxdılar. Bildirildi ki, burada istehsal olunan konservlər İtaliya, Almaniya, Hollandiya, Rusiya və Qazaxıstana ixrac olunur. Gələcəkdə fındıq və şirə əsasən ABŞ-a və Kanadaya ixrac ediləcəkdir.*

*Dövlətimizin başçısı yaradılan şəraiti yüksək qiymətləndirərək, Azərbaycanda qeyri-neft sektorunun inkişafının bariz göstəricisi olan bu cür müəssisələrin ölkəmizin iqtisadiyyatının inkişafına mühüm töhfə verdiyini bildirdi, insanların işlə təmin olunmasında, Azərbaycanın istehsal potensialının artırılmasında belə zavodların fəaliyyətinin əhəmiyyətini vurğuladı.*

## Balakən yem istehsalı zavodunda

*Sentyabrın 19-da Balakən yem istehsalı zavodu istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*«Azəryemsənaye» MMC-nin bu zavodunun tikintisinə 2007-ci ilin mayında başlanılmışdır. Türkiyədə istehsal olunmuş avadanlığın quraşdırıldığı zavodda istehsal və emal prosesi tam kompyuterləşdirilmiş müəssisədə 60 nəfər işlə təmin olunmuşdur.*

*Prezident İlham Əliyev müəssisənin ayrı-ayrı sexlərini gəzərək müvafiq tapşırıqlarını verdi.*

## ZAQATALADA DAXİLİ QOŞUNLARIN «N» SAYLI HƏRBİ HİSSƏSİNİN YENİ BİNASININ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 sentyabr 2008-ci il*

*Sentyabrın 19-da Azərbaycan prezidenti İlham Əliyev Balakən rayonuna səfərini başa çatdıraraq Zaqatalaya gəlmişdir.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Zaqatala rayonu ərazisindəki «N» saylı hərbi hissəsinin yeni binasının tikintisi ilə tanış oldu.*

### Heydər Əliyev parkı ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 19-da Zaqatala şəhərinin Qaladüzü ərazisində yerləşən və ulu öndər Heydər Əliyevin adını daşıyan park ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı parkın baş planına və fəvvarələrə baxdı. Məlumat verildi ki, 1947-ci ildə salınmış parkda Dövlət Neft Şirkətinin vəsaiti ilə və daxili imkanlar hesabına yenidənqurma və abadlıq işləri aparılmışdır. Parkın mərkəzi hissəsində ulu öndər Heydər Əliyevin əzəmətli abidə kompleksi ucaldılmışdır.*

*Ərazisi 13 hektar olan parkda 27 növdən çox ağac, dekorativ gül kolları əkilmiş, biri musiqili olan iki fəvvarə, karusellər quraşdırılmışdır. Parkın ərazisində Heydər Əliyev Muzeyi, müasir üslubda xidmət obyektləri yerləşir. Girişdə geniş alaqapı tikilmişdir. Parkda və xidmət obyektlərində 50 nəfər işlə təmin olunmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular.*

## Heydər Əliyev Muzeyinin açılışı

*Prezident İlham Əliyev sentyabrın 19-da Zaqatalada Heydər Əliyev Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi. Ulu öndərin adını daşıyan parkda yerləşən Heydər Əliyev Muzeyinin tikintisinə 2006-cı ildə başlanılmışdır. Binanın ümumi sahəsi 348,5 kvadratmetr, ekspozisiya salonunun sahəsi isə 294 kvadratmetrdir. Salonda ümummilli liderin qranitdən yonulmuş büstü qoyulmuşdur.*

*Prezident İlham Əliyev muzeyin 18 bölmədən ibarət ekspozisiyası ilə tanış oldu. «Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini dünyaya nümayiş etdirirlər», «Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və qiymətləndirmək lazımdır», «Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq», «Neft Azərbaycan xalqının milli sərvətidir», «Biz tarixi köklərimizlə, mənəvi dəyərlərimizlə, milli ənənələrimizlə fəxr edə bilərik» və digər mövzuda bölmələrdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid çoxsaylı fotoşəkillər, kitablar və sənədlər nümayiş etdirilir.*

*Muzeyin fond otağında DVD avadanlığı, 7 ədəd kompyuter və böyük monitor quraşdırılmışdır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Akademik Zərifə Əliyeva adına parkın açılışı

*Sentyabrın 19-da Zaqatala şəhərində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan parkın açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkın açılışında iştirak etmişlər.*

*İki hektar ərazisi olan parkda tikinti işlərinə 2006-cı ildə başlanılmışdır. Burada çoxlu dekorativ ağac, gül və kollar əkilmişdir. İki fəvvarə, müasir işıqlandırma sistemi, yaraşıqlı oturacaqlar parka əlavə gözəllik verir. Konsert üçün açıq səhnə quraşdırılmışdır.*

*Parkın ərazisində ana və uşaqlar üçün kafe, yaşlıların asudə vaxtının səmərəli təşkili üçün mərkəz də yaradılmışdır. Gələcəkdə müxtəlif karusellər quraşdırılacaq, şou-əyləncə mərkəzi yaradılacaqdır.*

*Dövlətimizin başçısı və xanımı akademik Zərifə xanım Əliyevanın parkdakı büstü önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev parkda yaradılan şəraiti yüksək qiymətləndirdi və insanların asudə vaxtlarını səmərəli keçir-məsi, mədəni istirahəti üçün bu cür guşələrin zəruri olduğunu bildirdi.*

## Akademik Zərifə Əliyeva adına Qızlar liseyinin açılışı

*Sentyabrın 19-da Zaqatala şəhərində akademik Zərifə Əliyeva adina Qızlar liseyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyevi təhsil işçiləri, liseyin kollektivi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və liseylə tanış oldu. Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmiş 500 şagird yerlik lisey binasının təməli 2007-ci ildə qoyulmuşdur. İkimərtəbəli binanın ümumi sahəsi 5100 kvadratmetrdir. Burada 50 otaq, o cümlədən 9 sinif otağı, 15 fənn kabineti, kompyuter otağı, habelə akt və idman zalları vardır. Binanın həyatində idman meydançası da tikilmişdir. Binanın ayrıca qazanxanası, nasos stansiyası, iki su anbarı vardır.*

*Prezident İlham Əliyev liseyin kollektivini bu gözəl təhsil ocağının açılışı münasibətilə təbrik etdi.*

*Liseyin həm xarici, həm də daxili görünüşünün gözəl olduğunu bildirən dövlətimizin başçısı burada şagirdlərin yaxşı təhsil almaları üçün müasir şəraitin yaradıldığını söylədi.*

*Prezident İlham Əliyev liseyin kollektivi ilə xatirə şəkli çəkdirdi.*

## Prezident İlham Əliyev Zaqatala şəhər stadionunda olmuşdur

*Sentyabrın 19-da Zaqatala rayonunda şəhər stadionunun açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı stadionun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Çoxfunksiyalı stadion Zaqatala şəhərinin Qaladüzü ərazisində 2,3 hektar sahədə, tam yararsız vəziyyətə düşmüş keçmiş şəhər stadionunun yerində tikilmişdir.*

*Stadionun işçi layihə sənədləri «General Constructions» şirkətinin sifarişi ilə Bolqarıstanın «Dynamic Resouce» şirkətinin mütəxəssisləri tərəfindən hazırlanmışdır. İnşaat işləri Baş podratçı Xəzər Gənclərin Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən yüksək səviyyədə yerinə yetirilmişdir.*

*Yerli və xarici subpodratçı şirkətlərin də iştirak etdikləri tikinti işlərinə 2006-cı ildə başlanılmış və 2008-ci ilin avqustunda başa çatdırılmışdır. Kompleksin tikintisinə 10 milyon manat vəsait xərclənmişdir. Çox da böyük olmayan ərazidə UEFA-nın tələblərinə uyğun olaraq, beynəlxalq səviyyəli oyunların keçirilməsi üçün 3500 yerlik, o cümlədən xüsusi qonaqlar üçün 181 yerlik birtərəfli tribunalar, ölçüləri 105x68 metr olan süni örtüklü əsas oyun, təbii örtüklü məşq meydançaları, müasir işıqlandırma qurğuları, elektron suvarma sistemləri, drenaj, yüngül atletika üçün qaçış yolları, elektron məlumat tablosu, əlillər üçün rampa və sanitariya qovşağı, biletlərin satış kassaları və yanğınsöndürmə maşınları üçün*

*meydança, 300 kubmetrlik ehtiyat su anbarı, nasosxana və fərdi qazanxana tikilib istifadəyə verilmişdir.*

*Tikintidə ABŞ, İngiltərə, Almaniya, Yaponiya, Hollandiya, Türkiyə, İtaliya və digər ölkələrdən gətirilmiş tikinti materiallarından, avadanlıq və qurğulardan istifadə olunmuşdur.*

*Kompleksin birinci mərtəbəsi yalnız komandalar, həkimlər və məşqçilər üçün nəzərdə tutulmuşdur. Burada hər bir komanda üçün soyunub-geyinmə otaqları, sanitariya qovşaqları, masaj, həkim otaqları, dopinq laboratoriyası və jurnalistlər üçün otaq vardır. İkinci mərtəbədə internet-kafe, bar, xüsusi qonaqlar üçün kafe, üçüncü mərtəbədə isə jurnalistlər üçün lojalar, şərhçi otaqları yerləşir.*

*Prezident İlham Əliyev stadionla tanış oldu, futbol üzrə respublika çempionatında çıxış edən Zaqatalanın «Simurq» komandasının oyunçularını stadionun açılışı münasibətilə təbrik edərək onlara qələbələr arzuladı.*

## ZAQATALA HAVA LİMANININ AÇILIŞI

*19 sentyabr 2008-ci il*

*Sentyabrın 19-da Zaqatala hava limanının təntənəli açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşan aviatorlar və rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə hava limanı ilə tanış oldu. «Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov məlumat verdi ki, hava limanının tikintisinə dövlətimizin başçısının 2006-cı ildə bölgəyə səfərindən sonra başlanılmışdır. Şəhərdən 5 kilometr cənubda yerləşən hava limanının ümumi sahəsi 70 hektardan çoxdur. Müasir üslubda inşa edilən və ümumi sahəsi 3600 kvadratmetr olan dördmərtəbəli aerovağzal binasının birinci mərtəbəsində gözləmə salonu, sərnişinlərin qəbul otağı, ana və uşaq otağı, konfrans salonu, ikinci mərtəbədə isə inzibati otaqlar yerləşir. Binanın üçüncü mərtəbəsində texniki avadanlıq quraşdırılmışdır. Son mərtəbədə isə uçuşları idarəetmə qülləsi yerləşir. Aerovağzal binası birinci dərəcəlidir və saatda 100–120 sərnişinə xidmət göstərmək imkanı var. Burada sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılmış, 120 nəfər işlə təmin olunmuşdur.*

*Hava limanının ərazisində nəzarət-buraxılış məntəqəsi, transformator, yardımçı stansiya, yanğınsöndürmə binası, su anbarı, qazanxana və digər tikililər də inşa edilmişdir. Uçuş-enmə zolağının uzunluğu 2200 metrdir.*

*Dövlət vəsaiti hesabına inşa edilən Zaqatala hava limanının tikintisini «AZVİRT» MMC və Türkiyənin «ZEMA» şirkətinin inşaatçıları həyata keçirmişlər. Tikinti işlərinin qızğın çağında burada 500-dən çox adam çalışmışdır. Hava limanı Fransada*

*istehsal olunmuş ATR-42 və ATR-72 tipli sərnişin təyyarələrini, habelə kiçik tutumlu «Qolfstrim» təyyarələrini qəbul edəcəkdir. Zərurət yaranarsa, daha iri sərnişin və yük təyyarələrini də qəbul edə biləcəkdir.*

*Prezident İlham Əliyev aerovağzal binası, nəzarət-buraxılış məntəqəsi ilə tanış oldu, uçuş-enmə zolağına baxdı.*

*Aeroportun açılışı münasibətilə bir ATR tipli yeni təyyarə hava limanına endi. Dövlətimizin başçısı və xanımı təyyarəyə qalxaraq, onun salonuna baxdılar.*

*Sonra hava limanının açılışı münasibətilə mərasim keçirildi.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Bu gün çox əlamətdar və tarixi bir gündür. Zaqatalada yeni, gözəl aeroport istifadəyə verilir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Xatırlayıram, bir müddət əvvəl yeni aeroportun tikilməsi haqqında qərar veriləndə çox arzulayırdıq ki, aeroport ən gözəl, ən müasir standartlara cavab versin və sərnişinlər üçün çox gözəl şərait yaradılsın. Şadam ki, bu gün aeroportla tanış olarkən gördüm ki, burada həm müasir standartlar, həm də ən gözəl şərait var. Əminəm ki, bu aeroportun fəaliyyəti zaqatalalılar üçün böyük hadisə olacaqdır.

Bütövlükdə, Azərbaycanda nəqliyyat sektoruna çox böyük diqqət göstərilir. Mülki aviasiyanın inkişafı üçün əməli-praktiki addımlar atılır. Son illər ərzində xarici istehsal olan, xüsusilə ABŞ və Fransa istehsalı olan 12 ədəd Boinq, Airbus və ATR təyyarələri alınmışdır. Onlar Azərbaycanda mülki aviasiyanın inkişafı üçün çox mühüm rol oynayır. Bu yaxınlarda imzalanmış müqavilələr əsasında daha 8 təyyarə alınacaqdır. Ən son model olan Boinq-787 təyyarələri də gətiriləcək. Dünyada ən qabaqcıl texnologiyalar Azərbaycanda tətbiq olunur və

olunmalıdır. Ölkəmiz çox sürətlə inkişaf edir və biz bütün infrastruktur layihələrimizi bu inkişafa uyğunlaşdırmalıyıq.

Nəinki aviasiya sahəsində, bütövlükdə nəqliyyat sektorunun inkişafı üçün başqa tədbirlər də görülür. Xəzər dəniz gəmiçiliyinin inkişafı üçün yeni tankerlər alınır, dəmir yolları bərpa olunur. Biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlamışıq. Bu, Azərbaycanı dəmir yolu vasitəsilə Avropa ilə, Asiyanı Azərbaycan vasitəsilə Avropa ilə birləşdirəcək və ölkəmizin nəqliyyat imkanları artacaqdır. Azərbaycan coğrafi yerləşməsinə görə Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayır. Biz bu təbii körpünü infrastruktur layihələri ilə zənginləşdiririk. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi və istismara verilməsi həm böyük iqtisadi maraqları təmin edəcək, həm də bizim siyasi maraqlarımız tam şəkildə təmin olunacaqdır.

Avtomobil yolları tikilir. Bakıdan Zaqatalaya və Balakənə qədər yeni avtomobil yolunun tikintisi layihəsi var və yolun bir neçə hissəsi tikilməyə başlanmışdır. Bu da çox böyük rahatlıq yaradacaqdır. Yəni bir sözlə, bu gün nəqliyyat sektorunun inkişafına verilən diqqət və ayrılan vəsait artıq Azərbaycanı çox güclü və önəmli nəqliyyat məntəqəsinə çeviribdir.

Asiya ilə Avropa arasında böyük həcmdə yükdaşımalarının təmin edilməsi üçün Bakı beynəlxalq aeroportundan istifadə olunur. Orada böyük yük terminalı tikilibdir. Bu, Azərbaycana əlavə gəlirlər gətirir. Son illər ərzində ölkəmizin müxtəlif şəhərlərində yeni aeroportlar tikilibdir.

Bu gün Bakı, Naxçıvan, Gəncə, Zaqatala aeroportları fəaliyyətdədir. Bu yaxınlarda Lənkəran aeroportu da fəaliyyətə başlayacaqdır. Beləliklə, bu istiqamətdə nəzərdə tutulmuş bütün proqramlar və planlar vaxtlı-vaxtında icra olunur.

Yeni aeroportun tikilməsi Zaqatala rayonu və bütövlükdə bu bölgə üçün əlavə imkanlar açır. Çünki bu bölgədə turizm imkanları çox genişdir. Çox gözəl təbiət, gözəl şərait var. Nəqliyyat məsələləri də həll olunduğu halda, turizmin inkişafı daha da sürətlə gedəcəkdir. Turistlərin sayı artacaq, bölgədə

yaşayan insanlar Azərbaycanın başqa şəhərləri ilə çox gözəl əlaqə yaradacaqlar. Bunları biz ona görə edirik ki, həm ölkəmizin imkanları artsın, həm də böyük infrastruktur layihələri icra olunsun.

Mən çox şadam ki, son illər bölgələrdə, o cümlədən Zaqatala rayonunda çox sürətli inkişaf gedir. İki il əvvəl biz sizinlə burada yeni olimpiya kompleksinin açılışında iştirak etdik. İndi gözəl stadion tikilibdir və onun açılışını etdik. Aeroportun açılışını edirik. Bir qədər sonra yeni Müalicə-Diaqnostika Mərkəzinin açılışını edəcəyik. Digər vacib məsələlər həll olunur, məktəblər tikilir, yeni parklar salınır, binalar bərpa olunur və Zaqatala çox gözəl şəhərə çevrilir. Həmişə gözəl şəhər idi. Amma siz yəqin razılaşarsınız ki, son illər burada aparılan böyük quruculuq-abadlıq işləri nəticəsində şəhər daha da gözəlləşib, infrastrukturu üçün bütün tədbirlər görülübdür. Bir daha demək istəyirəm ki, sənaye müəssisələrinin, sosial obyektlərin və aeroport kimi çox böyük və nəhəng obyektin tikilməsi bunun əyani sübutudur.

Azərbaycanın bütün bölgələrində sürətli inkişaf gedir. Bizim maddi imkanlarımız artır və istəyirik ki, bu imkanlardan səmərəli istifadə edək, Azərbaycan üçün vacib olan məsələlər öz həllini tapsın, bütün bölgələrdə inkişaf daha da sürətlə getsin. Deyə bilərəm ki, regional inkişaf proqramının icrası nəticəsində bütün bölgələrdə çox gözəl işlər görülür. Son 5 ildə 700 mindən çox yeni iş yeri açılmışdır. O cümlədən Zaqatala rayonunda yeni müəssisələr, fabriklər tikilib, iş yerlərinin açılması, yeni istehsal müəssisələrinin yaranması – bütün bunlar həm insanların rifah halının yaxşılaşmasına xidmət göstərir, həm də ölkəmizi gücləndirir. Azərbaycan iqtisadiyyatının, qeyri-neft sektorunun inkişafına xidmət göstərir. Bu istiqamətdə biz gələcəkdə də mühüm addımlar atacağıq ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəli olsun. Bu gün biz bunu görürük və demək olar ki, əsas kənd təsərrüfatı məhsulları ilə özümüzü maksimum dərəcədə təmin edirik, enerji baxımından özümüzü təmin edirik. Biz bu gün nəqliyyat infrastrukturunu təkmilləş-

dirməklə Azərbaycanı çox güclü nəqliyyat məntəqəsinə çeviririk.

Mən çox sevinirəm ki, bizim nəzərdə tutduğumuz bütün planlar, bütün layihələr vaxtlı-vaxtında və yüksək keyfiyyətlə icra olunur. Gələcək illər üçün bizim düşünülmüş proqramlarımız var, konkret addımlarımız olacaqdır. Son beş il ərzində iqtisadiyyat 2,7 dəfə artıbdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir.

Azərbaycanda olan inkişaf başqa heç bir ölkədə yoxdur. Son dörd il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan dünya miqyasında birinci ölkədir. Bir il deyil, iki il deyil, dörd il ərzində! Bu inkişafın dayanıqlı olması artıq faktdır. Bu inkişaf uzunmüddətli olacaqdır. Bu gün bizim başladığımız layihələr bir neçə ildən sonra öz bəhrəsini verəcəkdir.

Mən şübhə etmirəm ki, bütün görülən tədbirlər və gələcəkdə atılacaq addımlar nəticəsində Azərbaycan zəngin, qüdrətli, müasir dövlətə çevriləcəkdir. Biz bunun ilkin təzahürlərini görürük: həm bölgədəki mövqelərimiz, həm daxildə olan vəziyyət, həm sabitlik, həm inkişaf, həm insanların rifah halının yaxşılaşması və gözəl, müasir, çox böyük infrastruktur layihələrinin icrası məsələləri. Bu gözəl binanın timsalında biz bu gün Azərbaycanın uğurlu inkişafını görürük. Mən şübhə etmirəm ki, bütün bu amillər birlikdə bizim uğurumuzu daha da uzunmüddətli edəcəkdir. Bizim qarşımızda üfüqlər açıqdır. Biz düz yolla gedirik – bu yol inkişaf yoludur. Gələcək illərdə inkişaf templərini saxlamaq üçün bütün imkanlar var.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlamış və davam etdirilən neft strategiyası uzun illərdir ki, öz bəhrəsini verir. Azərbaycan heç kimdən asılı deyil, artan iqtisadi imkanlarımız bizə kifayətdir. Biz öz gələcək inkişaf strategiyamızı daxili resurslara əsaslanaraq icra edirik. Arxayınıq ki, daxili resurslarımız və aparılan iqtisadi islahatlar bizi öz məqsədimizə çatdıracaqdır. Bu islahatlar bundan sonra da aparılacaqdır.

İslahatların aparılması istiqamətində atılmış addımlar dünyanın ən böyük beynəlxalq maliyyə qurumları tərəfindən

dəstəklənir və qiymətləndirilir. Dünyanın ən birinci maliyyə qurumu olan Dünya Bankı bu yaxınlarda Azərbaycanı dünya miqyasında ən birinci islahatçı ölkə kimi tanıdı və bunu bəyan etdi. Yəni bütün bunları biz öz zəhmətimiz hesabına, Azərbaycanda aparılan cəsarətli islahatlar nəticəsində əldə edirik. Həm insanların həyat səviyyəsinin yaxşılaşması, həm iqtisadiyyatın şaxələndirilməsi, bütün bölgələrdə quruculuq-abadlıq işlərinin daha da sürətlə getməsi üçün əlavə tədbirlər görüləcəkdir. Nəticə etibarilə Azərbaycan xalqının daha da yaxşı yaşaması, Azərbaycan dövlətinin daha da möhkəmlənməsi məsələləri öz həllini tapır və tapacaqdır.

Mən bir daha qeyd etmək istəyirəm, bu gün çox şadam, çox sevinirəm ki, Zaqatalada belə gözəl aeroportun açılışında biz bərabər iştirak edirik. Mən şübhə etmirəm ki, gələcək illərdə sizin rayonunuzda belə gözəl tədbirlərin sayı çox olacaqdır. Hər dəfə sizinlə bir yerdə olmaq, sizinlə görüşmək mənim üçün çox xoşdur.

Əminəm ki, bu gün sizin üçün də çox əlamətdar bir gündür. Bu gün rayonun inkişafında yeni mərhələ başlayır. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülür və əlavə tədbirlər görüləcəkdir – istər praktik tədbirlər, istər maliyyə məsələlərinin həlli. Azərbaycanın ildən-ilə artan maliyyə imkanları və dövlət büdcəsi bizim bütün planlarımızı həyata keçirməyə imkan yaradır.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Sağ olun.

## Müalicə-Diaqnostika Mərkəzinin açılışı

*Sentyabrın 19-da Zaqatala şəhərində Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərkəzin girəcəyində bu səhiyyə ocağının dövlətimizin başçısının sərəncamı ilə tikildiyini bildirən lövhə vurulmuşdur.*

*Prezident İlham Əliyevi və xanımını mərkəzin kollektivi, səhiyyə işçiləri böyük hörmətlə qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*2006-cı ilin aprelində prezident İlham Əliyevin iştirakı ilə Zaqatala şəhərinin ən səfalı guşəsində təməli qoyulmuş müasir memarlıq üslubu ilə diqqəti cəlb edən bu səhiyyə ocağı Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmişdir. «İnşaat Aqroservis» MMC-nin həyata keçirdiyi tikinti işlərinə 500 nəfər cəlb edilmişdi.*

*Dördmərtəbəli binanın birinci mərtəbəsində qəbul, şüa-diaqnostika və hemodializ şöbələri, habelə yeməkxana yerləşir.*

*Prezident İlham Əliyev bu şöbələrlə və yeməkxana ilə tanış oldu. Bildirildi ki, şüa-diaqnostika şöbəsində Almaniyada istehsal olunmuş kompyuter tomoqrafiyası, rentgen-diaqnostika aparatları quraşdırılmışdır. Kəskin və xroniki böyrək çatışmazlığı olan xəstələr üçün nəzərdə tutulan hemodializ şöbəsində eyni vaxtda 8 xəstəyə yardım göstərmək mümkündür. İkinci mərtəbədə inzibati şöbə, habelə 20 çarpayılıq cərrahiyyə və konsultativ diaqnostik poliklinika şöbəsi yerləşir.*

*Binanın üçüncü mərtəbəsi 6 çarpayılıq anesteziologiya-reanimasiya şöbəsi və əməliyyat blokundan ibarətdir. Əməliyyat blokunda 4 operativ əməliyyat otağı yerləşir. Burada quraşdırılmış yüksək standartlara uyğun aparatların köməyi ilə ən mürəkkəb cərrahiyyə əməliyyatları aparmaq mümkündür.*

*Dördüncü mərtəbədəki 106 yerlik konfrans salonunda quraşdırılmış monitorun köməyi ilə mərkəzdə aparılan cərrahiyyə əməliyyatlarını birbaşa izləmək mümkün olacaqdır.*

*Tibb ocağında müasir standartlara cavab verən mərkəzləşdirilmiş istilik və havalandırma sistemləri, habelə iki ədəd*

*sürətli lift quraşdırılmışdır. Mərkəzin həyatində generator, 130 tonluq su hovuzu, nasosxana, qazanxana, çamaşırxana və digər tikililər yerləşir. Artezian quyusu da qazılmışdır.*

*Prezident İlham Əliyev ayrı-ayrı mərtəbələrdə yerləşən şöbələri, otaqları gəzdi, quraşdırılan avadanlıqlara baxdı, yaradılan şəraiti yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı mərkəzin kollektivini təbrik etdi, burada müalicə və müayinə üçün hər bir şəraitin yaradıldığını bildirdi. Binanın xarici görünüşünün də müasir olduğunu və şəhərə yaraşıq verdiyini vurğuladı.*

*Prezident İlham Əliyev mərkəzin kollektivi ilə xatirə şəkli çəkdirdi.*

## «Qafqaz» mehmanxanası istifadəyə verildi

*Sentyabrın 19-da Zaqatala şəhərinin mərkəzində «Qafqaz» mehmanxanası istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və mehmanxana ilə yaxından tanış oldu.*

*İnşası 2007-ci ildə başlanmış mehmanxana mansardla birlikdə beş mərtəbədən ibarətdir. Birinci mərtəbədə müxtəlif ticarət obyektləri fəaliyyət göstərir. Rayonda turizmin inkişafı nəzərə alınaraq, burada bank xidməti üçün geniş sahə ayrılmışdır. 80 yerlik mehmanxananın bir və ikinəfərlik 43 otağının hamısı eyvanlıdır. Müasir standartlara cavab verən otaqlarda bütün lazımi şərait yaradılmışdır. Peyk antenası vasitəsilə 200-dək televiziya kanalını izləmək, habelə internetdən istifadə etmək mümkündür.*

*Binada mərkəzləşdirilmiş istilik və havalandırma sistemi quraşdırılmışdır, gecə-gündüz isti və soyuq su verilir. Ehtiyat elektrik generatoru da vardır.*

*Mansardda yerləşən restoranda qonaqlara həm milli yeməklər, həm də Avropa mətbəxinin nümunələri təklif olunur.*

*Gələcəkdə həyətdə istirahət guşəsinin yaradılması, fəvvarələrin quraşdırılması, yay mehmanxanası, sauna tikmək də nəzərdə tutulur.*

*Prezident İlham Əliyev ayrı-ayrı otaqlara baxdı, yaradılan şəraiti yüksək qiymətləndirdi.*

# QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ

*19 sentyabr 2008-ci il*

*Sentyabrın 19-da Zaqatala şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli dördmərtəbəli yaşayış binası istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət vəsaiti hesabına inşa edilən binanın ümumi yaşayış sahəsi 2668 kvadratmetrdir. Mənzillərin hamısı ikiotaqlıdır. Dövlətimizin başçısının adından bütün mənzillərə qonaq və yataq otaqları, habelə mətbəx üçün mebel dəstləri, soyuducu, televizor hədiyyə olunmuşdur. Birinci mərtəbədəki mənzillər əlillərin rahatlığı üçün xüsusi avadanlıqlarla, qurğularla təchiz edilmişdir.*

*Prezident İlham Əliyev mənzillərin orderlərini sahiblərinə təqdim etdi.*

**A q i l  Ə h m ə d o v** *(Birinci qrup Qarabağ müharibəsi əlili)*: Hörmətli cənab Prezident!

Sizə bütün şəhid ailələri, müharibə veteranları və Qarabağ müharibəsi əlilləri adından dərin təşəkkürümüzü bildirirəm. Biz indiyə qədər tam şəraitsiz bir evdə yaşamışıq. İndi isə Sizin sayənizdə belə gözəl mənzilə sahib olmuşuq. Mən birinci qrup Qarabağ müharibəsi əliliyəm. Düşmən arxasında xüsusi döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanaraq, əsir düşmüşdüm. Əsirlik zamanı bütün məşəqqətə tablaşmağımın səbəbi isə Vətənimə, atama, anama, yaxınlarıma olan sevgim və dövlətimizin, xüsusən ulu öndərimiz, dahi insan, ümummilli liderimiz Heydər Əliyevin məni darda qoymayacağına ürəkdən inamım idi. Doğrudan da belə oldu. O dahi insan, müdrik

şəxsiyyət məni erməni əsirliyindən Vətənimə, doğmalarımın yanına qaytardı. Mən bu gün buna görə çox xoşbəxtəm. Mənim kimi insanları həyata qaytaran ulu öndərin ruhu qarşısında baş əyirəm. O insan bizim ürəyimizdə, qəlbimizdə daim yaşayacaqdır. Mən xoşbəxtəm ki, Azərbaycan kimi bir dövlətin vətəndaşıyam.

Cənab Prezident, icazə verin, bizə göstərdiyiniz diqqət və qayğıya görə, rayonumuzun Qarabağ müharibəsi əlilləri, müharibə veteranları və şəhid ailələri adından Sizə bir daha öz dərin minnətdarlığımı bildirim və ailəmizin ən xoş arzu- diləklərini və istəklərini çatdıraraq Sizə «Çox sağ olun!» deyim.

Möhtərəm cənab Prezident!

Ailəmizin bir istəyi də ondan ibarətdir ki, mənə hədiyyə etdiyiniz bu gözəl mənzilə ilk xoş qədəminizi Siz qoyasınız və xeyir-dua verəsiniz.

Cənab Prezident, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də bu gözəl binanın açılışı və istismara verilməsi münasibətilə sizi ürəkdən təbrik edirəm. Siz buna layiqsiniz. Qarabağ əlilləri, müharibə veteranları, şəhid ailələri böyük diqqətə layiqdirlər. Azərbaycan dövləti əlindən gələni edir və edəcəkdir ki, sizin həyat səviyyənizı yaxşılaşdırsın. Sizin bütün məişət problemləriniz həll edilməlidir, bütün işlər yüksək səviyyədə olmalıdır, gözəl evlər olmalıdır. Belə evlərin tikintisi Azərbaycanda çox geniş vüsət almışdır. Demək olar ki, ölkəmizin bütün bölgələrində belə gözəl binalar tikilir, onların keyfiyyəti də yaxşıdır. Əminəm ki, siz burada yaxşı yaşayacaqsınız, xoşbəxt yaşayacaqsınız. Bir də demək istəyirəm ki, siz buna layiqsiniz, siz vətən uğrunda döyüşmüsünüz, yaralanmısınız, şəhid vermisiniz. Sizin qəhrəmanlığınız Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilir və qiymətləndiriləcəkdir.

Mən şübhə etmirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini daha da möhkəmləndirəcək, ərazi bütövlüyünü bərpa edəcəkdir. Bildiyiniz kimi, biz danışıqlarda iştirak edirik, amma bununla bərabər, öz hərbi hazırlığımızı da möhkəmləndiririk. Son illər

ərzində ordu quruculuğuna ayrılan vəsait və göstərilən diqqət ona gətirib çıxarıb ki, Azərbaycan ordusu indi bu bölgədə ən güclü ordudur. Həm peşəkarlıq baxımından, həm də avadanlıq, hərbi sursat, texnika ilə təchizat baxımından. Biz istənilən yolla öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad edəcəyik. Sadəcə, biz istəmirik ki, yenidən qan tökülsün. İstəmirik ki, yenidən müharibə başlasın. Amma bununla bərabər, torpaqlarımızın itirilməsi ilə də heç vaxt barışmayacağıq. Haqq-ədalət bizim tərəfimizdədir.

Ermənistan bütün dünya ictimaiyyəti tərəfindən işğalçı dövlət kimi tanınır. Azərbaycanın isə haqlı olduğu bütün beynəlxalq təşkilatlar tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri, Baş Məclisinin qərarları, digər beynəlxalq təşkilatların qərarları bunun əyani sübutudur. Yəni haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Bölgədə yaranmış siyasi vəziyyət bizim üçün daha əlverişlidir və əlbəttə ki, iqtisadi və hərbi potensial Azərbaycanın xeyrinədir. Bütün bunlara biz özümüz nail olmuşuq. Öz gücümüzə istinad edərək, öz potensialımızı işə salaraq buna nail olmuşuq. Mən şübhə etmirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bildiyiniz kimi, bu yaxınlarda Gürcüstanda baş vermiş hadisələrlə bağlı həm Qərbdə, həm Rusiyada, həm də başqa dövlətlərdə ölkələrin ərazi bütövlüyü məsələləri ilə əlaqədar çoxsaylı bəyanatlar verilmişdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə aid olan bəyanatlar bizi tam qane edir. Yəni həm Qərb dövlətləri, həm qonşu dövlətlər, həm də beynəlxalq təşkilatlar birmənalı olaraq qeyd edirlər və bəyan edirlər ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Yəni bu, ən vacib, ən əsas məsələdir. Bu mövqe, təbii ki, beynəlxalq hüquq normalarına əsaslanır. Ancaq biz görürük ki, dünyada və bölgədə gedən proseslər bəzi hallarda beynəlxalq hüquq normalarından kənara çıxır. Ancaq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq

hüquq normalarının tətbiq olunması, bütün dünya ictimaiyyətinin bu vəziyyətdə bir daha bunu təsdiq etməsi, hesab edirəm ki, çox vacib məsələdir. Biz bundan sonra da öz iqtisadi və hərbi gücümüzü artıracağıq.

Bu günlərdə 2009-cu ilin dövlət büdcəsi artıq formalaşıb və büdcənin ilkin parametrləri mənə təqdim edilibdir. Mən xüsusi qeyd etmişəm ki, gələn ilin büdcəsində sosial problemlərin həlli ilə yanaşı, müdafiə xərclərinin artırılmasını təmin etməliyik və biz buna nail olacağıq. Azərbaycanın artan iqtisadi imkanları, uğurlu iqtisadi siyasətimiz, islahatlar bizə belə imkanı yaradıbdır.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan ən ağır, ən çətin şəraitdə olanda da, biz heç kimdən heç bir yardım almamışıq. Bizim torpaqlarımız işğalçı qüvvələr tərəfindən zəbt olunanda, 1 milyon azərbaycanlı qaçqın, köçkün vəziyyətinə düşəndə heç kim gəlib bizə kömək etməmişdi. Biz ancaq öz gücümüzə arxalanmışıq. Öz gücümüzə bütün çadır şəhərciklərini ləğv etdik və gözəl qəsəbələr tikdik. Düzdür, o da müvəqqəti məskunlaşmadır. Ancaq bu müvəqqəti məskunlaşma yeri artıq yaxşı səviyyədə tikilibdir. Orada müvəqqəti yaşayan insanlar üçün lazımi şərait təmin olunur.

Ona görə mən bir daha demək istəyirəm, Azərbaycan dövlətinin siyasəti bundan ibarətdir ki, biz öz gücümüzə arxalanmalıyıq. Azərbaycan xalqının iradəsinə güvənməliyik. Azərbaycan xalqının iradəsi və məni dəstəkləməsi prezident kimi, mənim üçün əsas güc mənbəyidir. Baxmayaraq ki, uzun illər ərzində torpaqlarımız işğal altındadır, Azərbaycanın ərazi bütövlüyü pozulub, ancaq biz uğurla inkişaf edirik, ölkəmizi irəliyə aparırıq.

Əminəm ki, torpaqlarımızı azad etdikdən sonra daha da böyük işlər görüləcəkdir. Bu gün dağıdılmış vəziyyətdə olan, işğal altında olan rayonlar abadlaşacaq, çiçəklənəcək, oraya qayıdacaq bizim soydaşlarımız da öz töhfələrini verəcəklər. Əlbəttə ki, Azərbaycan dövlətinin artan maliyyə imkanları

tezliklə bütün dağıdılmış şəhərlərimizin bərpası üçün şərait yaradacaqdır.

Sizə isə mən bundan sonra da belə fəal olmağı arzulayıram. Siz gənc nəsil üçün örnəksiniz, nümunəsiniz. Siz qəhrəmansınız, qəhrəmanlıq göstərmisiniz. Döyüş meydanında, Azərbaycanın ərazi bütövlüyü uğrunda, müstəqilliyimizin möhkəmlənməsi uğrunda böyük fədakarlıq göstərmisiniz. Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti sizin problemlərinizin həlli üçün bundan sonra da öz səylərini göstərəcəkdir.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm, əmin edirəm ki, siz burada xoşbəxt yaşayacaqsınız.

* * *

*Sonra prezident İlham Əliyev I qrup Qarabağ müharibəsi əlili Aqil Əhmədovun mənzilinə baxdı, yaşayış şəraiti ilə tanış oldu.*

## Tütün istehsalı və emalı müəssisəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Zaqatala rayonunda «İnter-Tobacco» MMC-nin tütün istehsalı və emalı müəssisəsində olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisədə Bolqarıstanın «Ronis» şirkətinin istehsalı olan 60 ədəd tütünqurutma kamerası və 4 ədəd şitilxana quraşdırılmışdır. Şitilxanaların hər biri 55 hektar əkin sahəsini ətirli «Virciniya» sortlu tütün şitili ilə təmin edə bilir.*

*Yığılmış tütün yarpağı sahələrdən birbaşa zavoda gətirilir və qurudulma kameralarına yerləşdirilir. Hər kamera bir dəfəyə 8,5-9 ton yaş tütün qəbul edir. Tütünün qurudulması prosesi 7–9 gün çəkir. Sonra quru tütündən tay bağlanır və növlər üzrə anbarlara yığılır.*

*Müəssisə fermerlərdən əsasən «Virciniya», habelə açıq şəraitdə qurudulmuş «Berley» tütün sortları qəbul edir. 2008-ci ildə «İnter Tobacco» MMC-nin xətti ilə Zaqatala, Qax və Şəki rayonlarında 450 hektar sahədə «Virciniya» sortlu tütün əkilmişdir. İndiyədək sahələrdən 2300 ton tütün yarpağı yığılmışdır.*

*Müəssisədə 60 nəfər daimi, 120 nəfər mövsümi işçi çalışır. Orta aylıq maaş 140–200 manatdır. İşçilərə nahar fasiləsində pulsuz yemək verilir. 2008-ci ildə müəssisə ABŞ istehsalı olan 14 ədəd yük maşını, 2 ədəd şitilbasdıran aqreqat, 2 ədəd tütünyığan kombayn, 2 ədəd traktor və digər yeni texnika almışdır.*

*Prezident İlham Əliyev müəssisənin ərazisini gəzdi, tütünyığan texnika, qurutma kameraları, şitilxanalarla tanış oldu.*

*Dövlətimizin başçısı bu tipli müəssisənin yaradılmasının əhəmiyyətini vurğuladı və ölkəmizin məhsullarının xarici bazara çıxarılması üçün gələcəkdə də qeyri-neft sektorunun inkişafına diqqət və qayğı göstəriləcəyini bildirdi.*

# QAX ŞƏHƏR PARKINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

*19 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Zaqataladan Qax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə 20 Yanvar və Azərbaycan küçələrinin kəsişməsində yerləşən şəhər parkına gəldilər.*

*Əvvəllər veteranlar parkı kimi tanınan bu ərazinin sahəsi 1 hektardır. Bu ilin əvvəlindən burada əsaslı təmir və yenidənqurma işləri aparılmış, parkın mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi qoyulmuşdur. Abidənin müəllifi heykəltəraş Akif Əsgərovdur. Ətrafda hər biri üç hissədən ibarət olan iki fəvvarə quraşdırılmışdır.*

*Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılmış, yeni oturacaqlar qoyulmuşdur. Səkkiz mindən çox dekorativ ağac, gül və kol əkilmiş, çəmənlik salınmışdır. Müasir səviyyəli yeni işıqlandırma sistemi gecələr buraya xüsusi yaraşıq verir. Parkın ərazisində milli memarlıq üslubunda veteranlar evi də tikilmişdir.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin abidəsinin üzərindən ağ örtüyü götürdü. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

*Parkda görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdi.*

**Əli Babayev** (Qax *Rayon Veteranlar Şurasının sədri*): Hörmətli cənab Prezident!

Xoş gəlib, səfa gətirmisiniz!

Mehriban xanım, xoş gəlib, səfa gətirmisiniz!

Bütün qonaqlar xoş gəliblər!

Hörmətli Prezident, biz üçüncü dəfədir görüşürük. Birinci dəfə Mehriban xanım dəvət etmişdi, Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi ilə əlaqədar Heydər Əliyev Fondunda keçirilən tədbirdə görüşmüşdük. O vaxt bizi çox təntənə ilə yola saldınız. Onu heç vaxt unutmuram. İkinci dəfə 2006-cı il aprelin 12-də ümummilli lider Heydər Əliyevin heykəlinin qarşısında görüşmüşük. Bu da üçüncü görüşümüzdür. Arzum budur ki, biz daim görüşək.

Hörmətli İlham müəllim, bir veteran kimi, bir Azərbaycan vətəndaşı kimi, mən çox sevinirəm ki, Sizin rəhbərliyinizlə və təşkilatçılığınızla respublikada, Bakıda, bütün rayonlarda böyük işlər görülür. O cümlədən, respublikamızın ən kiçik rayonlarından olan Qaxda son vaxtlar geniş yenidənqurma işləri gedir, bunların hamısını görəcəksiniz. Veteranlar evi və Heydər Əliyev Muzeyi yeni tikilmişdir. Veteranlar evi əvvəldən var idi, ancaq yaxşı deyildi, yenidən tikdilər. Çox sağ olsunlar.

Siz həm camaatın qeydinə çox əla qalırsınız, həm də abadlıq işlərinə xüsusi diqqət yetirirsiniz. Çox sağ olun, həmişə var olun.

**İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, Qax rayonunda işlər yaxşı gedir. Siz qeyd etdiniz, mən iki il bundan əvvəl gəlmişdim. İndi yenidən gəlmişəm. Bilirəm ki, çoxlu dəyişikliklər var. Yəqin ki, siz də bunların hamısını görürsünüz. Son bir neçə ay ərzində böyük dəyişikliklər baş veribdir. Mən çox şadam ki, burada belə gözəl abadlıq, quruculuq işləri aparılır, insanların yaxşı yaşaması üçün bütün şərait yaradılır. Mən əminəm ki, gələcək illərdə də işlər bu sürətlə davam edəcəkdir və Qax Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevriləcəkdir. Bunun üçün bütün imkanlar var. Gözəl təbiəti var, burada çox zəhmətkeş insanlar yaşayır. Həm kənd təsərrüfatının, həm də turizmin inkişafı üçün böyük potensial var. İndi Bakı–Balakən avtomobil yolunun tikintisinə başlamışıq. Bu da gözəl, çox müasir yol olacaqdır.

Bu gün mən Zaqatalada beynəlxalq aeroportun açılışında iştirak etdim. Yəni bütün bunlar bu zonanın inkişafı üçün çox vacib amillərdir. Beynəlxalq aeroportun istismara verilməsi o deməkdir ki, həm Bakıdan, həm Azərbaycanın başqa şəhərlərindən, həm də xarici ölkələrdən turistlər gələcəklər. Bunun üçün burada gözəl şərait olmalıdır. Təbii şərait var. Ancaq biz elə etməliyik ki, həm gözəllik, həm rahatlıq, həm də ən müasir standartlar baxımından Qax rayonunda və bütün ətraf rayonlarda çox yaxşı imkanlar olsun. Bax, Qaxın timsalında biz görürük ki, qısa müddət ərzində çox iş görmək olar. Əgər iradə varsa, düzgün qərarlar qəbul olunursa və əlbəttə ki, bütün fəallar bu işlərdə iştirak edirsə, istənilən məsələni həll etmək mümkündür. İndi Azərbaycanın inkişafı elədir ki, istənilən məsələ öz həllini tapır. Bütün ölkədə belə gözəl parklar, yollar, aeroportlar, xəstəxanalar, məktəblər, idman qurğuları tikilir. Bütün bunlar Qaxda da olmalıdır və olacaqdır.

Mənim yadımdadır, keçən dəfə burada olanda «Uludağ» turizm mərkəzinə baş çəkmişdim. İndi belə yerlər çox olmalıdır və çox yaxşı olar ki, belə turizm yerləri yüksək səviyyədə olsun. Yuksək səviyyədə olsa, dünyanın istənilən yerindən buraya turistlər gələcəklər. Çünki belə təbiət az yerlərdə var. Mən dünyanı görmüşəm, çox ölkələrdə olmuşam. Çox nadir hallarda belə gözəl təbiət, təbii iqlim, hava – yəni turizmin inkişafı üçün lazım olan bütün şərait vardır. Siz Azərbaycanın ən gözəl guşələrinin birində yaşayırsınız. Mən çox istəyirəm ki, burada insanların yaşaması üçün bütün şərait olsun. Azərbaycanın inkişafı hərtərəfli və güclü olsun.

Bilirsiniz ki, indi Azərbaycan iqtisadi artım sürətinə görə dünyada birinci ölkədir. Özü də bir il deyil, dörd il ardıcıllıqla. Buna nail olmaq elə də asan məsələ deyildir. Dünyada 200-dən çox ölkə var, inkişaf etmiş, inkişaf etməmiş, orta səviyyəli ölkələr var. Amma bütün bu ölkələr arasında birinci olmaq, özü də dörd il ardıcıllıqla – bu çox böyük bir nailiyyətdir. Əlbəttə, bunlar statistik rəqəmlərdir. Amma bu statistik rəqəmlər insanların gündəlik həyatında da öz əksini tapır. Baxın, artan

maddi imkanlar nəyə gətirib çıxarıbdır?! Pensiyalar artır, maaşlar artır, minimum əməkhaqqı artır. Düzdür, biz istəyirik ki, daha da böyük sürətlə artsın. Hələ ki, bu minimum təminat bizi qane edə bilməz. Bu da həqiqətdir. Əgər dinamikaya baxsaq görərik ki, son 5 il ərzində dövlət xərcləri təxminən 8-10 dəfə artıbdır. Azərbaycan xalqı dinc şəraitdə yaşayır. Azərbaycanda təhlükəsizlik var, sabitlik var, insanlar çox yaxşı yaşayırlar, bu da hər bir ölkənin inkişafını şərtləndirən əsas amillərdən biridir. Azərbaycanda bütün millətlər bir ailə kimi yaşayırlar. Azərbaycan çoxmillətli ölkədir, o cümlədən Qax rayonunda müxtəlif millətlərin nümayəndələri yaşayırlar. Bir ailə kimi yaşayırlar, heç bir ayrı-seçkilik, necə deyərlər, anlaşılmazlıq yoxdur. Həm dövlət siyasəti belədir, həm də Azərbaycan xalqının qəlbi təmizdir. Azərbaycan xalqı həmişə başqa xalqlarla mehribanlıq şəraitində yaşamışdır. Bütün Azərbaycan vətəndaşları bir ailə kimi yaşayır. Bu da çox vacibdir. Elə ölkələr var ki, orada başqa millətdən bir nəfər də yoxdur. Fakt – bizim qonşuluğumuzdakı Ermənistan monodövlətdir. Orada heç bir başqa millət yaşamır. Amma Azərbaycanda bütün millətlər yaxşı yaşayır. Bizim gördüyümüz işlər – bu inkişaf, abadlıq, quruculuq işləri Azərbaycanda yaşayan bütün millətlər üçündür. Bax, belədir bizim nəticələrimiz. Gələcəkdə də görüləsi çox işlər var və biz hamımız bu işlərdə çox fəal olmalıyıq. Həm dövlət, mənim bölgələrdəki nümayəndələrim, həm də rayonların fəalları. Mən burada gəncləri də görürəm, gənclər də fəal olmalıdırlar, digərləri də.

**Ş ə k ə r  A b d u l l a y e v a** (Qax *şəhər 2 nömrəli məktəb-liseyin direktoru*): Cənab Prezident!

Respublikamızın bu gözəl guşəsində Sizi görməyimizə çox şadıq. Qaxlılar Sizi çox böyük intizarla, səbirsizliklə gözləyirdilər. Sizin keçəndəfəki gəlişinizdən sonra, doğrudan da Qaxımız əsl mənada dəyişibdir. Bizim mahnımızda deyilir ki, «Bir də dön Qaxa bax». Doğrudan da, Qax indi elədir ki, Siz bir dəfə baxmaqla doymayacaqsınız. Gərək bir neçə dəfə Qaxa baxaq. Sizin dediyiniz kimi, gələcəkdə Qax bütün Azərbaycanda ən gözəl rayonlardan birinə çevriləcəkdir.

Sizin və Mehriban xanımın Qax camaatına göstərdiyiniz qayğını biz çox yüksək qiymətləndiririk. Mən 45 ildən artıqdır müəllimə işləyirəm, 40 ildir məktəb direktoruyam. İşlədiyim bu illər ərzində Azərbaycanda heç vaxt indiki qədər sürətli inkişaf, təhsilə belə qayğı göstərildiyini görməmişəm. Siz təkcə yeni məktəblər tikməklə, məktəbləri təmir etməklə kifayətlənmirsiniz, təhsil işçilərinə mənəvi cəhətdən də dayaqsınız. Bu bizi ürəkdən sevindirir. Sizin müəllimlər və məktəblər üzrə keçirdiyiniz müsabiqədən sonra müəllimlərimiz daha böyük nailiyyətlər əldə etmək üçün yeni yollar axtarıb tapmağa çalışırlar. Rayonumuzun bir məktəbi, yəni mənim rəhbərlik etdiyim məktəb-lisey də 50 məktəb sırasına düşdü və balaca rayon olsaq da, altıncı yerdə qərarlaşdıq. Məktəbimizin ədəbiyyat müəllimi, rayonumuzun digər bir ibtidai sinif müəllimi də bu müsabiqədə yer tutdular. Bunların hamısı üçün Sizə minnətdarıq. Mən ulu öndərimizin dövründə «Şərəf nişanı» ordeni, Sizin dövrünüzdə isə «Əməkdar müəllim» adı almışam. Bundan sonra da bütün həyatımı dövlətimizin daha da möhkəmlənməsinə sərf edəcəyəm. Biz uşaqları elə tərbiyə edəcəyik ki, onlarda yüksək vətənpərvərlik hissi formalaşsın, dövlətçiliyə, müstəqilliyimizə, azadlığımıza onlarda məhəbbət hissi formalaşdıra bilək. Qalan ömrümün hamısını buna həsr edəcəyəm. Mən çox şadam ki, Siz həmişə xalqlasınız. Sizin xalqla olmağınız xalqın da Sizinlə olmağına gətirib çıxarır. Biz qarşılıqlı şəkildə bir-birimizi çox sevirik. Qaxlılar Sizi lap çox sevirlər, Mehriban xanımı da çox sevirlər. Mehriban xanımın təşəbbüsü ilə Qaxda neçə-neçə məktəb inşa olunubdur. Mən hər ikinizə bir ana kimi, bir ağbirçək kimi, öz minnətdarlığımı, öz təşəkkürümü bildirirəm. Camaatımızın belə bir fikrini də Sizə çatdırmaq istəyirəm ki, Mehriban xanım da, Prezident də Qaxa tez-tez gəlsinlər, Qaxda daha çox olsunlar.

Qaxa gəldiyinizə, bizi yad etdiyinizə görə, bizimlə ünsiyyətdə olduğunuza görə Sizə təşəkkürümü bildirirəm. Ümidvarıq ki, Siz bizim rayonumuzun, respublikamızın çiçəklənməsi üçün, lider dövlət olan Azərbaycan Respublikasının dünyada daha da yüksək zirvələrə qaldırılması üçün bundan

sonra da çalışacaqsınız. Biz Sizə cansağlığı, uzun ömür arzulayırıq. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Mən beş il əvvəl Azərbaycan xalqına söz vermişdim ki, əgər mənə etimad göstərilərsə, doğma xalqıma xidmət edəcəyəm. Beş il keçdi, düzdür çox tez keçdi, amma bu beş il ərzində çox işlər görülübdür. Daha da çox işlər görməliyik.

**M a s i k o B a b a c a n a ş v i l i** (*İngiloy Kötüklü kənd orta məktəbinin direktoru*): Cənab Prezident, mən Sizi salamlayıram. Mən azsaylı xalqın nümayəndəsiyəm. Çox şadam Sizin gəlməyinizə. Heydər Əliyev Fondunun prezidentinə, Azərbaycanın birinci xanımı Mehriban xanıma gürcü xalqı adından təşəkkür edirəm. Gürcü dilində olan məktəblərə dərslik verdiyinizə görə çox sağ olun, var olun. Gürcü xalqı adından çox minnətdaram.

Hörmətli Prezident, Sizin xarici səfərlərinizi daim izləyirəm. Azərbaycan və gürcü xalqlarının dostluğu əbədidir. Biz, Qax rayonunun kəndlərində yaşayan 8 minə qədər gürcülərin hamısı Sizinləyik. Sözlə yox, işlə! Eşq olsun müstəqil Azərbaycana! Sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır və bu bizim uğurumuzun əsas şərtidir. Azərbaycanda bütün millətlər arasında yaranmış bu gözəl mehriban münasibətlər ən yüksək zirvədədir. Bir də demək istəyirəm ki, bu həm dövlət siyasətidir, həm də insanların ürəyində olan duyğulardır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan tarixində heç vaxt milli zəmində ayrı-seçkilik olmamışdır, heç vaxt da olmayacaqdır. Burada yaşayan xalqların hamısı bütün gözəl imkanlardan bəhrələnirlər. Heç vaxt bizdə milli zəmində nəinki problem, kiçik bir anlaşılmazlıq da olmamışdır, olmamalıdır və əminəm ki, olmayacaqdır. Sağ olun.

## Heydər Əliyev Muzeyinin açılışı

*Prezident İlham Əliyev sentyabrın 19-da Qax şəhərinin mərkəzində Heydər Əliyev Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Qax şəhərinin Heydər Əliyev küçəsində yerləşən muzeyin tikintisinə 2007-ci ildə başlanılmışdır. Binanın layihəsini «Azkommunallayihə» İnstitutu hazırlamış, tərtibat işlərini Heydər Əliyev Fondunun rəhbərliyi ilə «Elit» dizayn şirkəti həyata keçirmişdir. Muzey ekspozisiya salonu, kitabxana, oxu zalı, inzibati və yardımçı otaqlardan ibarətdir.*

*Ekspozisiya salonunun ümumi sahəsi 190 kvadratmetrdir. Burada ulu öndərin büstü qoyulmuşdur. 8 bölmədən ibarət ekspozisiyada ümummilli liderimizin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən çoxsaylı fotoşəkillər, müxtəlif kitablar və digər nəşrlər toplanmışdır. Muzeydə 7 ədəd komputer qoyulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ekspozisiya ilə tanış oldular, oxu zalına, otaqlara baxdılar.*

*Dövlətimizin başçısı muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## İdman kompleksinin təməlqoyma mərasimi

*Sentyabrın 19-da Qax şəhərində idman kompleksinin təməlqoyma mərasimi keçirilmişdir.*

*Mərasimə toplaşan inşaatçılar, şəhər sakinləri prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı kompleksin əsas texniki-iqtisadi göstəriciləri ilə tanış oldu. Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, ümumi ərazisi 5 hektar olacaq kompleksin layihəsini «Azkommunallayihə» İnstitutu hazırlamışdır. Tikintinin smeta dəyəri 6,5 milyon manatdır.*

*Əsas binada universal idman zalı, məşq zalı, inzibati otaqlar, habelə 25 metrlik üzgüçülük hovuzu yerləşəcəkdir. Kompleksin həyətində 2 min yerlik tribunaları olan futbol stadionu, voleybol və basketbol meydançaları, tennis kortu,*

*habelə idmançıların qalması üçün hər biri dördnəfərlik 4 kottec tikiləcəkdir.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü.*

*İnşaatçıları təbrik edən dövlətimizin başçısı tikinti işlərinin vaxtında və müasir standartlara uyğun, keyfiyyətlə başa çatdırılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## ŞƏKİ ŞƏHƏR MƏRKƏZİ XƏSTƏXANASININ YENİ KORPUSUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*19 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 19-da Qax rayonundan Şəki şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Şəki Şəhər Mərkəzi Xəstəxanasının 100 çarpayılıq yeni korpusunun təməlqoyma mərasimində iştirak etdi. İnşaatçılar, şəhər ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı yeni korpusun layihəsi ilə tanış oldu.*

*Məlumat verildi ki, Şəki şəhərinin girəcəyində, Olimpiya İdman Kompleksinin yaxınlığında inşa ediləcək bina Dünya Bankının və Azərbaycan hökumətinin birgə layihəsi olan «Tibbi xidmətlər sahəsində islahatların aparılması» layihəsi çərçivəsində tikilir. Layihənin həyata keçirilməsi üçün Şəki, Qax, Ağdaş, İsmayıllı və Abşeron pilot rayonları kimi seçilmişdir. Layihəni Dünya Bankı, Azərbaycan hökuməti, ABŞ-ın Beynəlxalq Agentliyi, YUNİSEF və Dünya Səhiyyə Təşkilatı maliyyələşdirir.*

*Yeni korpusun birinci mərtəbəsində təcili tibbi yardım, poliklinika, diaqnostika şöbəsi, 8 çarpayılıq hemodializ, sterilizasiya şöbələri, laboratoriya, yeməkxana, exokardiologiya, kompyuter tomoqrafiyası, endoskopiya, rentgen şöbələri fəaliyyət göstərəcəkdir.*

*İkinci mərtəbədə isə 28 çarpayılıq cərrahiyyə şöbəsi, iki əməliyyat bloku ilə birlikdə 12 çarpayılıq anesteziologiya və reanimasiya şöbəsi, 55 çarpayılıq terapiya şöbəsi yerləşəcəkdir. Binanın 2011-ci ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü. Sonra Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət etdi.*

**N a ğ d ə l i  B a l a ş o v** (*Şəki Şəhər Mərkəzi Xəstəxanasının Baş həkiminin müavini*): Cənab Prezident, Sizin hər bir gəlişiniz Şəkiyə yeni həyat gətirir. Bu gün bizim qəlbimiz sevinclə, fərəhlə döyünür. 2006-cı ildə Siz Şəkidə modul tipli elektrik stansiyasının açılışı ilə bizə işıq verdiniz və biz o vaxt Sizi şəriksiz prezidentimiz adlandırdıq. Bu gün isə yeni müalicə korpusunun təməlinin qoyulması ilə bizə, insanlarımıza sağlamlıq bəxş edirsiniz.

Əziz Prezidentimiz, Sizin andiçmə mərasimində dediyiniz kəlam var idi: «Mən hər bir azərbaycanlının prezidenti olacağam». Bu, həyatda öz əksini tapmışdır. Siz bizə işıq, istilik vermisiniz, əmək haqlarımızı artırmısınız və balalarımızın təhsili üçün Şəkidə çoxlu məktəblər tikmisiniz. Buna görə Sizə öz minnətdarlığımızı bildiririk. Azərbaycanda 700 mindən çox iş yeri açılmışdır. Əvvəllər ölkəmizi tərk edib gedən soydaşlarımız artıq Azərbaycana qayıdır, onlar işlə təmin olunurlar. Hətta əcnəbi vətəndaşlar da iş dalınca Azərbaycana gəlirlər. Biz inanırıq ki, bundan sonra Azərbaycanda həm yoxsulluq, həm də işsizlik olmayacaqdır.

Azərbaycanda sülh bərqərar olmuş və ölkəmiz təhlükəli vəziyyətlərdən azad olmuşdur. Hesab edirik ki, Qarabağ məsələsi də öz həllini tapacaqdır. Möhtərəm Prezidentimiz, Siz xalqın içərisində olursunuz, xalq Sizi sevir, hər kəs Sizi öz ailəsinin üzvü kimi qəbul edir. Siz bizim üçün hər şey etmisiniz. Buna görə də Sizə minnətdaram. Şəkidə son illər quruculuq, abadlıq işləri getmişdir. Şəkinin incisi olan Şəki xanlarının sarayı bərpa olunmuşdur. Mədəniyyət ocaqları bərpa olunub xalqın istifadəsinə verilmişdir.

**İ l h a m  Ə l i y e v:** Çox şadam ki, bu gün yenidən Şəkidəyəm, sizinlə birlikdəyəm. Mən Şəkidə dəfələrlə olmuşam. Hər dəfə burada olarkən sizinlə bərabər gözəl obyektlərin açılışını, yaxud da ki, təməlinin qoyulmasını birlikdə qeyd

edirik. Bu gün də Şəkidə ən müasir, dünya standartlarına cavab verəcək yeni böyük xəstəxananın təməlini qoyduq. Buna böyük ehtiyac var. Çünki sosial məsələləri, o cümlədən səhiyyə sisteminin təkmilləşməsi ilə bağlı olan bütün məsələləri biz daha da sürətlə həll etməliyik. Azərbaycan vətəndaşları çox gözəl tibbi xidmət almalıdırlar. Təkcə Bakıda yox, bütün bölgələrdə. Bu gün bizim belə imkanlarımız var. Məhz Şəkidə belə gözəl xəstəxananın tikilməsi, əlbəttə ki, Şəkiyə, şəkililərə olan münasibətin təzahürüdür. Mən çox istəyirəm ki, xəstəxana tezliklə tikilsin və burada ən yüksək tibbi xidmət göstərilsin. Bütövlükdə rayonun və şəhərin inkişafı üçün biz hələ çox işlər görməliyik. Düzdür, siz qeyd etdiniz ki, keçən dəfə mən burada olarkən modul tipli stansiyanın açılışında iştirak edirdik. Bu gün stansiya həm Şəkini təmin edir, həm də ətraf rayonları, ümumiyyətlə, Azərbaycanın energetika sisteminin möhkəmlənməsi işində çox mühüm rol oynayır. Ondan əvvəlki səfərlərdə Olimpiya İdman Kompleksi açılmışdır. Bilirəm ki, indi Şəkidə çox böyük quruculuq işləri aparılır. Şəhər gözəlləşir, öz gözəl tarixi simasını saxlamaqla müasirləşir, abadlaşır, yeni məktəblər tikilir, mədəniyyət ocaqları, küçələr abadlaşır. Yəni Şəki çox yaxşı inkişaf edir. Mən buna çox sevinirəm. Amma istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin və insanları narahat edən bütün məsələlər öz həllini tapsın.

Bu gün bizim iqtisadi imkanlarımız genişlənir. Azərbaycanda aparılan köklü iqtisadi islahatlar öz bəhrəsini verir və biz bunu statistik rəqəmlərdə və insanların gündəlik həyatında görürük. Maddi imkanlar, büdcə xərcləri artır, yoxsulluğun səviyyəsi aşağı düşür. 700 mindən çox yeni iş yeri açılmışdır, onlardan 600 minə yaxını daimi iş yerləridir və bu proses davam edir. Bu gün deyə bilərəm ki, biz işsizlik kimi çox çətin və ağır sosial problemi, demək olar, əsasən həll etmişik. İndi sirr deyil ki, Azərbaycana işləmək üçün başqa ölkələrdən vətəndaşlar gəlirlər. Onların sayı getdikcə artır. Biz onları Bakıda gedən bütün tikintilərdə görürük. Təkcə Bakıda yox, artıq Azərbaycanın başqa şəhərlərində də xaricdən gələn

fəhlələr çalışırlar. Bir tərəfdən, bu onu göstərir ki, Azərbaycan vətəndaşları artıq azmaaşlı işlərə o qədər də meyil göstərmirlər, daha da yüksək maaş almaq istəyirlər. Bu da çox gözəl və təbii bir haldır. Digər tərəfdən, onu göstərir ki, Azərbaycanda artıq işsizlik problemi, demək olar ki, öz həllini tapıbdır. Biz buna regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində nail ola bilmişik. Həm sosial məsələlərin həllinə, həm də iqtisadi, sənaye potensialının möhkəmlənməsinə.

Bu gün mən yeni sənaye obyektinin açılışında iştirak edəcəyəm. O cümlədən Şəki rayonunda belə müəssisələrin sayı çoxalır. Mən bu gün səhərdən bu bölgənin müxtəlif rayonlarında görüşlər keçirirəm. Balakən, Zaqatala, Qax – bütün rayonlarda çox ürəkaçan mənzərələr var. Bütün rayonlarda inkişaf var, əhval-ruhiyyə çox yüksəkdir, çox yaxşıdır. Deyə bilərəm ki, insanlar gələcəyə nikbinlik hissləri ilə baxırlar. Çünki gündəlik həyatda bu dəyişiklikləri görürlər, şəhərlər abadlaşır. Şəkinin hər bir sakini həm Azərbaycan dövlətinin vətənpərvər insanıdır, həm də doğma şəhərinin vətənpərvər sakinidir. Hər bir vətəndaş görəndə ki, onun doğma şəhərində vəziyyət yaxşılaşır, abadlaşır, yeni müəssisələr işə düşür, əlbəttə ki, buna sevinir. Azərbaycanın inkişafı bundan sonra bax, bu yolla davam edəcəkdir. Həm güclü iqtisadi potensial, iqtisadi islahatlarımızın dərinləşməsi və davamı, həm özəl sektora, sahibkarlara dəstək, həm də sosial məsələlərin həlli. Maaşlar artır, bilirsiniz ki, pensiyalar ildə iki dəfə artırılır. Əlbəttə ki, bu bizi hələ tam şəkildə qane edə bilməz. Minimum əməkhaqqı 75 manatdır. Minimum pensiya 75 manatdır. Əlbəttə, bu o məbləğ deyil ki, insanın tələbatını tam şəkildə ödəsin. Ancaq biz 2-3 il bundan əvvəlki vəziyyətə baxsaq görərik ki, bu çox sürətli bir artımdır və dinamika da çox gözəldir. Dinamika onu göstərir ki, biz bu istiqamətdə gələcəkdə də lazımi tədbirləri görəcəyik.

Bu gün Azərbaycan iqtisadi islahatlar baxımından dünya miqyasında birinci ölkədir. Özü də bunu biz demirik. Bunu Dünya Bankı, Beynəlxalq Valyuta Fondu qeyd edir. Bilirsiniz, dünyada çoxsaylı təşkilatlar var, həm Azərbaycanda, həm də

xaricdə qeyri-hökumət təşkilatları var. O təşkilatları sadəcə olaraq, onların təsisçiləri təşkil edir. Adı var ki, təşkilatdır və bu təşkilatlar vaxtaşırı ölkələrin müxtəlif istiqamətlərdəki fəaliyyətini təhlil edir və qiymət verir. Bəzi hallarda bu qiymət subyektiv xarakter daşıyır. Ancaq bu bəyanatlar, bu qiymətləndirmə məsələləri xarici mətbuatda öz əksini tapır və istər-istəməz ölkə haqqında rəy formalaşır. Onu da bilirik ki, Azərbaycan haqqında bir çox hallarda formalaşan və qəsdən formalaşdırılan rəy həqiqəti əks etdirmir.

Amma Dünya Bankı dünyanın ən qabaqcıl, ən birinci beynəlxalq maliyyə qurumudur. Beynəlxalq Valyuta Fondu da həmçinin. Bax, bu təşkilatlar Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi qiymətləndirir. Yəni bundan yuxarı qiymət ola bilməz.

Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu mükafatla təltif etdi. Yəni bu nəyi göstərir? Onu göstərir ki, Azərbaycanda şəffaflıq təmin olunur, iqtisadi islahatlar təmin olunur. Düzdür, Azərbaycan qədim neft ölkəsidir. Neft bizim təbii sərvətimizdir və Azərbaycan xalqına xidmət göstərir. Bəzi hallarda bəzi bədxahlar sübut etməyə çalışırlar ki, Azərbaycanın sürətli artımı təkcə neftlə bağlıdır. Bu belə deyildir. Əlbəttə ki, neft amilinin ümumi iqtisadi inkişafda çəkisi böyükdür. Amma bizdən daha da çox neft-qaz hasil və ixrac edən, daha da böyük resurslara malik olan ölkələr var. Nə üçün o ölkələrdə iqtisadi artım bizdəki kimi deyil?! Yəni mən onu demək istəyirəm ki, bizim iqtisadiyyatın inkişafının səbəbi təkcə təbii resurslar deyil, bizim islahatlarımızdır, Azərbaycanda hökm sürən sabitlikdir, burada fəaliyyət göstərən yerli və xarici şirkətlərin işləridir, investisiyalarıdır.

İlk dəfədir ki, daxili investisiyalar xarici investisiyaları üstələyir. Bu nə deməkdir?! Azərbaycan dövlətinin imkanları artır və daxili investisiyaların əksər hissəsi dövlət investisiyalarıdır. Digər tərəfdən, Azərbaycan şirkətləri böyüyür. Nəyin hesabına böyüyür?! Daha çox dövlət tərəfindən verilən sifarişlər hesabına. Əgər bu sifarişlər olmasaydı, yerli şirkətlər

bu qədər inkişaf etməzdi. Bizim 5 milyard dollar həcmində Dövlət İnvestisiya Proqramımız var. Yəqin ki, gələn il ondan da çox olacaqdır. Bax, bu vəsait bütün rayonların abadlaşmasına, yeni gözəl xəstəxanaların, müəssisələrin, yolların, aeroportların tikilməsinə yönəldilir. Bu gün mən Zaqatalada beynəlxalq aeroportun açılışında iştirak etdim, bu çox gözəl hadisədir və bütün bölgəyə yeni imkanlar gətirəcəkdir.

Biz Bakı–Balakən avtomobil yolunun təmirinə və genişləndirilməsinə başlamışıq. Yəni belə hallar çoxdur. Bu gün biz Zaqatalada yeni Müalicə-Diaqnostika Mərkəzinin açılışını etdik. Şəkidə gözəl xəstəxananın, Qaxda yeni idman kompleksinin təməlini qoyduq. Balakəndə böyük bir parkın və kanat yolunun açılışında olduq. Yəni həm iqtisadi, həm sənaye məsələləri, həm də sosial məsələlər həll olunur. Bizim bütün səylərimiz bir məqsədi güdür: Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycan dövləti möhkəmlənsin, bölgədə öz mövqelərini daha da gücləndirsin, Azərbaycanda sabitlik daha da möhkəm olsun, pozulmasın, sülh, təhlükəsizlik əmin-amanlıq olsun və Azərbaycan xalqı rahat yaşasın. Biz adada yaşamırıq, biz bölgədə yaşayırıq və bölgədə gedən proseslər hamımıza bəllidir. Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, burada xalqla iqtidar arasında birlik var. Bu birlik bizim bütün uğurlarımızın təməlindədir. Sabitlik, inkişaf, quruculuq – bizim əsas iş prinsiplərimiz bunlardır.

Azərbaycan xalqının maraqlarına nə cavab verirsə, o da olacaqdır. Nə cavab vermirsə, o heç vaxt olmayacaq, kim nə deyir desin. Mən Azərbaycan xalqının dəstəyinə arxalanıram. Əgər mən bunu hiss etməsəydim, həm xarici, həm də daxili siyasəti aparmaq mənim üçün daha da çətin olardı. Ona görə bütün bu uğurların səbəbkarı sizsiniz, Azərbaycan xalqıdır, Azərbaycan vətəndaşlarıdır. Mən də sizə xidmət edirəm.

**S a k i n l ə r:** Cənab Prezident, çox sağ olun, minnətdarıq. Allah köməyiniz olsun.

**İ l h a m  Ə l i y e v:** Bu beş ildə çalışmışam ki, yaxşı xidmət edim. Sizə uğurlar, cansağlığı arzulayıram. Xəstələnməyin,

amma işdir xəstəlik olsa, yaxın zamanlarda gözəl xidmət göstəriləcəkdir.

* * *

*Şəki ictimaiyyətinin nümayəndələri ilə söhbət zamanı dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın öz müstəqil siyasətini bundan sonra da davam etdirəcəyini bildirdi:*

– Əlbəttə ki, müstəqil siyasət aparmaq Azərbaycan üçün, çox da böyük olmayan ölkə üçün o qədər də asan məsələ deyildir. Bir daha demək istəyirəm, əgər mən bu dəstəyi hiss etməsəydim, çətin olardı. Əlbəttə, Azərbaycanın bölgədəki və dünyadakı mövqeləri də möhkəmlənir, önəmi də artır və Azərbaycana diqqət də artır. Burada bəzi hallarda müxtəlif maraqlar da toqquşur. Mən qoymuram ki, toqquşsun və qoymayacağam da. Mən həmişə demişəm ki, böyük ölkələr var, çox da böyük olmayan ölkələr var, maraqlar ola bilər. Azərbaycanın da öz hüdudlarından kənarda maraqları var. Amma Azərbaycan qarşıdurma məkanına çevrilməyəcəkdir. Biz əməkdaşlığa hazırıq. Əgər bizim maraqlarımıza uyğundursa, istənilən ölkə ilə istənilən formada əməkdaşlıq edəcəyik. Uyğun deyilsə, biz bunu açıq deyirik. Həm qonşular, həm də böyük dövlətlər bunu bilir və bunu qəbul etməyə öyrəşiblər ki, Azərbaycanın öz mövqeyi var. Azərbaycan xalqının iradəsindən başqa, heç bir qüvvə bu mövqeyə təsir edə bilməz.

Müstəqil siyasət aparan ölkə özünü müəyyən risklərdən sığortalayır. Çünki o, sadəcə olaraq, öz bildiyini, öz xalqının maraqlarını müdafiə edir. Müstəqil siyasət aparmaqda çətinlik çəkən ölkələr də bəzi hallarda bundan əziyyət çəkirlər. İndi dərinə getmək istəmirəm, hər kəs hər şeyi görür. Əminəm ki, bundan sonrakı illərdə Azərbaycanın dünyadakı mövqeləri ancaq möhkəmlənəcəkdir. Bunun üçün bütün şərait var, bütün imkanlar var. Həm qəbul edilmiş proqramlar, həm neft siyasətimiz, həm ölkədə yaranmış vəziyyət, həm də, ümumiyyətlə, Azərbaycanın uğurlu inkişafı belə deməyə imkan verir.

**Y a q u b   M a h m u d o v** (*AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı*): Cənab Prezident, xalq sizinlədir. Siz səmimi, qətiyyətli, cəsarətli siyasətinizlə, heç kəsin arxasınca getmədən Heydər Əliyevin qurduğu Azərbaycanı göylərə qaldırdınız. Öz yolunuz var. O yol da Azərbaycan xalqını təmin edir. Biz həmişə Sizinləyik, bilin ki, xalq Sizinlədir.

**İ l h a m   Ə l i y e v:** Sağ olun.

## «Aqro-İndastri» MMC-nin süd emalı zavodunda

*Prezident İlham Əliyev sentyabrın 19-da Şəki «Aqro-İndastri» MMC-nin rayonun Orta Zəyzid kəndində, keçmiş Kökəltmə birliyinin ərazisində tikilmiş müasir tipli süd emalı zavodunda olmuşdur.*

*Dövlətimizin başçısına müəssisənin əsas iqtisadi texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, müəssisənin tikintisinə Azərbaycan Beynəlxalq Bankı ilə Hollandiyanın «Roqobank»ı arasında imzalanmış kredit müqaviləsi əsasında 2006-cı ildə başlanılmışdır. Müqavilənin ümumi dəyəri 7,28 milyon avrodur.*

*Şəki–Oğuz şosesinin kənarındakı 70 hektar ərazidə müasir tipli heyvandarlıq kompleksi, damazlıq və südçülük sahələri, pendir zavodu və mal-qara üçün yem istehsalı sexi yerləşir. Kompleksə Hollandiyadan yüksək məhsuldarlığı olan 660 cins inək gətirilmişdir. İndiyədək onlardan 472 bala alınmışdır.*

*Kompleksdə adi və mexanikləşdirilmiş tövlələr tikilmişdir. İcarəyə götürülmüş 400 hektara yaxın ərazidə yem üçün qarğıdalı, yonca və vələmir əkilir. Hər gün heyvanlara 10 tona yaxın yem verilir. Yem istehsalı üçün müasir tipli dəyirman da tikiləcəkdir.*

*Müəssisədə gün ərzində 15 min litr süd istehsal olunmaqla 1500 kiloqram Hollandiya pendiri hazırlanması nəzərdə tutulur. İndiyədək müəssisədə 140 iş yeri açılmışdır. İşçilərə pulsuz nahar yeməyi verilir. Gələcəkdə iş yerlərinin sayının*

*200-ə çatdırılması və ərazisinin genişləndirilməsi nəzərdə tutulur.*

*Süd sağımı sexindəki bütün avadanlıqlar Hollandiyadan gətirilmişdir. Sağılmış süd xüsusi borularla çənlərə vurulur, buradan isə pendir istehsalı sexinə ötürülür.*

*Prezident İlham Əliyev istehsal sahəsinin rəmzi işə salınmasını bildirən düyməni basdı. Sonra tövlələrə, süd sağımı və pendir istehsalı sexinə baxdı, quraşdırılmış müasir avadanlıqla tanış oldu.*

*Görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı bölgələrdə bu cür müəssisələrin yaradılmasının əhəmiyyətini vurğuladı.*

## OĞUZ OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİ

*20 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 20-də Oğuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Oğuz Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimində iştirak etdi. Mərasimə toplaşanlar prezidenti və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəblilər səmaya sülh rəmzi olan ağ göyərçinlər buraxdılar.*

*Dövlətimizin başçısı komplekslə tanış oldu. Məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq tikilən idman qurğusunun inşasına 2007-ci ilin fevralında başlanılmışdı. Gənclər və İdman Nazirliyinin sifarişi ilə inşa olunan kompleksin smeta dəyəri 7,5 milyon manatdır. «Rövşən-Oğuz-İnşaat» MMC-nin həyata keçirdiyi inşaat işlərinə 150 nəfər cəlb olunmuşdu. İşçilərin orta aylıq əməkhaqqı 300–500 manat təşkil etmişdir.*

*4,5 hektar ərazidə yerləşən kompleksin əsas korpusuna 575 tamaşaçı yeri olan universal idman salonu, trenajor və 100 yerlik konfrans salonları, restoran-bar, habelə inzibati otaqlar daxildir. Digər korpusda 25 metrlik üzgüçülük hovuzu vardır. Kompleksin ərazisində tribunaları olan və beynəlxalq standartlara cavab verən 1850 yerlik futbol stadionu, voleybol, basketbol meydançaları, tennis kortu tikilmiş, idmançıların qalması və istirahəti üçün hərəsi dördnəfərlik 5 kottec*

*tikilmişdir. Stadiona Türkiyədən gətirilmiş süni örtük döşənmişdir.*

*İdman qurğusunun nasos stansiyası, transformatoru, qazanxanası, hər birinin tutumu 400 kubmetr olan 2 ehtiyat su anbarı, yanğından mühafizə məntəqəsi də vardır. Ərazidə geniş abadlıq işləri aparılmış, çəmənlik salınmış, 6 min ədəd dekorativ gül kolu əkilmişdir.*

*Prezident İlham Əliyev kompleksin trenajor salonu, üzgüçülük hovuzu, basketbol, voleybol və futbol meydançaları ilə tanış oldu.*

*Sonra kompleksin açılmasına həsr olunmuş mərasim keçirildi.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Əziz oğuzlular!

Əziz dostlar!

Bu gün Oğuz rayonunun həyatında çox gözəl və əlamətdar bir gündür. Bu gün Oğuzda yeni, gözəl, müasir Olimpiya İdman Kompleksi açılır. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, bu kompleksdən həm idmançılar səmərəli istifadə edəcəklər, həm də Oğuz rayonunun sakinləri. Burada bütün şərait var. Həm idman zalı, həm üzgüçülük hovuzu, trenajor zalı – bir sözlə, idmanla məşğul olmaq və sağlamlığı möhkəmləndirmək üçün bütün imkanlar var. Mən çox şadam ki, bu gözəl gündə sizinlə bərabər bu kompleksin açılışında iştirak edirəm.

Mən xatırlayıram, keçən il Oğuzda olarkən kompleksin tikintisi ilə tanış olmuşdum. Kompleks qısa müddət ərzində yüksək keyfiyyətlə və böyük zövqlə tikilibdir. Bunun həm xarici görünüşü gözəldir, həm də daxili təchizatı bütün dünya standartlarına uyğundur. Əminəm ki, bu kompleksin fəaliyyətə başlaması nəticəsində burada idmanın inkişafına daha da böyük

təkan veriləcəkdir. Mən çox istəyirəm ki, Azərbaycanın hər yerində, hər bir rayonunda güclü idmançılar yetişsin, insanlar sağlam olsunlar. Gənc nəsil həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsun. Beləliklə, Azərbaycanın həm idman şöhrəti daim yüksəklərdə qalacaq, həm də Azərbaycan vətəndaşları, xüsusilə, uşaqlar, yeniyetmələr, gənclər fiziki cəhətdən sağlam olacaqlar.

Azərbaycanın çox böyük idman uğurları, idman qələbələri var. Bizim idmançılarımız – bizim qaliblərimiz, Olimpiya oyunlarının çempionları, mükafatçıları – bu gün burada iştirak edirlər, Azərbaycanın idman şöhrətinin qaldırılması üçün çox böyük işlər görürlər. Beynəlxalq yarışlarda, çempionatlarda, əlbəttə ki, Olimpiya oyunlarında Azərbaycanı ləyaqətlə təmsil edirlər. Azərbaycan dünya idman ailəsində özünəlayiq yerini tuta bilibdir və dünyada idman ölkəsi kimi tanınır. Bizim uğurlarımız, əlbəttə ki, hər bir vətəndaşı sevindirir, eyni zamanda, idmançılarımızın uğurlu çıxışları gənclərə də örnəkdir, gənclərə də gözəl nümunədir. Əminəm ki, bu gözəl qələbələrdən sonra idman bölmələrinə axın daha da güclənəcək, idmanla məşğul olmaq istəyənlərin sayı artacaqdır. Əlbəttə ki, bütün bu məqsədlərə nail olmaq üçün, idmanla məşğul olmaq üçün gərək yaxşı şərait olsun. Biz bu şəraiti yaradırıq. Sadəcə olaraq, hansısa idman qurğularının tikilməsi ilə kifayətlənmirik. Mən istəyirəm ki, hər bir rayonda ən müasir idman infrastrukturu yaradılsın. Hər bir yerdə idmanla məşğul olmaq üçün yaxşı şərait olsun və biz Oğuz rayonunun timsalında bunu görürük.

Siz, rayonun sakinləri yaxşı bilirsiniz ki, əhali baxımından Oğuz böyük rayon deyildir. Amma mənim üçün bu heç vaxt meyar olmamışdır. Mənim üçün bütün rayonlar əzizdir, bütün Azərbaycan vətəndaşları əzizdir. Rayonun böyük-kiçikliyindən asılı olmayaraq, mən düşünürəm ki, hər bir yerdə, hər bir rayonda çox gözəl şərait olmalıdır. Həm idmanla məşğul olmaq üçün şərait, həm infrastruktur layihələri, həm də səhiyyə obyektləri, məktəblər, yollar  olmalıdır. Biz Oğuz rayonunda

bütün bunları görürük. Bu idman kompleksi ilə üzbəüz böyük xəstəxana kompleksi tikilir və orada çox gözəl avadanlıqlar quraşdırılacaqdır. Sakinlərin müayinəsi və müalicəsi üçün bütün şərait yaradılacaqdır.

Oğuz rayonu çox gözəl təbii sərvətlərə malikdir. Gözəl təbiəti var, iqlimi var. Çox gözəl mənzərəli yerləri var. Əminəm ki, turizmin inkişafı Oğuz rayonunun gələcək inkişafına böyük xidmət göstərəcəkdir. Bu gün eyni zamanda, yeni mehmanxananın açılışında iştirak edəcəyəm. Yəni bütün bu hadisələr onu göstərir ki, hər bir rayonun potensialından biz səmərəli şəkildə istifadə etməliyik. Elə etməliyik ki, rayonda gedən işlər onun iqtisadi imkanlarını genişləndirsin.

Əlbəttə ki, Azərbaycan dövləti öz iqtisadi imkanlarını işə salaraq bütün rayonlarda gedən abadlıq-quruculuq işlərinə kömək göstərir. Deyə bilərəm ki, Azərbaycanın bütün rayonları dövlət büdcəsindən dotasiyalar hesabına yaşayırlar. Bu bundan sonra da davam edəcəkdir. Hər bir rayonun infrastruktur layihələrinə, belə gözəl komplekslərin, xəstəxanaların məktəblərin tikintisinə və sair işlərin görülməsinə Azərbaycanın dövlət büdcəsindən vəsait ayrılır. Əlbəttə ki, gələcəkdə bizim iqtisadi imkanlarımız daha da böyük olanda, daha da böyük işlər görəcəyik. Amma hər bir rayon da öz iqtisadi, sənaye və turizm potensialından səmərəli şəkildə istifadə etməlidir və Oğuz rayonunda da belə imkanlar var.

Biz çalışmalıyıq və bundan sonra da bunu edəcəyik ki, Azərbaycanın bütün bölgələrində çox geniş quruculuq, abadlıq işləri davam etsin, bu yüksək templər saxlanılsın. Azərbaycanın bütün bölgələrində yaxşı yaşamaq, yaxşı işləmək, yaxşı oxumaq və idmanla yaxşı məşğul olmaq üçün bütün imkanlar olsun.

Azərbaycanın inkişafı bu gün çox sürətlidir. Bütün bölgələrdə böyük quruculuq-abadlıq işləri aparılır. Bizim iqtisadi islahatlarımız istər sənaye potensialının inkişafında, istərsə də kənd təsərrüfatının inkişafında öz bəhrəsini verir. Böyük infrastruktur layihələri icra olunur. Xüsusilə bu zonanın hərtərəfli inkişafı üçün lazımi tədbirlər görülür. Dünən mən

Zaqatala şəhərində yeni aeroportun açılışında iştirak etdim. Aeroportun tikintisi, o cümlədən Oğuz rayonunun turizm imkanlarına da böyük dəstək olacaqdır. Əminəm ki, həm Bakıdan, həm Azərbaycanın başqa şəhərlərindən, həm də xarici ölkələrdən buraya gələn turistlərin sayı getdikcə artacaqdır. İlk növbədə, ona görə ki, buranın çox gözəl təbiəti var. Təbiət baxımından Oğuz rayonu dünyanın istənilən yerindən geridə qalmır.

Digər tərəfdən, Azərbaycanda hökm sürən sabitlik, əmin-amanlıq, əlbəttə ki, turistlərin cəlb olunmasında öz rolunu oynayacaqdır. Turizmin inkişafı o ölkələrdə daha sürətlə gedir ki, orada vəziyyət sabitdir, heç bir qarşıdurma yoxdur, heç bir daxili, yaxud da xarici təhlükə yoxdur. Azərbaycan bu baxımdan bütün başqa ölkələrdən daha da əlverişli vəziyyətdədir. Çünki bizdə sabitlik, əmin-amanlıq, vətəndaş həmrəyliyi var. Bütün bunlar Azərbaycanın hərtərəfli inkişafına, o cümlədən turizmin inkişafına xidmət göstərir.

Yəni Azərbaycanı, Oğuz kimi başqa rayonları turizm mərkəzlərinə çevirmək üçün bizim bütün imkanlarımız var. Yenə də deyirəm, hər bir rayonun öz xüsusiyyətləri var. Hər bir rayonda o rayonun xüsusiyyətlərinə uyğun işlər aparılmalıdır. Haradasa sənaye potensialı artırılır, haradasa kənd təsərrüfatı, turizm inkişaf etdirilir və sair. Azərbaycanın hərtərəfli inkişafı bu işlərlə bağlıdır.

Əlbəttə ki, bizim böyük təbii ehtiyatlarımız var – neft, qaz və biz bu ehtiyatları dənizin dibindən çıxarır və boru xətləri ilə dünya bazarlarına ixrac edirik. Bundan Azərbaycan dövləti böyük gəlirlər əldə edir. Bu gəlirlər bizə imkan verir ki, belə gözəl komplekslər və başqa obyektlər tikək. Ancaq uzunmüddətli inkişafımız üçün Azərbaycanın qeyri-neft sektoru inkişaf etməlidir. Mənim son beş il ərzində apardığım siyasətin, demək olar, əsas istiqaməti bundan ibarətdir ki, Azərbaycanda bölgələr də, iqtisadiyyatın qeyri-neft sektoru da, xidmət sektoru da inkişaf etsin ki, gələcəkdə dövlətimiz təbii resurslardan asılı olmasın. Bu gün bunu etmək mümkün deyil və bu təbiidir.

Ancaq biz bu yolla gedirik və qeyri-neft sektoru ildən-ilə daha da artır.

Bu gün biz özümüzü ərzaq məhsulları ilə, demək olar ki, maksimum dərəcədə təmin edirik və görüləcək əlavə tədbirlər nəticəsində Azərbaycan ərzaq təhlükəsizliyini 100 faiz təmin edəcəkdir. Bugünkü dünyada bu, böyük bir nailiyyətdir. Çünki istisna olunmur ki, gələcək illərdə ərzaq təminatı ilə problemlər daha da ciddiləşəcək və o ölkələr ki, idxaldan asılılıqları var, onlar böyük problemlərlə üzləşə bilər. Bunun qabağını almaq üçün biz bu gün tədbirlər görürük. Ərzaq təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi – dünya birliyini narahat edən bu üç əsas məsələ Azərbaycanda uğurla həll olunur və biz bunları gələcəkdə də həll edəcəyik. Azərbaycanın uğurlu, dayanıqlı inkişafını təmin etmək üçün nə lazımdırsa, biz onu edəcəyik.

Əziz oğuzlular, mən bu gün sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Mən əminəm ki, siz bu idman kompleksindən səmərəli istifadə edəcəksiniz və burada yeni çempionlar yetişəcəkdir. Onlar da öz növbəsində, görkəmli olimpiyaçılar kimi, Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlayacaqlar.

Sizi bir daha təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram.

Sağ olun!

## Şəhərdə yeni salınan mərkəzi parkla tanışlıq

*Sentyabrın 20-də prezident İlham Əliyev Oğuz şəhərində yeni salınan mərkəzi parkda olmuşdur.*

*Dövlətimizin başçısının tövsiyəsinə uyğun olaraq salınan parkda inşaat işlərinə bu ilin mayında başlanılmışdır. Ərazisi 2,6 hektar olacaq parkın layihəsi yerli və xarici mütəxəssislərin birgə iştirakı ilə hazırlanmışdır.*

*Avropa və milli memarlıq üslubunda salınacaq parkda 6 fəvvarə (o cümlədən musiqili fəvvarə), 2 konsert səhnəsi, uşaqlar üçün karusellər olacaqdır.*

*Hazırda ərazidə torpaq və dəmir-beton işləri davam etdirilir.*

## «Afra-Hotel» kurort və biznes mərkəzinin açılışı

*Prezident İlham Əliyev sentyabrın 20-də Oğuz rayonunda «Afra-Hotel» kurort və biznes mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Tikintisinə 2006-cı ilin iyununda başlanılmış, yarımzirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan bu mərkəzin binasının ümumi sahəsi 6780 kvadratmetrdir. Binanın yarımzirzəmi hissəsində bar, kabinetlər, bilyard və oyun otaqları, habelə qazanxana, anbar, transformator yardımçı stansiyası yerləşir. Əsas mərtəbələr biznes mərkəzi, inzibati otaqlar, 65 yerlik konfrans salonu, 60 və 200 yerlik restoranlar, eyni vaxtda 108 nəfərin qalması üçün 1 və 2 yerlik 31 nömrə, o cümlədən 4 ədəd lyuks nömrə vardır.*

*Polşa və Cənubi Koreya istehsalı olan istilik və hava-landırma sistemləri olan binada 6 və 8 nəfərlik 2 sürətli lift də quraşdırılmışdır. Qonaqlar sürətli internet və peyk rabitə xidmətlərindən də geniş istifadə edəcəklər.*

*Mərkəzin tikintisində Sahibkarlığa Kömək Milli Fondundan alınmış 500 min manatlıq güzəştli kreditlərdən də istifadə olunmuşdur.*

*Burada 40 daimi iş yeri yaradılmışdır.*

*Prezident İlham Əliyev konfrans salonu, restoranlar, həyətdəki 4 ədəd kottec, 25 metrlik su hovuzu, tennis kortu, əl oyunları meydançası, disko-klub, sağlamlıq mərkəzi, avtomobil dayanacağı və digər tikililərlə tanış oldu, ərazini gəzdi.*

## Oğuzda  qlükoza zavodunun tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 20-də Oğuzda qlükoza zavodunun tikintisində olmuşdur.*

*Dövlətimizin başçısı zavodun maketi və baş planı ilə tanış oldu. Məlumat verildi ki, Azərbaycan Beynəlxalq Bankının maliyyələşdirdiyi tikintinin smeta dəyəri 12 milyon ABŞ dollarıdır. Bunun 4 milyon dolları tikinti işlərinə, qalanı isə avadanlığın alınıb quraşdırılmasına xərclənəcəkdir.*

*Zavod tam gücü ilə işlədikdə gündə 80 ton qarğıdalı emal ediləcək, bundan qida sənayesində istifadə olunan 50 tona yaxın qlükoza istehsal ediləcəkdir. Müəssisədə Türkiyədən və Avropa ölkələrindən gətirilmiş və müasir tələblərə cavab verən ən qabaqcıl texnoloji avadanlıqlar quraşdırılır. Qlükoza istehsalı xəttinin 2008-ci ilin noyabrında, qarğıdalıdan nişasta istehsalı xəttinin isə 2009-cu ilin sentyabrında istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Müəssisədə 53  işçi çalışacaqdır. İstehsalın həcmi çoxaldıqca, işçilərin sayı 200 nəfərə qədər artırılacaqdır.*

*İlkin mərhələdə texnoloji proseslərə türkiyəli, sonra isə yerli mütəxəssislər nəzarət edəcəklər. Zavodun işə salınması rayonda qarğıdalı əkininə marağı daha da artıracaq, maldarlıq və quşçuluğun inkişafına ciddi təkan verəcəkdir.*

*Bu cür müəssisələrin yaradılmasının əhəmiyyətini vurğulayan prezident İlham Əliyev tikinti işlərinin vaxtında, yüksək səviyyədə və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## QƏBƏLƏ RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*20 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 20-də Qəbələ rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

### Müalicə-Diaqnostika Mərkəzinin açılış mərasimi

*Sentyabrın 20-də Qəbələ şəhərində Müalicə-Diaqnostika Mərkəzinin təntənəli açılışı olmuşdur.*

*Bu münasibətlə keçirilən mərasimdə iştirak edən prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rayon sakinləri böyük səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Yüksək standartlara uyğun tikilmiş 6 mərtəbəli mərkəzdə ən müasir avadanlıqlar quraşdırılmışdır. Burada poliklinika şöbəsi, təcili yardım stansiyası, 20 çarpayılıq cərrahiyyə, 10 çarpayılıq dializ, 5 çarpayılıq reanimasiya şöbələri, aptek, qəbul otağı, lor, stomatoloji, exokardioloji, rentgen kabinetləri vardır. Tikintiyə 40 milyon manat, inventar və avadanlığın alınmasına isə 6 milyon manat vəsait sərf olunmuşdur.*

*Tibb ocağında 200 nəfər işləyəcəkdir. Mərkəzin qarşısında 3 hektar ərazidə park da salınmışdır. Burada musiqili fəvvarə quraşdırılmış, müasir işıqlandırma sistemi yaradılmışdır.*

*Mərkəzlə tanış olan prezident İlham Əliyev reanimasiya, qəbul şöbələrinə, lor, göz, stomatoloji, rentgen kabinetlərinə baxdı.*

*Mərkəzin açılış mərasimində dövlətimizin başçısı çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qəbələlilər!

Əziz dostlar!

Bu gün Qəbələ rayonunun həyatında çox əlamətdar bir gündür. Bu gün Qəbələdə yeni, gözəl Müalicə-Diaqnostika Mərkəzi açılır. Bu gözəl hadisə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin tikintisi Azərbaycanda aparılan sosial siyasətin nəticəsidir. Bu kompleksdə ən qabaqcıl texnologiyalar tətbiq olunur. Ən müasir avadanlıqlar və müayinədən keçmək, müalicə almaq üçün bütün şərait var. Mən çox şadam ki, Azərbaycanda belə gözəl komplekslərin, mərkəzlərin sayı getdikcə artır. Ölkəmizin müxtəlif bölgələrində ən müasir tibb ocaqları yaradılır. Bunlar həm Səhiyyə Nazirliyinin xətti ilə, həm də Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilir. Beləliklə, qısa müddət ərzində Azərbaycanda səhiyyə problemlərinin həlli üçün yeni müasir infrastruktur yaradılır. Deyə bilərəm ki, belə mərkəzlərin işə düşməsi təsadüfi deyildir. Çünki Azərbaycanda son illər ərzində sosial siyasət, insanların həyat səviyyəsinin yaxşılaşdırılması, sağlamlığının möhkəmləndirilməsi işində məqsədyönlü tədbirlər görülür, dövlət proqramları icra olunur. Bu məqsədlərə dövlət xərcləri ildən- ilə artır.

Əlbəttə, sosial siyasətin güclü olması hər bir ölkənin iqtisadi imkanlarından asılıdır. Bizim bu imkanlarımız var. Azərbaycan zəngin dövlətə çevrilir. Azərbaycanda büdcə xərcləri artır, son 5 il ərzində bizim büdcəmiz 10 dəfədən çox artıbdır. Bunun hesabına gözəl binalar, tibb mərkəzləri, olimpiya kompleksləri, müəssisələr tikilir, yollar abadlaşır. Azərbaycanın bütün bölgələrində bunu görürük.

Bir daha demək istəyirəm ki, bu kompleksdə, bu mərkəzdə yaxşı tibbi xidmət almaq üçün bütün imkanlar var, həkimlər də artıq hazırlanır. Əlbəttə, müasir avadanlıqlarla işləmək böyük

peşəkarlıq tələb edir. Yəni biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Həm müasir avadanlıqlar alınır, şərait yaradılır, həm də ki, həkimlərin səviyyəsinin qaldırılması üçün lazımi tədbirlər görülür. Bir müddət bundan əvvəl başlanan bu ənənə bu gün də davam edir. Azərbaycanın bütün bölgələrində belə mərkəzlər tikilir, gələcək illərdə isə əminəm ki, hər bir rayonda müasir tibb müəssisələri yaradılacaqdır. Köhnə xəstəxanalar təmir olunur, yeniləri tikilir. Beləliklə, Azərbaycanda səhiyyə sahəsində yaranmış problemlər tezliklə həll olunacaqdır.

Siz – Qəbələ rayonunun sakinləri çox yaxşı görürsünüz ki, rayonunuz son illər ərzində necə inkişaf edir. Burada sənaye potensialı, yeni müəssisələr yaradılır. Bunlar həm daxili tələbatı ödəyir, həm də ki, onların ixrac qabiliyyəti yüksəlir.

Xüsusilə Azərbaycanın müxtəlif yerlərində kənd təsərrüfatı məhsullarının emalı müəssisələri yaradılır. Bunları sahibkarlar edirlər, bir hissəsi isə Azərbaycan dövlətinin sahibkarlara etdiyi yardımlar hesabına yaradılır. Azərbaycan dövləti hər il yerli sahibkarlara 100 milyon dollar səviyyəsində güzəştli kreditlər verir. Bu kreditlər hesabına çox böyük işlər görülür, o cümlədən Qəbələ rayonunda da. Nəzərə alsaq ki, bu proqram 4-5 ildir icra olunur və hər il böyük məbləğdə kreditlər ayrılır, əlbəttə ki, biz bunun nəticələrini görürük və gələcək illərdə də görəcəyik. Yəni həm sənaye müəssisələrinin, həm də səhiyyə ocaqlarının, idman qurğularının, məktəblərin tikilməsi – bütün bu vacib məsələlər hər bir rayonun inkişafını müəyyən edir. Azərbaycan iqtisadiyyatı çox sürətlə artır, bizim iqtisadi imkanlarımız, maliyyə imkanlarımız genişlənir və ilk növbədə, biz səylərimizi insanları narahat edən problemlərin həllinə yönəldirik. Əsas infrastruktur layihələrimiz, demək olar ki, başa çatmaq üzrədir. Azərbaycanda çox güclü infrastruktur layihələri icra olunur və insanların normal həyatını təmin etmək üçün bütün proqramlar yerinə yetirilir: kənd təsərrüfatı, sənaye, sosial məsələlərin həlli. Mən əminəm ki, 2009-cu ildə Azərbaycanın dövlət büdcəsinin həcmi daha da böyük olacaqdır. Artıq biz investisiya məsələlərinə ildə 5 milyard dollar xərcləyirik və bu vəsait bütün

ölkədə gedən proseslərə müsbət təsir göstərir. Həm dövlət xərcləri, həm gözəl investisiya mühiti, sahibkarların dəstəklənməsi – bütün bu amillər bir-birini tamamlayır. Azərbaycanda sabit ictimai-siyasi vəziyyətin möhkəm olması həm yerli sahibkarlara əlavə ruh verir, həm də xarici iş adamlarını Azərbaycana cəlb edir. Ölkəmizin bütün bölgələrində gedən inkişaf bizim uğurumuzun ən başlıca təzahürüdür. Əgər belə olmasaydı, ölkə hərtərəfli inkişaf edə bilməzdi.

2004-cü ilin əvvəlində qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası nəticəsində biz bu inkişafa nail ola bilmişik. Onu da demək istəyirəm ki, 2004-cü ildə qəbul edilmiş proqrama, sonrakı illərdə – 2005-ci, 2006-cı, 2007-ci ildə əlavələr olunmuşdur. O proqramın xaricində çoxlu işlər görülübdür. Hesab edirəm ki, növbəti 5 illik proqram bütün qalan, həll olunmamış məsələləri əhatə etməlidir. Hər bir rayonun xüsusi proqramları var və növbəti 5 il üçün hazırlanır. O proqramlarda hər bir rayonun, rayondakı hər bir kəndin problemləri öz həllini tapacaqdır.

Biz gələcəyə çox nikbinliklə baxırıq. Azərbaycan həm siyasi baxımdan çox möhkəm ölkədir və bu bölgədə sabitləşdirici funksiyanı icra edir, həm də iqtisadi inkişaf baxımından ölkəmiz son dörd il ərzində nəinki bölgədə, dünyada birinci yerdədir. Sosial məsələlər öz həllini tapır. Çünki bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrdə bəzi hallarda sosial ədalətsizlik də artır.

Biz bazar iqtisadiyyatının mənfi cəhətlərinin qarşısının alınması üçün çox güclü sosial siyasət aparırıq. Bunu bu Müalicə-Diaqnostika Mərkəzinin timsalında, insanların əmək haqlarının, pensiyaların artırılmasında görürük. Çünki insanlar sosial cəhətdən müdafiə olunmalıdırlar. Azərbaycanda ən kasıb şəraitdə yaşayan 500 mindən çox insan hər ay dövlətdən sosial müavinət alır. Ölkəmizdə yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşübdür. Əminəm ki, 2008-ci ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır, işləmək

istəyən hər bir insan işlə təmin olunmalıdır. Bu məsələlər həll olunduqda, demək olar ki, bizim əsas sosial problemlər həll edilmiş olur və növbəti illərdə biz daha sürətlə inkişaf edəcəyik.

Bizim inkişafımız üçün bütün imkanlar, hər bir sahə üzrə çox ciddi dövlət proqramları var. Digər tərəfdən də, xalqla iqtidar arasında vəhdət var və bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Azərbaycan təbii ehtiyatlarla çox zəngin olan ölkədir və biz bu ehtiyatlardan səmərəli şəkildə istifadə edirik. Bunu həm Azərbaycan əhalisi bilir, həm də dünyada olan ən qabaqcıl beynəlxalq maliyyə qurumları, beynəlxalq təşkilatlar Azərbaycanın bu istiqamətdəki fəaliyyətini böyük təqdirlə qarşılayırlar.

Azərbaycanda çox istedadlı insanlar yaşayır. Azərbaycanın çox gözəl coğrafi mövqeyi vardır və biz bundan uğurla istifadə edirik. Bölgədəki bütün qonşularımızla yaxşı, qarşılıqlı hörmət əsasında yaranmış münasibətlərimiz var. Azərbaycanın dünya miqyasında önəmi də, hörməti də artır. Hamı bilir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Bunu Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də bilir. Azərbaycan dünya miqyasında özünə layiq olan yerini tutub və bu yeri möhkəmləndirir.

O ki qaldı bölgə məsələlərinə, bizim iştirakımız olmadan heç bir təşəbbüs həll edilə bilməz, heç bir iqtisadi, yaxud da ki, siyasi layihə icra oluna bilməz. Biz nəinki bölgədə icra olunan bütün layihələrin iştirakçısıyıq, onların bir çoxunun təşəbbüskarıyıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmaqdadır.

Beləliklə, çox güclü sosial siyasət, daxili vəziyyətin sabit olması, güclü iqtisadiyyat, liberal islahatlar – istər siyasi, istərsə də iqtisadi islahatlar – çevik xarici siyasət və bölgələrin inkişafı hesabına biz ölkəmizi inkişaf etdiririk və növbəti illərdə bu inkişaf davam edəcəkdir.

Qəbələ rayonunun timsalında biz son illər Azərbaycanda əldə edilmiş müsbət nəticələri görürük. Burada həm quruculuq, abadlıq işləri gedir, yeni müəssisələr tikilir, həm də şəhər

gözəlləşir. Qəbələnin gözəl təbiəti var və bundan çox səmərəli istifadə olunur. Mən bu gün yeni yaradılmış mehmanxana-turizm kompleksinə də baş çəkəcəyəm. Bilirəm ki, bunlar da yüksək səviyyədə yaradılır. Xəbərim var ki, Bakıdan, ölkəmizin digər bölgələrindən istirahət etmək üçün Qəbələyə gələn insanların sayı artır. Əminəm ki, qarşıdakı illərdə xaricdən də gələcəklər. Bakı–Qəbələ avtomobil yolu yeniləşib, genişləndirilibdir. Zaqatala aeroportu artıq hazırdır. Digər vasitələrdən də istifadə edilməklə, Qəbələ Azərbaycanın ən gözəl turizm mərkəzlərindən birinə çevriləcəkdir.

Mən bütün qəbələlilərə hörmət və məhəbbətimi ifadə etmək istəyirəm. Arzu edirəm ki, rayonda gedən proseslər bundan sonra da belə templə davam etsin və burada insanlar yaxşı yaşasınlar. Qəbələ rayonu Azərbaycanın bütün digər rayonları ilə bərabər, inkişafa doğru getsin. Bu gözəl mərkəzin açılışı münasibətilə bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

Sağ olun!

## Qəbələ rayonu müəssisələrində istehsal olunan yeni məhsulların sərgisi

*Sentyabrın 20-də prezident İlham Əliyev Qəbələ rayonundakı müəssisələrin istehsal etdiyi yeni məhsulların sərgisinə baxmışdır.*

*Dövlətimizin başçısı əvvəlcə «Gilan Holdinq» şirkətlər qrupuna daxil olan Qəbələ lift zavodunun məhsulunun nümunələri ilə tanış oldu. Bildirildi ki, müxtəlif yükgötürmə və sərnişinqaldırma qabiliyyətli liftlər müasir dizayna malikdir. Zavodda hazırlanan liftlərə ölkəmizdə ehtiyac olduğundan onun perspektivli müəssisə olduğu diqqətə çatdırıldı.*

*Prezident İlham Əliyev şirə və şərab məhsullarına da baxdı. Qeyd edildi ki, Qəbələ rayonunda istehsal olunan bu məhsullara xarici bazarda da tələbat var.*

*Sərgidə ölkəmizdə ərzaq proqramı ilə əlaqədar kənd təsərrüfatı sahəsində görülən işlər ekranda nümayiş etdirildi.*

## Süd emalı zavodu istifadəyə verildi

*Sentyabrın 20-də Qəbələdə süd emalı zavodu istifadəyə verilmişdir.*

*Bu münasibətlə Azərbaycan prezidenti İlham Əliyev zavoda gəldi.*

*Dövlətimizin başçısı zavodu işə saldı və müəssisə ilə yaxından tanış oldu. Bildirildi ki, 2007-ci ilin martında tikintisinə başlanılmış müəssisəyə avadanlıqla birlikdə 3,5 milyon manat xərclənmişdir. Sutkada 10 ton süd emal etmək gücündə olan müəssisədə pendir, kəsmik, yağ, ayran və s. süd məhsulları istehsal edilir.*

*«Gilan Holdinq» şirkətlər qrupuna daxil olan zavodda Türkiyə və Almaniyadan gətirilmiş avadanlıqlar quraşdırılmış, 35 nəfər işlə təmin olunmuşdur. Alınmış 14 süddaşıyan maşından 3-ü bu müəssisəyə, qalanları isə digər rayonlarda fəaliyyət göstərən süd emalı müəssisələrinə veriləcəkdir.*

*Prezident İlham Əliyev sexləri gəzdi, məhsulların qablaşdırılması prosesini izlədi.*

*Dövlətimizin başçısı ölkəmizin kənd təsərrüfatı sektorunda nailiyyətlərin əldə olunduğunu bildirdi, yeni zavodun məhsullarının xarici bazara da çıxarılmasını tövsiyə etdi.*

## Olimpiya İdman Kompleksinin tikintisi ilə tanışlıq

*Sentyabrın 20-də prezident İlham Əliyev Qəbələ Olimpiya İdman Kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev kompleksin baş planı ilə tanış oldu. Obyektin əsas iqtisadi göstəriciləri barədə məlumat verilərək bildirildi ki, 4,3 hektar sahədə yerləşəcək kompleksdə böyük idman salonu, üzgüçülük hovuzu, futbol, basketbol, voleybol*

*meydançaları, tennis kortu, habelə mehmanxana, avtomobil dayanacağı inşa olunacaqdır. Ərazidə istirahət meydançasının, fəvvarələrin, qonaqlar və yarış iştirakçıları üçün kotteclərin inşası da nəzərdə tutulmuşdur. 2009-cu ilin sonunadək hazır olacaq kompleksdə respublika əhəmiyyətli və beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev Qəbələnin idman və turizm obyektlərinin perspektiv layihələri ilə tanış oldu. Bildirildi ki, rayonda turizmin inkişafı üçün nəzərdə tutulan bu layihələr icra olunduqdan sonra buraya gələn xarici turistlərin sayının artması gözlənilir.*

*Dövlətimizin başçısı turizmin iqtisadiyyatın mühüm sahələrindən biri olduğunu xatırladaraq layihələrin uğurla icrası, ümumən turizm sektorunun inkişafı ilə bağlı fikirlərini söylədi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Yengicə «İstisu» sağlamlıq və istirahət kompleksi ilə tanışlıq

*Sentyabrın 20-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qəbələ rayonunun Yengicə kəndində yerləşən «İstisu» sağlamlıq və istirahət kompleksində olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, tikintisinə 2006-cı ildə başlanılmış 50 yerlik kompleksdə 21 vanna, müayinə və istirahət otaqları, yeməkxana vardır.*

*Avadanlıqla birlikdə dəyəri 2 milyon 200 min manat olan kompleksin ərazisində 80 yerlik beşmərtəbəli yeni korpus da tikilmişdir. Kompleksdə 50 nəfər çalışır.*

*Buradakı müalicəvi sudan götürülmüş nümunələr 1964–68-ci, 1973–77-ci illərdə keçmiş Leninqrad, indiki Sankt-Peterburq şəhərində yoxlanılmış və suyun minerallarla zəngin olduğu təsdiqlənmişdir. Çay daşları ilə qızdırılan sudan revmatizmin, oynaq və dəri xəstəliklərinin, sümük ağrılarının, ostroxondrozun və sair xəstəliklərin müalicəsi üçün istifadə olunur. Suyun*

*tərkibində natrium, kalium, ammonium, maqnezium, kalsium, xlor, sulfid vardır.*

*Prezident İlham Əliyevə yeni tikilən 56 yerlik müalicəvi mərkəz barədə məlumat verildi. Dövlət başçısının ölkəmizdə turizmin inkişafı ilə bağlı fərmanından sonra tikintisinə başlanılmış mərkəzdə vanna otaqları, buxar hamamı, əlillər üçün müalicəvi su hovuzu, masaj otaqları, palçıq vannaları, laboratoriya, müayinə otaqları və sair olacaqdır.*

*Dövlətimizin başçısı mərkəzin layihəsi ilə tanış oldu, «İstisu»da görülən işləri yüksək qiymətləndirdi və bu kompleksin insanlara şəfa verəcəyini bildirdi.*

## «Qafqaz» turizm-istirahət kompleksi ilə tanışlıq

*Sentyabrın 20-də prezident İlham Əliyev «Qafqaz» turizm-istirahət kompleksi ilə tanış olmuşdur.*

*Tikintisi 2005-ci ildə başlanan 250 yerlik kompleksdə 2 beşmərtəbəli mehmanxana, 20 kottec, restoran, bar, konfrans salonu vardır. Tikintinin başa çatmış birinci mərhələsinə və avadanlıq alınmasına 24 milyon manat xərclənmişdir.*

*İkinci hissədə işlər davam edir. Burada açıq və qapalı hovuzlar, kotteclər, fitnes və digər əyləncə mərkəzlərinin tikintisi nəzərdə tutulur. Kompleksdə 180 nəfər daimi işlə təmin olunacaqdır.*

*Dövlətimizin başçısı ərazini gəzdi, mehmanxana və kotteclərlə yaxından tanış oldu, yaradılan şəraiti yüksək qiymətləndirdi. Turizm sahəsinin həm regionun inkişafı, həm də ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsi üçün mühüm vasitə olduğunu vurğuladı.*

* * *

*Bununla da prezident İlham Əliyevin Balakən, Zaqatala, Şəki, Qax, Oğuz,Qəbələ bölgələrinə səfəri başa çatdı.*

## «RUS İCMASI – 15 İLLİK YOL» KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanın Rus İcması İctimai Birliyinin yaradılmasının 15 illiyi münasibətilə ürəkdən salamlayır, hamınıza ən xoş arzularımı yetirirəm.

170 ildən artıqdır ki, müxtəlif tarixi-siyasi səbəblərdən öz taleyini Azərbaycanla bağlamalı olmuş yüz minlərlə rus əhalisi haqlı olaraq buranı özünün doğma vətəni hesab edir. Ötən onilliklər boyu rus icması Azərbaycanda tarixən mövcud olmuş dostluq və qardaşlıq mühitində, əmin-amanlıq şəraitində yaşamış, milli-dini adət-ənənələrini, etnik özünəməxsusluğunu, dil və mədəniyyətini qoruyub saxlamaqla cəmiyyətimizə tamamilə inteqrasiya olunmuşdur. Bu gün çoxmillətli Azərbaycan cəmiyyətini rus vətəndaşlarımız olmadan təsəvvür etmək qeyri-mümkündür.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hazırda Cənubi Qafqazda ən böyük rus icması Azərbaycanda yaşayır. Təsadüfi deyildir ki, 1988-89-cu illərdə Ermənistanda azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə və deportasiya zamanı mürtəce erməni şovinizmindən əziyyət çəkən minlərlə rus daimi yaşayış yeri kimi, məhz bizim ölkəyə üz tutmuşdur. Bu, Azərbaycanda millətlərarası münasibətlərin sivil normalarla tənzimlənməsinin, mövcud etnik-dini tolerantlığın bariz nümunəsidir.

Sovetlər birliyinin süqutundan sonra postsovet məkanında rusdilli əhaliyə və rus dilinə qarşı baş vermiş müəyyən mənfi hallara Azərbaycanda yol verilməmiş, bu dildə təhsilə heç bir məhdudiyyət qoyulmamışdır. Hazırda ölkəmizdə həmişəki kimi, rus dilində orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqlarında rus bölmələri, zəngin elmi-pedaqoji ənənələri olan

Bakı Slavyan Universiteti fəaliyyət göstərir, rus dilində çoxsaylı mətbuat orqanları və müxtəlif təyinatlı ədəbiyyat nəşr edilir. Bu ildən Moskva Dövlət Universitetinin Bakı filialının işə başlaması da ictimai-siyasi və elmi-mədəni həyatımızın diqqətəlayiq hadisələrindən biridir.

Bu gün müstəqil Azərbaycan Respublikasında dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarına insan hüquq və azadlıqlarından sərbəst istifadə üçün hərtərəfli ictimai-siyasi şərait təmin edilmişdir. Respublikamızın digər xalqları kimi, rus əhalisi də bu demokratik-hüquqi şəraitdən geniş yararlanmaqla, ölkədə gedən böyük yenidənqurma və quruculuq işlərində, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində yaxından iştirak edir.

Əziz həmvətənlər!

İldönümü mərasiminə toplaşdığınız Azərbaycanın Rus icması təşkilatı fəaliyyət göstərdiyi 15 il ərzində respublikamızda demokratik-hüquqi islahatların həyata keçirilməsində və azad vətəndaş cəmiyyəti quruculuğunda ictimai fəallığı ilə seçilmiş, Azərbaycan həqiqətlərinin, ölkəmiz haqqında obyektiv gerçəkliyin dünya ictimaiyyətinə çatdırılması sahəsində təqdirəlayiq işlər görmüşdür. Əminəm ki, təşkilatınız bundan sonra da cəmiyyətimizdə vətəndaş həmrəyliyinin, xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin daha da güclənməsinə, xalq diplomatiyasının inkişafına layiqli töhfələr verəcəkdir.

Bu nəcib və xeyirxah yolda hər birinizə uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2008-ci il*

# XIII PEKİN PARALİMPİYA OYUNLARINDA ÖLKƏMİZİ TƏMSİL EDƏN İDMANÇILAR VƏ ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 22-də Prezident sarayında XIII Pekin Paralimpiya oyunlarında ölkəmizi təmsil edən idmançıları və onların məşqçilərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar!

Əziz idmançılar!

Mən sizin hamınızı Pekin Paralimpiya oyunlarında qazanılmış böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Bu qələbə tarixi bir nailiyyətdir. Müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, bizim paralimpiyaçılarımız 10 medal qazanmışlar. Onlardan 2-si qızıl, 3-ü gümüş və 5-i bürünc medaldır. Bu çox böyük nailiyyətdir, çox böyük qələbədir. Bu onu göstərir ki, bizim idmançılarımız yüksək peşəkarlığa malikdirlər, onlarda ruh yüksəkliyi vardır. Baxmayaraq ki, Paralimpiya oyunlari çox çətin bir yarışdır, onlar yüksək nəticələr göstərməklə həm öz imkanlarını bütün dünyaya sübut etmişlər, həm də Azərbaycanın şöhrətini yüksəklərə qaldırmışlar.

Biz sizinlə Sumqayıtda yeni tikilmiş Paralimpiya İdman Kompleksində görüşmüşdük, sizi oyunlara yola salırdıq. Bütün Azərbaycan xalqı böyük ümidlərlə sizin yarışlarınızı gözləyirdi. Bu ümidlər həyatda öz əksini tapdı. Sizin hər bir qələbəniz Azərbaycan xalqı tərəfindən çox böyük sevinclə qarşılanırdı. Çünki hər bir qələbəniz Azərbaycanın idman imkanlarını,

idman potensialını bir daha göstərir və Azərbaycanın doğrudan da idman dövləti olduğunu bir daha sübut edir.

Bizim Olimpiya oyunlarında çıxışımız çox yaxşı olubdur və bir neçə medallar qazanılmışdır. Bu gün biz paralimpiyaçıları qeyd edirik, sizin uğurlarınıza sevinirik. Bildiyiniz kimi, bütövlükdə Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Yeni idmançılar öz bacarıqlarını göstərirlər. İdmanla məşğul olmaq üçün yeni imkanlar yaradılır. Bax, son günlər ərzində Azərbaycanın müxtəlif yerlərində iki yeni olimpiya idman kompleksi açılmışdır. Növbəti idman komplekslərinin açılışı gözlənilir. Bu gün bizim Paralimpiya İdman Kompleksimiz var və əminəm ki, siz o imkanlardan səmərəli istifadə edəcəksiniz. Artıq sizin öz idman bazanız var. Ümid edirəm ki, bu, gələcək qələbələrin qazanılması üçün sizə daha yaxşı imkan yaradacaqdır.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm. Bütün idmançıları, məşqçiləri, Milli Paralimpiya Komitəsinin rəhbərlərini, üzvlərini, qələbənin qazanılmasında iştirakı olan bütün insanları bu yüksək nəticə münasibətilə təbrik edirəm. Bu sizin qələbənizdir, bütün Azərbaycan xalqının qələbəsidir. Azərbaycanda idmanın inkişafının göstəricisi və təntənəsidir.

Mən əminəm ki, bu uğur sizi yeni qələbələrə sövq edəcək, sizə əlavə stimul, qüvvə verəcəkdir. Əminəm ki, bütün paralimpiyaçılar, onların məşqçiləri və Milli Paralimpiya Komitəsinin üzvləri səylə çalışacaq, idmançılarımız gələcək yarışlarda da çox yüksək peşəkarlıqla çıxış edəcək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlayacaqlar.

İndi isə mən istərdim ki, sizə dövlətin mükafatlarını təqdim edim. Bildiyiniz kimi, Paralimpiya oyunları ərəfəsində mən idmançıların mükafatlandırılması ilə əlaqədar sərəncam imzalamışam. İndi isə çox böyük məmnunluq hissi ilə bu mükafatları sizə təqdim edəcəyəm.

* * *

*Prezident İlham Əliyev XIII Pekin Paralimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə idmançılara və onların məşqçilərinə pul mükafatları təqdim etdi.*

**İ l h a m  Z ə k i y e v** (*Paralimpiya oyunlarının qalibi, cüdo üzrə ikiqat Olimpiya çempionu*): Cənab Prezident, çox sağ olun. Mən paralimpiyaçılar adından və milli komandanın kapitanı kimi, idmançılarımızın adından Sizə təşəkkürümü bildirirəm. Bizi yola salanda Sizə söz verdik ki, qələbələrlə qayıdacağıq. Bu gün biz üzüağ Sizin qarşınızdayıq. Söz verdiyimiz kimi, bu qələbəmizi Sizə həsr etmişik. Çalışacağıq ki, inşallah, London Paralimpiya oyunlarindan da Vətənə yüksək nailiyyətlərlə dönək. Biz bu qələbələrə görə xüsusilə Sizə minnətdarıq. Milli Paralimpiya Komitəsinin və «Neftçi» İdman Sağlamlıq Mərkəzinin rəhbərliyinə minnətdarlığımızı bildiririk. Cənab Prezident, bir daha çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də səni ürəkdən təbrik edirəm. Sən ikiqat olimpiya çempionusan. Bu, böyük bir nailiyyətdir, böyük qələbədir. Səni və komandanın bütün üzvlərini böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Əminəm ki, siz növbəti yarışlarda da yaxşı çıxış edəcəksiniz. Əlbəttə ki, London Paralimpiya oyunlarinda bizim gözəl idman ənənələrimiz daha da möhkəmlənəcəkdir. Təbrik edirəm, sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev paralimpiyaçılarla və onların məşqçiləri ilə xatirə şəkli çəkdirdi.*

## HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ İNŞA OLUNAN YOL QOVŞAĞININ BİRİNCİ HİSSƏSİNİN AÇILIŞI

*23 sentyabr 2008-ci il*

*Sentyabrın 23-də Bakıda Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində inşa olunan yeni yol qovşağının birinci hissəsi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev körpünün açılış mərasimində iştirak etmişdir.*

*Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsinə dair tədbirlər planına uyğun olaraq, paytaxtda ən böyük yol qovşaqlarından biri Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində tikilir. Mürəkkəb və eyni zamanda, müasir konstruksiyalı bu yol qovşağının birinci hissəsi artıq hazırdır. Regionda analoqu olmayan yol ötürücüsünün bu hissəsinin ümumi uzunluğu 1286 metrdir. Layihəyə görə bu hissədə körpünün 936 metrinin eni 23,4 metrdir, burada hərəkət dördcərgəli olacaqdır. Qalan 350 metrinin eni isə 11,4 metrdir, burada hərəkət zolağı ikicərgəlidir. İstinad divarlarının uzunluğu 710 metrdir. Tikinti işlərinə 2006-cı ilin martında başlanılan yol qovşağını «Azərkörpü» Səhmdar Cəmiyyəti inşa edir. Burada 65 metr uzunluğunda körpü aşırımları var. Körpünün ətrafı abadlaşdırılmış, müasir işıqlandırma sistemi qurulmuşdur. Bu körpü həm xarici görünüşü, həm də müasir tipli olması ilə şəhərə xüsusi gözəllik verəcəkdir.*

*Prezident İlham Əliyev tikinti işlərinin gedişini əks etdirən fotoşəkillərə baxdı, yol qovşağının layihəsi ilə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, yol qovşağı Bakının mərkəzi ilə ətraf yaşayış məntəqələrini və hava limanını*

*birləşdirəcəkdir. Regionda ilk dəfə olaraq tikintidə körpü aşırımlarını birləşdirmək üçün deformasiya tikişi – daraqlı toxumalar quraşdırılıb ki, bu da nəqliyyatın rahat və təhlükəsiz hərəkətinə təminat verir. Tikinti zamanı ən müasir texnologiyalardan istifadə olunmuş, əsasən yerli inşaat materialları işlədilmişdir. Yol qovşağını digərlərindən fərqləndirən əsas cəhət asma körpünün inşa olunmasıdır. Asma körpü hava limanından gələn nəqliyyat vasitələrini maneəsiz olaraq Qara Qarayev prospektinə çıxaracaqdır.*

*Prezident İlham Əliyev yol qovşağının birinci hissəsinin açılışını bildirən lenti kəsdi, körpünün tikintisində iştirak edən inşaatçılara müraciətlə dedi:*

– Yeni, gözəl körpünün açılışı münasibətilə sizi təbrik edirəm. Bu, böyük bir nəqliyyat qovşağının birinci hissəsidir. Amma özlüyündə çox mürəkkəb bir inşaat konstruksiyalarından ibarətdir. Sxemdə onun bütün gələcək parametrləri göstərilir. Demək olar, nəinki Bakının, yəqin ki, bütün bu bölgənin ən böyük, ən gözəl nəqliyyat qovşağı olacaqdır. İlk növbədə, yaranan tıxacları aradan qaldıracaqdır. Digər tərəfdən, bu bir memarlıq əsəridir və dünyanın ən inkişaf etmiş şəhərlərində olan nəqliyyat qovşaqlarından bir faiz də geri qalmır. Bu onu göstərir ki, Azərbaycanın həm maliyyə imkanları, həm də texniki imkanları genişlənir. Çox sevindirici haldır ki, bu gözəl körpünü və gələcək qovşağın digər hissələrini yerli şirkət tikir. Bizim yerli mütəxəssislərimiz artıq böyük peşəkarlığa malikdirlər. Daha da çox iş görəndə yerli şirkətlərin imkanları artır, burada yerli fəhlələr işləyir və dövlət tərəfindən bu nəhəng infrastruktur layihələrinə ayrılan xərclər Azərbaycanda qalır.

Əvvəllər belə nəhəng layihələri biz özümüz icra edə bilmirdik. Xaricdən şirkətlər gətirilirdi, tenderlər elan olunurdu və bu tenderlərdə daha çox xarici şirkətlər iştirak edirdi. Bizim yerli şirkətlər, ən yaxşı halda, sadəcə olaraq, subpodratçı kimi iştirak edirdilər, yaxud da yerli fəhlələrdən istifadə olunurdu. Amma indi bütün bu işləri yerli şirkətlər görür – həm layihəsini, həm tikintisini, həm də daha çox yerli materiallardan istifadə

olunur. Əlbəttə, bu müasir, gözəl işıq dirəkləri xaricdən gətirilir, amma bu da müvəqqətidir. Mən bilirəm ki, artıq Azərbaycanda gözəl dirəklərin istehsalı başlanılmışdır. Keçən dəfə biz Heydər Əliyev prospektində onları gördük. Beləliklə, Azərbaycanda bütün infrastruktur layihələri yerli materiallar əsasında, yerli işçi qüvvəsi və yerli şirkətlər tərəfindən icra olunur və olunacaqdır. Bu da onu göstərir ki, Azərbaycan dövləti hər şeyə qadirdir. Biz bütün böyük layihələrin icra olunmasına hazırıq. Bu, son illər ərzində Azərbaycanda tikilən yol infrastrukturunun, sadəcə olaraq, bir hissəsidir. Bütün magistral yollarda iş gedir. Bakı–Gürcüstan, Bakı–Rusiya, Bakı–İran, Bakı–Şamaxı–Balakən–Gürcüstan sərhədi – bütün bu istiqamətlərdə iş gedir. Mən bölgələrdə tez-tez oluram və o yollarla gedib-gəlirəm. Görürəm ki, nəhəng tikinti-quruculuq işləri aparılır. Bütün bunlar Azərbaycanın infrastruktur imkanlarını daha da genişləndirəcək, biznesin inkişafına təkan verəcək və insanların rahatlığına imkanlar yaradacaqdır.

Nəqliyyatla bağlı bütün tədbirlər kompleks şəklində görülür. Yeni yollar, körpülər açılır, yeni, ən gözəl keyfiyyətli avtobuslar alınır ki, bizim vətəndaşlarımız yüksək xidmətə layiq olsunlar, ondan istifadə etsinlər. Mən bu körpünün tikintisində iştirak etmiş bütün insanlara öz təşəkkürümü bildirirəm. Çox böyük peşəkarlıqla, keyfiyyətlə tikilibdir və sizə gələcək işlərdə yeni uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Prezident İlham Əliyev körpünü gəzdi, qovşağın inşa olunacaq digər qolları ilə maraqlandı. Körpünün Əli Vəliyev küçəsi və Qara Qarayev prospektinin kəsişməsindəki hissəsinə baxdı. Bu ərazi də xüsusi zövqlə abadlaşdırılıb – ətraf yaşıllaşdırılıb, dekorativ kollar və güllər əkilibdir.*

*Dövlətimizin başçısı görülən işlərdən razı qaldı. Şəhərin ən gediş-gəlişli yerlərindən birində inşa olunan bu yol qovşağının*

*tam istifadəyə verilməsi paytaxtda nəqliyyatın hərəkətinin tənzimlənməsində əhəmiyyətli rol oynayacaqdır.*

*Prezident İlham Əliyev daha sonra Heydər Əliyev prospektində Əzizbəyov dairəsindən Ramstore dairəsinədək ərazidə aparılan yenidənqurma işləri ilə tanış oldu. 5 kilometrlik məsafədə 10 zolaqlı yolun eni 45–50 metrdir. Dövlət başçısına məlumat verildi ki, Heydər Əliyev prospektində körpünün altından keçən hissədə sürücülərin görmə məsafəsini artırmaq üçün yolun hündürlüyü azaldılıb, beləliklə, hərəkətin təhlükəsizliyi təmin olunubdur.*

*Prezident İlham Əliyev Yusif Səfərov küçəsində aparılan yenidənqurma və abadlıq işləri, «Excelsior» mehmanxanası yaxınlığında tikilən müxtəlif səviyyəli yol qovşağının layihəsi ilə də tanış oldu. Bu yol qovşağının tıxacların yaranmasının qarşısının alınmasında böyük rolu olacaqdır. Yusif Səfərov küçəsində 1500 metr uzunluğunda 6 zolaqlı yolun eni 20 metr, ayırıcı zolağı 3 metr olacaqdır. Yol boyunca abadlıq işləri aparılacaq, səkilər təzələnəcək, işıqlandırma sistemi müasirləşdiriləcəkdir. Bu ərazidə işlərin təxminən bir ay ərzində başa çatdırılması nəzərdə tutulur.*

## DÜNYA GƏNCLƏRİNİN IV MƏŞĞULLUQ SAMMİTİNİN İŞTİRAKÇILARINA

Hörmətli sammit iştirakçıları!

Sizi – Dünya Gənclərinin IV Məşğulluq Sammitinin iştirakçılarını Azərbaycanın paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayır, sammitinizin işinə uğurlar, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Cəmiyyətin ən fəal təbəqəsi sayılan gənclərin məşğulluğu qloballaşma dövründə dünyanın bütün ölkələrində olduqca aktual problem kimi, müvafiq qurumların diqqət mərkəzindədir. Yüksək potensiala malik belə böyük qüvvənin işlə təminatının təhlili informasiya cəmiyyətinin tələblərinə uyğun şəkildə aparılmalı və onun yeni texnologiyalara, innovasiyalara yiyələnməsi üçün lazımi şərait yaradılmalı, biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında rolu artırılmalıdır.

Dünyanın müxtəlif guşələrindən gəlmiş nümayəndələrin sammitinizdə iştirakı gənclərin məşğulluğu probleminə beynəlxalq miqyasda göstərilən marağın ifadəsidir. Ümidvaram ki, bu mötəbər tədbirdə təmsil olunan müxtəlif ölkələrin zəngin təcrübəsindən faydalanmaqla, siz məşğulluq məsələlərinin həlli istiqamətində yeni konseptual yanaşmalar axtarıb tapacaq və onların tətbiqi mexanizminə dair təkliflər hazırlayacaqsınız. Gənclərin məşğulluğunun təmin edilməsi cəmiyyətin bu günü və gələcəyi ilə bilavasitə bağlı olduğuna görə, Azərbaycan dövləti bu işə son dərəcə həssaslıqla və qayğı ilə yanaşır. Biz əhalinin rifah halının daha da yaxşılaşdırılmasını dövlətin apardığı siyasətin prioriteti olaraq müəyyən etmişik. İnkişaf yolunda inamlı addımlar atan respublikamızda sosial-iqtisadi tərəqqinin böyük vüsət alması, iqtisadi potensialın gücləndirilməsi və yeni iş yerlərinin yaradılması gənclərimizin qarşısında geniş imkanlar açır, onları təhsil, bacarıq və

işgüzarlıqlarının artırılması istiqamətində yeni addımlar atmağa sövq edir.

İnanıram ki, sivilizasiyaların qovuşuğunda – ölkəmizdə keçirilən bu toplantı dövlətlərimiz arasındakı qarşılıqlı əməkdaşlığı möhkəmləndirməklə yanaşı, problemlərin qlobal xarakter daşıdığı indiki dövrdə irimiqyaslı müxtəlif layihələrin həyata keçirilməsinə də töhfəsini əsirgəməyəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 sentyabr 2008-ci il*

## QEYDLƏR

**1. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 mln. nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 5–14.27,101, 148,152–157,198.

**2. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri olmuşdur. 2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçildi. – 5–14,148.

**3. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 5.

**4. Bakı–Tbilisi–Ceyhan** –1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və

ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 10,12,27,97,153,156.

**5. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). – 10, 12,27,97,153,156.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 10,27,29,32,36,92,93,105,112,191,201–213,245,262.

**7. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 10,11,13,14,27,28,29,30,112,156,202,262.

8. **Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşa-

yan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 11,12,30,76,106,111,112,154,155,157,168,174,175,198,205, 207,222,235,260,262.

**9. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 12,97,156,253.

**10. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 13,151.

**11. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 13,175,201–213.

**12. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 15.

**13. Özbəkistan,** Ö z b ə k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 31,5 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 16,158–187.

**14. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 16,158–187.

**15. Liviya,** L i v i y a  Ə r ə b  X a l q  S o s i a l i s t  C ə -m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 17.

**16. Müəmmər əl-Qəddafi** (1942–2011) – Liviyanın dövlət və siyasi xadimi, 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 17.

**17. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17

muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Mərakeş sahilindəki Seuta və Melilya şəhər rayonları İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 18,19.

**18. I Xuan Karlos** (d.1938) – 1975–2014-cü illərdə İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 18.

**19. Xose Luis Rodriges Sapatero** (d.1960) – İspaniya siyasətçisi. 2004–2011-ci illərdə İspaniyanın Baş naziri olmuşdur. – 19.

**20. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmir, paytaxtı Doha şəhəridir. – 20.

**21. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur, O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 20,101.

**22. San-Marino,** S a n - M a r i n o  R e s p u b l i k a s ı – Cənubi Avropada, Apennin yarımadasında dövlət. Sahəsi 61 km$^2$, əhalisi 32 min nəfərdir. Ölkə inzibati cəhətdən 12 mahala bölünür. Dövlət başçısı funksiyasını bərabərhüquqlu 2 kapitan - regent icra edir. Ali qanunverici orqan 5 il müddətinə seçilən Böyük Baş Şuradır. Paytaxtı San-Marinodur. – 21.

**23. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi

238,4 min $km^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 22–30,58.

**24. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. – 22–30.

**25. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, (Danimarka və Böyük Britaniya istisna olmaqla) vahid pul-kredit siyasəti aparılır. – 24,29.

**26. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vasiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Süpsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 27.

**27. Bakı–Novorossiysk neft kəməri** – 1994-cu ilin sentyabrında Azərbaycan Respublikası Hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdi. – 27.

**28. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 29,191,202–203,204–208.

**29. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas, 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti, 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Ukraynanın Odessa vilayətinin qubernatorudur. –29.

**30. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min $km^2$, əhalisi 66,2 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 29,198,252.

**31. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. 2007–2015-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 29.

**32. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. – 29.

**33. Moldova,** Moldova Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 30.

**34. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu-mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmiryol İdarəsinin rəisi, 2005-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 33,54, 163,306.

**35. Xızı rayonu** – Azərbaycan Respublikasında inzibati ərazi. 1990-cı ildə təşkil edilmişdir. Sahəsi 1850 km$^2$, əhalisi 14,3 min nəfərdir. – 35–48.

**36. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 36,42,43,60,68,71,90, 96,124, 131,132,146, 162,172,176,177,179,182,183,192, 193, 198,232,244,255.

**37. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds Konfransında təsis olunmuşdur. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 39,195,256,278.

**38. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 40,73,122,123,131,134,179,181,198,232,272.

**39. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban

Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 40,59,60,68,71,73,131, 192,198,225,231,232,245,247,248,251,270,272,283,291,298.

**40. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1046 km$^2$, əhalisi 162,1 min nəfərdir. – 43,89.

**41. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. C.Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 44.

**42. Xızır–** türk, islam və Yaxın Şərq inanclarında adı çəkilən peyğəmbər. Çətin anlarda insanların köməyinə gələn, fövqəladə xüsusiyyətləri olan peyğəmbərdir. Qurani - Kərimdə birbaşa adı çəkilmir. Şumer mənşəli bir insan olduğu iddia edilir. Onun havada və su üstündə gəzdiyini güman edənlər də var. Bəzən ona Xızır ata da deyirlər. – 44.

**43. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ- l u (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 45,91,163.

**44. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbə-

kistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 45,60,62,64,102,210.

**45. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 47,76,154,262.

**46. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 49,93,101,119,190.

**47. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 49,119, 190.

**48. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6,0 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 50.

**49**. **Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının Prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 50.

**50. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 51,110–113,150,188,233,245,252.

**51. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 km$^2$, əhalisi 98,3 min nəfərdir.

Şamaxı Azərbaycanın qədim şəhərlərindəndir. Şamaxı haqqında antik dövr, ərəb, fars, türk, həmçinin rus və orta əsr Avropa müəllifləri məlumat vermişlər. Şamaxının adı ilk dəfə yunan coğrafiyaşünası Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə»

əsərində «Şamaxeya» və ya «Kemaxeya» kimi çəkilir. Şamaxının salındığı tarix dəqiq məlum deyil. – 54.

**52. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 54,215,216,225,245.

**53. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiada e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən Ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 56,78–83,127.

**54. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. –59–70.

**55. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 16,8 min km$^2$, əhalisi 21, 7 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə. ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 61,64, 65,67,78–83,126,303–305.

**56. Afina** – Yunanıstanın paytaxtı, sahəsi 412 km$^2$, əhalisi 3,1 milyon nəfərdir. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1833-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 63,65,126.

**57. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 64,126.

**58. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-nin 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radioaktiv çirklənməyə məruz qaldı və nəticədə AES-in 30 km-lik radiusda yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 74.

**59. Vasili Əliyev,** V a s i l i Ə h m ə d o ğ l u (1959–1993) – Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi. – 74.

**60. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 84.

**61. Makedoniya,** M a k e d o n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. – 85.

**62. Branko Çrvenkovski** (d.1962) – 2004–2009-cu illərdə Makedoniya Respublikasının Prezidenti olmuşdur. – 85.

**63. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 86.

**64. Kim Çen İr** (1941 və ya 1942–2012) – 1994–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş

komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur, «Dahi rəhbər» Kim İr Senin oğlu. – 86.

**65. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli konqresdir. Paytaxtı Braziliyadır. – 87.

**66. Luis İnasiu Lula Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 87.

**67. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 88.

**68. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. – 88.

**69. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min km$^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 89,90,253.

**70. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539 $km^2$, əhalisi 221 min nəfərdir. – 89,96,134.

**71. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 161,4 min nəfərdir. – 89.

**72. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 298 $km^2$, əhalisi 330 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 89,253.

**73. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 699 $km^2$, əhalisi 93,7 min nəfərdir. – 89,312–315.

**74. Abşeron rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1963-cü ildə təşkil edilmişdir. Sahəsi 1,36 min $km^2$, əhalisi 203 min nəfərdir. – 89,274.

**75. Azərbaycan Respbublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOKAR – State Oil Compani of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (o cümlədən quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 96,240,241,243,246.

**76. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 125 min nəfərdir. – 96,246–265,296.

**77. Naxçıvan Muxtar Respublikası** – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. 1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası adlanır.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 90.

**78. Oqtay Şirəliyev,** Oqtay Kazım oğlu (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 91.

**79. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 92.

**80. İsmət Abasov,** İsmət Dursun oğlu (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. 2013-cü ildən Baş nazirin müavinidir. – 92.

**81. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,373 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekindir. –93,101,214.

**82. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 96,251.

**83. «Boinq»** – Amerika korporasiyası. Dünyanın ən böyük aviasiya, kosmos və hərbi texnika istehsalçılarından biri. Bu korporasiyanın tərkibinə bir sıra nəhəng korporasiyalar daxildir.

Korporasiyanın əsası 1916-cı ildə mühəndis Corc Konrod Vestervelt tərəfindən qoyulmuşdur. Mənzil-qərargahı Çikaqodadır (İllinoys ştatı, ABŞ).

Kompaniya genişhəcmli mülki və hərbi aviasiya texnikasının, həmçinin ən böyük aerobusların istehsalçısıdır. Bundan əlavə, «Boinq» hərb üçün geniş masştablı aviasiya-kosmos texnikası istehsal edir. Genişhəcmli kosmos proqramlarını həyata keçirir. Dünyanın 67 ölkəsində «Boinq» zavodu var. Dünyanın 100 ölkəsinin 5200 tədarükçüsü ilə əməkdaşlıq edir. – 96,252.

**84. «Airbus» (S.A.S.)** – dünyada ən böyük aviasiya kampaniyası. 60-cı illərdə Avropanın bir neçə avia istehsalçılarının birləşməsi nəticəsində yaradılmışdır. «Airbus» markası ilə sərnişin və yükdaşıma, hərbi-nəqliyyat təyyarələri istehsal edir. Mənzil-qərargahı Blanyak (Fransa) şəhərindədir. 2001-ci ildə Fransa qanunvericiliyinə uyğun olaraq S.A.S. Səhmdar Cəmiyyəti ilə birləşdirildi. «Airbus» əsasən Avropanın dörd (Fransa, Almaniya, Böyük Britaniya, İspaniya) ölkəsində cəmlənmiş və 50 min nəfər işçisi var. Avadanlığın axırıncı montajı kampaniyanın Tuluza (Fransa) və Hamburq (Almaniya) şəhərlərində həyata keçirilir. – 96,252.

**85. AzərTAc ,** A z ə r b a y c a n D ö v l ə t T e l e q r a f A g e n t l i y i – Azərbaycanda dövlət informasiya orqanı. 1919-cu ildə yaradılmışdır. 1921-ci ildən Azərbaycan Teleqraf Agentliyi (AzərTA), 1972-ci ildən Azərinform adlanırdı. 1992-ci ildən AzərTAc kimi fəaliyyət göstərir. AzərTac müasir Azərbaycan həqiqətlərini, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, iqtisadiyyatın inkişafını, sosial-mədəni sahədə qazanılmış uğurları, respublikanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini əks etdirən informasiya və

fotoinformasiyaları yayır, dünyada cərəyan edən ən mühüm hadisələr barədə operativ məlumat verir. – 101,104,105.

**86. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 101,217.

**87. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 104.

**88. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə etməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 108.

**89. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 108,157,220,278.

**90. Çeyni Riçard (Dik)** (d.1941) – Amerikanın siyasi xadimi. 1989–1992-ci illərdə ABŞ-ın Müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerikada Sahibkarlıq İnstitutunun direktorudur. «Halliburton» korporasiyasının prezidenti, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. 2001–2009-cu illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. – 110–113.

**91. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1973 min km$^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexikodur. –114.

**92. İnoxosa Felipe** (d.1962) – Meksika siyasi xadimi. 2006–2012-ci illərdə Meksikanın prezidenti olmuşdur. Prezident seçildikdən sonra narkotik mafiyaya qarşı qətiyyətlə mübarizə aparmışdır. –114.

**93. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. Paytaxtı ər-Riyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq

edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 115,116.

**94. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –115.

**95. Sultan bin Əbdüləziz Al Səud** (1931–2011) – Səudiyyə Ərəbistanı şahzadəsi, vəliəhd. 1962-ci ildən Səudiyyə Ərəbistanı Krallığının Hərbi və Aviasiya naziri, həmçinin 1982-ci ildən 2005-ci ilə qədər Baş nazirin 2-ci müavini, 2005-ci ildən birinci Baş vitse-nazir və krallığın Baş inspektoru olmuşdur. – 116.

**96. Malta,** M a l t a R e s p u b l i k a s ı –Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi 430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 117.

**97. Edvard Feneç Adami** (d.1934) – Malta siyasətçisi. 1987–1996, 1998–2004-cü illərdə Maltanın Baş naziri, 2004–2009-cu illərdə Maltanın prezidenti olmuşdur. – 117.

**98. Mali,** M a l i R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min km$^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür.

Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Bamakodur. – 118.

**99. Ture Amadu** (d.1948) – general. 1991–92 və 2012-ci illərdə Malinin prezidenti olmuşdur . – 118.

**100. Mehdi Səfəri** (d.1959) – 2001–2005-ci illərdə İranın Asiya –Sakit okean regionu və MDB üzrə İran Xarici İşlər nazirinin müavini olmuşdur. – 119.

**101. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 120.

**102. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. –121.

**103. Klaudio Qucerotti** (d.1955) – katolik kilsəsinin arxiyepiskopu, diplomat. 2001–2011-ci illərdə Vatikanın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 121.

**104. Tarçizio Bertone** (d.1934) – İtaliya kardinalı, Müqəddəs taxt-tacın Dövlət katibi (2006–2013), Roma katolik kilsəsinin kamerlenqi (2007–2014). 2013-cü ildə Roma Papası XVI Benediktin taxt-tacdan əl çəkməsi ilə əlaqədar Tarçizio Bertone 2013-cü ildə kardinal-kamerlenq olduğu üçün Vatikan

dövlətinin başçısı və Müqəddəs taxt-tacın qoruyucusu elan edildi. – 121.

**105. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma Papası olmuşdur. –121.

**106. Salyan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1792 km$^2$, əhalisi 125 min nəfərdir. – 122,131.

**107. Cəlilabad rayonu** (1967-ci ilədək Astraxanbazar rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 km$^2$, əhalisi 209,3 min nəfərdir. – 132–143.

**108. Zərifə xanım,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə He-

yətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 141,247,248.

**109. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 199 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 144.

**110. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 144.

**111. İqtisadi Əməkdaşlıq Təşkilatı** – qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 145.

**112. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i -k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. –146–147.

**113. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. –146.

**114. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 147.

**115. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 148,152–157.

**116. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 149.

**117. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 154, 220,262.

**118. Fazil Məmmədov,** Fazil Əsəd oğlu (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 164.

**119. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 164.

**120. Yaqub Eyyubov,** Y a q u b A b d u l l a o ğ l u (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir. –164.

**121. Əlişir Nəvai,** N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi və mütəfəkkiri, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi Yaxın Şərqdə şöhrət qazanmışdır. – 169,172,173,180—185,186.

**122. Mirzə Uluqbəy**, U l u q b ə y M ə h ə m m ə d T a- r a ğ a y (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 169,173,182.

**123. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə

məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 173,183,184.

**124**. **Maqsud Şeyxzadə,** M a q s u d   M ə s i m   o ğ l u (1908–1967) – Azərbaycan əsilli özbək yazıçısı, alim və pedaqoq. Özbəkistan Əməkdar incəsənət xadimi. Özbək xalqının monqol istilaçılarına qarşı mübarizəsinə həsr edilmiş «Cəlaləddin» pyesi, Uluqbəyə həsr edilmiş «Mirzə Uluqbəy» faciəsi, Azərbaycan mövzusunda əsərləri və Azərbaycan ədəbiyyatından tərcümələri ona Özbəkistanda şöhrət qazandırmışdır. – 173.

**125. Fərhad Xəlilov,** F ə r h a d   Q u r b a n   o ğ l u (d.1946) – Xalq rəssamı. 1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 186.

**126. Fikrət Sadıq,** F i k r ə t   A b b a s   o ğ l u (d.1930) – şair, publisist, ssenarist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Azərbaycan Dövlət mükafatı laureatı. – 187.

**127. Mənuçehr Muttəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 190.

**128. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 16 fakültəsi, 121 kafedrası, 80 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi var. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 55 ixtisas, magistr pilləsində 153 ixtisas üzrə 22500-ə yaxın, o cümlədən 12 ölkədən 400-dən artıq tələbə təhsil alır (2010/2011). Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 192–197,234.

**129. Misir Mərdanov,** M i s i r  C u m a y ı l  o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor.

Müxtəlif illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998–2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. Hal-hazırda AMEA-nın Riyaziyyat İnstitutunun direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 192,198.

**130. Abel Məhərrəmov,** A b e l  M ə m m ə d ə l i  o ğ l u (d.1950) – kimyaçı. Azərbaycan Milli Elmlər Akademiyasının

akademiki. 2010–2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 1999-cu ildən Bakı Dövlət Universitetinin rektorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 192.

**131. Beynəlxalq Maliyyə Korporasiyası** – özəl investisiya layihələrinə kömək üçün yaradılan beynəlxalq təşkilat. Əsası 1956-cı ildə qoyulmuşdur. – 195.

**132. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 201.

**133. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk

Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 201.

**134. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 201,224.

**135. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 207, 233,235.

**136. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 209–213.

**137. Mərkəzi Bank,** Milli Bank – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta

tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 210.

**138. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 214.

**139. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. – 218–222.

**140. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. –219.

**141. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 435 min km$^2$, əhalisi 36 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya və 102 qəzaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə

müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 221.

**142. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004–2010-cu illərdə Almaniyanın prezidenti olmuşdur. – 215.

**143. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal kansleridir. – 216.

**144. Li Mən Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. –217.

**145. Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R a s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 224.

**146. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzidir. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldənizlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qalır. –224.

**147. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 224.

**148. Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil iki pilləlidir – bakalavr və magistratura. – 225–232.

**149. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya

teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 226.

**150. Şövkət Məmmədova,** Şövkət Həsən qızı (1897–1981) – Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ Xalq artisti. İki dəfə Milanda (1911,1927–29) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. – 226.

**151. Üzeyir bəy Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 226,231,232.

**152. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. B.Smetana və Viana da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xa-

dimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 231–232.

**153. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 232.

**154. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 232.

**155. Rostropoviç** M s t i s l a v L e o p o l d o v i ç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 232.

**156. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m- m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 232.

**157. Mətyu Brayzə** (d.1964) – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–2012-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 233.

**158. Balakən** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Şimalda Dağıstanla, qərbdə və cənub-qərbdə Gürcüstan ilə həmsərhəddir. Sahəsi 920 $km^2$, əhalisi 90,3 min nəfərdir. – 236–245.

**159. Qax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Zaqatala rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Şimal-şərqdən Dağıstanla, cənub-qərbdən Gürcüstanla həmsərhəddir. Sahəsi 1494 $km^2$, əhalisi 54,8 min nəfərdir. – 236,266–273,274,300.

**160. Şəki** (1968-ci ilədək N u x a  r a y o n u) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 2430 min $km^2$, əhalisi 177,5 min nəfərdir. – 236,238,274–282,300.

**161. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şəki rayonunun ərazisi 1963–65-ci illərdə Oğuz rayonunun tərkibində olmuşdur. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1220 $km^2$, əhalisi 41,6 min nəfərdir. –236,283–290,300.

**162. Qəbələ** (1930–91-ci illərdə Q u t q a ş e n) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1548 $km^2$, əhalisi 95 min nəfərdir. – 236, 291–300.

**163. YUNİSEF,** BMT-nin U ş a q  F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı  ilə adlanır). BMT-nin müəssisəsi olaraq uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 274.

**164. Ü m u m d ü n y a  S ə h i y y ə  T ə ş k i l a t ı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 274.

**165. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbay-

can Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 278.

**166. Yaqub Mahmudov,** Yaqub Mikayıl oğlu (d.1939) – tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü. Müxtəlif illərdə Azərbaycan Sovet Ensiklopediyasında, Bakı Dövlət Universitetində, Ali Attestasiya Komissiyasında və s. məsul vəzifələrdə çalışmışdır. 2004-cü ildən Azərbaycan MEA Tarix İnstitutunun direktorudur. Tədqiqatları Azərbaycanın orta əsrlər tarixinə (Ağqoyunlu və Səfəvi dövlətlərinə), diplomatiya tarixinə və ümumdünya tarixinə aiddir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 281.

**167. Bakı Slavyan Universiteti** – 2000-ci ildə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun 7 fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, 3 min tələbə təhsil alır. – 302.

**168. Ağstafa** – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. 1959-cu ildə ləğv edilib, ərazisi Qazax rayonuna verilmiş, 1990-cı ildə yenidən bərpa olunmuşdur. Sahəsi 1503,7 km$^2$, əhalisi 84,6 min nəfərdir. – 312.

**169. Tovuz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək sahəsi

Qazax rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1942 $km^2$, əhalisi 160  min nəfərdir. – 312.

## Şəxsi adlar göstəricisi

Abasov İsmət – 92
Abbasov Əlisəfa – 42
Abdullayeva Şəkər – 269–270
Abdullayev Vaqif – 38, 40
Abutalıbov Hacıbala – 201, 224
Adami Edvard – 117
Al Səud Abdullah – 115
Al Səud Sultan – 116
Amati Federiko – 21
Bağırov Hüseynqulu – 45, 91, 163
Bakiyev Kurmanbek – 50
Balacanaşvili Masiko – 271
Babayev Əli – 266–267
XVI Benedikt – 121
Bentone Tarcizio – 121
Besesku Trayan – 22–30
Berdıməhəmmədov Qurbanqulu – 147
Bədəlbəyli Fərhad – 231–232
Brayzə Mətyu – 233
Bülbül – 232
Cabbarlı Cəfər – 44
Çeyni Riçard (Dik) – 110–113
Çrvenkovski Branko – 85
Danilova Lyubov – 137–138, 139, 140

Eyyubov Yaqub – 164
Əhmədov Aqil – 260
Əhmədinejad Mahmud – 49, 119, 190
Əl-Qəddafi Müəmmər – 17
Əl-Tani Həməd – 20, 101
Ələsgərov Murtuz – 234
Əliyev Heydər – 36, 42, 43, 60, 68, 71, 90, 96, 124, 131, 132, 146, 162, 172, 176, 177, 179, 182, 183, 192, 193, 198, 232, 244, 255
Əliyev Vaqif – 72
Əliyev Vasili – 74
Əliyeva Aygün – 74
Əliyeva Mehriban – 40, 59, 60, 68, 71, 73, 131, 192, 198, 225, 231, 232, 245, 247, 248, 251, 270, 272, 283, 291, 298
Əliyeva Zərifə xanım – 141, 247, 248
Ərdoğan Rəcəb Tayyib – 5–14, 148
Əsgərov Akif – 236
Əsgərov Cahangir – 96, 251
Əzimov Rüstəm – 164
Fasye Bernar – 235
Fikrət Sadıq – 187
Folias Xristos – 149
Frlets Boris – 151
Gəncəvi Nizami – 173, 183, 184
Gül Abdullah – 148, 152–157
Gülər Hilmi – 148
Hacıbəyli Üzeyir bəy – 226, 231, 232

Herkel Andres – 223
Hu Szintao – 214
Hüseyn Cavid – 224
Hüseynov Cəlil – 236
Hüseynov Rauf – 314
Xanov Nodirxon – 163
Xəlilov Fərhad – 186
Xızır – 44
I Xuan Karlos – 18
İnoxosa Felipe – 114
İsmayıl Ərşad – 221
Kərimov İslam – 16, 158–187
Kim Çen İr – 86
Köler Horst – 215
Qarayev Qara – 226
Qaşparoviç İvan – 15
Qəniyev Elyor – 163
Qoris Stefan – 52
Qrey Boyden – 150
Qucerotti Klaudio – 121
Qusman Mixail – 104
Li Men Bak – 217
Luqar Riçard – 251
Mahmudov Yaqub – 281
Medvedev Dmitri – 29, 191, 202–203, 204–208
Mehdiyev Ramiz – 201
Merkel Anqela – 216
Məhərrəmov Abel – 192
Məmmədov Fazil – 164

Məmmədov Ziya – 33, 54, 163, 306
Məmmədova Şövkət – 226
Mirəliyev Xəlifə – 238
Məmmədyarov Elmar – 164
Mərdanov Misir – 192, 198
Muttəki Mənuçehr – 190
Nəvai Əlişir – 169, 172, 173, 180–185, 186
Norov Vladimir – 164
Putin Vladimir – 209–213
Rasizadə Artur – 201
Rəhmon Emoməli – 88
Rostropoviç Mstislav – 232
Rüstəmova Sveta – 40
Saakaşvili Mixeil – 29
Salmanov Mirağa – 133–134, 135
Sapatero Rodriges – 19
Sarkozi Nikola – 29
Səfəri Mehdi – 119
Sili Katalin – 120
Silva Luis – 87
Şeyxzadə Maqsud – 173
Şərifov Abid – 5
Şirəliyev Oqtay – 81
Talem Cüzeppo – 232
Ture Amadu – 118
Uluqbəy Mirzə – 169, 173, 182
İnqureani Mixay – 58
Vislozil Volfanq – 104
Yusif Əhməd – 100

Zafferani Roza – 21
Zəkiyev İlham – 65
Zərdari Asif – 144

## Coğrafi adlar göstəricisi

Abxaziya – 30
Abşeron rayonu – 89, 274
Afina – 63, 65, 126
Afrika – 93
Ağstafa – 312
Ağdaş – 274
Almaniya – 54, 215, 216, 225, 245
Altıağac – 40, 41, 44, 45
Amerika Birləşmiş Ştatları – 51, 110–113, 150, 188, 233, 245, 252
Asiya – 98, 105, 253
Atlanta – 79
Avrasiya – 150, 233
Avropa – 104, 105, 127, 253
Bakı – 15, 16, 17, 18, 19, 20, 21, 24, 49, 50, 85, 86, 87, 88, 114, 115, 116, 117, 118, 144, 145, 169, 181, 191, 200, 202, 214, 215, 216, 217, 234, 238, 253, 276, 277
Balakən – 236–245
Bolqarıstan – 101
Barselona – 126
Braziliya – 87
Cəlilabad – 132–143

Cənubi Qafqaz – 12, 27, 204, 301
Cənubi Osetiya – 30
Çernobıl – 74
Çin – 93, 101, 214
Dağlıq Qarabağ – 11, 12, 30, 76, 106, 111, 112, 154, 155, 157, 168, 174, 175, 198, 205, 207, 222, 235, 260, 262
Daşkənd – 174
Dnestryanı – 30
Fransa – 29, 198, 252
Gəncə – 89, 253
Giləzi – 40
Hollandiya – 245, 281, 282
Gürcüstan – 10, 11, 13, 14, 27, 28, 29, 30, 112, 156, 202, 262
Xaçmaz – 43, 89
Xəzər dənizi – 165, 166, 171, 282
Xızı – 35–48
İndoneziya – 100
İnqiloy Kötüklü (*Qaxda kənd*) – 271
İran – 49, 93, 101, 119, 190
İraq – 221
İsmayıllı – 274
İspaniya – 18, 19
İtaliya – 225, 245
Kanada – 224, 245
Koreya Xalq Demokratik Respublikası – 86
Koreya Respublikası – 101, 217, 289

Kosovo – 30
Kür çayı – 92
Qafqaz – 13, 14, 45, 113, 156, 157, 165, 166, 171, 175, 177, 202, 221
Qax – 236, 266–273, 274, 300
Qara dəniz – 28
Qardili – 122
Qars – 156
Qazax – 89, 312–315
Qəbələ – 236, 291–300
Qətər – 20
Qırğızıstan – 50
Quba – 89
Leninqrad (indiki Sankt-Peterburq) – 299
Lənkəran – 89, 96, 134
Liviya – 17
London – 305
Macarıstan – 120
Makedoniya – 85
Malayziya – 101
Malta – 117
Mali – 118
Meksika – 114
Məlikçobanlı – 94
Mərkəzi Asiya – 113, 165, 166, 171, 177, 181, 185
Mərkəzi Avropa – 93
Moldova – 30

Moskva – 13, 175, 201–213
Naxçıvan MR – 90
Naxçıvan – 89, 90, 253
Oğuz – 236, 283–290, 300
Orta Asiya – 177
Özbəkistan – 16, 158–187
Pakistan – 144
Pekin – 61, 64, 65, 67, 78–83, 126, 303– 305
Perm – 191
Polşa – 289
Rumıniya – 22–30, 58
Rusiya – 10, 27, 29, 32, 36, 92, 93, 105, 112, 191, 201–213, 245, 262
Sakit okean – 98
Salyan – 122–131
San-Marino – 21
Səudiyyə Ərəbistanı – 115, 116
Sidney – 64, 126
Siyəzən – 44
Slovakiya – 15
Sumqayıt – 59–70
Suriya – 101
Şamaxı – 54, 84, 94
Şərqi Avropa – 93
Tacikistan – 88
Tbilisi – 13
Təbriz – 224
Tovuz – 312

Türkiyə – 5–14, 27, 101, 148, 152–157, 198
Türkmənistan – 146–147
Vatikan – 121
Yaponiya – 92
Yengicə – 298
Yunanıstan – 149
Zaqatala – 96, 236, 246–265, 296

# MÜNDƏRİCAT

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*20 avqust 2008-ci il* ..........................................................................5

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*20 avqust 2008-ci il* ..........................................................................6

DÖVLƏT RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*20 avqust 2008-ci il* ..........................................................................7

DÖVLƏT RƏHBƏRLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*20 avqust 2008-ci il* ..........................................................................9

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*21 avqust 2008-ci il* ........................................................................15

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA
..............................................................................................................

*21 avqust 2008-ci il* ........................................................................16

LİVİYA İNQİLABININ RƏHBƏRİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*21 avqust 2008-ci il ..........................................................................17*

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*21 avqust 2008-ci il ..........................................................................18*

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA

*21 avqust 2008-ci il ..........................................................................19*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*21 avqust 2008-ci il ..........................................................................20*

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ XANIM ROZA ZAFFERANİYƏ VƏ CƏNAB FEDERİKO PEDİNİ AMATİYƏ

*21 avqust 2008-ci il ..........................................................................21*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*21 avqust 2008-ci il ..........................................................................22*

AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ
GÖRÜŞÜ

*21 avqust 2008-ci il ..........................................................................23*

AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN
BƏYANATLARLA
ÇIXIŞLARI

*21 avqust 2008-ci il ..........................................................................25*

BAKI–QUBA–RUSİYA DÖVLƏT SƏRHƏDİ
AVTOMOBİL YOLUNUN YENİDƏNQURMA
İŞLƏRİNDƏN SONRA AÇILIŞI

*22 avqust 2008-ci il ..........................................................................31*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV XIZI RAYONUNDA

*22 avqust 2008-ci il ..........................................................................35*

QARABAG MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ VƏ ŞƏHİD
AİLƏLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ

*22 avqust 2008-ci il ..........................................................................46*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD
ƏHMƏDİNEJADA

*25 avqust 2008-ci il ..........................................................................49*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*25 avqust 2008-ci il ........................................................................50*

ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN
ÜZVÜ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 avqust 2008-ci il ........................................................................51*

QƏRBİ AVROPA İTTİFAQI PARLAMENT
ASSAMBLEYASININ FƏXRİ SƏDRİ STEFAN
QORİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*26 avqust 2008-ci il ........................................................................52*

PAYTAXTDA YENİ YOL QOVŞAQLARINDA TİKİNTİ
İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 avqust 2008-ci il ........................................................................53*

BAKI METROSUNUN YENİ TİKİLƏN
STANSİYALARI İLƏ TANIŞLIQ

*27 avqust 2008-ci il ........................................................................55*

RUMINİYA XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN
DİREKTORU MİXAY REZVAN
UNQUREANUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 avqust 2008-ci il ........................................................................58*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT ŞƏHƏRİNDƏ

*28 avqust 2008-ci il ..........................................................................59*

PARALİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI

*28 avqust 2008-ci il ..........................................................................60*

YENİDƏN QURULMUŞ MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA

*28 avqust 2008-ci il ..........................................................................68*

ŞƏHİD AİLƏLƏRİNƏ VƏ ƏLİLLƏRƏ MƏNZİLLƏRİN ORDERLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*28 avqust 2008-ci il ..........................................................................74*

XXIX PEKİN YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*29 avqust 2008-ci il ..........................................................................78*

ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENNMARKER İLƏ GÖRÜŞ

*1 sentyabr 2008-ci il .......................................................................84*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRANKO SRVENKOVSKİYƏ

*1 sentyabr 2008-ci il .......................................................................85*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

*1 sentyabr 2008-ci il .......................................................................86*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*1 sentyabr 2008-ci il .......................................................................87*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*1 sentyabr 2008-ci il .......................................................................88*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA «AZƏRBAYCAN–2008» MİLLİ SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*2 sentyabr 2008-ci il .......................................................................89*

OANA İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 30-cu İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*2 sentyabr 2008-ci il .......................................................................98*

ABŞ-ın VİTSE-PREZİDENTİ DİK ÇEYNİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2008-ci il ..........................................................................110*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*4 sentyabr 2008-ci il ..........................................................................114*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*4 sentyabr 2008-ci il ..........................................................................115*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*4 sentyabr 2008-ci il ..........................................................................116*

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDVARD FENEK ADAMİYƏ

*4 sentyabr 2008-ci il ..........................................................................117*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AMADU TUMANİ TUREYƏ

*4 sentyabr 2008-ci il ..........................................................................118*

İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2008-ci il*...........................................................................*119*

MACARISTAN MİLLİ ASSAMBLEYASININ
SƏDRİ XANIM KATALİN SİLİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2008-ci il*...........................................................................*120*

VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ
KLAUDİO QUCEROTTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2008-ci il*...........................................................................*121*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SALYAN VƏ CƏLİLABAD
RAYONLARINA SƏFƏRİ

*7 sentyabr 2008-ci il*...........................................................................*122*

OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI

*7 sentyabr 2008-ci il* .........................................................................*124*

RAYON XƏSTƏXANASININ ƏSASLI TƏMİRDƏN
SONRA AÇILIŞI

*7 sentyabr 2008-ci il*...........................................................................*131*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
CƏLİLABAD RAYONUNA GƏLMİŞDİR

*7 sentyabr 2008-ci il*...........................................................................*132*

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA

ORTA MƏKTƏBDƏ

*7 sentyabr 2008-ci il* ..........................................................................*141*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*8 sentyabr 2008-ci il* ..........................................................................*144*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
KƏND TƏSƏRRÜFATI ÜZRƏ YÜKSƏK VƏZİFƏLİ
RƏSMİLƏRİNİN 3-cü VƏ TƏŞKİLATA
ÜZV- ÖLKƏLƏRİN KƏND TƏSƏRRÜFATI NAZİRLƏ-
RİNİN 4-cü İCLASLARININ İŞTİRAKÇILARINA

*8 sentyabr 2008-ci il* ..........................................................................*145*

«AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTANIN NEFT VƏ
QAZ POTENSİALI: ENERGETİKA, İQTİSADİYYAT,
EKOLOGİYA. ƏMƏKDAŞLIĞIN STRATEGİYASI»
BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*8 sentyabr 2008-ci il* ..........................................................................*146*

TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ
EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*9 sentyabr 2008-ci il* ..........................................................................*148*

YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS
FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*9 sentyabr 2008-ci il*.......................................................................*149*

ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2008-ci il*.......................................................................*150*

ATƏT-in SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI BORİS FRLETSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2008-ci il*.......................................................................*151*

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

*10 sentyabr 2008-ci il*.....................................................................*152*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*10 sentyabr 2008-ci il*.....................................................................*153*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 sentyabr 2008-ci il*.....................................................................*158*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

*11 sentyabr 2008-ci il*.....................................................................*159*

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*11 sentyabr 2008-ci il ......................................................................160*

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*11 sentyabr 2008-ci il ......................................................................163*

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*11 sentyabr 2008-ci il ......................................................................165*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*11 sentyabr 2008-ci il ......................................................................170*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*12 sentyabr 2008-ci il ......................................................................179*

BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİNİN AÇILIŞI

*12 sentyabr 2008-ci il ......................................................................180*

DÖVLƏT BAŞÇILARININ TANINMIŞ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜ

*12 sentyabr 2008-ci il ......................................................................186*

HEYDƏR ƏLİYEV ADINA SARAYIN ƏSASLI TƏMİRİ VƏ BƏRPASINDA SON TAMAMLAMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*12 sentyabr 2008-ci il ........................................................................188*

İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2008-ci il ........................................................................190*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*14 sentyabr 2008-ci il ........................................................................191*

BAKI DÖVLƏT UNİVERSİTETİNİN YENİ TƏDRİS KORPUSUNUN AÇILIŞI

*15 sentyabr 2008-ci il ........................................................................192*

YASAMAL RAYONUNDAKI 60 NÖMRƏLİ ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI

*15 sentyabr 2008-ci il ........................................................................198*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

*15 sentyabr 2008-ci il ........................................................................201*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*16 sentyabr 2008-ci il* ......................................................................*202*

DÖVLƏT BAŞÇILARININ BƏYANATLARLA
ÇIXIŞLARI

*16 sentyabr 2008-ci il* ......................................................................*204*

RUSİYA HÖKUMƏTİNİN SƏDRİ VLADİMİR
PUTİNLƏ GÖRÜŞ

*16 sentyabr 2008-ci il* ......................................................................*209*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*17 sentyabr 2008-ci il*.......................................................................*214*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HORST KÖLERƏ

*17 sentyabr 2008-ci il*.......................................................................*215*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM
ANGELA MERKELƏ

*17 sentyabr 2008-ci il*.......................................................................*216*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*17 sentyabr 2008-ci il*.......................................................................*217*

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ
MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI SƏFİRLƏRİ
İLƏ GÖRÜŞ

*17 sentyabr 2008-ci il .......................................................................218*

AŞPA-nın AZƏRBAYCANDA PREZİDENT SEÇKİ-
LƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ
KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ
BAŞÇISI ANDRES HERKELİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2008-ci il .......................................................................223*

HÜSEYN CAVİD PARKINDA APARILAN ƏSASLI
BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2008-ci il .......................................................................224*

BAKI MUSİQİ AKADEMİYASI BİNASININ ƏSASLI
TƏMİRDƏN SONRA AÇILIŞI

*18 sentyabr 2008-ci il .......................................................................225*
ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ
ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN
AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ
GÖRÜŞ

*18 sentyabr 2008-ci il .......................................................................233*

PROFESSOR MURTUZ ƏLƏSGƏROVA

*19 sentyabr 2008-ci il.......................................................................234*

ATƏT-in MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ
BERNAR FASYE İLƏ GÖRÜŞ

*19 sentyabr 2008-ci il .......................................................................235*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BALAKƏN, ZAQATALA, QAX,
ŞƏKİ, OĞUZ, QƏBƏLƏ BÖLGƏLƏRİNƏ SƏFƏRİ

*19 sentyabr 2008-ci il ........................................................................236*

ZAQATALADA DAXİLİ QOŞUNLARIN
«N» SAYLI HƏRBİ HİSSƏSİNİN YENİ BİNASININ
TİKİNTİSİ İLƏ TANIŞLIQ

*19 sentyabr 2008-ci il ........................................................................246*

ZAQATALA HAVA LİMANININ AÇILIŞI

*19 sentyabr 2008-ci il ........................................................................251*

QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ VƏ ŞƏHİD
AİLƏLƏRİNƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ

*19 sentyabr 2008-ci il..........................................................................260*

QAX ŞƏHƏR PARKINDA ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

*19 sentyabr 2008-ci il..........................................................................266*

ŞƏKİ ŞƏHƏR MƏRKƏZİ XƏSTƏXANASININ YENİ
KORPUSUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*19 sentyabr 2008-ci il..........................................................................274*

OĞUZ OLİMPİYA İDMAN KOMPLEKSİNİN
AÇILIŞ MƏRASİMİ

*20 sentyabr 2008-ci il* ..................................................................*283*

QƏBƏLƏ RAYONUNDA ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*20 sentyabr 2008-ci il* ..................................................................*291*

«RUS İCMASI – 15 İLLİK YOL» KONFRANSININ
İŞTİRAKÇILARINA

*22 sentyabr 2008-ci il*..................................................................*301*

XIII PEKİN PARALİMPİYA OYUNLARINDA
ÖLKƏMİZİ TƏMSİL EDƏN İDMANÇILAR VƏ
ONLARIN MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2008-ci il* ..................................................................*303*

HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV
PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏ İNŞA OLUNAN
YOL QOVŞAĞININ BİRİNCİ HİSSƏSİNİN AÇILIŞI

*23 sentyabr 2008-ci il* ..................................................................*306*

DÜNYA GƏNCLƏRİNİN IV MƏŞĞULLUQ
SAMMİTİNİN İŞTİRAKÇILARINA

*24 sentyabr 2008-ci il*..................................................................*310*

QEYDLƏR ........................................................................................*312*

*Şəxsi adlar göstəricisi*..................................................................*351*

*Coğrafi adlar göstəricisi*..............................................................*355*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25, 5. Uçot vərəqi 26, 0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.